*Azərbaycan Respublikasının*
*Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*

*Azərbaycan*
*Respublikası Gənclər*
*Fondu*



Azərbaycan Xalqının Ümummilli Lideri

**HEYDƏR ƏLİYEVİN**

**anadan olmasının 100-cü ildönümünə həsr olunmuş**

# «HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA GƏNCLƏR SİYASƏTİNİN BANİSİDİR»

**mövzusunda**

**RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ**

**M A T E R İ A L L A R I**

**I cild**

**Bakı, 25 dekabr 2023**

**"Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir."**

**HEYDƏR ƏLİYEV**
**Ümummilli Lider**

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| **Sədr:** | |
| Urxan Ələkbərov | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik |
| **Sədr müavini:** | |
| Qədir Xəlilov | Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktor vəzifəsini müvəqqəti icra edən |
| **Üzvlər:** | |
| Ülvi Adgözəlov | Azərbaycan Respublikasının Gənclər Fondunun Proqram və layihələrin idarə olunması şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən |
| Ziyafət Həbibova | DİA, Tədris-metodiki və Analitika şöbəsinin müdiri, professor |
| Elvin Əzizbəyov | DİA, Elmi təşkilat və Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent |
| Murtəza Həsənov | DİA, Siyasi idarəetmə fakültəsinin dekanı, dosent |
| Elnur Əliyev | DİA, İnzibati idarəetmə fakültəsinin dekanı, dosent |
| Yusif Ağayev | DİA, Rektorun ictimai əlaqələr üzrə müşaviri, dosent |
| Zaur Məmmədov | DİA, Rektorun sosial məsələlər, təşkilati və təlim-tərbiyə işləri üzrə müşaviri |
| Kəramət Qənbərov | DİA, Elmi təşkilat və Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı |
| Aygün Qurbanova | DİA, Elmi təşkilat və Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı |
| Mirtalıb Qubadov | DİA, Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi kafedrasının doktorantı |
| Nihad Təhməzov | DİA, Tələbə Gənclər Təşkilatının sədri |



## KONFRANSIN PROQRAM KOMİTƏSİ

| | |
|---|---|
| **Sədr:** | |
| Əlikram Abdullayev | DİA, I (Tədris işləri üzrə) prorektor, professor |
| **Sədr müavini:** | |
| Hikmət Məmmədov | DİA, Dövlət qulluğu və kadr siyasəti kafedrasının müdiri, professor |
| **Məsul katib:** | |
| Elçin Əhmədov | DİA, Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının professoru |
| **Üzvlər:** | |
| Əli Nuriyev | DİA, Regional iqtisadi və sosial araşdırmalar institutunun direktoru, professor |
| Elman Nəsirov | DİA, Siyasi araşdırmalar institutunun direktoru, professor |
| Gülnarə Qurbanova | DİA,Rəhbər dövlət idarəçiliyi kadrlarının ixtisasının artırılması institutunun direktoru, professor |
| Namiq Əliyev | DİA, Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının müdiri, professor |
| Nigar Ələkbərova | DİA, Politologiya və siyasi idarəetmə kafedrasının müdiri, professor |
| İsaxan Vəliyev | DİA, Hüquq kafedrasının müdiri, professor |
| Xatirə Hüseynova | DİA, Dövlət idarəetməsi və menecment kafedrasının müdiri, professor |
| Azər Əmiraslanov | DİA, İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının müdiri, dosent |
| Firdovsiyyə Əhmədova | DİA, Tarix kafedrasının müdiri, dosent |
| Elçin Abasov | DİA, Dövlət İdarəçiliyində İnformasiya Texnologiyaları kafedrasının müdiri, dosent |
| Ülkər Şəfiyeva | DİA, Dillər kafedrasının müdiri, dosent |
| Sevil Məmmədova | DİA, Politologiya və siyasi idarəetmə kafedrasının dosenti |
| Gülnar Mirzəyeva | DİA, İntellektual sistemlərin idarə olunması kafedrasının dosenti |

## PLENAR İCLAS
**25 dekabr 2023-cü il, saat 10:00**
**(DİA, Böyük akt zalı)**

| **Giriş sözü:** | |
|---|---|
| Urxan Ələkbərov | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik |
| Fərhad Hacıyev | Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini |
| Sadiq Qurbanov | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri |
| Qədir Xəlilov | Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktor vəzifəsini müvəqqəti icra edən |

| **Çıxışlar:** | |
|---|---|
| Elman Nəsirov | DİA, Siyasi araşdırmalar institutunun direktoru, professor, Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| Aydın Mirzəzadə | DİA, Dövlət qulluğu və kadr siyasəti kafedrasının dosenti, Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| İsaxan Vəliyev | DİA, Hüquq kafedrasının müdiri, professor |



## MÜNDƏRİCAT

***Abdullayev Namiq***
Gəncə–Qazax bölgəsində bəzi dərman bitkilərinin botaniki-coğrafi xarakteristikası........16
***Abdullayeva Sevda,Axundov Azər***
Tarixşünaslıqda Qarabağ Xanlığının tarixinə dair........20
***Abdullazadə Lalə***
İncə sənətin Nazim Hikmət zirvəsi ........28
***Abdulrəhmanova Nigar***
Şəmkirçay hövzəsinin bazidiomiset göbələkləri........37
***Adıgözəlov Səxavət***
Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərə böyük qayıdışa dair I dövlət proqramında təhsil infrastrukturunun bərpası və inkişafı haqqında........41
***Ağayeva Nilufər***
Dahi lider Heydər Əliyevin Azərbaycan gəncliyinə qayğısı........44
***Aslanzadə Səidə,Gülnar Mirzəyeva***
Məlumata əsaslanan marketinq: böyük məlumatların marketinq strategiyasına təsiri mənzərəsi........46
***Babayev Fərhad***
Rəqabət qabiliyyətinin bəzi nəzəri aspektləri........49
***Babayeva Məlahət***
Ümummilli lider Heydər Əliyevin gənclər siyasətindəki uğurları....52
***Bağırov Seymur***
Gəncə-daşkəsən ərazisində turist cəlbediciliyinin yaxşılaşdırılması yollarının artırılması........56
***Balaxanova Qumru***
Antropogen təsirlərə məruz qalan torpaqların mikobiotasının formalaşmasında iştirak edən göbələklərin ekolo-trofik ixtisaslaşmasına görə xarakteristikası........59

***Bədəlov Həbib***
"Fakültə" İnternet servis provayderin paylayıcı şəbəkəsinin layihəsinin hazırlanması......................................................................................61
***Cavadov İlkin***
Qarabağda sənayenin inkişaf perspektivləri.....................................62
***Cəfərov Cavid***
Kiçik sahibkarlıq subyektlərinin hüquqi məlumat mübadiləsi..........64
***Cəfərova Əzizə***
Rəqəmsal iqtisadiyyatın formalaşmasında müasir tendensiya kimi rəqəmsal marketinq..............................................................................67
***Eyvazlı Nərmin***
Sahibkarlıq fəaliyyətinin yoxlanılması və sahibkara dəyən ziyanın ödənilməsi..............................................................................................69
***Əfəndiyeva Elvira***
Heydər Əliyev və dövlət gənclər siyasəti..........................................71
***Əhmədov Elşən***
Heydər Əliyev Azərbaycanın su diplomatiyasının müəllifidir..........74
***Əhmədova Qumru***
Daxili bizneslərdə vergi inzibatçılığının formalaşdırılması...............81
***Əhmədova Sevda,İsmayılzadə Natiqə,Qasımova Afaq***
Ekoloji əkinçilikdə xəstəlik və zərərvericilərə qarşı mübarizədə fitonsid tərkibli bitkilərdən istifadənin əhəmiyyəti............................84
***Əhmədova Türkan***
Ümummilli lider Heydər Əliyev və Azərbaycanda gənclər siyasəti..................................................................................................87
***Əliyev Araz,Əliyeva Hicran***
Gənclərin timsalında xalqın gələcəyini təmin edən dahi lider məktəbi.....................................................................................................90
***Əliyev İlkin***
Resursların effektiv idarə edilməsi üzrə strategiyalar........................93



***Əliyev İsmayıl***
Azərbaycan iqtisadiyyatının inkişafında sənaye parklarının yeri (Pirallahı rayon timsalında)...............................................................95
***Əliyeva Aişə***
Ekoloji mədəniyyət müasir dövrün ən vacib problemlərindən biri kimi.........................................................................................................99
***Əliyeva Dürdanə***
Heydər Əliyev və müasir Azərbaycan gəncliyi..............................102
***Əliyeva Elmira***
"Gələcəyin memarları gənclər"Heydər Əliyev "gənclər siyasəti"...105
***Əliyeva Fatimə***
Qida sənayesində regional marketinqin səmərəli təşkilinin qiymətləndirilməsi.........................................................................................110
***Əliyeva Jalə***
Bazar iqtisadiyyatı şəraitində kiçik sahibkarlığın formalaşması və inkişaf qanunauyğunluqları............................................................118
***Əliyeva Nərmin***
Müasir proqramlaşdırma mühitlərinin tədqiqi................................127
***Əlizadə Əli***
Azərbaycanda səmərəli gənclər siyasəti.........................................130
***Əsədova Kəmalə***
Azərbaycanda ixracın və investisiyaların təşviqinin əsas istiqamətləri.........................................................................................................134
***Əsgərova Emilya***
Büdcə gəlirlərinin artırılmasında təşviqedici vergi sisteminin rolu. ...........................................................................................................136
***Əzizova Lalə***
Mobil elektron tətbiqlərin Azərbaycanın bank sisteminin inkişafında rolu.........................................................................................................140

***Fərəcova Aydan***
Dövlət qulluqçusunun hüquqi statusunun mahiyyəti və xüsusiyyətləri........143
***Fleydanlı Fidan***
Azərbaycanda kibertəhlükəsizliyin hüquqi bazasının qiymətləndirilməsi........146
***Hacıyeva Aygün.Babayev Davud***
Qida məhsulları istehsalında İnsulin mənbəyi kimi istifadə edilən bitkilərin rolu........148
***Heydərli Aytən***
Süni intellektin gələcəyi və tətbiq sahələri........150
***Həsənxanlı Murad***
Azərbaycan Respublikasının gənclər strategiyasının formalaşmasında Heydər Əliyevin rolu........154
***Həsənli Xatirə***
İnformasiya təhlükəsizliyi üçün risklərin idarə edilməsi və qiymətləndirilməsi........156
***Həsənov Çərkəz***
Gələcəyin marketinqi : marketinq 5.0........159
***Həsənov Kamran***
Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış təşkilatlarla əməkdaşlığı........163
***Həsənov Murtəza***
Ümummilli lider Heydər Əliyevin dövlətçilik siyasətində müasir Azərbaycan gəncliyi........168
***Həsənova Aidə***
Milli ruhun şəhəri........177
***Həsənova Könül***
Heydər Əliyev və gənclər siyasəti........180
***Həziyev Vasif***
Regionların inkişafında dövlət proqramı........184


***Hüseynov Yusif***
Universitet texnoparkı: innovativ idarəçiliyin reallaşması........187
***Hüseynova Ceyran***
Lantanoidlərin tədqiqi və kəşfi tarixləri haqqında........190
***Hüseynova Günay***
Dövlət qulluğunda strateji kommunikasiya və onun vətəndaş məmnunluğuna təsiri........194
***Xudatova Səadət***
"Gənclər siyasəti"-nin ümummilli banisi........196
***İbrahimova Sahilə***
Cəmiyyətin gələcəyi gənclərdir........200
***İsmailova Ruqiyə***
Müasir Azərbaycan gəncliyinin formalaşmasında Heydər Əliyevin rolu........203
***İsmayılova Cəmilə***
Aqrar-emal sənayesinin inkişafının rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasında rolu........206
***Kamallı Kamal***
Dövlət qulluğunda hesabatlılığın vətəndaş məmnunluğunun artırılmasında rolu........210
***Kərimov Rəşid***
Dayanıqlı inkışaf məqsədlərinə çatmaqda innovasıyaların tətbiqi və yüksək texnologiyaların rolu........212
***Qarayev Süleyman***
Şəbəkə informasiya sisteminin təhlükəsizliyi........214
***Qasımova Samirə,Qasımova Rəna***
Ümummilli lider Heydər Əliyev müasir gənclər siyasətinin banisidir........217
***Quliyeva Gözəl ,Esmira Cəfərli***
Orta məktəb riyaziyyat təlimində fərdiləşdirmə........224

***Qurbanova Aygün***
İnsan təhlükəsizliyi.........................................................................228
***Mahmudova Pəri***
Müasir Azərbaycan gənclər siyasətinin formalaşdırılmasında ümummilli lider Heydər Əliyevin danılmaz rolu.....................................230
***Mehdiyeva Nərmin***
Ümumimilli lider Heydər Əliyevin gənclərin inkişafı ilə bağlı siyasəti..............................................................................................233
***Məhərrəmova Ayla***
Təhlükəsizliyin gücləndirilməsi:Azərbaycanın kiber tədbirləri......235
***Məhərrəmova Təhminə***
Turizmdə maliyyə fəaliyyətinin uçotunun optimallaşdırılması prinsipləri...........................................................................................237
***Məmmədli Xəyalə***
Heydər Əliyev müasir gənclər siyasətinin banisidir.......................244
***Məmmədov Qabil,Qədimov Fərid.***
İnternet vasitəsilə bir neçə yerli şəbəkələr arasında təhlükəsiz kanalın təşkili...............................................................................................254
***Məmmədov Oruc***
Elektron ticarətin üstün və əksik tərəfləri.......................................255
***Məmmədov Sabir,Cəfərov Fazil***
Azərbaycan gəncliyi bizim gələcəyimizdir.....................................260
***Məmmədov Zaur***
İnsan sağlamlığına təsir edən sosial amillər...................................265
***Məmmədova Arzu***
Şirkətlərdə mühasibat uçotunun təşkili...........................................269
***Məmmədova Rahilə***
ABŞ və Azərbaycan arasında enerji diplomatiyası (1994-2000).....270
***Məmmədova Sevil***
Qastronomik turizm məhsulları və marketinq strategiyaları...........275



***Mirzəyev Ruzigar***
Dəmiryolu nəqliyyatının idarəetməsində böhranların idarəedilməsi texnologiyası.....................................................................................277
***Mirzəyeva Bəyim***
Heydər Əliyev türk dünyasının lideri kimi....................................279
***Mirzəyeva Gülnar,Allahyarova Nərmin***
DATA analitikanın növləri və metodları təhlili..............................284
***Muradov Murad.***
Aqrar sahənin maliyyə cəlbediciliyinin yüksəldilməsi istiqamətləri.......................................................................................................289
***Mustafayeva Vəfa***
Azərbaycan qərb bölgəsində yayılan bəzi dərman bitkilərinin biomorfoloji və biokimyəvi xüsusiyyətləri.........................................293
***Namazova Aynur***
Ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinə qayğısı........296
***Nəbiyev Əhəd, Kazımova İnarə,Məmmədzadə Kənan***
Qida sənayesində istifadə edilən yerkökü bitkisinin texnoloji xüsusiyyətləri...........................................................................................300
***Nuriyeva Rəvanə***
Respublikada maliyyə bazarının hazırki vəziyyəti və inkişaf perspektivləri...........................................................................................303
***Orucova Leyla***
Aqrar sahədə logistika fəaliyyətinin inkişafının proritetləri...........307
***Ömərzadə Nəzrin***
Gənclər problem deyil, problemi həll edənlərdir...........................312
***Paşayev Fəxri***
Heydər Əliyev nümunəsində tələbələrdə hərbi vətənpərvərlik tərbiyəsinin formalaşdırılması.................................................................315
***Paşayeva Xanım***
İşğaldan azad edilmiş ərazilərdə ağıllı texnologiyaların tətbiqi.......................................................................................................318

***Rəhimov Bəxtiyar***
Təhlükəsizlik anlayışı və təhlükəsizliyin təminində nəzəri yanaşma-lar..........................................................................................321
***Rəhimova Lalə***
İKT-səriştəliyi təhsilin keyfiyyətinin yüksəldilməsi amili kimi......325
***Rüstəmov Əlisuvar***
Heydər Əliyev və Azərbaycanda gənclər siyasəti..........................328
***Rzayev Rəhman***
Aqrar sahədə istehsalın idarəetmə strukturu və iqtisadi təşviq.Mexa-nizmlərinin tədqiqi..........................................................................331
***Sadıqova İlahə***
Bütöv və qalib Azərbaycan.............................................................336
***Salehsoy Gülsüm***
Heydər Əliyev siyasi kursunun təbliği prosesində gənclərin fəaliy-yəti..................................................................................................340
***Səmədov Yaqub***
Heydər Əliyev və müasir azərbaycan gəncliyi..............................344
***Şammadov Fuad***
Azərbaycan-NATO münasibətlərinin inkişafında şəxsiyyət amilinin rolu.................................................................................................346
***Tanrıverdiyeva Əfsanə***
Heydər Əliyev və müasir Azərbaycan gəncliyi..............................350
***Teymurova Nəzrin***
Azərbaycanda elm və təhsilin inkişaf etdirilməsi üçün innovasiyaların və İT-nin tətbiqi..............................................................................352
***Vəliyev Elmir***
Respublika regionlarında sahibkarlığın inkişafının qiymətləndirilməsi.........................................................................355
***Vəliyev Əli***
Çağdaş dünyamızda işgüzar münasibətlər və qloballaşma meyl-ləri.................................................................................................357



***Vəliyev İslam***
Azərbaycan Respublikasinda təkmil vergi sisteminin formalaşmasın-da ümummilli lider Heydər Əliyevin rolu....................................359
***Vəlizadə Ramin***
Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində qəbul edilmiş dövlət proqramlarının icrası və monitorinqi........... 364
***Yarıyev Əli***
Azərbaycan Respublikasında dövlət gənclər siyasəti.....................367
***Zeynalova Zərxanım***
Biznes sferasında restruksiya prosesinin tənzimlənməsi................369
***Ziyadxanov Ziyadxan***
Xaçmaz rayonunda turizm potensialı,ondan istifadə imkanları.......371
***Alakbarov Tunjay***
Analyzing the impact and trends of real interest rates in Azerbaijan’s economy……………………………………………………...……374
***Ravan Jafarli, Eltaj Jabiyev,Nigar Khudiyeva***
A leader directing to the future: the first period of Heydar Aliyev's leadership - a strategy for the future and youth…………………...377
***Mansumlu Guljan***
Application of organic methods of farming in agriculture to achieving sustainable development goals……………………………….…382
***Mustafayeva Leyla***
Security issues of the South Caucasus Region and Azerbaijan…...384
***Rzaguliev Alikhan***
Automation of finding patentability……………………………386
***Safarova Chinara***
Youth policy in statesmanship training of the great leader Hayder Aliyev………………………………………………………...399
***Абдуллаева Рузия,Алиева Фазиля***
Гейдар Алиев и национально-духовные ценности в Азербай-джане.............................................................................................405

*Агарагимли Аян*
Совершенствование системы регулирования иностранных инвестиций в Азербайджане.........................................................407
*Ахундова Минира*
Важность цифрового правительства в развитии цифровой трансформации мира.....................................................................410
*Караева Ляман*
Гейдар Алиев как покровитель молодежи……..………………413
*Гулиева Садагят*
Реальная и финансовая экономика.Проблема финансового пузыря……………………………………………………….415
*Мамедова Гюнай*
Инновационные трансформации в молодежной политике: роль облачных технологий в контексте Азербайджанского опыта...418
*Шукюрова Илаха*
Экспертные системы в государственном управлении: возможности и перспективы……….............…………………………421



# GƏNCƏ – QAZAX BÖLGƏSİNDƏ BƏZİ DƏRMAN BİTKİLƏRİNİN BOTANİKİ-COĞRAFİ XARAKTERİSTİKASI

**Abdullayev Namiq**
*Gəncə Dövlət Universiteti*
*rzquliyeva@rambler.ru*

Müasir dövrümüzdə biologiya elminin qarşısında duran əsas məsələlərdən biri də prioritet istiqamətlərdən hesab edilən biomüxtəlifliyin qorunması və onun problemlərinin araşdırılmasıdır. Bildiyimiz kimi Azərbaycan florası zəngin bitki örtüyünə malikdir. Hazırki vəziyyətdə Respublikamızın ərazisinin antropogen proseslərin təsiri altında botaniki-coğrafi tədqiqi böyük elmi və praktiki maraq doğurur. Bildiyimiz kimi ölkə ərazisinin bitki örtüyü antropogen təsirlər altında deqradasiyalara məruz qalmış, örüş sahələri eroziyaya uğramışdır. Buna görə də biomüxtəlifliyin əsas komponenti sayılan bitki örtüyü daimi olaraq ərazi, o cümlədən növ səviyyəsində tədqiqatların aparılmasına böyük ehtiyac vardır.

Tədqiqatın əsas məqsədi Gəncə-Qazax bölgəsində bəzi dərman əhəmiyyətli bitkilərin botaniki – coğrafi xüsusuiyyətlərini öyrənməkdən ibarətdir. Aparılan tədqiqatlar nəticəsində tədqiq olunan növlərin götürülən nümunələr üzərində müqayisəli-morfoloji, coğrafi, ekoloji areoloji tədqiqatlar aparılmışdır. Bitkilərin morfoloji quruluşu MBJ-3 binokulyar lupasından, vegetativ orqanların morfoloji quruluş xüsusiyyətlərini isə MBS-2 binokulyar lupasından istifadə etməklə öyrənilmişdir. Morfoloji-sistematik tədqiqatlar əsasında müxtəlif illərdə toplanmış herbari nüsxələri və əldə edilmişdir.

Fragaria vesca L.-Meşə çiyələyi

Sürünən gövdəli çoxillik ot bitkisi olub, hündürlüyü 10 sm-ə qədərdir. Yarpaq və kökətrafı çətirləri, uzun saplaqlı, üçər mürəkkəb

yarpaqları oturaq, dairəvi-rombvari olub, kənarları iridişciklidir. Çiçəklərinin diametri 2 sm-ə qədər, sıxtükcüklü uzun ayaqcıqlı, beşüzvlü olub, qalxan çiçək qrupunda toplanmışdır. Meyvələri çoxfındıqcıqlı, lətli çiçəkyatağma malikdir. May ayının sonundan çiçəkləməyə başlayır və iyun-iyulda isə meyvələri yetişir. Yuxarı tərəfi tünd-yaşıl, aşağı (alt) tərəfdən sarımtıl, sıxtükcüklü və kiçik dişcikli yarpaqlara, yumşaq qalxanabənzər kiçik çiçəkqrupuna və sanmtıl-ağ iri çiçəklərə (diametri 15-25 mm) malikdir. Meyvələri dairəvi, əsası sarımtıl-ağ rəngli olmaqla, yalnız zirvəsi qırmızı, kasacığı isə sıx yerləşmişdir.

Yetişmiş meyvələri, saplaqsız, kasacıqsız, sübh zamanı bitkinin üzərində şəbnəm olduqda və ya axşam vaxtı toplanılmalıdır. Yarpaqları bitkinin çiçəkləmə dövründə saplaqlarının uzunluğu bir sm-dən çox olmamaq şərti ilə toplanılmalıdır. Meyvələri sutqa ərzində və ya quruducu şkafda 25- 30°C temperaturda 4-5 saat ərzində, daha sonra 45-65 °C qısa müddətli qurudulmalıdır. Yarpaqlarını çardaqlarda dəmir şifer altında 45°C-dən çox temperaturda qurudulmalıdır.

Çiyələyin meyvəsi, xammalı polivitamin maddələridir. Yarpaq və xammalı diuretik, qanın azot şlaklarını azaldan və zəif ödqovucu xüsusiyyətə malikdir.

*Hippophae rhamnoides L.* - Adi çaytikanı

Sibir ananası, dirçələn, ciqa. çəllək, sancan, qumluq meyvəsi, qırmızı çaqqal gavalısı Botaniki xarakteristikası: Tikanlı kol və ya böyük olmayan ağac bitkisi olub, hündürlüyü 1.5-6 m-dir. Köhnə kökləri, budaqları və gövdəsi boz-yaşıl, sarımtıl-boz, tünd-boz, hətta demək olar ki, qara rənglidir. Cavan budaqları gümüşü rəngli, pulcuqlu və ulduz kimi parıldayan tükcüklü yarpaqları sadə, növbəli, xətti və ya xəttineştərşəkilli, bütövkənarlı olub, uzunluğu 9 sm. eni isə bir sm-ə bərabərdir. Yarpaqları tünd gümüşü-yaşıl, aşağı hissəsi



zəif-sarı və ya gümüşü-boz rənglidir. Erkək və dişi çiçəklərə malik bitkiləri vardır.

Yetişmiş meyvələri sentyabr-dekabr aylarından qışa qədər toplanılır. Meyvələri yarpaq, budaq və saplaqlardan təmizlənməlidir. Meyvələri kağız və ya altlıq-döşənəcək, yaxşı hava dəyişilən yerlərdə qurudulur.

Yarpaq, meyvə və toxumları istifadə edilir. Meyvələrini şaxta vurduqdan sonra toplamaq daha sərfəlidir. Meyvəsinin lətli hissəsindən ahnan çaytikanı yağı dərinin yara, travma, ekzema, qurdeşənəyi xəstəliklərində olduqca dəyərlidir. Soyuqdəymədə, temperaturda meyvələrindən hazırlanmış şokundan və püresindən bir xörək qaşığı gündə 3 dəfə olmaqla, qəbul etmək məqsədəuyğundar. Yağı iltihaba qarşı, yarasağaldıcı və ağrıkəsici olmaqla, epitel toxumalarının təzələnməsində iştirak edir. Xərçəng xəstəliyinin (mədə xərçəngi) şüa ilə profilaktika və müalicəsində çaytikanı yağından müvəffəqiyyətlə istifadə edilir. Bundan başqa mədə və onikibarmaq bağırsağın xora xəstəliyində, mamalıq praktikasında uşaqlıq boynunun eroziya və kolpitlərində təyin edilir. Yarpaqlarında çox vitamin olduğundan sinqa, hipo və avitaminozlarda, dərinin yanıq, donvurma. səpki və yaralanma hallarında istifadə edilir.

*Calendula officinalis L.* - Dərman gülümbaharı

Mədəni şəkildə yetişdirilən birillik ot bitkisi olub, hündürlüyü 30-50 sm-dir. Əsas kökü budaqlanandır. Gövdəsi düzqalxan, çox vaxt budaqlanan, qısa tükcüklüdür. Yarpaqları növbəli, aşağı hissəsi uzunsov, tərsyumurtavari, yuxarı hissəsi uzunsov-neştərvari və oturaqdır. Səbətciyi tək, zirvəsi böyük olub, çoxçiçəklidir. Zirvədə 1-2 cərgədə yerləşmiş, itiuclu, yaşıl, uzunsovneştərvari yarpaqları vardır. Kənar çiçəkləri dilşəkilli, dişcikli, narıncı və ya sarımtıl bükük, narıncı və ya qəhvəyi-qırmızı tacı, barsız və barverən tozcuqlara malikdir.

Gülümbaharm çiçəklərini tam çiçəkləyən zaman horizontal istiqamətdə düzülmüş dilşəkilli çiçəkləri toplanılmalıdır. Qurudulması:Toplanılmış xammal hava dəyişilən kölgə yerlərdə və ya 45°C temperaturda ventilyasiya şəraitində quruducu şkafda dərhal qurudulmalıdır.

Boz-yaşıl, tək və ya iki cərgəli, yarpaqları xətti, itiuclu, olmaqla, sıx örtülmüşdür. Dişiciyi təkyuvalı, aşağı yumurtalıqlı, nazik oxşəkilli, 2 qanadlı ağızcıqdan ibarətdir. Orta çiçəkləri boruşəkilli, çiçəkləri narıncı, sarı-qəhvəyi və ya sarı rənglidir. Zəif iyli, sortəhər-acı dadlıdır.

Tərkibində efir yağı, saponinlər, qlikozidlər, karotinoid, kçantofıl, acı maddələr, selik, flavonoidlər, ferment və üzvi turşular vardır. Elmi və xalq təbabətində geniş istifadə edilir. Sinir sistemini möhkəmləndirir, arterial qan təzyiqini aşağı sahr, ürəyin iş qabiliyyətini artırır, ürək ritmini yavaşıdır, çiban və digər iltihabi xəstəliklərdə müvəffəqiyyətlə işlədilir. Nevrozda, hipertoniyada, stenokardiyada, ateroskleroz və klimaksda təyin edilir. Gülümbahar bitkisi bakterisiddir. Stafilakok və streptokok infeksiyalarmda fəallıq göstərir.Dərinin şişləri, xərçəngi və ziyillərin müalicəsində tətbiq edilir. Qastrit, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi və öd yolları xəstəlikləri xüsusən sarılıq, bağırsaq xəstəlikləri, mensturasiya pozulmalarında, böyrək və sidik yollarının daş xəstəlikləri və xorah kolitdə istifadə edilir. Mensturasiyadan sonra bir həftə ərzində hər gün 1 fincan bu bitkinin çaynı içmək lazımdır.



# TARİXŞÜNASLIQDA QARABAĞ XANLIĞININ TARİXİNƏ DAİR

**Abdullayeva Sevda**
*Dosent*
sevda.abdullayeva.1986@mail.ru
**Axundov Azər** *Baş müəllim*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

**Xülasə**

Digər Azərbaycan xanlıqları kimi, Qarabağ xanlığını da qeyri-məhdud hakimiyyətə malik olan xan idarə edirdi. O, bütün icra və qismən də məhkəmə funksiyalarını, hərbi funksiyanı öz əlində toplamışdı. Xan hakimiyyəti irsi idi və atadan oğula keçirdi. Qarabağ xanlığında dövlət aparatı digər xanlıqlara nisbətdə xeyli böyük idi. Xan hakimiyyətinin başlıca funksiyası hakim siniflərin mənafeyini müdafiə etməkdən və xanlığın ərazilərini genişləndirməkdən ibarət idi. Xanlıqda dövlətin başında xan dururdu. Tədqiqatçı Leviatov xanın hakimiyyətini xarakterizə edərək belə yazırdı: «bu dövlətə və xana məxsus olan mülk əsasında fərq qoymayan və onları eyniləşdirən feodal hakimiyyəti idi.

***Açar sözlər:*** *Qarabağ, xanlıq, xan, idarəçilik, hakimiyyət, irsiyyət*

Azərbaycan ərazisində olan digər xanlıqlar kimi, Qarabağ xanlığını da qeyri-məhdud hakimiyyətə malik olan xan idarə edirdi. O, bütün icra, məhkəmə və hərbi funksiyaları öz əlində toplamışdı [4, s.96 ]. Xanın hakimiyyəti irsən atadan oğula keçirdi. Digər xanlıqlara nisbətən Qarabağ xanlığında dövlət aparatı nisbətən böyük idi. Xan hakimiyyətinin başlıca funksiyası hakim siniflərin mənafeyini müdafiə etməkdən və xanlığın ərazilərini genişləndirməkdən ibarət idi. Xanlıqda dövlətin başında xan dururdu.

İ.P.Petruşevski qeyd edirdi ki, Azərbaycanda hökm sürən siyasi pərakəndəlik və xanlıqlararası müharibələr şəraitində xanlar kəndli kütlələrini hədsiz dərəcədə qıcıqlandırmamaq üçün, feodal istismarını müəyyən həddə saxlamağa çalışır, hətta ona bəzən patriarxal adət-ənənə donu geyindirməyə cəhd göstərirdilər. Onlar kənd icmalarının hüquqları, adət-ənənəsi ilə hesablaşmalı olurdular. Qarabağ xanının yanında məşvərətçi orqan - divanxana fəaliyyət göstərirdi. Divanxana xanın yaxın adamlarından və ali müsəlman din xadimlərindən təşkil olunurdu. Mirzə Adigözəl yazırdı ki, mərhum İbrahimxəlil xan padşah adlanmasa da, onun var dövləti müasir olan İran padşahlarından çox idi. Müəllif bu zaman Qaradağ, Təbriz, Naxçıvan, Ərdəbil, Xoy, Marağa, İrəvan və Qaplan kimi vilayətləri nəzərdə tuturdu. Eyni zamanda müəllif xanları və xanzadələri, həmişə gözəl xasiyyətli xan cənablarının hüzurunda girov olduqlarını qeyd edirdi. [3,s.49 ].

Mirzə Mehdi xan Astrabadinin Azərbaycan MEA-mn Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan «Tarix-i Nadiri» əsərinin əlyazmasının sonuncu vərəqində bu nüsxənin Mehdiqulu xana məxsusluğunu bildirmək üçün onun möhürü vurulmuşdur. Mənbənin verdiyi məlumata görə Qarabağ xanı bəzi vaxt ayrı-ayrı mahalları töhvə olaraq öz sərkərdələrinə bağışlayırdı ki, onlar bu yerlərin mədaxilindən mənfəətbərdar olsunlar [4, s.49 ]. Qarabağ xanının ən yaxın köməkçisi vəzir idi. Qarabağ xanlığında çox zaman vəzirə mirzə deyirdilər. İbrahimxəlil xanın hakimiyyəti dövründə vəzir vəzifəsini görkəmli Azərbaycan şairi Molla Pənah Vaqif icra edirdi.Tarixdən bildiyimiz kimi, 1797-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşa şəhərində qətlə yetirildikdən sonra hakimiyyətini müvəqqəti ələ keçirmiş xanın qardaşı oğlu Məhəmməd bəy Vaqifin simasında öz hakimiyyətini möhkəmləndirmək qarşısında bir təhlükə görərək onu edam etdirmiş,daha sonra isə vəzir vəzifəsinə Mirzə Camal təyin olunmuşdu. İbrahimxəlil xan 1805 - ci ildə Kürəkçay



müqaviləsini imzaladığı zaman varislik və vəliəhdlik adını böyük oğlu Məhəmmədhəsən ağaya verilmişdi. Məhəmmədhəsən ağanın ikinci oğlu girov şərti ilə Tiflisə Qafqazdakı rus ordusunun baş komandanı general Sisianovun yanına göndərilmişdi. Lakin 1806-cı il fevralın 24-də Məhəmmədhəsən ağa hələ İbrahimxəlil xanın sağlığında xəstələnib öldüyündən xanın yerdə qalan oğlanları içərisində ən böyüyü general-mayor Mehdiqulu ağa idi. Buna görə də varislik və vəliəhdlik sənədi xanın və Qarabağın başqa əyanlarının möhürü ilə Mehdiqulu ağaya verilmişdi, o xan və vəliəhd adlandırılmışdı[3, s.176 ]. Bu səbəbdən də mayor Lisaneviç İbrahimxəlil xanı qətlə yetirdikdən sonra, general Nesvetayevə raport yazmış və həmin raporta əsasən 1817-ci ildə çar I Aleksandr Mehdiqulu xana xanlıq fərmanı, hakimiyyət bayrağı və cəvahirlə bəzənmiş qılınc göndərmişdi [5, s. 147- 148]. Baharlının yazdığına görə İbrahimxəlil xanın böyük oğlu Cavad ağa imiş və o atasının sağlığında ölmüşdür. İbrahimxəlil xanın vəliəhdi əvvəlcə Məhəmmədhəsən ağa olmuşdur. Xan ən çox səlahiyyət verdikləri oğulları Məhəmmədhəsən ağa, Əhməd xan və Mehdiqulu xan olmuşdur [1, s.281-283 ]. İbrahimxəlil xanın qızlarından biri Ağa bəyim ağa Fətəli şaha ərə getmişdir. Digər qızı Gövhər ağa Şəki xanına ərə getmişdi. Ibrahimxəlil xanın Talıbxan bəy adlı bir qardaşı olmuşdur [1,s.283- 284]. Mehdiqulu xan İrana qaçdıqdan sonra Rusiyanm Qafqazdakı qoşunlarının baş komandanı general Yermolovun göstərişi ilə 1823-cü ilin əvvəlində vəfat etmiş Məhəmmədhəsən xanın yerinə yeni vəliəhd təyin edilmişdir. Cəfərqulu ağanı oğlu Kərim Cavanşirlə birlikdə həbs edərək Simbirskə sürgün etmişdilər [3, s.41 ]. Hələ 1827-ci ildə Cəfərqulu ağa rus çarı I Nikolaya ərizə yazaraq bildirirdi ki, keçmişdə saxtakarlıqla knyaz titulu aldıqdan sonra daha da harınlaşmış və Qarabağda böyük özbaşınalıq törətmişdir. Cəfərgulu ağa bunu da yazırdı ki, İbrahimxəlil xan qətlə yetirildikdən sonra xan taxtı vəliəhd

olduğuna görə ona çatmalıymış. Lakin rus komandanlığı yanlış addım ataraq Mehdiqulu xanı hakimiyyətə gətirmişdir. Çar hökuməti Cəfərgulu ağanın Qarabağa qayıtmasına icazə vermiş, ona təqaud təyin edilmişdi [1, s.46-66 ]. İbrahimxəlil xan əvvəlcə Şahverdi xanın Tuti bəyim adlı qızını alıbmış [ondan iki qızı doğulub ]. Tuti bəyim vəfat etdikdən sonra isə bacısı Xurşud bəyimlə evlənib, Mehdiqulu ağa bu qadından doğulmuşdur. Şahsevən Nəzərəli xanın bacısını da almış, ondan üç qızı olmuşdu [3, s.199 ]. İbrahimxəlil xanın asılı xanların və hakimlərin qohumlarını, yaxud oğullarını öz yanında girov kimi saxlamağı haqqında Mirzə Yusif Qarabağinin qeydləri vardır. Baharlı yazır ki, İbrahimxəlil xan təqsirkar hesab etdiyi adamı dərinliyi iki yüz arşından artıq olan Xəzinə qayasından atdırarmış. Boynun vurulması, göz çıxarmaq, əl kəsmək kimi cəza üsulları vardı [1, s.287 ]. Divan xanın yanında məşvərətçi orqan kimi fəaliyyət göstərirdi. Müharibə və sülh məsələləri, vergilərin bölüşdürülməsi, yeni vergilərin təyin edilməsi, mülki və cinayət işlərini, müzakirəsi başlıca olaraq divanda edilirdi. Mənbələrə əsasən belə qənaətə gəlmək olur ki, Qarabağ xanlığı inzibati cəhətdən 22 mahala bölünürdü. Mahallar bir neçə kənddən ibarət idi. Mahalları naiblər idarə edirdilər. Hər bir naibə darğalar, yüzbaşılar, kəndxudalar və başqa vəzifəli şəxslər tabe idilər. Darğa vəzifəsi şəhərdə də var idi. Onlar şəhərdə bir növ polis vəzifəsini icra edirdilər, kəndlərdə isə onlar vergi yığmaqla məşğul olurdular. Yüzbaşılar və kəndxudalar eyni zamanda kənd ağsaqqalı hesab olunurdular.

Başqa xanlıqlarda olduğu kimi, Qarabağ xanlığında da mülki və cinayət işlərinə əsasən şəriət qanunları, adət-ənənələri əsasında baxılırdı. Məhkəmələrdə müxtəlif cəzalarla yanaşı ağır işgəncələrə də yol verilirdi. Ən böyük hakim kimi ölüm hökmünü xanın özü verirdi. Mirzə Camal Cavanşir Qarabağ xanlığında mövcud olan vergi sistemi və mükəlləfiyyətlər haqqında maraqlı məlumat verir. O, yazır



ki, hər il Novruz bayramı günlərində xanın adından qoşun başçılarına hədiyyələr, xələt, at, silah bağışlanırdı.

Qarabağ xanlığında bir çox vergilərlə yanaşı “bayramlıq” adlanan xüsusi vergi mövcud idi ki, ona əsasən əhali Novruz bayramında xana mütləq hədiyyə verməli idi. Bəzən torpaq sahibləri də öz rütbəsinə görə xana bayram günü peşkəş gətirirdi.

Qarabağ xanlığının iqtisadiyyatının əsasını kənd təsərrüfatı - əkinçilik və heyvandarlıq təşkil edirdi. Ümumi torpaq sahəsi təxminən 1.354000 hektar olan Qarabağ xanlığında 100000 hektara yaxın əkinə yararlı torpaq sahəsi var idi ki, bundan adambaşına 1,1 hektar düşürdü.

Torpağın əkilməsi, becərilməsi, məhsulun emalı əsasən əl əməyi ilə və qoşqu heyvanlardan istifadə yolu ilə görülürdü. Sudan istifadəni mirablar və cuvarlar nizama salırdılar. Torpağın əkilməsində kotan və cütlərdən istifadə olunurdu.

Qarabağ xanlığında, xüsusilə İbrahim Xəlil xanın hakimiyyəti dövründə ipəkçilik və bağçılıq geniş rövnəq tapmışdı. Şəxsən İbrahim xanın Hindarxı ərazisində 26 tut bağı var idi. Qarabağ xanlığında illik ipək məhsulu 1700 pud idi. Burada bağçılığa da fikir verilirdi. Pənah Əli xandan irsən İbrahim xana Ağdamda 7 böyük meyvə bağı qalmışdı: Güllü bağ, Arxalı bağ, Kətəl bağı, Çirayiş bağı, Bala bağ və Nurlu bağ. Sonuncu iki bağın məhsulu yalnız xeyrat və ehsan məqsədilə işlədilirdi. Bostançılıq Qarabağ xanlığının çox kəndlərində inkişaf etmişdi. İbrahim xanın Hindarxında olan bostanından Şuşaya hər il 50 araba qovun və qarpız göndərilirdi.

Kənd təsərrüfatının mühüm sahələrindən biri də heyvandarlıq idi. Heyvandarlar çoxlu sayda iri buynuzlu heyvan və qoyun saxlayırdılar. Qarabağ xanlığı dağlarında onların ixtiyarında 500000 hektara yaxın yaylaq – otlaq sahəsi var idi. İbrahim xanın dövründə Qarabağ xanlığı tacirləri, Şəki, Şamaxı, Gəncədən ipək gətirərək əsl ipək monopoliyası yaratmış və onu xarici bazara çıxara bilmişlər.

Məşhur Qarabağ atları, Qarabağ xalçaları da ticarətin mühüm sahələri idi. İrana aparılan malların şəhər üzrə gömrük xərci müəyyən edilmişdi. Türkiyə Qarabağ tacirlərini özünə cəlb etmək üçün onları gömrük xərclərindən azad etmişdi.

Qarabağ xanlığının özünəməxsus ölçü tərəzi vahidləri var idi. Məsələn, taxıl məhsullarını ölçən çanaqların üç növü var idi. Birinci növ çanaq 31 girvənkə (400 qram) buğda, ikinci növ çanaq 12,5 girvənkə, üçüncü növ isə 2,5 girvənkə ölçüsündə idi.

Şuşada pambıqdan bez toxuyan 28 müəssisə fəaliyyət göstərirdi. Həmin müəssisələrdə 80-dən çox dəzgah işləyirdi, burada illik məhsul 80000 xan arşını təşkil edirdi. Şuşanın 19 dəri hazırlayan zavodunda hər il çoxlu miqdarda dəri aşılanırdı. Qarabağ xanlığında hazırlanan dərilər bu keyfiyyətinə Təbriz ustalarının hazırladıqları dəri məmulatı ilə rəqabət aparırdı. Şuşada məşhur daş karxanaları ilə yanaşı 2 böyük kərpic zavodu olmuşdur.

Mirzə Adıgözəl bəyin verdiyi məlumata görə Şuşada barıt istehsal edən müəssisə işləyirdi. Şuşanın sabunbişirən müəssisəsi şəhəri və ətraf kəndləri sabunla təmin edirdi.

Şuşa zərgərləri bütün yaxın Şərqdə məşhur idilər. Zərif - incə naxışlarla bəzədilmiş qızıl və gümüş zərgərlik məmulatları çox məşhur idi.

Qarabağ xanlığının varlığı ərzində iqtisadi inkişaf sahəsində əvvəlki dövrlərə nisbətən xeyli irəliləyiş hiss olunur. Bu irəliləyişin ən mühüm amili əkinçilik mədəniyyətinin yüksəlişi ilə bağlı olmuşdur.

Mənbələrdə göstərildiyi kimi xanlıq ərazisindəki bütün torpaqlar xanın özünə, ağalar, bəylər, rəiyyət və vəqflər üzrə bölünmüşdü. Quran torpaq üzərində xüsusi mülkiyyəti qanuni hesab etmirdi, “Torpaq ancaq onu əkənlərə və becərənlərə məxsusdur” prinsipi əsas götürülürdü. Torpağı əkib becərənlər isə rəiyyət və rəncbərlər idilər.



“Qarabağnamələr” də göstərildiyi kimi Qarabağ xanları əkinçilik və heyvandarlıqla məşğul olan, ictimai istehsalı artıran elat əhalisinə həmişə hörmət və qayğı ilə yanaşmışlar. Bu isə kənd təsərrüfatı məhsullarının ilbəil artmasına şərait yaradırdı.

Salnamələrdə Qarabağ xanlığının əhalisinin sayının 90 min nəfər olduğu göstərilir. Mirzə Camal yazırdı ki, Pənahəli xanın göstərişi ilə Şuşa qalasnın əsasının qoyulması ilə əlaqədar «işgüzar və bacarıqlı adamlar» məsləhət üçün yığışmışdılar. Mahalları minbaşılar və məliklər, kəndləri isə darğalar, yüzbaşılar, kovxalar, kəndxudalar idarə edirdilər. Əslində minbaşı və yüzbaşı rütbələri hərbi rütbələr idilər. Onlar hərbi əməliyyatlar zamanı min və yüz nəfərlik dəstələrə başçılıq edirdilər. Mahal naibləri həm inzibati, həm də məhkəmə hakimiyyətinə malik idilər. Kəndxudalar və kovxalar kənd icmaları tərəfindən seçilirdilər. Onların başlıca vəzifəsi icma üzərinə düşən vergiləri toplamaqdan və kənddə asayişin qorunmasından ibarət idi. Darğalar bazara nəzarət edirdilər. Onlar ərzaq məhsullarına qiymətləri təyin edir, mübahisəli məsələlərin həlli zamanı münsif kimi çıxış edirdilər. Darğalar formal olaraq bazar polisi hesab olunsalar da, əslində bütün şəhərdə qayda-qanuna cavabdehlik daşıyırdılar. Şəriət qaydalarının əməl olunmasına da darğalar nəzarət edirdilər. Darğanın bu qaydaları pozanları cəzalandırmaq hüququ vardı [2,s.58-59 ]. Şəhərlərdə gecələr asayişin qorunmasına əsəsbaşı nəzarət edirdi. Mirzə Camalın sözlərindən belə məlum olur ki, xanlıqda olan bəylər üç qrupa bölünürmüş. Birinci qrupa xanın qardaşları, qardaş uşaqları, öz övladı və əmisi uşaqları, yəni hakim ailəyə aid bəylər daxil idi. Xanın əmi uşaqları - Fəzi bəy, Əbdüssəməd bəy, Kəlbəli bəy, Hümmətəli bəy və onların oğlanları da belə bəylərin sırasına daxil idi [5, s.146 ]. Xanın övladlarını digər bəylərdən fərqləndirmək üçün onlara bəy deyil «ağa» deyə müraciət edirdilər. Ikinci qrupa irsi, həm də hakim bəylər daxil idi. Cavanşir, Otuziki, Kəbirli, Dəmirçi Həsənli, Bərgüşad, Qaraçorlu, Iiacı Samlı,

Kolanı və Qapan ellərinin bəyləri ilə Dizaq, Vərəndə, Çibbörd, Talış və Xaçın məlücləri bu qrupa daxil idilər. Üçüncü qrupa xidmətlərinə və sədaqətlərinə görə xanlardan bu rütbəli alim bəylər daxil idi. Pənahəli xanın iki oğlu olmuşdu: İbrahimxəlil ağa və Mehralı bəy. İbrahimxəlil xanın hələ sağlığında bir anadan olmuş böyük oğlanları Cavad ağa və Məhəmmədhəsən ağa vəfat etmişdir. Onların anası Cəbrayıl bəylərindən birinin qızı idi. Xanın digər oğlanları Xanlar ağa, xan rütbəsi almış Əbülfət xan, Məhəmmədqasım ağa, Fətəli ağa, Süleyman ağa, Hüseynqulu ağa və Səfiqulu idilər. 1847-ci ilə kimi sağ qalan oğlanları xan qızlarından doğulmuş Mehdiqulu xan və Əhməd xan, habelə kənizdən doğulmuş Şeyxəli ağa. 1845-ci ilə kimi sağ qalan qızları: Gürcü tavadının qızından doğulmuş Gövhər ağa, Gürcü çarının vəziri Mirzə Rəbinin qızından doğulmuş İzzət bəyim. II İrakli öz vəzirinin üç qızını xana və iki oğlu - Əbülfət xan və Məhəmmədqasım ağaya vermişdi [5, s.147 ].

### Ədəbiyyat


1. Baharlı. Əhvalati-Qarabağ. Qarabağnamələr, II c. Bakı, Yazıçı, 1991, s.269-302.
2. Əliyev F.M., Əliyev U. F. İrəvan xanlığı. Bakı, 1997,124 s.
3. Mir Mehdi Xəzani. Kitabi-Tarixi Qarabağ //Qarabağnamələr», II c., Bakı, Yazıçı, 1991, s. 93-202.
4. Mirzə Adıgözəl bəy. Qarabağnamə //Qarabağnamələr, I kit., Bakı, 1989, s. 5-102.
5. Mirzə Camal Qarabaği. Qarabağ tarixi //Qarabağnamələr, I kit., Bakı, 1989, s. 104-148.




## İNCƏSƏNƏTİN NAZİM HİKMƏT ZİRVƏSİ


**Abdullazadə Lalə**
*Azərbaycan Dövlət Aqrar Universiteti*



**Xülasə**

Həyatı daha çox ayrılıqlarla zəngin olan, vəfatından sonra tək illərlə həsrətində olduğu Türkiyədə deyil dünyada məşhurlaşan, şeirlərinə musiqilər bəslənən, barəsində kitablar yazılan Nazim Hikmətin ömür kitabının 120 ci il dönümü “Bakıya gəldim, dünyalar mənim oldu” dediyi Bakıda , Azərbaycanda da xüsusi qeyd edilir. “İnsanların bəzisi otların, bəziləri balıqların çeşidini bilir, mən ayrılıqların” deyən Nazim Hikmətin yaradıcılığında tək şeir deyil rəssamlıq bacarığının da öz yeri var. Populyar inancın və ya məlum olanın əksinə olaraq, Nazım Hikmətin rəssamlığa meyli uzun illər keçirdiyi Çankırı və Bursa həbsxanalarında özü üçün yaratdığı əyləncədən deyil, yaxınlığı ilə bağlı bir növ irsiyyətdən qaynaqlanmış olmalıdır. Anası Cəlilə xanımdan keçən rəssamlığını İstanbul İstintaq Təcridxanası və Ankara Mərkəzi Komandirlik Həbsxanasında həbsdə olarkən çəkdiyi daha çox portret rəsmləri, kiçik rəsmlər, qeydlər, əllə düzəltdiyi qoz qutuları, üzük qələmi, şeir səhifələrinə çəkdiyi naxışları Çankırıda və Bursa həbsxanalarında da davam etdirmişdir. Maraqlıdır ki, Nazim Hikmətin rəssamlıq qabiliyyətinin həbsxanalardakı palataların qapalı mühitində yatan insanların adətən məhbus əhval-ruhiyyəsi ilə məşğul olduqları bir hobbi olmadığı, ancaq yaradıcılıqdan qaynaqlandığı görülür.



***Açar sözlər**: yaradıcılıq, rəsm, tablo, əsər, vakf*


Həyatı daha çox ayrılıqlarla zəngin olan, vəfatından sonra tək illərlə həsrətində olduğu Türkiyədə deyil dünyada məşhurlaşan, şeirlərinə musiqilər bəstələnən, barəsində kitablar yazılan Nazim Hikmətin ömür kitabının 120-ci il dönümü “Bakıya gəldim,

dünyalar mənim oldu" dediyi Bakıda, Azərbaycanda da xüsusi qeyd edilir. "İnsanların bəzisi otların, bəziləri balıqların çeşidini bilir, mən ayrılıqların" deyən Nazim Hikmətin yaradıcılığında tək şeir deyil rəssamlıq bacarığının da öz yeri var. Populyar inancın və ya məlum olanın əksinə olaraq, Nazım Hikmətin rəssamlığa meyli uzun illər keçirdiyi Çankırı və Bursa həbsxanalarında özü üçün yaratdığı əyləncədən deyil, yaxınlığı ilə bağlı bir növ irsiyyətdən qaynaqlanmış olmalıdır. Anası Cəlilə xanımdan keçən rəssamlığını İstanbul İstintaq Təcridxanası və Ankara Mərkəzi Komandirlik Həbsxanasında həbsdə olarkən çəkdiyi daha çox portret rəsmləri, kiçik rəsmlər, qeydlər, əllə düzəltdiyi qoz qutuları, üzük qələmi, şeir səhifələrinə çəkdiyi naxışları Çankırıda və Bursa həbsxanalarında da davam etdirmişdir. Maraqlıdır ki, Nazim Hikmətin rəssamlıq qabiliyyətinin həbsxanalardakı palatalaların qapalı mühitində yatan insanların adətən məhbus əhval-ruhiyyəsi ilə məşğul olduqları bir hobbi olmadığı, ancaq yaradıcılıqdan qaynaqlandığı görülür. Şübhəsiz ki, bu məlumatları sonradan ustadla eyni həbsxanada yatan Orxan Kamal da öz gündəliyində qeyd etmişdi: "Digər məhbuslar da rəsm çəkərkən onu seyr etməkdən, ağ daşın üzərinə suluboya ilə lalələr çəkərkən daim onu izləməkdən həzz alır". Xüsusi ilə gündəlikdə qeyd olunanlara əsasən: " Rəsm edərkən fit çalması, rəsmin "nazik" hissələrinə gəldikdə isə fiti ağırlaşdırması" Nazimin bu işi zövqlə yerinə yetirdiyinin göstəricisi olmalıdır. Nazim Hikmətin gen xəritəsinə baxdıqda şarimizin soy ağacının rəssam, şair, yazar, siyasətçi olduğu görülür. Atası Mustafa Celalettin Paşa (əsl adı Konstantin Borcenski) mühəndislik fakültəsini bitirərək paşalığa qədər yüksələrək xəritə və rəsm ustası olub. 2018-ci ildə Parisdə vəfat edən Nazimin Münəvvər xanımdan tək övladı Mehmet Nazim da rəssam idi. Nazimin bacısı qızı Ayşə Yaltırım nənəsi Cəlilə xanımdan dərs alıb, 10-dan çox sərgi keçirib. Yaltırımın oğlu Murat Germen memarlıq fotoqraflığı ilə tanınır.



1950-ci ildə Nazım Hikmət həbsxanada aclıq aksiyası keçirərkən daşıdığı lövhənin üzərinə "Nazım Hikmətin anası rəssam Cəlilə" yazaraq özünü bu şəkildə təqdim edirdi. Memet Fuat vurğulayır ki, Nazim "anasını təqlid edərək" rəsm çəkməyə başlamış ola bilər. Nazim Hikmət həbsxanada boş durmayıb, dostu Kemal Tahirə görə 1943-1950 ci illər arasında ən dəyərli əsərlərini hazırlayır. Kamerasında "Memo" adlı kanareyka saxlayır.Rəssamlığa marağı anası rəssam Cəlilə xanımdan miras qalan Nazim dostu Kamal Tahirə yazdığı məktubda deyir:

Görürsən, mən uzun-uzun, yağlı boya, akvarel, mürəkkəb, karandaş, kətan, faner, kağız üzərində rəsm çəkirəm. Yəni qocaldıqca dayanmayan vərdişim, yəni özümü bir şeyə verəndə batağa düşmürəm, bu dəfə rəsmdə özünü göstərdi, çəkə bilməyəndə az qala xəstələnirəm". [1]

Nazim Hikmət həbsxanada olarkən dostu Kamal Tahirə yazdığı məktubunda bildirirdi: "Biz burada sərgiyə hazırlaşırıq. Standlarımız İstanbulda açılacaq Yerli Mallar Sərgisinə də mal göndərəcik. Bu münasibətlə, ixtiraçısı şəxsən özümə məxsus olan və adını birlikdə işlədiyimiz ustanın kəndinin adını daşıyan Kaymakçıköy Kumaş dediyim yarım ipək, yarı iplikli nazik köynək də bu münasibətlə dünyanı görəcək. Burada onlar hələ də toxunurlarsa, çırpınırdılar. İpəyin vətəni olan Bursanın ipək ustaları isə heyrətə gəldilər. Zarafat edirəm, həqiqətən də qorxunc ipək icad etdim. Mən saf ipəyi təmiz pambıqla qarışdırdım və təri udmaq baxımından da faydalı olan demokratik bir ipək çıxardım. Prinsip həmişə doğrudur: nə edildiyini bilәndən sonra ona yeni bir şey əlavə edilməlidir ki, bunda bilik, həzz və ağıl əl-ələ verməlidir. Yeni ixtiramdan sanki təzə şeir yazmış kimi sevinirəm"(1). Göründüyü kimi Nazim Hikmət həbsxanada olanda belə elm,bilik, yaradıcılıq yolundan dönmədi. Nazım Hikmətin Pirəyə məktublar əsərində yazılır: Bu dövrdə Nazım Hikmət pul qazanmaq üçün tərcümə

işlərindən imtina etmədi. Film altyazıları, dialoqlar, operalar, nağıllar, tərcümələr. Maddi qayğılarla girdiyi bu əsərlərdə yaradıcılığını göstərir; məsələn, Laurence Olivier-in Henry V-nin altyazılarını tərcümə etmək, Şekspiri ölçmək üçün tərcümə etmək. Bu tərcümələr arasında Tolstoyun müəllifliyinə ən çox töhfə verən "Hərb və Sülh" əsəridir. O, həm tərcümə, həm də Tolstoyun romançılığı üzərində düşünmək fürsəti tapır. Pirayeyə yazdığı məktubda deyir: Sizə və sırf sizin üçün çox şadam ki, mən Tolstoyu tərcümə etmişəm. Tərcümə işi ürəyimcə gedir, Tolstoyun tərcüməsindən çox faydalandığımı deyə bilərəm. Yalnız bu şəkildə, tərcümə vasitəsilə mən Tolstoyu bütün böyüklüyünü, dahiliyini və uşaqlığını anladım. Mən həmişə sizin sayənizdə və sizin üçün çox şey öyrənmişəm.26 fevral 1943-cü il" [2]. Əsərdən götürülmüş parçadan da aydın olur ki, Nazim Hikmət həyatındakı çətinlikləri aradan qaldırmaq üçün öz beyin məhsulundan istifadə etsə də, eyni zamanda qazandığı yeniliklərlə özünü kamilləşdirirdi. Yuxarıda qeyd edilən əsəsrin 335 ci səhfəsində yazılır: "Nazim anasını təqlid edərək rəsm çəkməyə başlamışdı. Cəlilə xanımın çəkdiyi rəsm varlı bir qadının uzanmaq üçün seçdiyi hobbi deyil, ehtiras idi. Onun evini tərk edərək rəssam olmaq üçün Parisə getdiyi deyilirdi. Kadıköydə yaşayanda Nazım, anam və mən hərdən onun yanına gedirdik. Otaqları onun çəkdiyi rəsmlərlə dolu idi. Onun evi sözün əsl mənasında rəssamın evi idi. Rəssamlıqdan başqa heç nə düşünmədiyi aydın idi. O, tək yaşayırdı, lakin həmişə çox bəzəkli idi. O, gözəlliyə meyilli insan kimi tanınırdı. Nazım üzünü çox boyadığı üçün əsəbiləşir, deyirlər: "İndi hamısını silməsən, mən gedirəm" deyə qapıya tərəf gedəcəkdi. Celile Xanım boyalarını silmək üçün bizdən ayrılanda anam dedi ki, "Nazım, niyə belə edirsən, o, rəssamdır, üzünü rəsm kimi çəkir, niyə başa düşmürsən!" pıçıldadı. İşin hara aparacağı mənə də maraqlı idi... Nazimin rəsm çəkdiyini ilk dəfə Mithat Paşa malikanəsində yaşayanda görmüşdüm. Ancaq bunlar yağlı boya və ya pastel rəsmlər deyildi. Kömürləmi, ya



yumşaq karandaşlamı, bilmirəm, evdə hamının başı yandan olub. Bilirsən, əyləncə məkanlarında rəssamlar var, sənin şəklini müəyyən pula çəkirlər, onlar kimi... Həmin gün Adnan Qardaş qonaq otağındakı şöminenin qabağına rəsm lövhəsini qoyub özünə yer düzəltdi və biz növbə ilə onun qarşısında oturduq. O da ona oxşayırdı. Vedat Başar həmişə olduğu kimi işin ortasında idi. "Nazım, ac qalmazsan" deyərək yarmarkada tövlə açsa, gündə nə qədər pul qazanacağını hesablayırdı. Fikirləşdim ki, o rəsmlər yoxa çıxıb. İllər sonra bir gün Maslakdakı Adam Nəşriyyatında oturarkən AnaBritannicada işləyən Rasih Nuri İlerin oğlu əlində ikisi ilə yuxarı qalxdı: "Atam bunları ikinci əl kitab mağazasından tapıb alıb, sizə göstərmək istədim..."Onlar Vedat Başar və Leman xalanın şəkilləri idi. Çox təəccübləndim... Necə oldu ki, ikinci əl kitab satanların əlinə keçdilər?

Vedat Başar, Fifinin əri Fəhamət xala. Leman xala isə Fifinin əziz dostudur və mən ona "xala" deyirdim. Kadıköydə mənzildə olduğumuz zaman bizimlə yaşayırdı və tez-tez Mithat Paşa malikanəsinə gəlib gecələyirdi. Kim bilir, digər şəkillər harda idi, kim tərəfindən idi? Nənəm, Fifi, anam, Səlma xalam, Adnan Qardaş, mən, evdə kim idisə, hamımız növbə ilə Nazimin qarşısında oturmuşduq. O gündən Nazimin başqa rəsmini görməyi xatırlamıram. Və kitab oxuyarkən üz qabığına, üz qabığının içərisinə, kənarlarına qələmlə rəsm çəkirdi. Adətən gəmi, yelkənli qayıq, çiçək, əl, göz rəsmləri, qorxulu üzlər...Onun rəsmə olan həvəsi İstanbul İstintaq Təcridxanasında başlayıb və Çankırı Həbsxanasında partlayıb.Yağlı boya, quaş, pastel, karandaş...Həbsxananın içindən görüntülər, məhbusların, Pirayenin, özünün portretləri...Daha sonra Bursa Həbsxanasında ara-sıra şiddətlənərək davam etdi. Düşünürəm ki, bu, onun üçün rahatlaşdırıcı, diqqəti yayındıran bir axtarış idi. Bu, "Bu günlərdə özümü tamamilə rəsm çəkməyə vermişəm" demək kimi bir şey olardı, qalan hər şeyi tərk etdim.Deyilənə görə, Balaban

istedadını hiss edib alətlərini ona təqdim etdikdən sonra rəsm çəkməyib, amma bir gün aclıq aksiyası zamanı Üsküdar Paşakapısı Həbsxanasına getdiyimdə qohumunu tanıdığı üçün necə xoşbəxt olduğunu söylədi. Mehmet Ali Aybar."Birlikdə şəkil çəkirik, o, məndən daha yaxşı rəssamdır" dedi. Bilmirəm, o, həbsdən çıxandan sonra Türkiyədə, yoxsa Sovet İttifaqında rəsm çəkib." (3). Biz artıq gələcəyin böyük insanın şairliklə yanaşı gözəl rəssamlıq qabiliyyətinin haradan gəldiyini, kimdən miras olduğunu gətirdiyimiz bu ixtibasla daha yaxşı ayırd edə bilərik.Uşaq yaşlarından şəkil çəkməyə böyük marağı olan Nazimin ən çox çəkdiyi şəkil poçtalyon rəsmi idi. O, böyüyəndə poçtalyon olmaq istəyirdi. Deyirdi ki, poçtalyon ev-ev gəzir, insanlara xoş xəbərlər gətirir. Böyüdükcə poçtalyon olmağı unutdu. Amma rəssamlıqdan ayrılmadı. Xüsusən həbsxana illərində bir sıra tablolar çəkdi. Böyük sənətkar əlbəttə bilmirdi ki, gün gələcək həmin tablolar onun sevimli İstanbulunda sərgilənəcək, xalqın rəğbətini qazanacaq. Nazim Hikmət həbsxanada ikən anası Ayişə Cəlilə Nazim Hikmətin portretini yaratmışdı. Şairin ən çox çəkdiyi portretlər onun həyat yoldaşı Pirayə xanıma aid idi. Bundan başqa, Nazim Hikmətin Bursa cəza evində həbsxananı təsvir edən əsərləri də sərgilərdə nümayiş etdirilib. 2001-ci ilin yanvar ayında Pirayənin oğlu məşhur ədəbiyyatşünas Mehmet Fuad "Nazim Hikmət. Portretlər" kitabını oxucuların ixtiyarına verdi. Bu kitab Nazimin 100 illiyi ərəfəsində nazimsevərlərə bir ərməğan oldu. Mehmet Fuad bu kitabında Nazim Hikmətin Çankırı və Bursa həbsxanalarında yağlı boya ilə, akvarellə, kömürlə çəkdiyi tablolardan söz açır. Maraqlı faktlardan biri də odur ki, şair məhbəsdə ikən sonralar Türkiyənin məşhur rəssamı olmuş İbrahim Balabana öz boyalarını və fırçalarını hədiyyə etmişdi. İbrahim Balaban da Nazimi həmişə şükranlıqla yad edir, böyük sənətkara minnətdarlığını bildirirdi. Mehmet Fuadın kitabında Nazim Hikmətin çəkdiyi portretlərlə yanaşı onun əl işlərindən nümunələrin-müxtəlif



mücrülərin, çantaların, üzük və digər əşyaların fotoları da verilib. Həm Ayişə Cəlilənin, həm də Nazim Hikmətin rəsm əsərləri sonralar auksionlara da çıxarılıb.

Nazim Hikmət haqqında bir çox tədqiqat işləri aparılıb, kitablar nəşr edilib. Nəinki Azərbaycanda, Türkiyədə, dünyanın bir çox başqa ölkələrində də Nazim Hikmətin şeirləri işıq üzü görür, haqqında əsərlər yazılır. Azərbaycanda və Rusiyada Nazim Hikmətin ilk tədqiqatçısı həmyerlimiz, uzun illər Moskvada yaşayan Əkbər Babayev olub. Əkbər Babayev "Nazim Hikmət" adlı fundamental bir kitabın müəllifidir. Eyni zamanda o, Nazim əsərlərinin tərcüməçisi idi. Nazim Hikmətin Bolqarıstanda çap olunmuş 8 cildliyinin tərtibçisi və redaktoruydu. Bu çoxcildliyə "Ön söz"ü də Əkbər Babayev yazmışdı. Bu gün Əkbər Babayev həyatda yoxdur. Onu Moskvada əvəz edən məşhur türkşünas Tofiq Məliklidir. Tofiq Məlikli filologiya elmləri doktorudur, Moskva Universitetinin professorudur. O da Nazim Hikmət vurğunudur. 2010-cu ildə Moskvada Tofiq Məliklinin "Nazim Hikmət. Poeziya və poetika" kitabı nəşr olunub. Kitabda XX əsrin türk ədəbiyyatı fonunda Nazim Hikmətin bir şair kimi yaratdıqlarına nəzər salınır, şeirlərinin tarixçəsi, poetik dəyəri açıqlanır. Bu dəyərli tədqiqat işinin ən maraqlı fəsillərindən biri Nazim Hikmətin 1951-1963-cü illərə qədərki həyatının əksi olan hissəsidir. Zahirən N.Hikmətin Moskva həyatı çox dəbdəbəli görünürdü. Amma əslində Nazim Hikmət zindandan çıxıb zindana düşmüşdü. Kitabda müəllif yazır ki, Nazim Hikmət 1951-ci ildə Sovet İttifaqına gəldikdən az sonra Berlinə, gənclər festivalında iştirak etmək üçün gedir. Bu səfər boyu hər yerdə onu gizli agent müşayiət edir. Bu agent 1951-ci il avqust ayının 27-də Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinə, xarici əlaqələr komissiyasının sədri olan V.Q.Qriqoryana Nazim Hikmətin Berlin fəaliyyəti haqqında ətraflı hesabat verir. Agent hesabatda yazır ki, festivalda doqquz türk iştirak edirdi. Nazim Hikmət onlarla tez-tez

görüşür, söhbətləşirdi, mən yaxınlaşanda söhbətlərinin mövzusunu dəyişirdilər. Hiss edirdim ki, mənim çıxıb getməyimi istəyirlər. Nazim Suriya, İsrail və Fransa nümayəndə heyətlərinin başçıları ilə və festival iştirakçıları ilə də görüşür, onlarla ancaq fransız dilində danışırdı. Şairin Bolqarıstan səfəri haqqında da V.Q.Qriqoryana hesabat verilmişdi və bu hesabatlar o vaxt Stalinə qədər gedib çatmışdı. Tofiq Məliklinin kitabının bu hissəsində Nazim Hikmətin "İvan İvanıç varmıydı, yoxmuydu" pyesinin taleyi haqqında da məlumat verilib. Məlumatda Sovetlərdə bürokratizmin mövcudluğunu əks etdirən və onu ifşa edən bu pyesin repertuardan çıxarılması, şairin təqiblərə məruz qalması konkret faktlarla göstərilir. Tofiq Məlikli kitabını bu sözlərlə bitirir: "Nazim Hikmət 3 iyun 1963-cü ildə Moskvada dünyasını dəyişdi. Ona həsr olunmuş məqalədə görkəmli rus şairi Yevgeni Yevtuşenko Nazim Hikmətin dünya mədəniyyəti tarixindəki yerini dəqiq ifadə edərək yazmışdı: "Nazim Hikmətin tarixdə oynadığı rol əvvəlcədən müəyyənləşmişdi. O, bu rolu dahiyanə şəkildə yerinə yetirdi." Bəli, Nazim Hikmət təkcə öz xalqının, öz ölkəsinin deyil, bütün dünyanın mədəniyyət tarixində əbədiyaşayacaq ölməz bir simadır. Bu gün 120 yaşlı Nazim Hikmət yaşamaqda davam edir. Onu yaşadanlar dünyanın hər yerində, xüsusən Türkiyədə və Azərbaycandadır. N.Hikmət Türkiyədə şairin adını daşıyan Kültür Və Sanat Vakfının fəaliyyətində, şairin bacısı Samiyə xanımın ardıcılları Rutkay Əziz, Kiymet Coşkun, Tarik Akan kimi fədakar nazimsevərlərin, Vala Nürəddin, Mehmet Fuad, Müjde Gezen, Ruhi Su, Sumeyra, Zülfü Livaneli, Cem Karaca və başqa elm və sənət adamlarının yaratdıqları əsərlərdə əbədiləşib. Nazim, bugün  Azərbaycanda xalq yazıçısı Anarın, xalq artisti, bəstəkar Arif Məlikovun, heykəltəraş Münəvvər Rzayevanın, nazimşünaslardan Əkbər Babayevin, Tofiq Məliklinin, Nəcəfi Nəcəfovun, Qadir İsmayılın, Tofiq Abdinin, Azər Abdullanın, Rəşid Quliyevin, Aytən Babayevanın və başqa tədqiqatçıların ə



Sevinirlər ki, Nazim Hikmət yaşayır, bütün dünyada tanınır. Hətta bir tədqiqatçı Amerikada və İngiltərədə 1930-cu illərdən bəri Nazim Hikmət haqqında yazılanları bir yerə toplayıb kitab çıxarıb. Fransalı rejissor şairin həyatından bəhs edən bir tamaşanı səhnədə canlandırıb. Sevinirlər ki, Müjdət Gezen adlı bir türk, bir nazimsevər çinar ağacına lövhə yapışdırıb, üstündə də yazıb: "Nazim Hikmət burada uyuyur."(Nazim Hikmət vəsiyyət etmişdi ki, öləndə məni Anadoluda dəfn edin. Başım üstündə bir çinar olursa, daş-maş da istəməz.)" Müjdət Gezen bir kitab da nəşr etdirib, adını qoyub "Cizgilərlə Nazim Hikmət". Bugün Türkiyədə Nazim Hikməti yaşadan bir qurum var. Bu qurumun adı Nazim Hikmət Kültür və Sanat Vakfıdır. Nazim Hikmət vakfı şairin bacısı mərhum Samiyə Yaltırım tərəfindən 1991-ci ildə yaradılıb. Nazimin vəfatından sonra Samiyə xanım Bakıya gəlmişdi. Anarla, Arif Məlikovla, Əkrəm Əylisli ilə və başqa sənət xadimlərimiz ilə görüşmüşdü.

## Ədəbiyyat


1. Nazım Hikmət, Mapushanedən Kamal Tahirə məktublar. Adam Nəşrləri, 5-ci nəşr, 1993. s.350
2. Nazım Hikmət, Pirəyə məktublar. Göndərən Memet Fuat. Nâzım Hikmət, Həyatı, Mənəvi Quruluşu, Davranışları, Müzakirələri, Dünyagörüşü, Poeziyasının İnkişafı. Adam Nəşrləri, 5-ci nəşr, 2006, səh. 318.
3. Nazım Hikmət, Pirəyə məktublar. Göndərən Memet Fuat. Nâzım Hikmət, Həyatı, Mənəvi Quruluşu, Davranışları, Müzakirələri, Dünyagörüşü, Poeziyasının İnkişafı. Adam Nəşrləri, 5-ci nəşr, 2006, səh. 335.

# ŞƏMKİRÇAY HÖVZƏSİNİN BAZİDİOMİSET GÖBƏLƏKLƏRİ

**Abdulrəhmanova Nigar**
*Gəncə Dövlət Universiteti*
*rguliyeva87@gmail.com*

Müasir dövrün əsas məsələlərindən biri də ətraf mühitə antropogen təsirin getdikcə artması, bunun da nəticəsində ekoloji vəziyyətin də dəyişməsi ilə bağlıdır. Belə ki, bitki, heyvan, göbələk və biomüxtəlifliyi təşkil edən digər canlıların arasındakı qarşılıqlı münasibət ekosistemin vəziyyətini müəyyənləşdirir. Nəticədə onların dəyişməsinə səbəb olan hər hansı bir amil eyni zamanda bütövlükdə ekosistemin dəyişilməsinə səbəb olur. Bu dəyişiklər nəticəsində mənfi halların yaranmasına səbəb olur ki, onların da təzahür formaları arasında xəstəliklərin sayının, ölüm hallarının çoxalması və s. kimi xoşagəlməz halların müşahidə olunmasıdır. Deyilənləri nəzərə alsaq Azərbaycan şəraitində aydınlaşdırlmasına yönəlik tədqiqatların aparılması aktuallığı ilə seçilən məsələlərdəndir.

2022-2023-cü illər ərzində Şəmkiçay hövzəsində, eləcə də digər geomorfoloji vahidlərinin (Böyük Qafqaz və Kiçik Qafqaz) ərazilərində yerləşən meşələrindən toplanan nümunələrin analizi nəticəsində bazidiomisetlərin 93 növünün yayılması müəyyən olunmuşdur ki, onların da 56-ı Azərbaycanın meşələrində aşkar edilmişdir. Şəmkirçay hövzəsində yayılması qeydə alınan göbələklər, tədqiqatlarda onların yayılması ilk dəfə qeydə alınan substratlar və eləcə də onların substratlarda yayılmasının xarakteri, eləcədə təbii şəraitdə törətdiyi çürümənin rəngi və s. haqqında məlumatlar aşağıdakılardan ibarət olmuşdur.

*Armillaria mellea* (Vahl) P. Kumm. göbələyinə canlılığını tam saxlayan Adi vələsdə rast gəlinmişdir, yəni biotrofdur və substrat



spesifikliyinə malik deyil, yəni evritrofdur və təbii şəraitdə törətdiyi çürümənin rəngi isə ağdır. Yeməli göbələklərdən hesab edilir.

*Bjerkandera adusta* (Fr)Karst. Adi qovağın ksilomikobitasının formalaşmasında iştirak edən bu növdə evritroflara xas olan xüsusiyyətlər daşıyır və ağ çürümə törədicisidir. Konstensiyasının möhkəm olmasına görə göbələk yeməli hesab edilmir.

Bu göbələk Azərbaycan şəraitində ən geniş tədqiq edilənlərdəndir, belə ki, onun müxtəlif ştammları həm yüksək fermentativ aktivliyə, həm də bitki tullantılarını effektiv şəkildə konversiya etmək qabiliyyətinə malik olması müəyyən edilibidr.

*Cerrena unicolor* (Bull.) Murrill. Tədqiqatlarda göbələyin MC-nin Şərq fıstığının qurumaqda olan kötüyündə məskunlaşması müəyyən edilmişdir. Evritrof və ağ çürümə törədicisidir. Yeməli olması haqqında ədəbiyyat məlumatı olmasa da, onun yeməli olmaması da təsdiqini birmənalı şəkildə tapmayıbdır.

*Crepidotus applanatus*(Pers.)P.Kumm. Şərti stenotrof kimi xarakterizə olunan bu göbələyin MC-i qurumuş Adi vələsin kötüyündə aşkar edilmişdir. Bu göbələyin təbii şəraitdə çürümənin rəngi ağdır. Yeməli hesab olunmur.

*Daedalea quercina* (L.) Pers.. Şabalıdyarpaq palıdın mikobiotasının formalaşmasında iştirak edən bu göbələk də evritriflara xas xüsusiyyətlər daşıyır. Palıd bitkisinin oduncağının möhkəm olmasına baxmayaraq, göbələyin təbii şəraitdə törətdiyi çürümənin rəngi qonurdur, yəni göbələk liqninin deqradasiyasını həyata keçirən ferment sisteminə malik deyil. Kostisensiyasının möhkəm olmasına görə yeməli deyil.

*Fistulina hepatica* (Schaeff.) With. Göbələyin MC-nə tədqiqatların gedişində yalnız canlılığını saxlamaqda, lakin zəifləmiş Şərq fıstığında aşkar edilmişdir. Buna baxmayaraq, ədəbiyyat məlumatlarına əsasən onu Azərbaycan şəraitində evritrof hesab etmək

mümkündür. Törətdiyi çürümənin rəngi isə qonurdur. Yeməli göbələklərdən hesab edilir.

*Flammulina velutipes* (Curtis) Singer. Göbələyə aid MC canlı Şərq fıstığında aşkar edilmişdir və tədqiqatlar onun da evritroflara xas xüsusiyyət daşımasını qeyd etməyə imkan vermişdir. Göbələyin təbii şəraitdə ağ çürümə törətməsi müəyyən edilmişdir.

*Fomes fomentarius (L)Fr. – Tədqiqatlarda yalnız canlı ağaclarda məskunlaşması müəyyən edilən, evritroflara xas xüsusiyyətlər daşıyan bu göbələk ilk dəfə Adi qovaqda aşkar edilmişdir. Ümumiyyətlə Azərbaycan şəraitində geniş yayılan bu növ təbii şəraitdə ağ çürmə törədicisidir. Təbii şəraitdə əmələ gətirdiyi MC-nin kosistensiyası həddindən artıq möhkəm, demək olar ki, ağaclaşmış halda olmasına görə yeməli deyil, lakin göbələyin dərman əhəmiyyəti daşıması haqqında da ədəbiyyat məlumatlarına rast gəlinir.*

*Fomitopsis annosa* (Fr.) P. Karst. Adi cökədə (canlı) məskunlaşan göbək eritroflara xas xüsusiyyətlər daşıyır. Törətdiyi çürümənin rəngi qonurdur və yeməli hesab edilmir.

*F.cytisina* (Berk.) Bondartsev & Singer. Adi tutun (canlı) mikobiotasının formalaşmasında iştirak edən göbələk evritrofdur. Təbii şəraitdə baş verməsinə səbəb olduğu çürümənin rəngi qonurdur.

*F.nigrescens* (Bres.) Bondartsev & Singer. Bu göbləyin MC-i canlılığını tam saxlayan Adi vələsdə aşkar edilmişdir və evritroflara xas xüsusiyyətlərin daşıyıcısıdır. Qonur çürümə törədicisidir.

*F.pinicola* (Sw.:Fr.) P.Karst. Evritroflara xas xüsusiyyətlər daşıyan göbələyin MC-nə canlı cökədə rast gəlinmişdir. Azərbaycan şəraitində geniş yayılan göbələklərdəndir, lakin onun törətdiyi çürümənin rəngi qonur olduğuna görə, liqnosellüloza tərkibli substratların təbii şəraitdə baş verən deqradasiya prosesində yetərincə aktiv iştirak edə bilmir. Buna baxmayaraq, göbələyin geniş yayılması



onun yayıldığı biotoplarda baş verən proseslərdə nəzərə alınmasının zəruri olmasını da qedy etməyə imkan verir.

*F.rosea* (Alb. Et Schwein.:Fr.) P.Karst. Evritrof kimi xarakterizə olunan göbələyin MC-I Şərq fıstığına aid canlı kötükdə aşkar edilmişdir. Fomitopsis cinsinə aid digər göbələklər kimi bu göbələk də qonur çürümənin bş verməsinə səbəb olan növlərdəndir.

*Ganoderma adspersum* (Schulzer) Donk. Proceedings van de Koninklijke Nederlandse Akademie van Wetenschappen Section C 72: 273 (1969). Bu göbələk dünyada, eləcə də Azərbaycanda geniş yayılan növlərdən hesab edilmir, buna baxmayaraq onun bu və ya digər ağaclarda məskunlaşması ilə bağlı ədəbiyyat məlumatlarına rast gəlinir. Onun Azərbaycanda geniş yayılmamasını tədqiqatların gedişində ona aid cəmisi 12 MC-nin aşkar edilməsi də təsdiq edir. Düzdür, tədqiq edilən iri geomorfoloji vahidlərin hamısında göbələyin MC-I aşkar edilsə də, digərləri ilə müqayisədə xeyli azdır.

Qeyd etmək lazımdır ki, bazidili göbələklər, xüsusən də onların ksilotrof makromisetlərə aid olan növləri hifal sistemlərinin mürəkkəbliyi ilə də xarakterizə olunurlar və onun formalaşmasında 6 tip hif iştirak etsə də, onların əsasən 3-nün iştirakı ilə formalaşan hifal sistemlər göbələklərin xarakteristikası zamanı qeyd edilir.

## AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRƏ BÖYÜK QAYIDIŞA DAİR I DÖVLƏT PROQRAMINDA TƏHSİL İNFRASTRUKTURUNUN BƏRPASI VƏ İNKİŞAFI HAQQINDA

**Adıgözəlov Səxavət**
*Davamlı inkişafın idarə edilməsi*
*sakhavat.adigozalov@gmail.com*

**Xülasə**
Ermənistan silahlı qüvvələrinin 2020-ci ilin sentyabrında Azərbaycana qarşı hərbi təxribat törətməsi və Azərbaycan silahlı qüvvələrinin əzəli torpaqlarını azad etmək üçün əks hücuma keçməsi Vətən müharibəsinə səbəb olub. Azərbaycan xalqı torpaqlarını işğaldan azad edib və ölkə ərazilərin yenidən qurulması, bərpası və davamlı inkişafı diqqət mərkəzində saxlanılmaqda davam edir. Azərbaycan Prezidentinin 2021-ci ilin fevralında "Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri", 2022-ci ilin iyulunda isə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası" təsdiq edilib. Dövlət tərəfindən işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Proqramı hazırlanıb, əsas diqqət bərpa və tikinti işlərinə, məqsədlərə, hədəf göstəricilərə, risklərin idarə olunmasına yönəlibdir. Proqram Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına aid olunur və 2023-2026-cı illər üçün ümumi və məktəbəqədər təhsil müəssisələrinin tikintisi və bərpasını nəzərdə tutur. Sosial-iqtisadi ehtiyacları ödəmək və tarixi təhsil ənənələrini qorumaq üçün Qarabağ Universitetinin yaradılması məsələsi də proqrama daxildir. Proqramda regional tibb təhsili müəssisələrinin tikintisi və onların yaradılması ilə bağlı təkliflər də yer alıb.

2020-ci il sentyabrın 27-də 44 gün ərzində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı



cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan Vətən müharibəsi Azərbaycan xalqının tarixi qələbəsi ilə başa çatmış və işğal olunmuş ərazilər rəşadətli Azərbaycan Ordusu tərəfindən azad edilmişdir.

Otuz ilə yaxın müddət ərzində Azərbaycan Respublikasının güclənməsi naminə aparılan uzaqgörən xarici siyasətin və görülən sistemli işlərin məntiqi davamı işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası və dayanıqlı inkişafının, milli iqtisadiyyata sürətli inteqrasiyasının və bu ərazilərə Böyük Qayıdışın təmin edilməsidir.

Yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilmişdir. Bu prioritetlərə söykənən Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) hazırlanmışdır.

Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, Dövlət Proqramının prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapmışdır. Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin

sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ilə təsdiq edilmiş iqtisadi rayonların yeni bölgüsünə uyğun olaraq Dövlət Proqramının əhatə dairəsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir.

2023-2026-cı illər üçün əhalinin geri qayıdışına əsaslanaraq mərhələli şəkildə ümumi (bölgələrin xüsusiyyətlərini nəzərə alaraq müxtəlif təmayüllü məktəblər, liseylər və gimnaziyalar, internat tipli xüsusi ümumtəhsil məktəbləri, inteqrasiya təlimli internat tipli məktəblər) və məktəbəqədər təhsil müəssisələrinin tikintisi və bərpası həyata keçirilməlidir.

Ərazi planlaşdırma sənədlərinə uyğun olaraq, yaşayış məntəqələrində təhsil müəssisələrinin tikintisi və bərpası ilə bağlı təkliflər hazırlanmasında ayrı ayrı ərazilərdə məktəblərin sayları da verilir. Şuşa rayonunda 7, Ağdam rayonunda 29, Füzuli rayonunda 23, Zəngilan rayonunda 21, Kəlbəcər rayonunda 30, Laçın rayonunda 21, Qubadlı rayonunda 16, Cəbrayıl rayonunda 25, Xocavənd rayonunda 20, Tərtər rayonunda (Suqovuşan və Talış kəndləri daxil olmaqla) 5 məktəbəqədər və ümumi təhsil müəssisəsinin tikintisi və bərpası Ərazilərdə ümumi və məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinin təmin edilməsi nəzərdə tutulur.

Ərazilərin iqtisadi potensialı və əmək bazarının tələbləri nəzərə alınmaqla, peşə və orta ixtisas təhsili müəssisələrinin fəaliyyətinin təmin edilməsi 9 təhsil müəssisəsinin, o cümlədən 8 peşə təhsili və 1 orta ixtisas təhsili müəssisəsinin tikintisinin və bərpasının layihələndirilməsi, 4 təhsil müəssisəsinin, o cümlədən 3 peşə təhsili və 1 orta ixtisas təhsili müəssisəsinin tikintisinə və bərpasına başlanılması nəzərdə tutulur.

Nüfuzlu xarici təhsil müəssisəsinin filialının yaradılması istiqamətində təşviqedici tədbirlər görülməsi qarşıya qoyulmuşdur.



Əhalinin rəqəmsal bilik və bacarıqlarının artırılması məqsədilə təlimlərin təşkili də vacib məsələlərdəndi. Azərbaycan Respublikasının Prezidentı İlham Əliyev "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalayıb. Sərəncama görə, regionun social iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradıldı.

## DAHİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN GƏNCLİYİNƏ QAYĞISI

**Ağayeva Nilufər**
*Naxçıvan Dövlət Universiteti*
nuraagaoglu@gmail.com

Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı həm müstəqilliyimizin, həmdə gəncliyimizin xilası olmuşdur. Onun hakimiyyətə gəlişindən sonra gənclərlə iş əsas sahələrdən birinə çevrildi. Belə bir məqamda hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyev ilk görüşünü məhz gənclərlə keçirdi. 22 sentyabr 1993-cü ildə Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşündəki çıxışında onlara dərin inam bəslədiyini ifadə etdi. Onun "Azərbaycanın bugünkü gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir" -sözləri hər kəsin həyat devizinə çevrildi [5].

Ulu öndər Heydər Əliyevin 26 iyul 1994-cü il tarixli, 861 saylı qərarı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yaradıldı. Bunun yaradılmasında məqsəd Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və öz problemlərinin həllində rolunu artırmaq,

ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək, paytaxt və regionlarda yaşayan gənclərin fikir mübadiləsinə şərait yaratmaq, gənclər və dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyəti asanlaşdırmaq məqsədi daşıyırdı [1]. Dahi liderin Azərbaycan gəncliyinə göstərdiyi qayğının nəticəsi olaraq 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürülmüş və 2 fevral 1996-cı ildə isə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi [2, s.161-162]. Ümummilli lider Heydər Əliyevin 1 fevral 1997 -ci il sərəncamı ilə 2 fevral Azərbaycanda Gənclər günü kimi qeyd edilir. Bundan sonra MDB və Şərqi Avropada gənclər günü qeyd olunmağa başlandı. Dünyada isə yalnız 1999-cu ildə BMT-nın qərarı ilə avqustun 12 gənclər günü elan edildi. Bunda deməyə əsas var ki, uzaqgörən ulu öndər olan Heydər Əliyevin həyata keçirdiyi siyasət özünəməxsusluğu və unikallığı ilə hətta dünya ölkələrini belə qabağlayıb. Ümummilli lider Heydər Əliyev gənclərin idmana cəlb edilməsinə diqqətlə yanaşırdı. Onun səyləri nəticəsində Azərbaycan ilk dəfə müstəqil bir dövlət kimi 1996- cı ildə Olimpiya oyunlarına qatıldı.

1999-cu ilin 2 mart tarixində Azərbaycanda Gənclərin II Forumu keçirilmiş, bu zaman dahi lider Heydər Əliyev qeyd etmişdir ki, respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətinin gənclərin problemlərinin həllinə yönəltmələri vacibdir. Ümummilli lider Heydər Əliyev tərəfindən 1999-cu ildə imzalanan "Dövlət Gənclər siyasəti haqqında" fərman dövlətimiz tərəfindən gənclərə verilən dəyərin yüksək səviyyədə olmasınının ən bariz nümunələrindən biridir [4].

Ümumiyyətlə təhsilli gənclərin yetişdirilməsi daima dahi lider Heydər Əliyevin daima diqqət mərkəzində idi. Onun qeyd etdiyi kimi müstəqilliyi əldə etmək çətindir, lakin qoruyub saxlamaq ondan da çətindir [3, s. 131]. Bunun üçün isə ölkədə savadlı, yüksək



intellektli, vətənpərvər gənc nəsil yetişdirməlidir. Təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti bu gün prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. "Azərbaycan" qəzeti, 1994, 27 iyul.
2. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Beşinci kitab. Bakı: Azərnəşr, 1998, 500 s.
3. Əliyev İlham. İnkişaf- məqsədimizdir. İyirmi ikinci kitab.Bakı: Azərnəşr, 2015, 384 s.
4. Gənclərin xaricdə ali təhsili "525-ci" qəzet, 2022, 23 avqust.
5. Müasir gənclər siyasətinin banisi. "İki sahil" qəzeti, 2023, 31 yanvar.

## MƏLUMATA ƏSASLANAN MARKETİNQ: BÖYÜK MƏLUMATLARIN MARKETİNQ STRATEGİYASINA TƏSİRİ MƏNZƏRƏSİ

**Aslanzadə Səidə**
**Mirzəyeva Gülnar, dosent**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası,magistrant*
*seideaslanzade@gmail.com*

Müasir biznesin dinamik mənzərəsində böyük verilənlərin meydana gəlməsi marketinq strategiyalarının özünü yenidən formalaşdırmasına gətirib çıxardı. Məlumata əsaslanan anlayışlar və strateji qərarların kəsişməsində dayandığımız üçün böyük məlumatların

sadəcə bir vasitə deyil, marketinq metodologiyalarını yenidən müəyyən etmək üçün katalizator rolunu oynayır və onu araşdırmaq çox vacibdir.

Rəqəmsal texnologiyaların yayılması hər bir istehlakçı ilə qarşılıqlı əlaqənin iz buraxdığı bir dövrün başlanğıcını qoydu. Təşkilatların ciddi şəkildə istifadə etdiyi əvəzolunmaz rəqəmsal iz. Bu tezis böyük məlumatların marketinq təcrübələrinə təsir göstərdiyi çoxşaxəli yolları araşdırmağa çalışır, fərdiləşdirilmiş müştəri cəlb edilməsinin xırdalıqlarından tutmuş bazarın yerləşdirilməsi və rəqabət qabiliyyətini formalaşdıran ümumi strategiyalara qədər.

Ümumilikdə, böyük məlumatların təsirinin marketinq departamentlərinin hüdudlarından kənara çıxdığını qəbul etmək vacibdir; təşkilati strukturlara nüfuz edir, qərar qəbuletmə proseslərini yenidən formalaşdırır, yeni problemlər və imkanlar təqdim edir. Məlumat analitikası və marketinq strategiyası arasındakı qarşılıqlı əlaqə təkcə bir tendensiya deyil, həm də getdikcə daha çox məlumat mərkəzli bir dünyada inkişaf etmək istəyən bizneslər üçün nəticələrin hərtərəfli başa düşülməsini tələb edən əsas dəyişiklikdir.

Marketinq strategiyasının qurulmasında Böyük Verilənlərdən istifadənin müsbət aspektləri:

1) Hədəfləmədə Dəqiqlik:
Böyük məlumat marketoloqlara istehlakçı davranışı, üstünlükləri və demoqrafik göstəriciləri ilə bağlı ətraflı məlumat verir. Bu dəqiqlik mesajların xüsusi auditoriya seqmentləri ilə rezonans yaratmasını təmin edərək yüksək hədəflənmiş və fərdiləşdirilmiş marketinq kampaniyalarına imkan verir.

2) Təkmilləşdirilmiş Müştəri Anlayışı:
Geniş məlumat dəstlərini təhlil edərək, müəssisələr müştərilərini daha dərindən başa düşürlər. Bu anlayış əsas demoqrafik göstəricilərdən kənara çıxır və şirkətlərə daha mənalı və uyğun müştəri təcrübələri yaratmağa imkan verən davranış nümunələrini əhatə edir.



3) Real vaxtda qərar qəbul etmə:
Böyük məlumatlar real vaxt analitikasını təmin edir, marketoloqlara bazar dəyişikliklərinə və müştərilərlə qarşılıqlı əlaqəyə sürətlə reaksiya verməyə imkan verir. Bu çeviklik, vaxtında qərarların rəqabət üstünlüyü ola biləcəyi bugünkü sürətli biznes mühitində çox vacibdir.

Böyük Verilənlər ilə əlaqəli problemlər:

1) Məlumat məxfiliyi:
Böyük miqdarda fərdi məlumatların toplanması, etik istifadəsi və məxfilik problemlərini artırır. (və ləri azalt)!!!Marketinq məqsədləri üçün məlumatlardan istifadə etmək və fərdi məxfiliyə hörmət etmək arasında düzgün tarazlığın yaradılması mürəkkəb bir problemdir.

2) İcra dəyəri:
Böyük verilənlərin effektiv istifadəsi üçün tələb olunan infrastruktur və texnologiya baha başa gələ bilər. Xüsusilə kiçik və orta müəssisələr lazımi sistemlərin tətbiqi və saxlanmasında çətinliklərlə üzləşə bilər.
Bu çətinlikləri həll edərkən təşkilatlar marketinq üçün böyük verilənlərin tam potensialını aça, onun müsbət aspektlərindən istifadə edərək, əlaqəli məsələləri məsuliyyətlə həll edə bilərlər.

Rəqəmsallaşma dövründə texnologiya və marketinqin inteqrasiya olunması biznesin öz strategiyalarını necə konseptuallaşdırması və həyata keçirməsi ilə bağlı dəyişikliklərin olmasına gətirib çıxardı. Şirkətlər istehlakçı davranışı, üstünlükləri və tendensiyaları haqqında məlumat əldə etmək üçün böyük məlumatlardan istifadə etdikcə, araşdırmanın məqsədi ənənəvi marketinq metodologiyalarına transformative təsirləri aşkar etməkdir.

**Ədəbiyyat**

1. Bharti Kalra, Suryakant Yadav, Dr D.K. Chauhan, Review of Issues and Challenges with Big Data, International Journal of

Computer Science and Information Technology Research, Vol.2, Issue 4, pp:(97-101), Month: October-December 2014
2. Əliquliyev R.M., Hacırəhimova M.Ş. “Big Data” phenomenon: problemlər və imkanlar, İnformasiya texnologiyaları problemləri, 2014, №2, səh. 3-16.

## RƏQABƏT QABİLİYYƏTİNİN BƏZİ NƏZƏRİ ASPEKTLƏRİ

**Babayev Fərhad**
*Azərbaycan Texnologiya Universiteti, doktorant*
*babayev.farhad@internet.ru*

Rəqabət iqtisadi resurslar uğrunda mübarizədə təsərrüfat subyektlərinin qarşıdurması, istehlakçıların tələbatını ödəmək və əsas məqsədə çatmaq yolu ilə satış bazarında öz məhsullarını satış bazarında ən yaxşı şəraitlə təmin etmək üçün müxtəlif müəssisə və təşkilatların qarşılıqlı əlaqə prosesidir.

Marketinq sistemi təsərrüfat subyektləri arasında bütün əlaqələri və informasiya axınlarını nəzərə almaqla təşkilat və ya müəssisəni ayrıca bir qurum kimi deyil, digər bazar subyektləri ilə birlikdə nəzərdən keçirir. Təşkilatın fəaliyyət göstərdiyi mühit, onun şərtləri müəssisənin marketinq mühiti adlanır. F.Kotlerin tərifinə görə, marketinq mühiti təşkilatdan kənar fəaliyyət göstərən və müəssisənin marketinq xidmətinin potensial müştərilərlə uğurlu əməkdaşlıq imkanlarına təsir edən subyektlər, amillər və şərtlər məcmusudur [1,2]. Müəssisənin marketinq mühiti bir neçə komponentdən ibarətdir:

- mikromühit;
- makro mühit.

Mikromühit birbaşa müəssisənin özü və müştəri ehtiyaclarını ödəmək qabiliyyəti ilə əlaqəli olan qüvvələri təmsil edir. Buraya



təchizatçılar, marketinq vasitəçiləri, rəqabət aparan təşkilatlar və müəssisələr və digərləri daxildir. Makromühit isə mikromühitə təsir edən daha geniş spektrli təsirlərin qüvvələrini təmsil edir. Bunlara demoqrafik, iqtisadi, texniki və siyasi amillər daxildir. Beləliklə, belə nəticəyə gəlmək olar ki, rəqabət müəssisənin mikromühitinin tərkib hissəsidir və onun öyrənilməsi və təhlili olmadan müəssisənin bazarda fəaliyyəti üçün optimal strategiya hazırlamaq mümkün deyil.

Rəqiblərin (konkurentlərin) nə olduğuna dair çoxlu sayda təriflər var. Rəqiblər marketinq sisteminin subyektləridir və bu anlayışı bu tərəfdən nəzərə alsaq, aşağıdakı tərifi verə bilərik. *Rəqiblər* eyni məhsul və ya oxşar xüsusiyyətlərə və keyfiyyətlərə malik məhsullar istehsal edən və onları eyni bazar seqmentlərində satan müəssisə və ya təşkilatlardır. Rəqabət edən firmaların olması iqtisadiyyatda rəqabət kimi bir hadisənin yaranmasına səbəb olur. İqtisadi nöqteyi-nəzərdən rəqabət tədarükçülər, ayrı-ayrı məhsul istehsalçıları arasında qarşılıqlı əlaqə prosesi və məhsulların istehsalı və satışı üçün ən əlverişli şərait üçün onlar arasında mübarizədir. Başqa sözlə, rəqabət eyni məqsədə çatmağa, yəni mümkün olan maksimum mənfəəti əldə etməyə çalışan ayrı-ayrı sahibkarlıq subyektləri ilə fiziki şəxslər arasında rəqabətdən başqa bir şey deyil.

Daha dar mənada rəqabəti eyni bazar seqmentlərində istehlakçı tələbi uğrunda müəssisə və təşkilatların mübarizəsi kimi xarakterizə etmək olar [3]. Bu təriflərdə marketinq baxımından aşağıdakı məqamlar vacibdir:

1. Əsas ideya ondan ibarətdir ki, məhsul istehsal edən və ya xidmət təklif edən və öz mallarını bazara çıxarmaqda rəqabət aparan müəssisə və təşkilatlar arasında qarşılıqlı əlaqə mövcuddur.

2. Mübarizə məhdud istehlak tələbi üçün gedir. Məhz mal və xidmətlərə tələbin məhdud olması rəqabət aparan müəssisələri bir-biri ilə mübarizə aparmağa məcbur edir. Təsəvvür etsək ki, istehlakçıların tələbatını bir müəssisənin məhsulları ödəyirdi, onda

digər müəssisələr də öz məhsullarını satmaq imkanından məhrum olardılar. Əgər istehlakçı tələbi məhdudlaşdırılmırsa, o zaman eyni məhsulu istehsal edən müəssisələr arasındakı əlaqəni rəqabətdən daha çox kooperasiya adlandırmaq olar.

3. Rəqabət yalnız müəssisələr üçün əlçatan olan bazar seqmentlərində inkişaf edir. Buna görə də, rəqabət amillərinin təzyiqini azaltmaq üçün müəssisə digər şirkətlər üçün əlçatmaz olan, rəqabətin o qədər də güclü olmadığı bazar seqmentlərinə daxil ola bilər.

## Ədəbiyyat


1. Кротков А.М., Еленева Ю.Я. Конкурентоспособность предприятия: подходы к обеспечению, критерии, методы оценки // Маркетинг в России и за рубежом. 2013. № 6. С. 59–68.
2. Мартынова О.К. Контроль качества на предприятии // Приложение к журналу «Стандарты и качество». 2015. № 5. С. 35–43.
3. Нешитой А., Сухарев О. Конкурентоспособность и условия воспроизводства // Экономист. 2015. № 3. С. 3–13.




# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİNDƏKİ UĞURLARI


**Babayeva Məlahət**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*ADPU, Ədəbiyyat kafedrasının dosenti f.ü.f.d.,*
*milababayeva@mail.ru*
*https://orcid.org/0000-0002-3600-8499*


***Açar sözlər:*** *Ümummilli lider, Heydər Əliyev, ulu öndər, gənclər siyasəti*

Ölkəmizdə dövlət gənclər siyasətinin əsası xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər hər zaman gənclərə xüsusi qayğı ilə yanaşmış, gənclərin problemləri hər an onun diqqət mərkəzində olmuş, yüksək intellektual səviyyəyə, müasir dünyagörüşünə malik gənc nəslin yetişməsinə olduqca böyük əhəmiyyət vermişdir. Heydər Əliyevin Azərbaycan gəncliyinə böyük qayğısı təkcə müstəqillik illərində deyil, hələ Sovet dönəmində də aşkar müşahidə olunurdu. Belə ki, ötən əsrin 70-ci illərində məhz Ümummilli liderin təşəbbüsü və gərgin səyləri nəticəsində on beş mindən artıq azərbaycanlı gənc SSRİ-nin 170-dən çox təhsil müəssisəsində ali təhsil almışlar. Bu addım Azərbaycanda ən müxtəlif sahələr üzrə peşəkar kadr bazasının formalaşmasına xidmət etmişdir. Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərindəncə digər sahələrin inkişafı ilə yanaşı, gənclərin üzləşdikləri problemlərin həlli də Heydər Əliyev üçün prioritet təşkil etmişdir. Ölkənin siyasi həyatında heç də ürəkaçan hadisələrin baş vermədiyi bir vaxtda, 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması sübut edirdi ki, Ulu öndər ölkənin gələcəyini birbaşa gənclərin hərtərəfli inkişafı

ilə bağlayırdı. Beləliklə, Ulu öndər dövlət başçısı kimi fəaliyyətə başladığı ilk dövrlərdən gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlətin və cəmiyyətin prioritet vəzifəsi səviyyəsinə yüksəltmişdir. Bu istiqamətdə yorulmadan böyük işlər görməklə Ümummilli lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının yüksək səviyyədə təmin edilməsinə nail olmuşdur. Ulu öndərin hakimiyyətinin ilk illərindən gənclərə yüksək qayğı göstərməsini bir daha sübut edən məqamlardan biri də ondan ibarətdir ki, O, 1995-ci ildə Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürmüşdür.

2 fevral 1996-cı il tarixdə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilmişdir. Forumda Ümummilli liderin özü şəxsən iştirak etmişdir. Bunun ardınca, 1 fevral 1997-ci il tarixdə ilk forumun ildönümü münasibəti ilə gənclərlə görüşən Ümummilli lider "2 fevral - Azərbaycan Gəncləri gününün elan edilməsi haqqında" Sərəncam imzalamışdır. Məhz həmin tarixdən etibarən hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi böyük təntənə ilə qeyd olunur. Ulu öndər gənclərlə bağlı siyasətinə hər zaman yeni nəfəs vermiş, bu siyasətin davamlı xarakter almasını şərtləndirmişdir. Belə ki, Ümummilli lider Heydər Əliyev 2 fevral 1998-ci ildə Azərbaycan Gəncləri gününün ildönümü münasibətilə keçirilən bədii-idman bayramında tarixi çıxış etmiş və gənclərə müraciət ünvanlamışdır. Ulu öndər gənclərə müraciət edərək demişdir: "Mən sizi gördükcə daha da ruhlanıram, siz Mənə daha da ilham verirsiniz və sizdən ilham alaraq Azərbaycanı daha da qüdrətli etməyə çalışıram. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, Azərbaycanın Prezidenti sizin - gənclərimizin bütün hüquqlarının qorunmasının təminatçısı olub və bundan sonra da təminatçısı olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan gənclərinin yaxşı yaşaması, təhsil alması üçün, yaxşı əmək fəaliyyəti göstərməsi üçün bundan sonra da əlimizdən gələni



edəcəyik".

Azərbaycan gəncliyinə böyük qayğısının davamı kimi Ulu öndər 1999-cu ildə "Dövlət Gənclər Siyasəti haqqında" Fərman imzalamışdır. Fərmana müvafiq olaraq "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və 9 aprel 2002-ci il tarixdə Heydər Əliyev tərəfindən imzalamışdır. Beləliklə, Ulu öndər gənclər siyasətini düzgün və uğurlu formalaşdırmaqla dövlətin sağlam təməlini qoymuşdur.

Təqdirəlayiq haldır ki, Ümummilli liderin əsasını qoyduğu gənclər siyasətini davam etdirən Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətinin ilk dövrlərindən başlayaraq ardıcıl imzaladığı fərmanlarda, verdiyi tapşırıqlarda kadr potensialına, xüsusilə də gənclərin təhsilinə, sağlamlığına, asudə vaxtının səmərəli təşkilinə diqqət yetirir. Gənc istedadların aşkar edilməsi, onların potensial imkanlarının inkişaf etdirilməsi və yüksək səviyyəli təhsil alması üçün əlverişli şəraitin yaradılması da gənclər siyasətinin prioritet istiqamətlərindən biridir. Prezident İlham Əliyevin 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq olunması haqqında" və 2006-cı il aprelin 17-də imzaladığı "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)", 2011-ci il iyulun 7-də imzaladığı "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramının təsdiq olunması haqqında" sərəncamlar mövcud siyasətin daha da inkişaf etdirilməsinə təkan verərək gənclərin istedadının aşkara çıxarılmasında, ictimai fəallığının artırılmasında, onların dövlət idarəçiliyinə cəlb olunmasında, sosial-iqtisadi problemlərinin həllində mühüm rol oynayıb. Həyata keçirilən Dövlət proqramları müasir Azərbaycan gəncliyinin dövrün tələbləri səviyyəsində hərtərəfli inkişafına möhkəm zəmin yaradıb.

Prezident İlham Əliyevin gənclərlə görüşlərinin birində söylədiyi kimi, ölkəmizdə uğurlu gənclər siyasəti həyata keçirilir: "Azərbaycanda gənclər siyasəti çox uğurlu aparılır. Bu siyasətin təməlini Ulu öndər qoymuşdur. Heydər Əliyevin təşəbbüsü ilə gənclər siyasətinin əsas konturları müəyyən edilmişdir. Son 20 il ərzində Azərbaycanda bu siyasət çox uğurla aparılmışdır. Artıq bu illər ərzində, müstəqillik dövründə gənclər yetişiblər və ölkəmizin həyatında mühüm rol oynayırlar.

Dövlətin siyasəti ondan ibarətdir ki, Azərbaycan gəncləri bilikli, savadlı, vətənə bağlı olsunlar və ölkəmizin gələcək inkişafına töhfələrini versinlər. Gənclərin vətənpərvərlik ruhunda böyümələri də çox mühüm əhəmiyyət daşıyır".

Bildiyimiz kimi, gənclərin hərtərəfli şəxsiyyət kimi yetişməsində, cəmiyyətdə özünə layiqli yer tutmasında keyfiyyətli təhsilin rolu həlledicidir. Məhz dövlət başçısının təhsilə diqqət və qayğısının nəticəsi olaraq, təhsil infrastrukturunun müasir tələblərə uyğun qurulması, təhsilin məzmununun yeniləşdirilməsi, yeni dərslik siyasətinin reallaşdırılması, təhsil-müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi və təhsil sisteminin informasiyalaşdırılması, məktəbəqədər, texniki peşə, ali təhsil, xaricdə təhsil, istedadlı uşaqların inkişafı, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili və digər bu kimi sahələrdə mühüm irəliləyişlər və uğurlar əldə olunub.

Məlum olduğu kimi, Azərbaycanda 4500-ə yaxın məktəb mövcuddur. Onlardan 2700-dən çoxu son on ildə tikilib və ya əsaslı təmir edilib. Həmçinin, son illərdə yüzlərlə uşaq bağçasının, bir çox ali məktəblərin yeni tədris korpuslarının, idman-olimpiya komplekslərinin tikilərək istifadəyə verilməsi də yeni nəslin hərtərəfli formalaşmasına töhfədir.

Bundan əlavə, dövlət başçısının "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət



Proqramı"nın təsdiq edilməsi barədə Sərəncamı gəncliyə göstərilən diqqətin parlaq təzahürüdür. Bölgələrə səfəri zamanı gənclərlə görüşlərinin birində Prezident İlham Əliyevin söylədiyi kimi, gənclərin xarici ali məktəblərdə təhsil almasına dövlət dəstəyi 2015-ci ildən sonra da davam etdiriləcək.

Gənclərin vətənpərvər ruhda tərbiyəsi, onların intellektual potensialından ölkənin sürətli inkişafı prosesində mühüm element kimi istifadə olunması həm də yeni nəslə göstərilən etimaddan xəbər verir.

## GƏNCƏ-DAŞKƏSƏN ƏRAZİSİNDƏ TURİST CƏLBEDİCİLİYİNİN YAXŞILAŞDIRILMASI YOLLARININ ARTIRILMASI

**Bağırov Seymur**
*Azərbaycan Texnologiya Universiteti*
seymurb939@gmail.com
**Əmrahov V.T.**
*Azərbaycan Texnologiya Universiteti,dosent*
amrahovvt@gmail.com

**Xülasə**

Tezisdə ərazinin turizm potensialına çevrilməsi məsələləri, qəbul olunmuş dövlət proqramları, layihələr və bu kimi dövlət əhəmiyyətli tədbirlər bu regionun inkişafına təkan verməsi göstərilmiş və ərazinin turizm potensialının artırılması yollarından bəhs edilmişdir.

Müasir dövr bildiyimiz kimi, qeyri neft sektorunun inkişafına yönəldilmişdir, bunlardan başlıcası isə turizm sənayesidir.Ölkəmizdə turizm sektorunu inkişaf etdirmək üçün müxtəlif resurlarla zəngindir, lakin bütün ölkələrdə olduğu kimi Azərbaycanda da turizm problemi

var, belə ki, insanlar hər il yalnız qısamüddətli səyahətlər edə bilirlər. Ölkəmiz müxtəlif iqlim şəraitinə malik olsa da, bu problemə görə il boyu turizmlə məşğul ola bilmirik. Turistlərin daha uzun müddət ziyarət edə bilməsi üçün hər şeyi yaxşılaşdırmalıyıq. Hal-hazırda, turizm şirkətləri yalnız bir neçə ay işləyir, bu da işləri daha bahalı edir. İlk növbədə turizmin inkişafı üçün bütün lazımi ehtiyacları əlçatan etmək vacibdir. Bunun üçün isə bütün il boyu turistlər üçün şərait yaratmalıyıq ki, qiymətlər daha münasib olsun. Beləliklə, ilk əvvəl qış turizmini yaxşılaşdırmaqdan başlamalıyıq.

Bildiyimiz kimi, ölkə ərazisində sosial-iqtisadi potensialın 50%-dən çoxu regionların, eyni zamanda əmək qabiliyyətli əhalinin 47%-i həm kənd təsərrüfatı, həm də aqrar sahə ilə məşğul olur. Bu nüansları nəzərə alaraq regionlarda kənd turizminin inkişafını təmin etmək mühüm məsələlərdəndir. Həmçinin bir çox kəndlərdə tarixi abidələrin mövcudluğu bu kəndlərə xüsusi diqqət artırır. Gəncə-Daşkəsən iqtisadi rayonunda kənd turizminin inkişaf etdirilməsi, təbiətinin qiymətləndirilməsi, əhalinin işlə təmin olunmasını gerçəkləşdirmək və artırmaq üçün bir sıra dövlət proqramları təsdiq və icra edilməkdədir. İcra edilən bir sıra tədbirlər öz növbəsində kənd əhalisi üçün əlavə gəlir mənbəyi olmaqla yanaşı, sosial və iqtisadi problemlərin həllində özünəməxsus yer tutacaqdır. Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ucqar kəndlər üçün olduqca mühümdür. Gələcək dövrlərdə görülən tədbirlərin nəticəsi kənd mədəniyyətinin qorunmasına, sosial-iqtisadi bir faktor olaraq gənclərin işsizlik ucbatından kəndlərdən axının qarşısının alınacağı proqnozlaşdırılır. Bütün bunların gerçəkləşdirilməsi üçün bir çox tədbirlər həyata keçirilməlidir. İlk və ən böyük əngəl kənd yerlərində turizm infrastrukturunun olmamasıdır. Hər şeydən əvvəl həmin ərazilərdə yeni və müasir tələblərə cavab verən infrastrukturlar qurulmalı,ələxəsus əhali maarifləndirilməli, kənd əhalisinin öz əl işlərini və kəndə məxsus bir çox şeyi sata biləcəkləri yerlər tikilməli, nəqliyyat



infrastrukturunun səviyyəsi yüksəldilməlidir. Əhali arasından turizm sahəsinə marağı olanlara xarici dil kursları təşkil edilməklə yerli mütəxəssislər yetişdirilməlidir.

Hər bir turizm məkanı fərqli xüsusiyyətlərə malikdir. Müəyyən ərazi dağlıq və ya meşəlik, zəngin su mənbələrinə malik olduğu halda və ya dəniz sahilində yerləşdiyi halda, əhalisi sıx və ya seyrək ola bilər. Bu ərazilərdə yerləşdirmə obyektlərindən kottec tipli gecələmə yerləri, pansionatlar və ya çoxmərtəbəli otellər təsis edilə bilər. Bu səbəbdən destinasiyanın inkişaf etdirilməsini öhdəsinə götürən qurum yerli şəraitə, tələblərə uyğunlaşdırılan inkişaf idarəetmə sistemini qəbul etməlidir. Briassoulis "qeyri-müəyyənlik şəraitində mürəkkəb turizm sosial-ekoloji sistemləri altında kollektiv işlərin davamlı şəkildə idarə olunmasının çoxsəviyyəli, iştiraklı prosesi" kimi müəyyən edilən "adaptiv turizm idarəçiliyi" [1, s.92] konsepsiyasını təklif edir.

Dövlət proqramında Gəncə şəhəri haqqında məlumatlara əsasən dəlil verir ki, istər kənd təsərrüfatı, istər sənayesi, tikinti-quraşdırma işləri, eyni zamanda şəhər ərazisində qədim tikililərin qorunub saxlanması bu bölgəyə turist cəlb etməkdə başlıca rol oynayır.

## Ədəbiyyat

1. Briassoulis H. (2015), Tourism and common pool resources. In: Hall CM, Gossling S, Scott D (eds), Routledge Handbook on Tourism Sustainability. Routledge, London.

2. 2019-2023 regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramı

3. Azərbaycanda turizm T.Budaqov, Bakı: DSK 2021, 26 s.

## ANTROPOGEN TƏSİRLƏRƏ MƏRUZ QALAN TORPAQLARIN MİKOBİOTASININ FORMALAŞMASINDA İŞTİRAK EDƏN GÖBƏLƏKLƏRİN EKOLO-TROFİK İXTİSASLAŞMASINA GÖRƏ XARAKTERİSTİKASI

**Balaxanova Qumru**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Müəllim*
*19_bq_91@mail.ru*

Torpağın bioloji xüsusiyyətlərinin formalaşmasında həm prokariotlar(bakteriya və aktinomisetlər), həm də eukariotlar (göbələklər, ibtidailər, bitkilər) iştirak edir. Heç də təsadüfi deyil ki, torpağı biomüxtəlifliyin saxlandığı bank kimi də xarakterizə edirlər. Torpağın bioloji xüsusiyyətlərinin formalaşmasında iştiark edən canlıların həm sayca, həm taksonomik, həm də aralarında formalaşan qarşılqlı münasibətlər baxımından geniş və mürəkkəb müxtəliflikIə xarakterizə olunması öz təsdiqini tapmış faktdır. Bu baxımdan bir tədqiqatda onların hamısını nəzərə almaq praktiki baxımdan həddindən artıq çətindir, daha dəqiqi, hələki mümkün olmayan məsələlərdəndir. Buna görə də biz tədqiqatlarda torpaqların bioloji xüsusiyyətlərinin antropogen təsirlərdən asılı olaraq dəyişilməsini onların göbələk biotasına, daha dəqiqi tədqiqat üçün seçilmiş torpaq sahələrində formalaşan göbələklərin say və növ tərkibinə, ekolo-trofiki əlaqələrinə, rastgəlmə tezliyinə, eləcə də antropogen təsirlərə cavab reaksiyasına görə xarakterizə edilməsi məqsəduyğun hesab edilmişdir.

Alınan nənticələrdən aydın oldu ki, tədqiq edilən biotoplarda qeydə alınan göbələklərin təmiz kulturalarının böyüməsi üçün əlverişli olan temperatur və ilkin pH görə xarakteristikası zamanı isə antropogen təsirlərin xarakterindən irəli gələn kəskin fərqlər müşahidə olunmur. Qeydə alınan göbələklərin əksəriyyəti temperatura münasibətdə mezofil, az bir hissəsi isə termotolerantdır və qeydə alınan göbələklər arasında psixrofillərə və həqiqi termofillərə isə rast gəlinmir. Mühitin pH-nın 4,9-5,9 arasında yerləşməsi qeydə alınan göbələklərin hamısı üçün optimal hesab edilsə də, qeydə alınan göbələklər arasında *Aspergillus fumigatus, A.ochraceus, M.hiemalis* və *Ulocladium chartarum* kimi alkotolerantlar da yer alır. Fərqli antropogen təsirlərə məruz qalan torpaqların mikobiotasının formalaşmasında iştirak edən göbələklərin təsirlərdən doğan cavab reaksiyasının müəyyənləşdirilməsi zamanı aydın oldu ki, nisbi torpaqlarda rast gəlinən induksiya olunmaqla aktivləşən, neftlə çirklənmiş torpaqlarda isə həssas (ingibirləşən qrup) növlərə rast gəlinmir. Bakı şəhərinin fiziki-kimyəvi göstəricilərinə, antropogen təsirin xarakterinə görə fərqlənən torpaq sahələrinin mikobiotasının formalaşmasında 53 göbələk növü iştirak edir. Qeydə alınan göbələk növlərinin sayı nisbi torpaqlara xas olan mikomüxtəlifliyin növ tərkibinə görə azalmasına səbəb olur ki, bu da özünü ən yüksək səviyyədə neftlə çirklənmiş torpaqlarda biruzə verir.

Müəyyən edilmişdir ki, antropogen təsirlərdən asılı olaraq hər bir biotopa xas mikokompleksin ekolo-trofiki strukturunda da dəyişiklik baş verir və bu da özünü nisbi təmiz torpaqların mikokompleksində olan saprotrofluğun xüsusi çəkisinin azalmasında, politrofluğun isə yüksəlməsində biruzə verir. Analoji hal ekolo-trofiki ixtisaslaşmanın təzahür formaları olan toksigenlərə münasibətdə də özünü biruzə verir.

Aparılan tədqiqatlarda fərqli antropogen təsirlərə məruz qalan torpaqların mikobiotasının formalaşmasında iştirak edən göbələklərin antropogen təsirlərdən doğan cavab reaksiyasının müəyyənləşdirilməsi zamanı aydın oldu ki, nisbi torpaqlarda rast gəlinən induksiya olunmaqla aktivləşən, neftlə çirklənmiş torpaqlarda isə həssas (ingibirləşən qrup) növlərə rast gəlinmir.

Şəhər torpaqlarının əmələ gəlməsinə təsir edən amillər (məsələn, iqlimin nisbətən şəhər spesifikasına uyğun olaraq bir qədər yüksək olması, insanların təsərrüfat və inşaat fəaliyytələri nəticəsində dəyişilmiş relyef, tərkibin dəyişkən olması və s.) təbii şəraitdə torpaq əmələ gəlmə prosesinə təsir edən amillərdən fərqlənir. Bir sözlə, şəhər torpaqları antropogen transformasiya olunmuş bir mühit kimi xarakterizə olunur. Qeyd etmək lazımdır ki, urbanizasiya prosesinin getdikcə intensivləşməsi ilə əlaqədar şəhər torpaqlarına olan diqqət gündən günə artır və bu istiqamətdə aprılan tədqiqatlar həm əhatə dairəsinə, həm də sayına görə nəzərə çarpacaq dərəcədə genişlənir.

## "FAKÜLTƏ" İNTERNET SERVİS PROVAYDERİN PAYLAYICI ŞƏBƏKƏSiNİN LAYİHƏSİNİN HAZIRLANMASI

**Bədəlov Həbib**
*Azərbaycan Texnologiya Universiteti*
*Hebibqarabaqli@Gmail.Com*

**İnternet xidmət provayderi** – hüquqi və fiziki şəxslərə İnternet xidmətlərindən istifadə etmək (İnternetə erişmək) imkanı verən qurum. İstifadəçilərin kommutasiya olunmuş, yaxud ayrılmış xətlə İnternetə bağlanmasını təmin etmək üçün İnternet provayderlərinin bir, yaxud bir neçə modem ortaqlığı (MODEM POOL) olur. Provayderlər iki qrupa bölünür: birinci dərəcəlilər – öz magistral kanalları olanlar və ikinci dərəcəlilər – birinci dərəcəli provayderlərdən magistral kanalın müəyyən zolağını icarəyə götürənlər. Provayderlərin göstərdiyi başlıca xidmətlərdən biri veb-hostinqdir. Bu gün demək olar ki, hər birimizin İnternetə çıxışı var - ev kompüteri və ya mobil cihaz vasitəsilə və kimsə ən yaxşı provayderi seçərkən istifadə etdiyi bütün cihazlardan şəbəkəyə daxil



olmaq imkanı verir. Lakin bəzən biz kirayə mənzilə köçəndə, məsələn, ev sahibi nədənsə bu binaya hansı provayderin xidmət göstərdiyini deyə bilmir və onun şəraitinin nə dərəcədə optimal olduğu aydın olmur.
"İnternet provayderləri külli miqdarda pul qazanmaq istədiyindən internetin sürətindən oğurlayırlar. Ümumiyyətlə, interneti topdan satan Delta Telekom şirkətidir ki, ikinci dərəcəli provayder Delta Telekomdan interneti alır və bir neçə hissəyə bölərək paylayır. Halbuki, müştərilərin sayına uyğun internet alınmalıdır ki, göstərilən sürət təmin edilsin.Həmin provayderlər isə bunu etmir".

## QARABAĞDA SƏNAYENİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Cavadov İlkin**
*Gəncə Dövlət Universiteti*
*elcin55@bk.ru*

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının malik olduqları təbii ehtiyatlar və təbii iqlim şərtləri burada müxtəlif sənaye istehsallarının yaradılmasına zəmin yaradır. Son illər ölkənin regionlarında sahibkarlığın və istehsal sahələrinin inkişaf etdirilməsinə yönəlik Azərbaycan hökümətinin ardıcıl olaraq həyata keçirdiyi iqtisadi siyasəti və dövlət dəstək tədbirlərini Qarabağda sənayenin inkişafının mühüm amillərindən biri hesab etmək olar. Bu baxımdan regionların investisiya reytinqinin aparılması, qeyri-neft ixracının stimullaşdırılması və s. kimi tədbirlərin əhəmiyyəti çox böyükdür. Bunlarla yanaşı, Azərbaycan Respublikası Prezidentinin "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 10 dekabr 2021-ci il tarixli sərəncamında hökümətə tapşırılmışdır ki, işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın gücləndirilməsi və investisiya

cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şəraitin yaradılması məqsədilə əlavə güzəşt və dəstək mexanizmlərini hazırlayıb təqdim etsin. Ölkədə sənayenin inkişafına yönəlik dövlət siyasətinin reallaşdırılmasında geniş tətbiq olunan mühüm mexanizmlərdən biri sənaye və texnologiya parklarının, habelə sənaye məhəllələrinin yaradılması təcrübəsidir [1].

Qarabağda sənayenin inkişaf perpektivlərindən danışarkən texnoloji inkişaf və insan resurslarının keyfiyyəti kimi amilləri diqqətdə saxlamaq xüsusilə vacibdir. Qarabağda sənayenin inkişaf perspektivlərinin daha çox orta və yüksək texnoloji istehsalların qurulmasına yönəldilməsi məqsədəuyğundur. Bu ərazidə sənayenin inkişafı müasir elmi-texniki nailiyyətlərə və yüksək texnologiyalara əsaslanmalı, IV Sənaye İnqilabının çağırışları nəzərə alınmaqla həyata keçirilməlidir. Burada yüksək texnologiyaların tədrisinə əsaslanan universitet, kollec və peşə təhsilinin bilavasitə istehsal təcrübəsi ilə əlaqələndirilməsi, habelə yeniliklərin istehsala tətbiqi təmin edilə bilər. Zəngəzur dəhlizinin Azərbaycan üçün strateji, siyasi, geosiyasi və iqtisadi faydaları vardır. Dəhlizin ölkə iqtisadiyyatına qazandıracağı fayda daha çox ixracatı və azalan daşıma xərclərini şərtləndirəcək. Daha rahat nəqliyyat yolu, həm də daha çox Türkiyəli turistlərin gəlməsinə gətirib çıxaracaqdır. Qeyd olunan yolun təkcə Azərbaycan-Naxçıvan-Türkiyə, oradan isə Avropaya gedən yollara doğru bir yol ötürücü dəhliz kimi yox, Rusiya və Avropa arasındakı keçişlərdə önəmli bir dəhliz olaraq baxmağımız lazımdır [2].

Coğrafiyası kifayət qədər rəngarəng olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları aqrar sektorun inkişafı üçün də çox zəngindir. Heyvandarlığın, əkinçiliyin, balıqçılığın, arıçılığın və



digər sahələrin inkişafı üçün təbii şərait kifayət dərəcədə əlverişlidir. Tezliklə əhalinin Qarabağda məskunlaşması iqtisadiyyatın digər sahələrinin inkişafı ilə yanaşı, aqrar sektorun da inkişafına güclü təkan verəcəkdir. Bu regionda bütün sahələrin yenidən qurulacağını nəzərə alaraq, müasir dünyanın inkişaf etmiş ölkələrinin aqrar sektorun inkişaf etdirilməsi sahəsində qabaqcıl təcrübəsinə əsaslanaraq mütəxəssislər tərəfindən aqrar sektorun innovativ inkişafına yeni yanaşma ortaya qoyulmalıdır. Müasir dünyada bütövlükdə iqtisadiyyatın inkişafı elmi yeniliklərdən və onun tətbiqi imkanlarından əhəmiyyətli dərəcədə asılıdır.

## Ədəbiyyat

1. Səmədova A.Q. Turizm sferası müəssisələrinin iqtisadi inkişafının proqnozlaşdırılması. Əmək və Sosial Münasibətlər Elmi Praktik jurnalı. Bakı, 2020, № 2 (14), səh. 88-96.
2. Mustafayeva R.R, Abbasova Y.Ə, Cəfərova R.M. İqtisad elminin müasir problemləri. Dərs vəsaiti, Bakı, 2019, səh. 127

# KİÇİK SAHİBKARLIQ SUBYEKTLƏRİNİN HÜQUQİ MƏLUMAT MÜBADİLƏSİ

**Cəfərov Cavid**
*Azərbaycan Texnologiya Universiteti*
cavidcafarov56@gmail.com

Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən kiçik sahibkarlıq subyektləri dedikdə "Sahibkarlıq" fəaliyyəti və işləri haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təsdiqlənən meyarlar əsasında müəyyən olunmuş kiçik və mikro sahibkarlıq subyektləri olaraq başa düşülür. Kiçik sahibkarlıq

fəaliyyəti ilə məşğul olan şəxs vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınır və hüquqi qaydada kömək göstərilir. Həmin şəxslərin dövlət qeydiyyatını qanunvericiliklə müəyyənləşdirilmiş müvafiq icra orqanı həyata keçirir. Kiçik sahibkarlarlığın inkişaf infrastrukturunun formalaşdırılması, kömək proqramlarının hazırlanması, maliyyə-kredit, texniki avadanlıqlarla təminat və s. bu kimi dəstəklər dövlət tərəfindən sahibkara göstərilir. Kiçik sahibkarlığa kömək proqramlarının maliyyələşdirilməsi dövlət büdcəsi həmçinin, yerli büdcələr və qanunda göstərilən digər mənbələr hesabına həyata keçirilir.

Kiçik sahibkarlığa kömək proqramlarının maliyyələşdirilməsi üçün nəzərdə tutulan büdcə xərcləri hüquqi şəkildə özünüidarəetmə orqanı tərəfindən təqdim olunur. Azərbaycan Respublikası tərəfindən kiçik sahibkarlığın hüquqi məlumatlandırılması tədbirlər həyata keçirilməkdədir. Belə ki, regional səviyyədə kiçik sahibkarlığın inkişafına dəstək verən infrastruktur yaradılır. Əhalinin sosial cəhətdən daha az təmin olunan təbəqələri, o cümlədən işsizlər, qaçqınlar və məcburi köçkünlər, əlillər, şəhid ailələri, təqaüdçülər, qadınların və gənclərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsi göstərilən hüquqi tədbirləri əhatə etməkdədir. Hüquqi qaydada çalışan sahibkarlara həvəsləndirmə məqsədi ilə maliyyə köməyi göstərilir.

Ən son tərtib olunan statistik göstəricilərə əsasən 2022-ci ildə yeni qeydiyyata alınmış mikro sahibkarlıq subyektlərinin sayı 121 308 nəfər olmuşdur. Onlardan 15 374 nəfər hüquqi şəxs, 105 934 nəfər isə fərdi sahibkarlardır. Həmin il 363 kiçik sahibkarlıq subyekti olan müəssisə fəaliyyətə başlamışdır.

Kiçik sahibkarlıq subyektləri hüquqi qanunla müəyyən edilmiş qaydada öz birliklərini yarada bilərlər.Müvafiq icra orqanları kiçik sahibkarlıq subyektlərinin birgəlik təşkilinə və fəaliyyətinə kömək göstərirlər.Kiçik sahibkarlığa dövlət köməyinin hüquqi



sistemini təkmilləşdirmək, kiçik sahibkarlıq subyektləri birlikdəlik fəaliyyətini kommunikasiya məqsədi ilə müvafiq icra hakimiyyəti orqanları yanında sahibkarlığın sürətli inkişafı üzrə şuralar yaradıla bilər. Bu şuranın iş funksiyaları və səlahiyyətləri müvafiq icra hakimiyyəti orqanlarının qulluqçuları tərəfindən müəyyən edilir. Qeyd etdiyim qanunların pozulmasına görə, müvafiq icra hakimiyyəti orqanları və yerli özünüidarəetmə orqanlarının vəzifəli şəxsləri məsuliyyət daşıyır. Kiçik sahibkarlığa hüquqi şəkildə bütün xidmətlər yerinə yetirilir və dövlət tərəfindən mənəvi dəstək göstərilməkdədir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. “Azərbaycanda mikro, kiçik, və orta sahibkarlıq”. Bakı-2023
2. “Azərbaycan Kiçik Sahibkarlıq”. Səda nəşriyyatı, Bakı-2015
3. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının dövlət proqramı(2002-2005-ci illər). Azərbaycan qəzeti, 18 avqust, 2002-ci il.
4. Əlirzayev Ə. “Azərbaycanda sahibkarlıq”. Bakı, Elm-2000
5. İmanov.Ə. “Kiçik sahibkarlıq”. Bakı-2009
6. Hüseynli İ. “Azərbaycan Respublikasında kiçik və orta biznesin inkişafının cari vəziyyəti perspektivləri”. Bakı-2009
7. Hüseynli İ. “Kiçik sahibkarlıq statistik uçotunun bəzi məsələləri”. “İqtisadiyyat və audit” jurnalı №1, 2004

## RƏQƏMSAL İQTİSADİYYATIN FORMALAŞMASINDA MÜASİR TENDENSİYA KİMİ RƏQƏMSAL MARKETİNQ

**Cəfərova Əzizə**
*Urkayev Məmməd Hacıyev*
*ezizeceferova90@gmail.com*

***Açar sözlər:*** *rəqəmsal iqtisadiyyat, marketinq, Big Data və s.*

İqtisadiyyatın rəqəmsallaşması dövründə bir çox fəaliyyət sahələri transformasiya olunur. Belə məşhur fəaliyyət sahələrindən biri marketinqdir. Marketinq istənilən biznesin ayrılmaz hissəsidir. Rəqəmsal iqtisadiyyatın əsas tendensiyası Big Data və ya Data Science-dır.

Biznesdə müşahidə olunan tendensiyalar cəmiyyətdəki dəyişikliklərlə ayrılmaz şəkildə bağlıdır. 4P modelində mərkəz istehsal edilmiş və satın alınması lazım olan məhsuldur. 2000-ci illərin əvvəllərində sürətli inkişaf əldə etmiş bu model əsasında Robert F. Lauterborn tərəfindən təklif olunan 4C modeli ortaya çıxır, burada müştəri artıq mərkəzdədir. 4C-nin komponentləri bunlardır:

- Xərc - qiymət, xərc, istehlakçı üçün xərclər;
- Müştəri ehtiyacları və istəkləri - istehlakçıların ehtiyac və istəkləri, müştəri dəyəri;
- Rahatlıq (istehlakçı üçün rahatlıq);
- Ünsiyyət.

Marketinq 2019-cu ildə məhsul marketinqindən nəticə marketinqinə keçərək əhəmiyyətli dərəcədə dəyişdi. Bu sahədə sadə misal kimi bankdan kreditin alınması prosesini göstərmək olar. İstehlakçı kredit üçün gələndə onun məqsədi kredit yox, opsion olaraq avtomobil almaqdır. Buna görə də rəqəmsal marketinqin yeni konsepsiyası 5E-ni nəzərdən keçirmək təklif olunur. Onun komponentləri olacaq:



- təcrübə
- barter (fərdi qiymət);
- məşğulluq (iştirak);
- hər yerdə;
- ağızdan ağıza.

Bu modelə uyğunlaşa bilən, yəni müştərinin əldə etmək istədiyi nəticənin tam olaraq nə olması lazım olduğunu anlayan biznes, şübhəsiz ki, böyük rəqabət üstünlüyü əldə edəcək.

5E modelinin aspektlərinin biznesə və cəmiyyətə tətbiqi ilə əsas səriştələrin yaradıcılıq və orijinallıqla bağlı olduğu ənənəvi marketoloq peşəsi indi müştəri ölçüləri və böyük məlumatların təhlili ilə bağlıdır.

Çevik müştəri seqmentasiyası şirkət müştərilərinin standart meyarlarla məhdudlaşmayan müxtəlif meyarlara görə qruplara çoxfaktorlu qruplaşdırılmasıdır: cins, yaş, peşə. Bu məlumatlara əsasən, marketinqdə müştərini “tanımaq”ın 4 mərhələsini ayırd etmək olar.

- Mərhələ 1: demoqrafik, gəlir, e-poçt tarixçəsi;
- Mərhələ 2: çağrı mərkəzi ilə davranış, saytda davranış, geomə-lumatlar, sosial şəbəkə profilləri;
- Mərhələ 3: istifadəçi axtarış məlumatları, sorğular, proqramlar vasitəsilə şirkətlə qarşılıqlı əlaqə, cihazlar arası;
- Mərhələ 4: marketinq kampaniyalarına cavabların tarixi, müxtəlif növ məlumatlar arasında gizli əlaqələrin tam təhlili.

Beləliklə, marketinq prosesləri marketoloqların subyektiv qiymətləndirmələrinə deyil, verilənlərin təhlili nəticəsində əldə edilən biliklərə əsaslanacaq.

**Ədəbiyyat**

1. Амадо А., Кортес П., Рита П., Моро С. (2018). Тенденции исследований больших данных в маркетинге: анализ литературы на основе анализа текста и тематического моделирования. Европейские исследования по менеджменту и экономике бизнеса, 24 (1), стр. 1–7.
2. Фань С., Лау РИК, Чжао Дж.Л. (2015). Демистификация аналитики больших данных для бизнес-аналитики через призму маркетингового комплекса. Исследования больших данных, 2 (1), стр. 28–32.
3. Эревельс С., Фукава Н., Суэйн Л. (2016). Потребительская аналитика больших данных и трансформация маркетинга. Журнал бизнес-исследований, 69 (2), стр. 897–904.

## SAHİBKARLIQ FƏALİYYƏTİNİN YOXLANILMASI VƏ SAHİBKARA DƏYƏN ZİYANIN ÖDƏNİLMƏSİ

**Eyvazlı Nərmin**
*Azərbaycan Texnologiya Universiteti*
*narmineyvazli30@gmail.com*

Azərbaycan Respublikasının Sahibkarlıq fəaliyyəti haqqında qanununa əsasən, sahibkarlığın prinsipləri, fəaliyyəti, sahibkarlıq hüquqlarını və vəzifələrini, onun dövlət tərəfindən müdafiə və təqdir olunmasının göstəriş və üsullarını, sahibkarların dövlət orqanları və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumlar ilə münasibətini müəyyənləşdirir.

Öncəliklə, sahibkar olmaq istəyən hər bir şəxs fəaliyyət qabiliyyəti olan vətəndaş olmalıdır. Sahibkarlıq fəallığı ilə bağlı



işlərin həllini və ya bu işlərə nəzarəti həyata keçirən dövlət qurumlarının və orqanların vəzifəli şəxslərinə və peşəkarlarına sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qadağandır Sahibkarlıq iki formada həyata keçirilə bilər:

1. Fərdi sahibkarlıq
2. Şərikli sahibkarlıq

Hər iki sahibkarlıq növü qanunvericilikdə nəzərdə tutulmuş formada həyata keçirilə bilər. Sahibkar haqqında birçox baxışları ümumiləşdirərək, belə bir nəticəyə gəlmək olar: sahibkar risk şəraitində fəaliyyət göstərən, təşəbbüsçülük ideyalarını önə sürən, yaradıcı, gəlir mexanizmi təşkil edən insandır. Sahibkarlıq fəaliyyəti Azərbaycan Respublikasının Dövlət Vergi Xidməti tərəfindən daima nəzarətdə olur və yoxlanılır. Belə ki, il ərzində qazanılan ümumi qazancdan çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğə 20% gəlir vergisi hesablanır. Fəaliyyəti yoxlama zamanı vergidən yayınma hallan müşahidə olunarsa, sahibkar dövlət tərəfindən cərimə olunur. Qeyd etmək istərdim ki, sahibkarlara dövlətimiz tərəfindən subsidiyaların venimasi halı mövcuddur Onların fəaliyyəti daima dəstəklənir və tam şəffaf keçirilməsinə can atılır Bildiyimiz kimi, koronavirus pandemiyasından zərər görən sahibkarların sayı yüksəkdir Xüsusilə, 4 sahənin layişə obyektlərinin, otelçilik, sərnişindaşıma nəqliyyatının ve iri ticarət obyektlənnin sahiblərinin ziyan çəkdiyi məlumdur. Ölkəmiz pandemiya dönəmində zərər görmüş sahibkarlara səmərəlilik nəzərə alınmaqla zərərin mümkün hissəsinin əvəzinin ödənilməsi ilə bağlı tədbirlər nəzərdə tutmuşdur. Bunlardan birincisi işəgötürənin çevrəsində olan işçilərin əmək haqqının ödənməsi olmuşdur. Daha sonra, zərər çəkən (şərti adı: sahibkar) şəxsə qanunla müəyyən olunmuş subsidiyalar və maddi yardımlar edilməsi. Bu tədbirlərdən sonra, sahibkarlıq fəaliyyəti yenidən canlanmış və perspektiv inkişafına davam etmişdir.

**Ədəbiyyat**

1. Azərbaycan Milli Kitabxanası. “Sahibkarlıq fəaliyyəti haqqında”.
2. Məhərrəmova R., Musayeva S. “Sahibkarlıq”. Bakı-2019
3. “Sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyəti ilə əlaqədar gəlir vergisi”. Bakı-2023
4. Şükürov R. “Qanunvericilik”. Bakı-2019

## HEYDƏR ƏLİYEV VƏ DÖVLƏT GƏNCLƏR SİYASƏTİ

**Əfəndiyeva Elvira**
*Qazax Dövlət Sosial-İqtisadi Qeydiyyat,qiymətləndirmə və monitorinq bölməsinin müdiri, pedqogika müəllimi,*
elvira-efendiyeva@mail.ru

Ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki, hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir. Hər bir millətin yaşaması, inkişafı və gələcəyinin etibarlı təminatı sağlam, əqidəli, vətənpərvər, bilikli gənclərdən çox asılıdır. Hakimiyyətdə olduğu bütün dövrlərdə Ümummilli Liderimiz Heydər Əliyev bunları nəzərə alaraq hər zaman gənclərin mənəvi inkişafına,vətənpərvərlik tərbiyəsinə, ölkə üçün layiqli vətəndaş kimi yetişməsinə, xarici ölkələrdə təhsilinə, onların sosial müdafiəsinə xüsusi diqqət göstərmişdir. Ulu Öndər gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədi ilə bu sahənin vacib və zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin edərək gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəldilən, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar imzalamış, dövlət proqramları qəbul etmişdir. Həmin qanunlar, fərman, sərəncam və dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji



cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərmişdir. “Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən Azərbaycanı daim bütün xətalardan qoruya bilən,Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var.” - deyən Ümummilli Liderimizin Azərbaycan gənclərinə olan ümidləri özünü doğrultdu. Bu gün gənclərimizin böyük bir qismi hazırda Silahlı Qüvvələrimizin sıralarında Vətən qarşısındakı müqəddəs borcunu yerinə yetirməkdədir. Vətən müharibəsi və ona qədərki döyüşlərdə Möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə güclü Azərbaycan Ordusunun əsgər və zabitləri işğal altında olan torpaqlarımızı azad etdilər. Bu yolda son damla qanına kimi vuruşaraq müqəddəs şəhidlik zirvəsinə yüksəldilər. Bu bir daha sübut etdi ki, gənclərimizin vətənpərvərlik ruhu çox yüksəkdir və bu gün bütün Azərbaycan xalqı, o cümlədən gənclər Ali Baş Komandanımızın çağırışına hər zaman hazırdır və istənilən vaxt Vətənin müdafiəsinə qalxa biləcək qətiyyətdədirlər.

Fəxrlə deyə bilərik ki, XXI əsrdə Azərbaycanın inkişafını təmin edən, bilikli, təhsilli sağlam həyat tərzi keçirən, mənəvi, milli dəyərlərimizə daim söykənən, ümumbəşəri dəyərlərdən səmərəli istifadə etmək bacarığı olan gənclərimiz vardır. Bu gün gənc nəslin düzgün formalaşması ölkə siyasətində önəmli yer tutmaqla yanaşı, gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Möhtərəm Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətini uğurla davam etdirir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması, inkişafı üçün yaradılan şərait bu sahəyə böyük diqqətin nəticəsidir. Dövlətin gənclərlə bağlı siyasətinin uğurla həyata keçirilməsində bu mühüm addımın böyük rolu vardır.

Gənclərimiz də öz növbəsində Ulu Öndərin nəsihətlərinə əməl etməlidirlər. Harada yaşamasından asılı olmayaraq hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının xoş - firavan gələcək yolu kimi qəbul etməlidir. Gənclərimiz ölkəmizin tarixini, ana dilimizi yaxşı bilməli, milli - mənəvi dəyərlərimzi, adət - ənənələrimizi dərindən öyrənməlidir. Sevindirici haldır ki, Ulu Öndər Heydər Əliyevin zəngin irsindən, Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ölkəmizə qələbələr qazandıran müdrik siyasətindən güc alan Azərbaycan gəncliyi bütün sahələrdə bu gün ölkəmizi dünyada layiqincə təmsil edirlər. Dünyanın nüfuzlu ali məktəblərində minlərlə azərbaycanlı gənclər təhsil alır ki, onlar mövcud Azərbaycan həqiqətlərini təbliğ edirlər. Təbii ki, bu prosesdə müstəqil dövlətimizin gənclərə güclü dəstəyi vardır. İndi Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Öz gücünü Heydər Əliyev ideyalarndan alan Azərbaycan gəncliyi bu gün həyatımızın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, gənclərimiz siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar. Dünyanın bu qarışıq dövründə hər bir Azərbaycan vətəndaşı, xüsusilə gənclər Ümummilli Liderimizın irsinə daim sadiq qalaraq, Dahi Rəhbərin “Biz bu gün hansı gənc nəsli yetişdirə bilsək, Azərbaycanın gələcəyi ondan çox asılı olacaqdır. Əgər bugünkü gənc nəsil Azərbaycan xalqının bütün qayğılarına qalmaq iqtidarına malik olacaqsa, yüksək biliyə, təcrübəyə malik olacaqsa, təbiidir ki, biz Azərbaycanın gələcəyi haqqında narahat olmamalıyıq.” nəsihətinə əməl etməlidir.

## Ədəbiyyat


1. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu. 9 aprel 2002-ci il
2. "Gələcək gənclərindir", Bakı: Azərbaycan, 2004, səh. 410–416.





3. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu. 9 aprel 2002-ci il
4. "Gələcək gənclərindir", səh. 410–416
5. Gənc ailə proqramı. ARDGS. İB. Bakı, 2000, No 2, səh. 27–38
6. Forumdan foruma. Bakı: Azərbaycan, 2003, səh. 32–34


# HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN SU DİPLOMATİYASININ MÜƏLLİFİDİR


**Əhmədov Elşan**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
*Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi kafedrası*
*elshen80@gmail.com*



**Xülasə**

Azərbaycanın əldə etdiyi davamlı inkişaf nəticələri müasir müstəqil dövlətimizin memarı ulu öndər Heydər Əliyevin sayəsində mümkün olmuşdur. Ümummilli lider XX-ci əsrdə qazanılan uğurlara əsaslanaraq XXI əsrin hədəflərini uzaqgörənliklə ortaya qoydu. Heydər Əliyev müasir Azərbaycanın idarə olunması sahəsində bütün innovativ islahatların banisidir. Bu gün Azərbaycan dövləti müasir dünyada qəbul edilmiş dövlət idarəetmə sistemlərinə uyğun olaraq milli dövlət quruculuğu sahəsində innovativ islahatları uğurla davam etdirir.



***Açar sözlər:*** *Heydər Əliyev, su diplomatiyası, davamlı idarəetmə.*


Tarixi şəxsiyyət kimi Heydər Əliyev Azərbaycanın dövlət quruculuğunun, müstəqil inkişafının fundamental bazası olan əzəli və əbədi dəyərlərin daşıyıcısı və yaradıcısıdır. Heydər Əliyevin çoxillik

fəaliyyətinin təhlili və dərk edilməsi, onun zəkasının və istedadının nə qədər qüdrətli və geniş olduğunu, Azərbaycan xalqının tarixini necə məqsədyönlü şəkildə və əsl ilhamla yaratdığını göstərir. Tarixi baxımdan 30 il çox qısa bir zamandır. Bu dövrdə Azərbaycan bir sıra çağırış və təzyiqlərlə üz-üzə qalıb. Ölkənin müstəqilliyin ilk illəri çox çətin bir şəraitdə keçib, parçalanmaq və müstəqilliyin itirlməsi təhlükəsi çox yüksək olub. Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının tələbi və təkidi ilə ölkə rəhbərliyinə gətirilməsi bu risklərin aradan qaldırılmasını təmin edib, ölkənin hazırkı inkişafı üçün zəmin yaradıb. [5, 24]. Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin çoxillik ictimai-siyasi fəaliyyəti böyük bir epoxanı əhatə edir. Sovet rejiminin inkişafda olan dövrü (1969-1986), mürəkkəb keçid prosesləri (1987-1990), Azərbaycanın dövlət müstəqilliyi mərhələsi (1991-2003) kimi səciyyələnən 35 illik bir epoxanın aparıcı şəxsiyyətlərindən, əsas simalarından olan Heydər Əliyevin böyük siyasətdə keçdiyi çətin və şərəfli yol, sərt və mürəkkəb məqamlarda onun tutduğu obyektiv və qəti mövqe, atdığı düşünülmüş addımlar, əldə etdiyi ciddi və mühüm nəticələr, əslində, çox mənalı və ibrətamiz məktəbdir. [3]. Bu məktəb beynəlxalq siyasi aləmdə və Azərbaycanda özünəməxsus xüsusi yeri və əhəmiyyəti olan, tarixə düşən, hər yeni tarixi mərhələ üçün aktuallıq və müasirlik kəsb edən həmişəyaşarlıq qazanmış Heydər Əliyev siyasi məktəbi kimi özünü təsdiq etmişdir. Eyni zamanda, Heydər Əliyevin qiymətli siyasi irsi: məruzələri, nitqləri, çıxışları, imzaladığı tarixi qərarlar və sərəncamlar, hətta verdiyi tapşırıq və tövsiyələr küll halında həmin böyük siyasət məktəbinin möhtəşəm və mötəbər dərslikləridir. Beləliklə, görkəmli dövlət xadimi Heydər Əliyevin simasında böyük, əbədiyaşar siyasətin nəzəriyyəsi və təcrübəsi bütün zənginliyi ilə vahid məcrada birləşir. Heydər Əliyev Azərbaycan xalqının liderdir və lideri başçıdan fərqləndirən həlledici qabiliyyəti innovasiyalılığı, yəni daim yeni ideyalar irəli sürmək, yaxud bunları kombinə etmək



və təkmilləşdirmək bacarığıdır. Siyasi liderdən, sadəcə, kütlələrin maraqlarını və ehtiyaclarını bir yerə yığmaq və inventarlaşdırmaq, onlara mane olmamaq deyil, bunları məhz novatorcasına dərk etmək, inkişaf etdirmək və təshih etmək tələb olunur. Prezident Heydər Əliyevin şəxsi nüfuzu, siyasi uzaqgörənliyi, böyük idarəçilik təcrübəsi sayəsində 1993 – 2003-cü illəri əhatə edən birinci on il ərzində bütün milli resursları vahid məqsəd uğrunda səfərbər etmək və Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq, onu sabit inkişaf yoluna çıxarmaq, milli iradəyə əsaslanan müstəqil subyekt kimi beynəlxalq aləmdə sıx inteqrasiyasını təmin etmək mümkün olmuşdur. Bununla yanaşı etiraf olunmalıdır ki, hər bir dövlət kimi Azərbaycan da müstəqilliyinin ilkin mərhələsində xarici təhlükələrdən qorunmaq sahəsində özünümüdafiə sistemini dərhal formalaşdıra bilməmiş və müxtəlif daxili və xarici təhdidlərə qarşı təcili təxirəsalınmaz tədbirlər görmək məcburiyyətində qalmışdır. Bu mənada Azərbaycan ilk dövrlərdə məcburi qaydada ayrı-ayrı güc mərkəzləri arasında balans yaratmağa sövq edilsə də, nəticədə minimum güzəştlər hesabına maksimum dividendlər əldə etməyə, prinsipal məsələlərdə öz mövqeyini qoruyub saxlamağa və inkişaf etməyə nail ola bilmişdir. Bütün bunların nəticəsi olaraq Heydər Əliyev ən çətin şəraitdə həm Azərbaycanın yeni neft strategiyasını uğurla reallaşdırmağı bacarmış, həm də bu əsasda ölkənin gələcək dinamik inkişafının təməlini qoymuşdur. .

Dinamik inkişafın təməlini aparılan iqtisadi islahatlar və kadr potensialının təkmilləşdirilməsi müəyyən edir. Azərbaycanın dayanıqlı iqtisadi inkişafının təmini üçün bütün istehsalat üçün yararlı resurslar səfərbər edilmişdir. Beləliklə resursların idarə edilməsi və davamlı inkişaf hədəflərinin yerinə yetirilməsi üçün dövlət tərəfindən geniş islahatlar və inkişaf proqramları həyata keçirilmişdir. Burada su təhlükəsizliyi mövzusunu xüsusi qeyd etmək lazımdır. Çünki, XXI əsrdə su təhlükəsizliyi hər bir ölkə üçün enerji, ərzaq, nəqliyyat

təhlükəsizliyi kimi strateji əhəmiyyətli məsələlər sırasına daxil olmuşdur.

Müasir dövrdə su mənbələrinin çatışmazlığı dünyanı təhdid edən qlobal problemlərdən biridir və əhalinin etibarlı su təchizatı dövlətlər arası münasibətlərə təsir göstərə bilən amillərdən birinə çevrilməkdədir. Ölkəmizin su təhlükəsizliyinə təhdidlər mövcuddur. Belə ki, Dünya Ehtiyatları İnstitutunun hesablamalarına görə Azərbaycan Respublikasının 2030-cı ildə bir nəfərə düşən su ehtiyatı ən az olacaq 13 ölkədən biri olacağı proqnozlaşdırılır (~972 m3/il). Eləcə də, ölkənin coğrafi mövqeyi iqlim dəyişmələrinin təsirlərinə həssasdır. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin iqlim dəyişmələri ilə bağlı hesabatında iqlim dəyişməsindən ən çox ziyan çəkəcək 39 ölkənin sırasında Azərbaycanın da adı çəkilir. [7]. Azərbaycan Respublikasında su ehtiyatlarının hövzə prinsipi nəzərə alınmaqla inteqrasiyalı idarə edilməsi ilə əlaqədar problemlər, eləcə də, su ehtiyatlarının ölkə ərazisində qeyri-bərabər paylanması və məhdud olması, transsərhəd suların ifrat çirklənməsi, idarəetmə vasitələrinin və institutsional münasibətlərin mükəmməl olmaması, su təhlükəsizliyinə təhdidlərin olması və s. problemlər mövcuddur. Bu təhdidləri uzaqgörənliklə qiymətləndirən Heydər Əliyev hələ 1970-ci illərdən başlayaraq qonşu hövzə ölkələr ilə su diplomatiyasını qurmuşdur. Azərbaycan su təsərrüfatı sahəsində uzun müddətli və davamlı su diplomatiyasına malik olan bir ölkəyə çevrilmişdir. Hal hazırda ölkə başçısı təməli Heydər Əliyev tərəfindən qoyulan su diplomatiyasını uğurla davam etdirməktədir. Möhtərəm Prezident İlham Əliyev öz çıxışlarının birində qeyd etmişdir ki, "Bu gün dünyada daha çox neft-qaz resursları uğrunda mübarizə aparılır və xoşbəxtlikdən Azərbaycan bu resurslardan, xalqın rifahı, ölkənin inkişafı naminə səmərəli şəkildə istifadə edir. Amma vaxt gələcək su resursları uğrunda mübarizə daha da kəskinləşəcəkdir. Biz artıq bu mübarizənin təzahürlərini görməkdəyik. Belə olan halda su



təhlükəsizliyi Azərbaycanda tam şəkildə təmin edilməlidir". Su təhlükəsizliyinin təmin edilməsi üçün isə cənab Prezident “Su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək, yeni layihələri icra etmək, yeni kanallar inşa etmək və su anbarları yaratmaq Azərbaycan üçün strateji əhəmiyyətli bir məsələdir” deyə qeyd etmişdir. [6].

Ölkənin Su diplomatiyası həmçinin, Milli Planlar, Milli və Dövlət Proqramları və Sahə Fəaliyyət Planları vasitəsilə həyata keçirilir. Eyni zamanda Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı mövcuddur. Digər tərəfdən Dünya Bankının dəstəyi ilə hazırlanmış Ətraf Mühitin Mühafizəsi üzrə Milli Fəaliyyət Planı 1996-cı ildən Azərbaycan Höküməti tərəfindən həyata keçirilir. Ölkədə sosial-iqtisadi inkişaf yönümlü bir sıra proqramlar həyata keçirilmiş və hazırda da bu istiqamətdə işlər davam etdirilir. Bu proqramlar arasında aşağıdakıları xüsusi qeyd etmək olar: "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram” (2003-cü il); “Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram" (2003-cü il); “Azərbaycan Respublikasında Hidro-meteorologiyanın İnkişaf Proqramı” (2004-cü il); “Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı” (2004-cü il); “Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı” (2004-cü il); “Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı” (2006-cı il); “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” (2008-ci il);

“Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” (2009-cü il). “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” (2014-cü il). 2012-ci ildə Fövqəladə Hallar Nazirliyinin Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən Azərbaycan Respublikası ərazisində sel, daşqın və subasmaların zərərli təsirlərinin qarşısının alınmasına dair Dövlət Proqramı hazırlanmışdır. Eləcə də, “Azərbaycan Respublikasında su ehtiyatlarının qiymətləndirilməsi” layihəsinin icrasına başlanılmışdır. [6].

Azərbaycan Respublikasının 2017-2035-ci illərdə su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi üzrə su strategiyası ölkənin dayanıqlı sosial - iqtisadi inkişafının, eləcə də su təhlükəsizliyinin təmin edilməsi məqsədilə hazırlanmışdır və su-təsərrüfatı kompleksinin inkişafının, su obyektlərinin mühafizəsinin, əhalinin və ərazilərin suların zərərli təsirlərindən müdafiəsinin, eləcə də su ehtiyatları sahəsində ölkənin rəqabət üstünlüklərinin formalaşdırılmasının və həyata keçirilməsinin əsas istiqamətlərini müəyyən edir. Strategiya su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, böyük sosial və iqtisadi təsirə malik olan su ekosistemlərinin qorunması üzrə inzibati qərarların qəbulu və həyata keçirilməsi istiqamətlərini müəyyən etməklə yanaşı, su münasibətlərinin iştirakçıları arasında səmərəli qarşılıqlı əməkdaşlıq üçün əlverişli şərait yaradılmasını nəzərdə tutur. Dövlətin su diplomatiyasının əsas məqsədi aşağıdakılardır: Su ehtiyatlarının təhlükəsizliyinə, o cümlədən yerüstü və yeraltı suların yaxşı statusuna nail olmaq; ekosistem üçün lazım olan suyun miqdarını və suyun təbii bərpa imkanlarını, həmçinin hazırkı və gələcək nəslin su ehtiyatlarından istifadə etmək hüquqlarını təmin etməklə su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi prinsipinə əsasən əhalinin bütün təbəqələrini, o cümlədən kənd təsərrüfatını və sənayeni müvafiq standartlara cavab verən təhlükəsiz su ilə təmin etmək; su



obyektlərinin rekreasiya məqsədləri üçün istifadəsini beynəlxalq təcrübəyə uyğun təmin etmək.

Azərbaycanda Su Siyasəti su qanunvericiliyinə uyğun olaraq həyata keçirilir. Su qanunvericiliyi Su Məcəlləsindən və bu məcəlləyə uyğun olaraq qəbul edilmiş digər qanunvericilik aktlarından, o cümlədən, "Su Təchizatı və tullantı suları haqqında” "Meliorasiya və İrriqasiya haqqında”, "Hidrometeorologiya fəaliyyəti haqqında”, "Yerin təki haqqında”, "Bələdiyyələrin Su Təsərrüfatı haqqında”, "Hidrotexniki Qurğuların Təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanunlardan və s. ibarətdir. Aşkar qaydada formalaşdırılmış Dövlət Su Siyasəti transsərhəd suların səmərəli istifadəsi, bərpası və qorunmasına dair razılaşmalara riayət edilməsinə imkan yaradır. Bu proqramların bir hissəsi ölkədə su və kanalizasiya infrastrukturunun inkişaf etdirilməsi üçün maliyyə dəstəyinin cəlb edilməsi məqsədilə hazırlanmışdır.

## Ədəbiyyat


1. Azerbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirən Azerbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Azərbaycan milli televiziyası ilə xalqa müraciəti - 23 avgust 1993-cü il
2. Azarbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ötən kənd təsərrufat ilinin yekunları, 1996-cı ildə görüləsi işlər, aqrar bölmədə iqtisadi islahatların həyata keçirilməsi vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş muşavirədə giriş sözü - Prezident Sarayı. 2 aprel 1996-cı il
3. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasdakı nitqi https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_sedrliyi_ile_Nazirler_Kabinetinin_ilin_birinci_rubunun_yekunlarina_ve_qarsida

_duran_vezifelere_hesr_olunan_iclasi_kechirilib_YENILANIB_VIDEO-1276350
4. Xalq Qazeti. Prezident İlham Əliyevin Xankəndidə Dövlət Bayrağını ucaltması və çıxışı
5. Azərbaycan Respublikasi Milli Su Strategiyası, 2016
6. Dünya bankının statistik məlumatları. https://www.worldbank.org/en/home
7. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtlsadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" 16 mart 2016-cı il
8. Azərbaycan Respublikasının Ətraf mühitə dair qanunvericilik toplusu. Azərbaycan Respublikası Ekologiya və Təbii sərvətlər Nazirliyi. 2002, 1-ci cild
9. Azərbaycan Respublikasının Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafına dair Milli Proqramı. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Bakı 2002

## DAXİLİ BİZNESLƏRDƏ VERGİ İNZİBATÇILIĞININ FORMALAŞDIRILMASI

**Əhmədova Qumru**
*Azərbaycan Texnologiya Universiteti*
*qumruahmedovaa@gmail.com*

Biznes sektoru çox böyük bir fəaliyyət işgüzarlığı sahəsidir. Qeyd edilən anlayış müxtəlif cür ifadə oluna bilər, həmçinin müxtəlif cavablara rast gələ bilərik. Biznes- mənfəət əldə etmək məqsədilə alıcıların mal və xidmətlərlə təmin etmək fəaliyyətidir.

Buna görə də biznes sferasında daxili biznes xüsusi mövqeyə malikdir. Müştərilər isə daxili biznesin mövcudluq və inkişaf fəlsəfəsinin əsasını təşkil edir. Biznes olduqca çoxsektorlu, spesfik



sahələrdən ibarətdir. Buna misal olaraq, tikinti, məhsul istehsalı,ticarət, bankçılıq, əmlak, sığorta, turizm, logistika, nəqliyyat və s. göstərə bilərik. Hər bir sahibkar özünə uyğun bildiyi sahəni seçir və fəaliyyət göstərməyə başlayır. Daxili biznes fəaliyyətində əsas məqsəd sahibkar üçün gəlir əldə etmək olsa da, dolayı yolla iqtisadiyyatın, ümumilikdə isə ölkənin inkişafına yardım edir.

Sahibkar quracağı biznesi ətraflı planlaşdırdıqdan sonra sahibkarlıq fəaliyyətinə başlamazdan əvvəl ilk növbədə vergi ödəyicisi kimi vergi orqanında qeydiyyata alınmalıdır. Fəaliyyətinin maliyyələşdirilməsi üçün gəlir vəsaitinin cəlb edilməsi tələb olunarsa, onun əldə edilməsi ilə bağlı müvafiq sənədləri qeyd olunan rüb ərzində təqdim etməli, daxili biznes fəaliyyətinin həyata keçirilməsi zamanı isə əldə etdiyi gəlirdən vergiləri hesablamalı, bəyan etməli və dövlət büdcəsinə mütləq şəkildə ödəməlidir.Azərbaycan Respublikası əhalinin rifahının və gələcəyinin yaxşılaşdırılması məqsədilə verilən sosial yönümlü güzəştlərlə(subsidiyalarla) yanaşı, gəlir qoyuluşlarının artırılmasına və əhalinin məşğulluğunun təmin olunmasına, xüsusilə biznes sektorunun inkişafına xidmət etməli olan sahələr üzrə güzəştlər də mövcuddur.

Vergi orqanında uçota alınarkən Dövlət Vergi Xidmətinin göndərdiyi məlumata əsasən, biznesin sahibi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda (DSMF) qeydiyyatdan keçir (fəaliyyət göstərdiyi biznes və işçilərinə hesablanmış əmək haqqı üzrə sığorta ayırmaları hesablayır, bəyan etməklə gəlir büdcəsinə ödəyir).

Daxili biznes sahibi olan sahibkar tərəfindən əmək qanunvericiliyinə uyğun olaraq muzdlu işə cəlb edilmiş hər bir şəxs ilə yazılı əmək müqaviləsi bağlamalı və işçi hüquqlarını pozmamalıdır. Qeyd olunan əmək müqaviləsinin qüvvədə qalması üçün bu barədə bildirişlər elektron informasiya sisteminə daxil edilməlidir.

Azərbaycan Respublikasında bizneslə məşğul olmaq üçün əsas vergilər aşağıdakılardır:

Əlavə Dəyər Vergisi –məhsullara və xidmətlərə tətbiq edilən əlavə dəyər vergisidir.

Ödəmədən tutulan vergi - Qeyri-rezident hüquqi şəxslərin və fərdi sahibkarların mülkiyyətindən müvafiq vergi ödənişi tutulur.

Hüquqi şəxslərin mənfəət vergisi –Hüquqi şəxsin qazancı ilə qazancdan çıxılan xərc arasındakı fərq korporativ mənfəət sayılır.

Fiziki şəxslərin gəlir vergisi – İşəgötürən tərəfindən işçinin əmək haqqından tutularaq birbaşa ölkə büdcəsinə ödənilən vergi sayılır.

Əmlak vergisi –müəssisənin balansında olan əmlak üzrə ödənilən vergi.

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Vergi Məcəlləsi (Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli, 1384-İVQD nömrəli Qanunu ilə edilmiş əlavə və dəyişikliklərlə) Bakı-2016.
2. Bağırov D.A. "Vergi nəzarəti" (dərslik). Bakı-2016
3. Məmmədov F.Ə., Musayev A.F., Sadiqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. - "Vergilər və vergitutma", Bakı 2010




# EKOLOJİ ƏKİNÇİLİKDƏ XƏSTƏLİK VƏ ZƏRƏRVERİCİLƏRƏ QARŞI MÜBARİZƏDƏ FİTONSİD TƏRKİBLİ BİTKİLƏRDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ


**Əhmədova Sevda**
*b.e.d.,professor*
*Gəncə Dövlət Universiteti*
*sevda_axmedova@inbox.ru*
**İsmayılzadə Natiqə**
*b.ü.f.d*
*natiqa.ismayilzade@mail.ru*
**Qasımova Afaq**
*a.ü.f.d*



## Xülasə

Məqalədə xəstəlik və zərərvericilərə qarşi mübarizədə fitonsid tərkibli bitkilərdən istifadənin xüsusiyyətləri araşdırılmışdır. Bitkilərdən hazırlanmış preparatların kimyəvi preparatlardan üstünlüyü ondan ibarətdir ki, onların əksəriyyəti normal qatılıqda insan, heyvan və ümumiyyətlə ətraf mühit üçün zərərli deyil.

Ekoloji təmiz və bol məhsul yetişdirilməsinə imkan yaratdığı üçün respublikamızın digər bölgələrində fitonsid bitkilərdən geniş istifadə olunması təklif olunur.

Ümumiyyətlə ekoloji məhsulların becərilməsində həlim və cövhərlərdən istifadə etməklə ərtaf mühitin mühafizə imkanları mümkündür.


***Açar sözlər:*** *Ekoloji kənd təsərrüfatı, fitonsid tərkibli bitki, ekoloji təmiz məhsul, həlim və cövhərlər*

Tədqiqatın məqsədi Mil-Qarabağ düzündə ekoloji əkinçilikdə xəstəlik və zərərvericilərə qarşi mübarizədə fitonsid tərkibli bitkilərdən istifadənin xüsusiyyətlərinin öyrənilməsidir. Tədqiqat

obyekti Tərtər rayonunun Buruc kəndinin ərazisində fermer təsərrüfatıdır.

Seçilən bitkidən asılı olaraq bitki həlimini məhlul soyuduqdan sonra elə həmin gün və ya 2-3 gün saxlayıb sonra süzərək istifadə etmək olar. Cövhər kimi həlimlərdən istifadə edərkən onları durulaşdırmaq lazımdır. Yaxşı olar ki, həlim və cövhərlərin tətbiqi zamanı onların içərisinə hər 10 litr çilənəcək məhlula 40-50 qram təsərrüfat sabunu qatılsın.

Bitki mənşəli həlimlərlə istənilən xəstəlik və zərərvericiyə qarşı müvəffəqiyyətlə mübarizə aparmaq mümkündür.Bundan başqa onlardan məhsul yığımına 2-3 gün qalana qədər istifadə etmək olar.

Zərərvericilərə qarşı preparat hazırlamaq üçün çoxlu sayda dərman bitkiləri mövcuddur. Bu dərman bitkilərindən hazırlanmış həlim və cövhərlərdən ekoloji təsərrüfatlarda bitkilərin mühafizəsində istifadə edilə bilər. Bu bitkilərdən kartof, soğan, sarımsaq, acı bibər, tütün, pomidor, at əvəliyi (uzunyarpaq əvəlik), xardal, boymadərən, pıtraq, zəncirotu, çobanyastığı və s. göstərmək olar

İnsektisid xüsusiyyətli bitkilərin tədarükü o qədər də çətin deyil. Onları həyətyanı sahədən toplamaq olar. Bu bitkiləri əvvəlcədən tədarük edib qurudub, ya da təzə halda istifadə etmək olar. Onlar məsləhət görülən fazada yığılıb kölgədə qurudulmalıdır. Qurudulmazdan əvvəl bitkilərin yerüstü hissəsi təmizlənərək xırda doğranmalıdır. Hər bir bitki növü qurudulduqdan sonra ayrıca kisələrə doldurulub, içərisinə bitkinin növü və tədarük edildiyi tarix yazılmalıdır [1,2].

Təcrübə məqsədilə 0,01 ha sahə götürülmüşdür. Qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün aşağıdakı işlər yerinə yetirilmişdır: nəzərdə tutulan təcrübə sahəsinin torpağının hazırlanması, becərilmə işləri, həlimin hazırlanması və s. proseslərin inkişaf xüsusiyyətləri.

İnsektisid xüsusiyyətli bitkilərdən preparat (cövhər) hazırlamaq



üçün onlar suda müəyyən müddət ərzində qaynadılaraq ağzı kip bağlanan şüşə qablara tökülüb sərin yerdə saxlanılmalıdır. Belə şəraitdə onları 1-2 ay müddətində saxlamaq olar. Həlim hazırlamaq üçün bitki kütləsi həlimin hazırlanması qaydasına uyğun olaraq isti suya qoyulur. Bitkilərdən hazırlanmış preparatlarla çiləmə norması və çiləmənin sayı hər bir bitkinin həliminə və onun təsir müddətinə görə müəyyənləşdirilir. Burada da çiləmələr əsasən 8-10 gündən bir təkrar olunur.

Aşağıda insektisid xüsusiyyətli bitkilərdən zərərvericilərə qarşı tətbiq edilən bir neçə bitki cövhəri və həliminin hazırlanması qaydası verilmişdir [3,4].

Çiçəkləmə dövründə yovşan bitkisinin torpağın üzərindəki hissələrindən toplamaq və çox kiçik xırdalamaq lazımdır. Xırdalanmış hissəni vedrənin yarıya qədər hissəsinə doldurub üzərinə 10 litr su əlavə edilir. Bu şəkildə 1 gün saxlanılır, sonra 30 dəq qaynadılır. Bundan sonra süzülür və yenidən 10 litr su əlavə edilir. Hazır məhluldan alma ağaclarında rast gəlinən toxum qurdlarına qarşı çiləmə şəklində istifadə edilir. İlk çiləmə alma ağaclarında ləçəklərin tökülməsindən sonra 18-20 gün ərzində edilməlidir. Sonrakı 3-4 çiləmə 7-8 gün intervalla edilməlidir. Çiləmələr meyvə ağaclarında olan qanlı burun böcəklərinin, mənənələrin sürfələrinin miqdarını azaldır.

Çiçəkləmə dövründə boymadərən bitkisinin torpağın üzərindəki hissələrini toplamaq lazımdır. Həlim hazırlamaq üçün 800 qr qurudulmuş və xırdalanmış bitki kütləsinin üzərinə 10 litr su əlavə edilir və 2 gün saxlanılır. Həlim süzüldükdən sonra çiləmədən öncə hər 10 litr həlimə 40 qr sabun əlavə edilir. Hazır məhlul meyvə ağaclarında olan kəpənəklər də daxil olmaqla mənənələrə, hünülərə, həşəratlara, gənc sürfələrə qarşı mübarizə vasitəsi kimi tətbiq olunur. Həlimdən xəstəliklərə qarşı mübarizə vasitəsi kimi də istifadə etmək olar.

Çiçəkləmə dövründə bitkinin təzə hissələri yığılır və qurudulur. Məhlul hazırlamaq üçün 1-2 kq xırda doğranmış və qurudulmuş bitki kütləsi götürülür, 10 litr su əlavə edilir və 1 gün saxlanılır. Çiləmədən öncə 30-40 qr sabun əlavə edilir. Bu məhlul meyvə ağaclarında rast gəlinən gənc mənənə sürfələrinə, hünülərə, həmçinin alma ağaclarında olan mişar milçəkləri və güvələrə qarşı istifadə oluna bilər [4,5,6].

**Ədəbiyyat**


1. Babayev A.H.,V.A.Babayev. "Ekoloji kənd təsərrüfatının əsasları". Bakı - 2011.
2. "Bioloqiçeskoe Selskoe Xozyaystvo" Elkana-2005
3. Əliyev. Ş.A. "Tərəvəzçilik" 1997-1998
4. Orqanik Tarım, EKİM-2002, İzmir
5. Gəncə Aqrobiznes Assosiasiyası "Kənd təsərrüfatı məhsullarının istehsalında, emalında və saxlanılmasında istifadə olunan fitonsidlər" Gəncə-2005
6. www.fao.org/ag/agp




## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA GƏNCLƏR SİYASƏTİ


**Əhmədova Türkan**

*Azərbaycan Dövlət Aqrar Universiteti, müəllim*

*turkan_ahm@mail.ru*

*ORCID ID: https://orcid.org/0000-0002-9797-2716*


Hər bir gəncin gələcəyinə işıq salan ulu öndər Heydər Əliyevin dəyərli kəlamları ilə başlamaq istəyirəm: "Mənə ilham verən ən böyük qüvvə Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir, Azərbaycanın gələcəyidir".

Bəli, ümummilli lider Heydər Əliyevin ən böyük xidmətlərindən biri onun gələcəyimizə - Azərbaycan gəncliyinə verdiyi töhfələrdir. Ümummilli Liderin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutub. Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli qüvvə kimi formalaşmasında Ulu Öndərin böyük səyləri olmuşdur.

Azərbaycan gənclər siyasətinin əsasını qoyan Ulu Öndər mütəmadi olaraq, gənclərlə görüşlər keçirirdi. Bu mühüm görüşlərdə o, bütün dövrlər üçün aktual olan tövsiyə və məsləhətlərini səsləndirir, eyni zamanda, gənclərin fikirlərini dinləyirdi. Belə bir mühitdə gələcəkdə böyük uğurlara imza atacaq Azərbaycan gəncliyi formalaşırdı.

Müstəqil Azərbaycan Respublikası gənclərinin I foru- mundakı məşhur nitqində ulu öndər Heydər Əliyev qeyd etmişdir: "Ümumi bəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir". [2; səh-139]

Azərbaycan gəncləri məsələsinə həmişə böyük qayğı ilə yanaşan Azərbaycan xalqının Ulu Öndəri onlarla görüşür, Respublika gəncləri tərəfindən hərarətlə qarşılanan dahi Lider söylədiyi nitqlərində gənclərə yüksək qiymət verərək, bildirirdi ki, gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidirlər. [1;səh-167]

Dahi Öndərimizin 29 iyul 1999-cu il tarixində imzaladığı «Dövlət Gənclər Siyasəti Haqqında» fərman bütün ölkə gəncliyi üçün əvəzsiz töhfə olmuşdur. [3; səh-111]

Ümummilli Liderimiz yeni nəsil kadrların hazırlanmasına xüsusi diqqət yetirirdi. Çünki yaxşı bilirdi ki, istedadlı, savadlı kadrlar olmadan qarşıya qoyulan vəzifələri uğurla həyata keçirmək mümkün deyildir. Odur ki, Azərbaycanın bu gününə və gələcəyinə xidmət göstərəcək kadrların hazırlanması və yetişdirilməsi üçün bir sıra gərəkli işlər gördü.

Dahi Liderin xarici ölkələrdə oxutdurduğu gənclər indi, XXI əsrdə Azərbaycanda aparıcı mütəxəssislərə çevriliblər. Ulu öndər Heydər Əliyev "Azərbaycanın milli-mənəvi dəyərləri ona görə qüdrətlidir ki, o, torpaq uğrunda canlarından keçən gənclər ordusu yetişdirmişdir" deyirdi.

Milli kadr siyasətinin həyata keçirilməsi və hərbi kadrların hazırlanmasına xüsusi diqqət yetirilərkən, heç kim təsəvvür edə bilməzdi ki, 2020-ci ilin qızıl payızında yüngül silahlarla Şuşanın sıldırım qayalarına dırmaşan Azərbaycan Ordusuna məhz Ulu Öndərin xeyir-duası ilə hərbi təhsil almış milli kadrlar rəhbərlik edəcək.

Böyük fəxr hissi ilə qeyd edə bilərəm ki, biz gənclər ulu öndər Heydər Əliyevin irsini bu gün də öyrənməyə davam edirik. Çünki bu irs bizim üçün ən mükəmməl ensiklopediya, həm də ən gözəl örnəkdir.

Ümummilli lider Heydər Əliyev kimi dahi şəxsiyyətlər yalnız tarixə düşəcək hadisələrin müəllifi olmur, onlar həm də, tarix yaratmaq və bu tarixi davam etdirəcək irs ənənəsi formalaşdırırlar. Bu əzəmətli şəxsiyyətin fərqi də məhz budur ki, o, yaratdığı müstəqil, qüdrətli dövləti etibar etməyə özü qədər inandığı siyasi varis formalaşdırdı və şah əsəri olan Azərbaycanı ona etibar etdi.

Xalqımızı dünyada təklənmək təhlükəsindən qurtaran müdrik siyasətçi ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə təsadüf edən 2023-cü ilin "Heydər Əliyev İli" kimi geniş qeyd edilməsi Azərbaycan xalqının milli tariximizin ən qüdrətli simasına olan sonsuz məhəbbətindən irəli gəlir.

Ulu Öndərin gənclər siyasətini davam etdirən Prezidentimiz cənab İlham Əliyev keçmişə ehtiramla yanaşmaq, onu dərindən bilmək və onun ən müsbət nümunələrini gənclərin mənəvi və vətənpərvərlik ruhunda tərbiyə işində istifadə etməyi günümüzün ən vacib vəzifələrindən sayır.



Bu gün Ulu Öndərin əsasını qoyduğu Azərbaycan gənclər siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edir və yeni qələbələrə imza atır.

**Ədəbiyyat**


1. Abdullayev Ə.İ Dünya Şöhrətli Dövlət Xadimi Heydər Əliyev. Bakı: "İqtisad Universiteti" nəşriyyatı - 2005. - 250 səh.
2. "Heydər Əliyev irsi və Azərbaycanın müasir inkişafında İlham Əliyev mərhələsi" Beynəlxalq elmi-praktik konfrans. - Bakı, "Azərbaycan" nəşriyyatı, 2007. - 280 səh.
3. Heydər Əliyev – Azərbaycan, Gəncə. Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2009, 200 səh.


## GƏNCLƏRİN TİMSALINDA XALQIN GƏLƏCƏYİNİ TƏMİN EDƏN DAHİ LİDER MƏKTƏBİ


**Əliyev Araz**
*ADPU- nun Ağcabədi filialı*
**Əliyeva Hicran**
*ADPU- nun Ağcabədi filialı*
Ani.eliyev.95@bk.ru


***Açar sözlər:*** *gənclər, dəstək, qanun, qayğı, tələbə, kadr*

Hər kəsə yaxşı məlumdur ki, Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi adlandıran Ulu Öndər gənc nəslə həmişə qayğı ilə yanaşıb. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə gənc nəslə diqqətin göstərilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi.

Gənclər siyasətinin hüquqi bazasının yaradılmasıda da mühüm əhəmiyyət daşıyır. Müxtəlif dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədilə Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman

Nazirliyi yaradılmışdır. Ulu Öndərin gənclərlə bağlı imzaladığı bir çox sənədlər respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şərait yaratmış, gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, habelə təşkilati-hüquqi əsaslarını müəyyən etmişdir.[1],[2]

Məlumdur ki, Ulu Öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra təhsilimizin ötən əsrin 70-80-ci illərində mövcud olmuş bir çox ənənələri kimi, xarici ölkələrə tələbələrin göndərilməsi ənənəsi də davam və inkişaf etdirilməyə başlandı. Artıq 2003-cü ildə dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a qədər ixtisas üzrə 3000-dən artıq azərbaycanlı gənc təhsil alırdı. Dövlət hesabına xaricdə təhsil alan gənclərin sosial durumu daim Ulu Öndərin diqqət mərkəzində olmuşdur. Təkcə Türkiyədə dövlət hesabına təhsil alan 700 azərbaycanlı tələbənin dövlət təqaüdü ilə təmin olunması bunun bariz nümunəsidir. İstedadlı gənclərin təhsilə marağını daha da artırmaq və dəstəkləmək üçün Prezident Heydər Əliyevin ali məktəblərə qəbul imtahanlarından ən yüksək bal toplamış abituriyentlərlə şəxsən görüşüb, onlara "Prezident təqaüdü"nün verilməsi barədə qərarı dahi şəxsiyyətin təhsilə diqqətinin daha bir nümunəsidir.[2]

Ulu Öndər Heydər Əliyev tərəfindən 1996-cı il 22 iyun tarixində imzalanmış "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Fərmanına əsasən istedadlı gənclərə dövlət qayğısını təmin etmək məqsədilə Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı" və "Qızıl kitab"a adları yazılmış gənc istedadlara təqdim etmək üçün xüsusi təqaüd təsis edildi.

Ulu Öndər tərəfindən 2 fevral 1997-ci il tarixində imzalanmış Sərəncama əsasən fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilmişdir.[3] Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda Gənclər Günü təntənəli şəkildə qeyd edilməyə başlanıb.



2002-ci il 9 aprel tarixində "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanun Azərbaycan Respublikasında gənclər siyasətinin məqsədlərini, prinsiplərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir.[4]

Azərbaycan gənclərinin Vətənə sədaqət ruhunda tərbiyə edilməsi məsələsi Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının mühüm istiqamətlərindən biridir. Ulu Öndər vurğulayırdı: "Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir, sarsılmazdır. Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir".[5]

Ulu Öndərin illər öncə əsasını qoyduğu gənclər siyasəti bu gün də olduğu kimi davam etdirilir. Prezidenti İlham Əliyev tərəfindən gənclərin hərtərəfli inkişafına hesablanmış dövlət siyasəti həyata keçirilir. Məhz bunun nəticəsidir ki, Gənclər siyasəti ölkədə həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsidir. (6)Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Mütəmadi olaraq təkmilləşdirilən gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaradıb. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb.[7]

**Ədəbiyyat**

1. https://e-qanun.az/framework/16148
2. https://e-qanun.az/framework/4825

3. https://e-qanun.az/framework/1619
4. https://e-qanun.az/framework/12798
5. https://e-qanun.az/framework/49209
6. https://e-qanun.az/framework/26131#_ednref1
7. https://e-qanun.az/framework/42996

## RESURSLARIN EFFEKTİV İDARƏ EDİLMƏSİ ÜZRƏ STRATEGİYALAR

**Əliyev İlkin**
*Cəlilabad rayon İcra Hakimiyyəti Başçısının*
*Sabirabad kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik*
ilkin.1988.eliyev@gmail.com

Ölkədə resursların səmərəli idarə edilməsi iqtisadi inkişaf, davamlılıq və sosial rifah üçün çox vacibdir. Bu proses müxtəlif sektorları və maraqlı tərəfləri əhatə edir. Ölkədə resursların effektiv idarə olunması üçün müxtəlif strategiyalar tətbiq edilə bilər. Bu aiddir [1-3]:

*Strateji planlaşdırma.* Bu zaman ümummilli strateji planlar hazırlanmalı və bu planlar resurslardan səmərəli istifadəyə yönəlmə-lidir. Bu planlara iqtisadi, sosial və ekoloji məqsədlər daxil edilməlidir.

*Təhsil və innovasiya*. Təhsil sistemi işçi qüvvəsini lazım olan bacarıqlara yönəltməlidir. İnnovasiyalar təşviq edilməli və yeni texnologiyalara uyğunlaşma dəstəklənməlidir.

*İnvestisiya mühitinin yaxşılaşdırılması*. Biznes mühitinin yaxşılaşdırılması və investisiyaların cəlb edilməsi üçün tənzimləyici islahatlar aparılmalıdır. Sürətli və effektiv əməliyyat prosesləri inves-torun inamını artıra bilər.



*Təbii sərvətlərdən davamlı istifadənin təmin edilməsi.* Mədənlər, meşələr və su ehtiyatları kimi təbii ehtiyatların davamlı istifadəsi və qorunması üçün strategiyalar müəyyən edilməlidir. Buraya resursları gələcək nəsillərə saxlamaq məsuliyyəti daxil edilir.

*İnfrastruktur investisiyaları.* İnfrastruktur investisiyaları isteh-sal gücünü artıra və iqtisadi artımı dəstəkləyə bilər. Nəqliyyat, enerji, su və digər infrastruktur sahələrinə investisiyalar bu kontekstdə vacibdir.

*Kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi*. Kənd təsərrüfatı sektoru bir ölkənin əsas resurslarından biridir. Məhsuldarlığı artır-maq, su idarəetməsini təkmilləşdirmək və ərzaq təhlükəsizliyini təmin etmək üçün kənd təsərrüfatı siyasəti yaradılmalıdır.

*Enerji səmərəliliyi və diversifikasiyası*. Enerji resurslarından səmərəli istifadə, enerji səmərəliliyinin artırılması və enerji mənbə-lərinin şaxələndirilməsi iqtisadi dayanıqlığı artıra bilər.

*Cəmiyyət üzvlərinin iştirakı*. Resursların idarə edilməsində sosial iştirakçılıq ictimaiyyəti qərarların qəbulu proseslərinə cəlb etməklə və şəffaf idarəetmə prinsiplərini qəbul etməklə təmin edilmə-lidir.

*Maliyyə menecmenti.* Maliyyə sistemlərinin effektiv idarə olunması, vergi siyasətinin ədalətli və effektiv olması, borcun idarə edilməsinin davamlı olması vacibdir.

*Ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi*. Ekoloji resursların qorunması davamlı gələcək üçün mütləqdir. İqlim dəyişikliyi və ətraf mühitin davamlılığı ilə mübarizə strategiyaları qəbul edilməlidir.

Bu strategiyaların həyata keçirilməsi ölkələrin öz resurslarını səmərəli şəkildə idarə etməsinə və davamlı iqtisadi, ekoloji və sosial inkişafa nail olmasına xidmət edəcəkdir.

## Ədəbiyyat

1. Šulyová, D., Vodák, J., Kubina, M. Effective Management of Scarce Water Resources: From Antiquity to Today and into the Future. Water, 2021, 13, 2734.
2. Mihalčová, B., Korauš, A., Prokopenko, O., Hvastová, J., Freňáková, M., Gallo, P., Balogová, B. Effective Management Tools for Solving the Problem of Poverty in Relation to Food Waste in Context of Integrated Management of Energy. Energies 2021, 14, 4245.
3. Qin, H., Bass M., Ulrich-Schad, J.D., Matarrita-Cascante, D., Sanders, C., Bekee, B. Community, Natural Resources, and Sustainability: Overview of an Interdisciplinary and International Literature, Sustainability, MDPI, 2020, vol. 12(3), 1-14.

# AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFINDA SƏNAYE PARKLARININ YERİ (PİRALLAHI RAYON TİMSALINDA)

**Əliyev İsmayıl**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

**Xülasə**

Əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan zəngin neft-qaz yataqlarına malikdir. Bununla yanaşı, iqtisadiyyatın digər sahələrinin də inkişaf etdirilməsi, davamlı inkişafın və rəqabət qabiliyyətinin gücləndirilməsi mühüm əhəmiyyət daşıyır. Bu məqalədə Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun inkişafında Sənaye Parklarının əhəmiyyəti və rolu araşdırılmışdır.



***Açar sözlər:*** *sənaye, iqtisadiyyat, inkişaf, Pirallahı, Sənaye Parkı.*

Daim inkişaf edən, dəyişən dünyada baş verən dəyişikliklər ölkə iqtisadiyyatının yalnız bir sahə üzrə deyil, digər sahələrinin də inkişafının da zəruriliyinə zəmin yaradır. Azərbaycan neft-qaz ehtiyatları ilə zəngin olmaqla yanaşı, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət göstərilir. Bu istiqamətdə atılan addımlar kimi, regionların inkişafı istiqamətində həyat keçirilən Dövlət Proqramlarını qeyd etmək olar. Məlumdur ki, dayanıqlı iqtisadiyyat-iqtisadi sistemin və ya ölkənin, tərəqqi və inkişafını sürdürməyə qadir, mənfi təsirlərlə əlaqəli riskləri azaltmağa və təbii resursların qorunmasına nail olmağı özündə ehtiva edir. Dayanıqlı iqtisadiyyatda önəmli bir rola malik olan sənaye parkları infrastrukturun yaradılması, iş yerlərinin açılması və əmək bazarının gücləndirilməsi, təcrübə və məlumat mübadiləsi kimi bir neçə faktorlara təsir edir. Bunlardan infrastruktura nəzər salsaq görərik ki, sənaye parkları müxtəlif sənaye təşkilatlarını bir araya gətirir və ortaq infrastruktur təminatı ilə onların effektiv fəaliyyətlərini artırır. Bu da öz növbəsində enerji, su təchizatı, nəqliyyat və kommunikasiya ilə təminatın daha effektiv şəkildə idarə olunmasını təmin etmiş və resurs istismarı sahəsində dayanıqlılığa təsir göstərmiş olur. İnfrastrukturun yaranmasına həm də yeni iş yerlərinin açılması kimi də baxmaq olar. Müstəqil iqtisadiyyatın inkişafını dəstəkləyən sənaye parkları yeni iş yerlərinin yaranmasına kömək edir. Bu, işsizlik səviyyəsini azaltmağa və əmək bazarını gücləndirməyə imkan verir. Sənaye parkları həm də müxtəlif sahələrdə fəaliyyət göstərən təşkilatlar arasında təcrübə və məlumat mübadiləsini təşviq edir. Yeni inkişaf üçün innovativ həllərin və ən yaxşı təcrübələrin paylaşılmasına əsas yaradır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamları ilə ölkə ərazisində 7 Sənaye Parkı, 5 Sənaye Məhəlləsi

yaradılmışdır. Sumqayıt Kimya, Mingəçevir, Qaradağ, Pirallahı və Balaxanı sənaye parklarında fəaliyyət göstərən rezidentlərin sayı 42-yə çatmışdır [2]. Sənaye Parklarından biri olan Pirallahı Sənaye Parkı "Pirallahı Sənaye Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2016-cı il tarixli 2336 nömrəli Sərəncamı ilə yaradılmışdır. Parkın yaradılmasının əsas məqsədi qeyri-neft sənaye sahələrinin davamlı inkişafının təmin edilməsi, sənaye sahəsində sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi, əczaçılıq məhsullarının idxalından asılılığın azaldılmasıdır [1]. Ötən dövr ərzində Sənaye Parkına rezidentlik statusu verilmiş layihələrdən ikisinin açılış mərasimi baş tutmuşdur. Pirallahı Sənaye Parkının rezidentlərindən biri- "Diamed Co" MMC şpris istehsalı zavodu nəinki Azərbaycanda, Cənubi Qafqazda bir ilkdir. Ölkədə əczaçılıq sənayesinin inkişafı, əhalinin şprisə olan tələbatının ödənilməsi və strateji məhsul olan şpris ehtiyatının yaradılmasına xidmət edən zavodda 50 iş yeri açılmışdır [4].

Azərbaycan əczaçılıq sahəsində mühüm əhəmiyyətə malik, Pirallahı Sənaye Parkının bir digər rezidenti isə "R-Pharm" MMC-dir. Azərbaycan-Rusiya birgə müəssisəsi olan bu zavodda Avropa texnologiyaları əsasında Onkologiya, HİV/QİÇS, əsəb, ürək damar, əzələ skelet və tənəffüs sistemi, diabet dərmanları, antibiotik, antivirus, ishal və qusma əleyhinə dərmanlar, həmçinin rentgen və kontrast agentləri üçün əlavələr istehsal edilir [3].

**Nəticə və təklif**

Sənaye parkları iqtisadiyyata geniş və müsbət təsir edir. Bu parklar, adətən sənayenin effektivliyini artırmaq, innovasiyaları təşviq etmək üçün yaradılır. Sənaye parklarının təşkili, istehsalın artmasına, yerləşən müəssisələrin, eləcə də iş yerlərinin, əməkdaşlıq imkanlarının yaranmasına və işsizliklə mübarizəyə də təsir edir. Bununla yanaşı, ölkəyə xarici investisiyaların cəlb edilməsinə imkan verir və ölkənin xarici ticarətini artır.



Ölkəmizdə qeyri-neft sənayesinin inkişafı məqsədilə Pirallahı rayonunda yaradılmış Pirallahı Sənaye Parkı əczaçılıq sahəsində Azərbaycanda ilklərə imza atır. Parka rezidentlik statusu verilmiş layihələrin icrası nəticəsində, ümumilikdə 40.5 milyon ABŞ dolları həcmində investisiyanın qoyuluşu, 385 iş yerinin açılması nəzərdə tutulur [3]. Sənaye Parkına yeni rezidentlərin cəlb olunması həm ölkə iqtisadiyyatına özəl investisiyaların yatırılması, həm əczaçılıq üzrə daxili tələbatın ödənilməsi, həm də yeni iş yerlərinin yaradılması baxımından mühüm əhəmiyyət kəsb etmiş olar.

**Ədəbiyyat**


1. "Pirallahı Sənaye Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (14 sentyabr 2016-cı il, №2336)
2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi, https://economy.gov.az/az/page/senaye-zonalari/senaye-parklari
3. İqtisadi Zonaların İnkişafı Agentliyinin rəsmi internet səhifəsi, http://economiczones.gov.az/iqtisadi-zonalar/senaye-parklari/pirallahi-senaye-parkii
4. https://diamed.az/haqqimizda/

# EKOLOJİ MƏDƏNİYYƏT MÜASIR DÖVRÜN ƏN VACİB PROBLEMLƏRİNDƏN BİRİ KİMİ

**Əliyeva Aişə**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
*Aishaliyeva.a@gmail.com*

***Açar sözlər:*** *insan-təbiət münasibətləri; ekoloji mədəniyyət; ekoloji maarifləndirmə; ekoloji bilik; davamlı inkişaf*

Dünya əhalisinin sürətli artımı ilə paralel olaraq, onların tələbatlarının genişlənməsi, Yer kürəsinin təbii sərvətlərindən istifadənin çoxalması, sənayenin sürətli inkişafı və bir sıra digər səbəblər insan-təbiət münasibətlərinin daha da sıxlaşmasına və beləliklə də, bizi əhatə edən mühit üzərindəki antropogen təsirin dayanmadan artmasına gətirib çıxardı. Beləliklə, ekoloji mədəniyyətin təbliği və eləcə də ekoloji maarifləndirmənin geniş vüsət alması günümüz reallığında mühüm tələblərdən birinə çevrilmişdir. İnsan fəaliyyətinin və seçimlərimizin planetimizə təsirinin daha yaxşı başa düşülməsi bütün canlıların keçmişdə qəbul edildiyindən daha çox bir-birindən asılı olduğunu qəbul etməyə səbəb oldu. Bu cür ortaq biliklər nəticəsində dünyaya və təbiətə daha bütöv bir obyektivdən baxmaq istəyi artmaqdadır.

Beləliklə, belə başa düşmək olar ki, ekoloji mədəniyyət insanın həyata keçirdiyi fəaliyyət prosesində insanla təbiət arasındakı əlaqənin təzahürüdür. Ekoloji mədəniyyət insanların əməli fəaliyyəti ilə ətraf mühit şəraitinin uyğunlaşmasını, davranışın formalaşmasını, cəmiyyətin ətraf mühitə uyğunlaşmasını öyrənən bir anlayışdır. *Ekoloji mədəniyyət insan tərəfindən cəmiyyətin davamlı inkişafı naminə daha yaxşı, daha gözəl, təbiətlə harmoniyada, doğruya, xeyirə, gözəlliyə doğru daha yaxşı yaşayış mühiti yaratmaq üçün təbii aləmə təsir və dəyişiklik prosesində yaradılan bütün maddi və mənəvi dəyərlərdir. [8]*

Günümüzdə ekoloji tarazlıq və onun kompleks mexanizmləri haqqında məlumatlı olmadan, yəni "ekoloji bilik" ə lazımi səviyyədə yiyələnmədən təbiət və onun sərvətlərindən şüurlu istifadə etmək, yəni insan-təbiət münasibətlərini səmərəli şəkildə qurmaq mümkün deyildir. Ekoloji mədəniyyətin strukturu barədə danışarkən aşağıdakıları qeyd etmək lazımdır: [9]

*Birincisi,* insan, təbiət və cəmiyyət arasındakı dialektik əlaqə haqqında bilik insanın ekoloji mühitə münasibətdə mövqeyini və rolunu, insan, təbiət və cəmiyyət arasında dialektik münasibətdə praktik fəaliyyətdə insanın təsirlərini dərk etmək deməkdir.

*İkincisi*, insanların ekoloji mühitə sevgisi biliklər əsasında formalaşır. O, öz mövqeyini, ekoloji mühitin rolunu və insanlar-təbiət-cəmiyyət münasibətlərinin davamlı inkişafda rolunu dəqiq dərk edir, pozitiv münasibət formalaşdırır və o, əxlaqi hisslərlə ifadə olunan iradə ilə məsuliyyət hissi və reallıqda ətraf mühitin mühafizəsi fəaliyyətində davamlı inkişaf naminə ekoloji mühitə münasibətdə sivil, hörmətli, mehriban davranış modeli formalaşdırır.

*Üçüncüsü,* təbiətə hörmətlə hərəkət etməyə hazır olmaq, obyektivliyə tabe olmaq, hərəkət qanunlarını ekoloji mühitlə tarazlaşdırmaq iradəsi. Yəni, ekoloji mədəniyyət təkcə sizin şüurunuzda, təbiətə məhəbbətdə deyil, həm də xüsusilə praktik fəaliyyətdə həyata keçirilir.

Ekoloji mədəniyyətin bəşəriyyətin davamlı inkişafının mühüm açarına çevrilməsi üçün ekoloji mədəni maarifləndirmə fəaliyyəti gücləndirilməli, ekoloji mədəniyyət haqqında biliklər təchiz edilməli, insan, təbiət və cəmiyyət arasında qarşılıqlı əlaqə haqqında məlumatlılıq artırılmalıdır.

"Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa (2002) əsasən, ümumi ekoloji

biliklərə yiyələnmək üçün hər kəsə bərabər şərait yaratmaq, orta təhsil prosesinə ekoloji biliklərin tədrisinin icbariliyi, ekoloji təhsil və maarifləndirmə prosesinin fasiləsiz təşkili dövlət siyasətinin əsas prinsiplərindəndir.[2] Onu da qeyd edək ki, ekoloji təhsil və tərbiyəyə BMT-nin "İnkişaf Proqramı" vasitəsi ilə nəzarət olunur.

Azərbaycan Respublikasının Ümumi Təhsil Konsepsiyasında da bu məsələ demək olar ki, diqqət mərkəzindədir. Şagirdlər arasında ekoloji mədəniyyət anlayışının formalaşdırılması, onlarda təbiətə qarşı məsuliyyətli və həssas münasibətin yaradılması prioritet məsələlərdəndir.

**Ədəbiyyat**


1. Dictionary of Philosophy (1986), Truth Publishing House, Hanoi, 656.
2. "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" AR Qanunu.
3. Greg Garad (2004), Ecocriticism, Abingdon, Routl, 14.
4. Ho Si Quy (1999), Studying about the culture and civilization, National Political Publishing House, Hanoi. 28
5. Irina Anatolyevna Umnova-Konyukhova, Marina Anatolyevna Vakula, and Irina Aleksandrovna Aleshkova, Ecological culture: sociocultural and legal aspects, SHS Web of Conferences 118, RUDN LTMRP Conference 2021 02007 (2021).
6. Luong Viet Hai, I.K. Lixiev (2008), Social and Ecological Modernization, Social Science Publishing House. 23.
7. Nguyen Van Huyen (2013), "Current ecological culture issues", Vietnam Journal of Social Sciences.87.
8. Tran Le Bao (2001), Ecological Culture - Humanities, Culture and Information Publishing House. 196.





9. Duong Thi Huong, Ngo Thi Tan Huong, Ecological Culture and Educational Issue of Ecological Culture – Motivation for the Human Development.
https://pubs.sciepub.com/education/6/6/17/index.html#:~:text=Thus%2C%20ecological%20culture%20is%20the,human%20adaptation%20to%20the%20environment
10. Diana Monteiro Toombs, Ecological Consciousness and Awareness.
https://www.dunami-somatics.com/post/ecological-consciousness-and-awareness#:~:text=Ecological%20consciousness%20requires%20a%20deep,relationship%20to%20and%20with%20Nature.


## HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN GƏNCLİYİ


**Əliyeva Dürdanə**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Müasir Azərbaycan dili kafedrasının müəllimi*
*dr.aliyeva@adpu.edu.az*



***Açar sözlər:*** *Ulu öndər, lider, siyasət, gənclər, konsepsiya, milli, dövlət*


Ümummilli lider Heydər Əliyev ölkədə gedən demokratik islahatlara və insan hüquqlarının qorunmasına hər zaman diqqət və qayğı göstərirdi. İctimai-siyasi, mədəni həyatımızın müxtəlif gedişlərində sistemli islahatlar yürüdən Ulu Öndərimiz bütün bu proseslərdə gənclərin iştirakına daim xüsusi diqqətlə yanaşırdı. Müxtəlif qurumlarda, dövlət təşkilatlarında, siyasi və iqtisadi arenalarda gənclərin iştirakını təmin etmək üçün səy göstərirdi.

Əlbəttə ki, bu da bir dövlətin başçısının nə qədər təqdirəlayiq xüsusuyyətə malik olmasını göstərirdi.

Azərbaycanın inkişafında iqtisadi, siyasi, mədəni həyatında, demokratik cəmiyyətin qurulmasında gənclərin rolu əvəzsizdir. Əgər dönüb tariximizə nəzər salarsaq, hər bir tərəqqi mərhələsində gənclərimizin özünə aid rol oynadığını görərik.

Heydər Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrdə tədris ocaqları, hərbi məktəblər, gənclərin məşğul-lugunu nəzərdə tutan mərkəzlər açılmış, gənclərimiz keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müxtəlif ixtisaslara yiyələnmişlər. Heydər Əliyevin təşəbbüsü ilə SSRİ məkanında 150 ixtisas üzrə 15mindən çox azərbaycanlı gəncin yüksək ixtisaslı mütəxəssis hazırlanmasına şərait yaradılmışdır. Azərbaycan gənclərinin 1forumunda dövlət rəhbəri demişdir: “Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm.” Uzaqgörən siyasətçi keyfiyyətləri məhz Ulu Ondərə xas xüsusiyyət idi. Bu həmin illərin ən möhtəşəm nailiyyətlərindən biri idi. Gənclər siyasəti Heydər Əliyevin hər zaman aparıcı istiqamərlərindən biri olmuşdur.

Ümummilli lider gənclərlə əlaqədar məsələləri öz siyasətinin əsas tərkib hissələrindən biri hesab etmişdir. Məhz bu səbəbdən də Heydər Əliyevin 2-ci dəfə hakimiyyətə qayıdışını ən çox gənclər alqışladı. Ulu Öndər gənclərə arxalandığı kimi gənclər də tarixi şəxsiyyəti boyük lider, milli dövlət quruculuğumuzun banisi kimi qəbul etmişlər. Qeyd etmək lazımdır ki, 1988-1993-cü illər aralığında ölkə gəncləri ictimai-siyasi proseslərdən kənarda qalmışdı. Dahi şəxsiyyət möhtəşəm qayıdışı ilə gənclərin dövlətin və cəmiyyətin müxtəlif sahələrində iştirakının təmin edilməsini vacib məsələlərdən



biri kimi elan etmişdi. Bu istiqamətdə atılan addımlardan biri 1994-cü ildə Gənclər, İdman və Turizm Nazirliyi yaradılması oldu. 1995-ci ildə Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürdü. 1996-cı il 2fevralda Azərbaycan gənclərinin ilk forumu keçirildi. 1997-ci ildə isə Ulu Öndər “2fevral– Azərbaycan gəncləri gününün elan edilməsi haqqında” sərəncam imzaladı. O gün bu gündür ki, hər il 2 fevral Azərbaycan gənclərinin bayramı kimi təntənəli qeyd edilir.

Ulu Ondər Heydər Əliyev tərəfindən təməli qoyulan gənclər siyasətinin əsas məqsədi yeni nəsillərin fiziki, mənəvi-psixiloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin kəşf edilməsi və onların həyatının düzgün şəkildə istiqamətləndirərək ölkənin gələcəyinə tohfə verməsini təmin etmək idi. Gənclərimizin bir fərd, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında ümummilli lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri gözümüzün önündədir. Olkə rəhbəri respublikada gənclər siyasətinin düzgün istiqamətdə aparılmasını çox vacib və önəmli hiss edərək demişdi: “Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır.”

Bundan başqa qeyd etmək istəyirəm ki, öz tərkibində yüksək intelektual potensialı birləşdirən Yeni Azərbaycan Partiyası sıralarında gənclər böyük üstünlük təşkil edir. Partiya sıralarına yeni daxil olanların əsas əksəriyyəti gənclərdən ibarətdir. Ulu öndər və onun ideyalarına sadiq qalan Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərə geniş imkanlar yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik hissinin formalaşdırılmasına xüsusi diqqət yetirmişdir. Məhz bu səbəbdəndir ki, ölkəmizin intellektual gəncliyi öz siyasi taleyini YAP-la bağlayır. Partiya gəncliyimizə qayğı göstərməklə yanaşı, onlardan gələn təklif, layihələri diqqətlə

qarşılayır və lazımi dəstəyini göstərir. Hətta gənclərimiz parlament və bələdiyyə seçkilərində öz hüquqlarından istifadə edirlər.

Dünya dövlətləri arasında yüksək nüfuza və etibarlı tərəfdaşlıq mövqeyinə malik olan Azərbaycan gəncliyi regionda liderlik edir. Biz milli mənsubiyyətimizlə qürur duyur, dövlətimizin və millətimizin var olması üçün öz məsuliyyətimizi dərindən dərk edirik. Müstəqillik dövründə gənclərin ictimai-siyasi fəallığı vətəndaş cəmiyyətinin qurulması üçün əsas şərtlərdən biri kimi yeni demokratik münasibətlərin formalaşmasına təkan verir. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında müstəqillik, dövlətçilik və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsinə xidmət edir. Milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı Ulu öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Ümummilli liderin Azərbaycan gəncliyi ilə bağlı konsepsiyasına görə hər bir gəncin müstəqil düşüncə tərzi olmalı, özünüdərk, özünütəsdiq yaranmalıdır. “Yalnız milli xarakterli, düşüncəli gənclər müstəqil dövləti inkişaf etdirə və qoruya bilər.”

## “GƏLƏCƏYİN MEMARLARI GƏNCLƏR” HEYDƏR ƏLİYEV “GƏNCLƏR SİYASƏTİ”

**Əliyeva Elmira**
*İnzibati idarəetmə Fakültəsi*

Gənclər siyasəti haqqında bir çox söz, cümlə, hekayə, məqalə, kitab və bir çox şey yazmaq və danışmaq olar. Hal-hazırda bir çox könüllülük fəaliyyətin də eyni zaman da vətənpərvər ruhunda



böyüyən gənclərimiz var ki, onlar öz torpağı uğrunda vətəni üçün canından keçmiş gənclərimizdirlər. Cənab Prezidentimizində dediyi kimi, Azərbaycan könüllüləri həm vətəpərvərdirlər, həm biliklidirlər, həm stedadlıdırlar, həm də Azərbaycan gəncliyini və gənclərin istedadını təcəssüm etdirirlər. Hal-hazırda ölkəmizdə Liderimizin qoyub getdiyi mirasın davamçıları olan Gənclərə aid təbliğatlar aparılır. Bəli, mən bir gənc olaraq milli-mənəvi dəyərlərimizə hörmət etməyi, dil-ədəbiyyatımızı qorumağı, mədəniyyətimizi bütün ölkələr də tanıtmağı öyrənmişəm. Modernlik, hal-hazırda ən aktual mövzulardan ola bilər mənim üçün. Bir gənc olaraq, modernlik dedik də xaricin ən gözəl və ən inkişaf etmiş hər-hansı bir sahəsi olursa olsun öz ölkəm də həmin yeniliyi gətirib inkişaf etdirməkdir. Ancaq bəzi gənclərimiz bu modernlik sözünün anlayışını tamam fərqli başa düşərək fərqli yanaşırlar. Belə ki, əgər deyiriksə modernlik inkişaf etmiş ölkələrin yeniliklərini öz ölkəmizdə təbliğ etməkdirsə, gənclərimizin də bunu başa düşüb təbliğ etməsidir və son olaraq vurğulamaq istəyirəm ki, modernlik biz gənc nəslin milli-mənəvi dəyərlərini qoruyub saxlayaraq hər zaman onlara hörmət edərək yanaşması ilə qalmayıb həm də tətbiq etmələridir.

**Heydər Əliyev və “Gənclər siyasəti”** Müstəqilliyin, dövlətçiliyin möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Ölkəmizdə gənclərlə bağlı görülən işlər Azərbaycan gəncliyinin inkişafına təkan verir, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynayır. Gənclərimizin bir fərd, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var. Ulu Öndərin rəhbərliyi ilə aparılan məqsədyönlü siyasətin nəticəsində respublikamızda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə və milli düşüncəyə malik gənclər formalaşdı.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə gənc nəslə diqqətin göstərilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Heydər Əliyev hələ Azərbaycan Respublikası Ali Sovetinin Sədri olarkən 1993-cü ilin 22 sentyabrında ilk olaraq gənclərin nümayəndələri ilə görüşərək onlara müraciətində bildirmişdi: “Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir. Siz, Azərbaycan xalqının gənc nəsli, bu gün də müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında böyük rol oynayırsınız. Eyni zamanda, müstəqillik yoluna düşmüş Azərbaycan dövlətinin gələcəyinin, xalqımızın daha firavan yaşamasının təməlini qoymaqda iştirak edirsiniz. Buna görə də sizə ümid bəsləyirik.” Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələrin fonunda gənclərin qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı. Bütün bunları bilən Ümummilli Liderimiz Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994- cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirməyə başladı. 1995-ci ildə Azərbaycan Respublikası Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bir çox vacib problemlərin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək məqsədilə Ümummilli Lider Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. Beləliklə də 2 fevral 1996-ci ildə gənclərin I Forumu keçirildi. İlk Forum Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında mühüm rol oynadı. 1997-ci il fevralın 1-də Forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ulu Öndər Heydər Əliyev 2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Fərman imzaladı. Onu da qeyd edək ki,



Azərbaycanda Gənclər Günü təsis edildikdən xeyli sonra gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransının (1998-ci il avqustun 8-12-də) tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 avqust - Beynəlxalq Gənclər Günü elan edildi. 2 mart 1999-cu il tarixdə Azərbaycan Gənclərinin İkinci Forumundakı çıxışında Ulu Öndər Heydər Əliyev respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətini gənclərin problemlərinin həllinə yönəltməklə bağlı tövsiyələr verdi. Heydər Əliyev forumda “XXI əsr gənclərin əsridir” deyərək gənclərə verilən dəyəri və onların ölkənin inkişafı üçün üzərlərinə götürdüyü məsuliyyəti göstərmiş oldu. 1999-cu ildə Heydər Əliyev tərəfindən imzalanan dövlət gənclər siyasəti haqqında Fərman bu sahəyə Prezident səviyyəsində böyük önəm verilməsinin təzahürü kimi qiymətləndirilə bilər. "Dövlət gənclər siyasəti haqqında" fərman çox geniş spektri - gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtın təşkili problemlərinin həlli, hüquqların müdafiəsi, respublikanın ictimai-siyasi və mədəni həyatında iştirakı ilə bağlı məsələləri əhatə edir. Dövlət gənclər siyasəti bu məqsəd və prinsiplərin reallaşdırılması üçün hazırlanıb, müvafiq hüquqi sənədlərdə öz əksini taparaq hökumət qurumlarının icrasına yönəldilib. Fərmana müvafiq olaraq "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib və 9 aprel 2002-ci il tarixində Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanıb. Gənclər siyasətinin həyata keçirilməsi əsas cavabdeh dövlət qurumu kimi Gənclər və İdman Nazirliyinə tapşırılıb. Ulu Öndərin illər öncə əsasını qoyduğu gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Məhz bunun nəticəsidir ki, gənclər siyasəti ölkədə həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə,

gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Azərbaycan gəncliyi Dövlət Proqramı" (2005-2009-cu illər) imzalanıb. Proqrama gənclər arasında hüquq pozuntularının, narkomaniyanın və digər zərərli vərdişlərin profilaktikası sahəsində tədbirlərin həyata keçirilməsi, gənclərin sağlamlığının qorunması sahəsində tədbirlərin reallaşdırılması, kütləvi bədən tərbiyəsinin və idmanın inkişaf etdirilməsi, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı, uşaq və gənclər üzrə təşkilatların formalaşması və inkişafı üçün şəraitin yaradılması kimi vəzifələr daxil edilib. Dövlət başçısının Fərmanı ilə Gənclər və İdman Nazirliyi 2006-cı ildə yenidən təşkil edilib, gənclər siyasətinin əsas icra orqanı qarşısında yeni vəzifələr qoyulub. Azərbaycanda Gənclər Günü ilə bağlı hər il silsilə tədbirlərin təşkil olunması, təhsil və digər sahələrdə yüksək nailiyyət qazanmış gənclərin xüsusi mükafatlarla təltif edilməsi, gənclər tərəfindən təqdim olunmuş layihələrin maliyyələşdirilməsi, istedadlı gənclərin beynəlxalq müsabiqələrdə, konfrans-seminarlarda iştirakının təmin edilməsi, müxtəlif istiqamətlər üzrə yarışların keçirilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2007-ci il "Gənclər ili" elan edilməsi dövlət başçısının Azərbaycan gəncliyinin savadına, bacarığına, gələcəyinə böyük inamla yanaşmasının əyani təzahürüdür. Bununla bağlı dövlət başçısının imzaladığı Sərəncamda deyilirdi: "... Hər bir insanın gücü əlbəttə ki, onun biliyindən asılıdır. Ona görə mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaqdır". Tarixi missiyanı həyata keçirən bizim qəhrəman gənclərimiz xalq və Vətən qarısında misilsiz xidmətlər göstərmişlər. Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda



mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Onların rəşadəti sayəsində əldə olunan şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarına qovuşdu. Qürur və fəxrlə deyə bilərik ki, Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur. Bu da Ulu Öndərin gənc nəsli Azərbaycanın uğurlu sabahı naminə səfərbər edən siyasətinin nəticəsi idi. Azərbaycan xalqı Vətən müharibəsində iştirak etmiş hər bir igid gəncinə minnətdardır. Vətən uğrunda, torpaq uğrunda döyüşlərin ön sıralarında gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Bu gün gənclər fəxr edirlər ki, məhz Ulu Öndər Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanın vətəndaşıdırlar və bundan sonra da Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, qüdrətinin artması yolunda əllərindən gələni edəcəklər.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Prezident Kitabxanası
2. Kitab "Heydər Əliyev və Azərbaycan Gəncliyi" (Elektron sənədlər toplusu).


## QİDA SƏNAYESİNDƏ REGİONAL MARKETİNQİN SƏMƏRƏLİ TƏŞKİLİNİN QİYMƏTLƏNDİRİLMƏSİ


**Əliyeva Fatimə**
*Azərbaycan Texnologiya Universiteti*
*Gəncə şəhəri Şah İsmayil Xətai prospekti 103*
*fatimaaliyevhaa@gmail.com*


**Xülasə**


*Təqdim edilən məqalədə* sənaye sahənin mövcud vəziyyəti və marketinqin təşkili səviyyəsi, müasir şəraitdə regionlarda bazar

proseslərinin idarə edilməsi məsələləri araşdırılır. Qeyd olunur ki, sahibkarlara göstərilən hərtərəfli dövlət dəstəyinin – güzəştli kreditlərin verilməsi, emal müəssisələri və məhsul saxlama anbarlarının şəbəkəsinin genişləndirilməsi, emal texnikası ilə təminatın yaxşılaşdırılması, xam malın satışı və s. ayrı-ayrı sənaye məhsullarının istehsalının artırılmasına öz müsbət təsirini göstərmişdir.

***Açar sözlər:*** *qida sənayesi, rəqabət qabiliyyəti, marketinq xidmətləri, bazar iqtisadiyyatı, reklam, iqtisadi inkişaf, regional marketinq, strateji marketinq, istehsal prosesi, bazarların spesifikası, sahibkarlıq, marketinq siyasəti, biznes modeli.*

**Giriş** Sahibkarlığa Kömək Milli Fondunun müasir texnologiyaların tətbiqinə əsaslanan iri layihələrin maliyyələşdirilməsi ilə yanaşı, kiçik həcmli layihələrin də güzəştli şərtlərlə maliyyələşdirilməsi də əsas məsələlərdən biridir. Göründüyü kimi fond ixrac potensialının artırılmasına, regionların tarazlı inkişafına, müasir texnologiyaların tətbiqinə əsaslanan rəqabət qabiliyyətli, yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılmasına şərait yaradır.

Nəzərə almaq lazımdır ki, xarici ticarətə qoşulmaq o qədər də asan deyil. Məlumdur ki, ölkə dünya bazarına daha çox xammal ixrac edir. Ancaq hazır məhsulların da sayının, çeşidinin artırılması Azərbaycanın istehsal edilən mallar üzrə tanınmasına yaxşı zəmin yarada bilər və bunun üçün ölkəmiz böyük imkanlara malikdir. Bu baxımdan bazarın öyrənilməsi, xarici bazarların tədqiqi, satış prosesində mövcud çətinliklər, rəqabət qabiliyyətli məhsul istehsalına üstünlük verilməsi və bu istiqamətdə dövlət səylərinin artırılması məsələlərinə xüsusi önəm verilməlidir.

Qeyd etmək lazımdır ki, ixrac potensialının genişləndirilməsi məqsədyönlü ticarət əlaqələrinin qurulması ilə şərtlənir. Ticarət əlaqələrini və ya fəaliyyətini səciyyələndirən amillərdən biri isə reklamdır. Reklam alıcılara təsir vasitəsi olaraq, kütləvi informasiya



vasitələrində, yəni, radio və televiziyada, mətbuatda, reklam lövhələrində, kinoda, həmçinin internetdə ideya və ya malların təqdim olunmasının ödənişli formasıdır.

Müasir səviyyədə sahibkar və ya istehsalçı marketinq xidmətinin mahiyyətini dərk edərək, xüsusilə bazar iqtisadiyyatı və rəqabətin artdığı şəraitdə reklam xidmətdən düzgün istifadə etməlidir. Çünki reklam birmənalı olaraq ticarət dövriyyəsinin, ümumiyyətlə kommersiya fəaliyyətini inkişafı məqsədilə malların məşhurlaşdırılmasına gətirib çıxarır və əmtəə bazarına təsir etmək üçün ən effektli vasitələrdən biridir. Dünya təcrübəsindən reklamın gücü və rolu məlumdur. Reklam məhsul istehlakçıları arasında rəqabətin əmələ gəlməsində bir üsul olaraq istər xarici və istərsə də daxili bazarda rəqabətin formalaşmasında əhəmiyyətlidir. Şimali Amerikanın bir sıra ölkələrində, o cümlədən ABŞ və Kanada bazar əsasında sənaye sahəsində kifayət qədər zəngin təcrübə toplamışdır.

Bu gün reklam müasir həyatın ən önəmli amillərindən biri sayılır. Çünki keyfiyyətli bir reklam dəyərsiz məhsulu bir anda istehlakçıya tanıtdıra bilir ki, bu da reklamın uğuru deməkdir. Reklamın əhəmiyyəti onunla izah olunur ki, reklam məhsulun tanınmasına, bazara nüfuz etməsinə, xarici ticarətin genişlənməsinə müsbət təsir etməlidir və əlbəttə bu zaman məhsulun reklam edilməsinə sərf olunan vəsait əmtəə dövriyyəsinin artması hesabına ödənilir.

Məlumdur ki, respublikamızda həyata keçirilən regional siyasət milli iqtisadiyyatın dinamik inkişafına təkan vermişdir. Bu istiqamətdə qeyri-neft sektorunun inkişafı, sahibkarlıq, biznes mühitinin yaxşılaşdırılması, investorlar üçün əlverişli şəraitin yaradılması dövlət tənzimlənməsinin prioriteti kimi qiymətləndirilir. Regional siyasət strategiyası istiqamətində zəruri sayılan amillərdən aydın olur ki, ölkənin ümumi iqtisadi inkişafına nail olmaq üçün regional səviyyədə dövlət tənzimləmə tədbirləri vacibdir.

**Tədqiqatın obyekti və metodikası** Tədqiqatın aparılmasında nəzərə alınmalıdır ki, regional inkişaf təkcə regionun coğrafi mövqe, təbii sərvətləri və s. ilə deyil, həm də bu inkişaf idarəetmənin keyfiyyəti ilə müəyyən olunur. Ona görə də regional inkişaf üzrə bazar proseslərinin regional idarə edilməsi istiqamətində müasir regional marketinq və menecmentin metodlarından geniş istifadə olunması məqsədəuyğundur. Regional strateji marketinq ümumdövlət marketinq sisteminin elementi olub, ümumdövlət səviyyəli marketinqlə müəssisələrin (firmaların, təşkilatların) marketinqi arasında əlaqələndirici, vahid məqsədlər sistemində müxtəlif səviyyəli subyektlərin mənafelərini praktiki olaraq uzlaşdırmağa imkan verən vasitədir. Bəzi ölkələrdə, məsələn, Rusiyada regional strateji marketinq bir sıra idarəetmə funksiyalarının mərkəzdən yerlərə verilməsi prosesləri ilə şərtlənmişdir (bu, dünya miqyasında oxşar proseslər üçün də səciyyəvi haldır). Regional strateji marketinqin funksional rolu (ictimai əmək bölgüsündə həmin regionun tutduğu yer nəzərə alınmaqla) ümumdövlət səviyyəli strateji marketinqin müəyyən etdiyi sosial-iqtisadi məqsədlər baxımından regionun optimal inkişafını təmin etməkdir. Regional strateji marketinqin köməyi ilə elə mühit yaradılır ki, bu mühitdə müəssisələr, firmalar və vətəndaşlar əlaqəli fəaliyyət göstərirlər, həmin mühit inzibati məcburetmə olmadan onların ümumi strateji məqsədə doğru hərəkətini stimullaşdırır.

Azərbaycanda regional inkişafın idarə olunmasının təkmilləşdirilməsi istiqamətində regional inkişafın strateji planlaşdırma sistemininin formalaşdırılması vacib amildir. Bunun üçün ilk növbədə regionda olan inkişaf tendensiyasının problemləri müəyyən etmək və SWOT təhlili metodunu tətbiq etmək, ikinci regionun sosial-iqtisadi sistemində birinci və ikinci dərəcəli məqsədləri müəyyənləşdirmək, hər iki səviyyədə olan məqsədlərə çatmaq üçün əsas göstəriciləri seçmək və əlbəttə bunun üçün də meyarlar



müəyyənləşdirmək, ekspert qiymətləndirmə metodundan istifadə etməklə göstəricilərin qiymətləndirilməsi məqsədəuyğundur. Müasir dövrdə regional marketinq fəaliyyətini regional inkişafın aləti kimi qiymətləndirmək olar. Belə ki, regional inkişaf proqramının hazırlanması mərhələsində region iqtisadiyyatının vəziyyətinin ənənəvi təhlili ilə yanaşı həm də regionda istehsal olunan məhsul və xidmət bazarlarının vəziyyətini əks etdirən kifayət qədər dərin regional marketinq tədqiqatları aparılmalıdır. Təsadüfi deyil ki, son dövrlərdə regional inkişafın idarə olunması prosesində müasir idarəetmə texnologiyaları geniş tətbiq olunmağa başlayır. Belə texnologiyalardan biri də regional marketinqdir.

Qeyd olunur ki, regional marketinq ərazinin imicinin formalaşdırılmasına və yaxşılaşdırılmasına, onun rəqabət qabiliyyətinin yüksəldilməsinə, regionun beynəlxalq, dövlət və regional proqramlarda iştirakının genişlənməsinə, əraziyə dövlət və digər sifarişlərin cəlb olunmasına, əhalinin maraqları baxımından regionun resurslarından onun sərhədlərindən kənarda istifadəsini stimullaşdırmağa kömək edir. Təbii ki, müasir dövrdə ənənəvi informasiya – kommunikasiya texnologiyalarından istifadə idarəetmənin bu məqsədlərə nail olmaq üçün lazım olan çevikliyini təmin edə bilmir. Bu çətinliyi aradan qaldırmağa son dövrlərdə sürətlə inkişaf edən yeni informasiya texnologiyaları, xüsusilə internet kömək edir. İnternet regional marketinqin həyata keçirilməsi üçün yeni imkanlar açır, dünya informasiya resurslarına çıxışa, məqsədli auditoriyanı geniş əhatə etməyə, etibarlı və sürətli əks əlaqə yaratmağa imkan yaradır ki, bu da həyata keçirilən marketinq siyasətinin səmərəliyinin qiymətləndirilməsini asanlaşdırır. Burada regional internet-marketinq dedikdə, elektron informasiya mühitinin formalaşdırılması, əraziyə kənar resursların (maliyyə, insan, istehsal və s.) cəlb olunması üçün regionun cəlbedici daxili şəraitinin və üstünlüklərinin gücləndirilməsi sahəsindəki fəaliyyət başa düşülür. Bu fəaliyyət internetin texnoloji

imkanlarından istifadə etməklə regionun iqtisadi, siyasi vəziyyəti haqqında, onun üstünlükləri və inkişaf istiqamətləri haqqında maraqlanan istifadəçilərə strukturlaşdırılmış informasiyanın çatdırılmasını nəzərdə tutur. Bununla da regional internet-marketinq tədricən regional inkişafın idarə olunmasını yeni alətinə çevrilir. O, regional resursların istifadəçiləri üçün idarəetmə subyektlərinin açıqlığını və əlçatanlığını təmin edir, regionda və ondan kənarda baş verən dəyişikliklərin monitorinqini və vaxtında təhlilini aparmağa imkan verir, idarəetmə prosesini əlaqələndirməyə kömək edir və nəzarəti asanlaşdırır. Bütün bunlar regional idarəetmə subyektlərinə çox qısa müddətdə daxili və xarici mühitin dəyişən şərtlərinə adaptasiya olunmağa imkan verir və bununla da idarəetmənin müasir tələblərinə cavab verir.

Eyni zamanda, qeyd olunur ki, xüsusi iqtisadi zonaların yaradılması innovasiya prosesinin sürətlənməsini ön plana çəkir və müasir bazar şəraitində innovasiyaların tətbiqi prosesində marketinq fəaliyyəti və menecmentin rolunu əsaslandırır. Azərbaycanda sənaye sahəsi üzrə innovasiyanın prioritet istiqamətləri kimi aşağıdakılar göstərilir:

- istehsal prosesində təşkilatı iqtisadi münasibətlərin təkmilləşdirilməsi;
- istehsalın və idarəetmənin təşkilinin perspektivli formalarının tətbiq edilməsi;
- kadrların hazırlanması, onların ixtisasının artırılması və əməyin motivləşdirilməsi sisteminin təkmilləşdirilməsi;
- maliyyə-kredit mexanizminin, vergi sisteminin və qida sənayesinin məhsullarının qiymət əmələ gəlməsi prinsiplərinin təkmilləşdirilməsi;
- yeni innovasiya texnologiyalarından və kompüter texnikasından istifadə edilməsi əsasında istehsalın planlaşdırılması, idarə edilməsi, uçot və nəzarət sisteminin təkmilləşdirilməsi;



- istehsalın ekolojiləşdirilməsi;
- təmir-bərpa bazasının və texniki servisin intensiv inkişafı.

Hazırda dünyanın bir çox ölkələrində sahibkarlığın dəstəklənməsi məqsədilə səmərəli təşkilati-idarəetmə mexanizmləri – biznes-inkubatorlar tətbiq edilir. Biznes-inkubatorlar dünya təcrübəsində tətbiq olunan təşkilati-idarəetmə mexanizmidir. Qida sənayesinin inkişafında ixracyönlü və rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsi, marketinq fəaliyyətinin təkmilləşdirilməsi, ümumilikdə yeni idarəetmə mexanizminin formalaşdırılmasında bazalar, biznes-inkubatorlar böyük rola malikdir.

**Tədqiqatın nəticələrinin müzakirəsi və təhlili.** Qida sənayesi ilə bağlı marketinq fəaliyyəti bazarların spesifikası, tələb və təklifin səviyyəsinin müəyyənləşdirilməsi, istehsal olunmuş məhsulun qablaşdırılması, satışı, nəqli, həmçinin ASK-da qiymət və rəqabət mühitinin öyrənilməsi kimi xüsusiyyətləri şərtləndirir.

Qida sənaye müəssisəlrində istehsal prosesi bazar şəraitinə, sahibkarların fəaliyyətinə, bazarın fəaliyyətinə təsir edən bir sıra spesifik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlərdən biri–təbii-bioloji amil istehsalın səmərəliliyinin müəyyən edilməsində, texnologiyaların seçilməsində başlıca rol oynayır.

Qida sənaye müəssisələrində başqa sahələrlə müqayisədə gözlənilməyən itkilərin təhlükəsi, yəni, risk son dərəcə böyükdür. Bu, yuxarıda sadalanan məsələlərlə bilavasitə əlaqədardır. Ona görə də, marketinq proqramlarını işləyib hazırlayarkən yüksək risk şəraitində imkanların qiymətləndirilməsinə fikir verilməlidir. Belə ki, mümkün zərər mənbələrini aşkara çıxarmaq və təsvir etmək; riskin aşağı salınması metodlarının iqtisadi təhlilini aparmaq; sığorta proqramını işləyib hazırlamaq; lazım olarsa, mütəxəssislərlə məsləhətləşmək kimi amillər nəzərə alınır.

**Nəticə** Hazırkı dövrdə geniş təkrar istehsalın həyata keçirilməsinə şərait yaradılmasına, istehsal proseslərinin

intensivləşməsinə, əmtəə istehsalçılarının maliyyə-təsərrüfat fəailyyətinin səmərəliliyi istiqamətində uzunmüddətli proqramın işlənib hazırlanmasına, vacib istehsal resurslarının əldə olunmasına, sahələrarası və təsərrüfatdaxili əlaqələrin qurulmasına, istehsalın və məhsul satışının səmərəli təşkili məsələlərinə xüsusi fikir verilməlidir. Hər bir sahibkar fəaliyyətə başlamazdan əvvəl istehsal edəcəyi məhsulun və ya göstərəcəyi xidmətin indi və gələcəkdə ölkə daxili və beynəlxalq bazarlarda tələbatını nəzərə alaraq, müvafiq işi həyata keçirmək üçün maddi və maliyyə resurslarına tələbatı, onların ödənilmə mənbələri barədə hərtərəfli məlumata malik olmalı, fəaliyyət prosesində istifadə edilən resursların səmərəliliyini dəqiq hesablamağı bacarmalıdır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı. Azərbaycan Respublikasının Qanunvericilik toplusu, 2001, № 3.
2. “2018-2022-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”. 2018-ci il 25 avqust.
3. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası- nın Qanunu. Bakı, 1995.
4. “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı 2002.
5. Axundov Ş.Ə. Marketinqin əsasları. Bakı: Əbilov, Zeynalov və oğulları nəş- riyyatı, 2001, 572 s.
6. Xəlilov H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Səh. 87-92, 161-175.
7. Аграрная политика / Под ред. профессора А.П.Зинченко. Москва: Колос, 2004, с. 43-77.




# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ KİÇİK SAHİBKARLIĞIN FORMALAŞMASI VƏ İNKİŞAF QANUNAUYĞUNLUQLARI


**Əliyeva Jalə**
*Azərbaycan Texnologiya Universiteti(UTECA)*
*(verginin idarə edilməsi və vergi planlaşdırılması)*
*https://orcid.org/0009-0003-8197-3153*
*jaja98aliyeva@gmail.com*



### Xülasə

Aparılan tədqiqatda müəyyən olunmuşdur ki, sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının əsas hissəsini təşkil etməklə dövlətin xarici bazarlarda inteqrasiya prosesinin, eləcə də ölkə infrastrukturlarının, müəssisə və təsisatların, biznesin təkmilləşdirilməsində qüvvə rolunu oynayır. Tədqiqatda nəzərdə tutulan məqsəd sahibkarlığın bir növü olan kiçik sahibkarlığın bazar iqtisadiyyatı və sosial-iqtisadi inkişaf şəraitində öyrənilməsi və ölkəmizdə belə sahibkarlığa cəlb olunmanın inkişaf etdirilməsidir. Məqalədə kiçik sahibkarlıq həyat səviyyəsinin yüksəldilməsi üçün şəraiti təmin etməklə bərabər yeni iş yerləri təşkil edərək bütövlükdə insanlar üçün faydalı xidmətlər və mallar istehsal etməsi qeyd olunmuşdur.



***Açar sözlər:*** *bazar iqtisadiyyatı, sahibkarlıq fəaliyyəti, sahibkar, kiçik sahibkarlıq.*


### Giriş

Bazar münasibətlərinin formalaşdığı, bazar iqtisadiyyatının yarandığı cəmiyyətdə sahibkarlıq fəaliyyəti dövlət iqtisadiyyatının əsas rol oynayan hərəkətverici qüvvəsidir. İqtisadi münasibətlərin keçid şəraiti əlverişli bazar mühitinin yaradılmasında sahibkarlığın inkişafı və formalaşmasının göstəricisidir. Bəşəriyyətin iqtisadi inkişafının əsas amillərindən biri də sahibkarlıq fəaliyyətinin inkişafı

və onun ölkə tərəfindən hansı səviyyədə və şəraitdə dəstəklənməsi ilə birbaşa bağlıdır. Sahibkarlıq fəaliyyəti – fərdi sahibkarın müstəqil formada həyata keçirdiyi, başlıca məqsədi malın istehsalını və yaxud satışını, əmlakın istifadəsini, xidmətlər göstərilməsini və işlərin aparılmasını özündə ehtiva edir. Sahibkar qazandığı mənfəətlə yeni biznes, iş yerləri və bazarlar yaradır, bununla da müəyyən olunmuş vergilər ödəyir. Belə ki sahibkar əldə etdiyi gəliri və yaxud firmasının mənfəətini yüksəltməyə cəhd edir.

**Mövzu və metodlar**

Ölkənin sosial-iqtisadi vəziyyətində sahibkarlıq fəaliyyəti sosial istiqamətli bazar iqtisadiyyatına mühüm təsir göstərir. Sahibkarlığın mahiyyətini araşdırarkən onunla bağlı inkişaf konsepsiyasına aid vahid fikrin olmaması ilə elmi ədəbiyyatlarda rastlaşırıq. Bununla da sahibkarlığın inkişaf formalarının öyrənilməsi məqsədəmüvafiqdir. 1725-1730- cu illərdə ilk dəfə sahibkarlıq fəaliyyətinin nəzəri konsepsiyası haqqında məlumata Pikardo Kontilionun fəaliyyətində rast gəlinir. Sonrakı vaxtlarda sahibkarlıq nəzəriyyələri iqtisadçıların və alimlərin fəaliyyətlərində inkişaf etdirilərək tədricən fikir formalaşmışdır ki, sahibkarlıq yenilikçiliyə və riskə meyilli olması ortaya çıxmışdır. (V.M.Niftullayev. Sahibkalığın əsasları. Bakı, 2004). XVIII əsrin ortalarında sahibkarlıq konsepsiyasını fiziokratlar genişləndirdilər. Onlar da sahibkarı Kontillion kimi qeyrimüəyyənliyin daşıyıcısı, hətta bir az da irəli gedərək bu məfhumu daha da zənginləşdirib istehsal prosesini də ona əlavə edirlər. Belə çıxır ki, sahibkarın qazanc əldə etməsi üçün bir sıra iqtisadi resurslara və iqtisadi imkanlara malik olması vacibdir. Sahibkar onların fikrincə, məhsul istehsalını etməli, eyni zamanda yeni metodlar axtarışında olaraq onları tətbiq etməli və yeni satış bazarları tapmalıdır. A.Smit 1776-cı ildə öz fəaliyyətində əməyin, kapitalın və torpağın istehsalının mühüm amilləri olduğunu əks etdirsə də sahibkarlığın rolu barəsində heç bir fikir irəli



sürməmişdir. Yalnız Y.B.Sey 1810-cu ildə ilk dəfə olaraq istehsalın ən əsas amillərindən olan sahibkarlığın əhəmiyyəti və rolu haqqında fikir bildirmişdir. Y.B.Sey menecment inqilabı ilə yanaşı, sənaye inqilabının da gələcəyini demişdir. Y.B.Seyin fikrinə görə «istehsalın ustası» bir sıra keyfiyyət və qabiliyyətlərə sahib olmalıdır. Onlar aşağıdakılardır: - nəzakətli, sabit və düz olmalı; ehtiyatlı, ödəməqabiliyyətli; - kapitalı borc formasında sövq etməyi və aldığı krediti zamanında qaytarmalıdır; -biznesdə olan israrlılıq, uzaqgörənlik, ədalətlilik prinsiplərini və bir sıra mənəvi keyfiyyətləri də özündə cəmləməlidir; - malın istehsalı formalarını həmçinin pronazlaşdırılan və gözlənilən tələbi qiymətləndirmək bacarığında olmalıdır. 1890-cı ildə yeni hadisə olan peşəkar menecment anlayışı yarandı. Lakin ilk dəfə A.Marşall birmənalı olaraq öz tədqiqatlarında sahibkarla menecer (inzibatçı) arasındakı fərqlilikləri göstərib .Marşala görə müəssisədə ən əsas funksiya və rolu menecer yerinə yetirir, lakin bütün riski və məsuliyyəti bütövlüklə öz üzərinə götürən sahibkardır, buna görə də o, həm sahibkar , həm də menecer üçün vacib olan keyfiyyətlərə sahib olmalıdır. Menecment tarixinin orta əsr dövrlərini öyrənən tədqiqatçılar çox zaman C.Şumpeteri müasir dövr sahibkarlığın atası kimi adlandırırlar. Şumpeterin fikrinə görə sahibkarlığın mahiyyəti bundan ibarətdir ki, o da öz özlüyündə mövcud olan istehsal tsiklinin artırılaraq sürətləndiril-məsinə və yaxud ümumi iqtisadi olan artıma gətirib çıxarır. C. Şumpeter sahibkarlar və onların işlərində lazım olan və istifadə edilən aşağıdakı istiqamətləri (və yaxud onların uyğunlaşmasını) müəyyənləşdirir: istehsalın yeni üsulları; təşkiletmənin yeni metodları; yeni xidmətlər və ya məhsullar; satış bazarları; təchizat mənbələri. C.Şumpeter sahibkarları investorlardan və sadə tacir olan alverçilərdən fərqli olaraq sosial-iqtisadi yenilikçilər və yeni biznesmenlər adlandırır. Şumpeterə görə sahibkarlıq əməyinin də sahibkarların fəaliyyətində xüsusi mahiyyəti vardır. Deməli, sahibkar bir sıra

materialları, istehsal üçün lazım olan vasitələri sadəcə olaraq tapmır, təchizat mənbələrini, yeni xidmət və yeni malları, istehsal üsullarını, təşkilat formalarını tapmaq və əldə etmək yolu ilə onlardan daha məqsədəuyğun və əlverişli istifadə edir. Beləliklə, onlar əməkləri ilə mənfəət əldə edirlər ki, bu da sahibkarlıq mənfəəti hesab olunur. Sahibkarlığın daha da müasir nümayəndəsi olan D.Makkleland sahibkarlıq haqqında fikirlərini belə səciyyələndirir: təşkilatçılıq ustalığı, fərdi məsuliyyət; ətrafda baş verən dəyişikliklərə qarşı uzaqgörənlik və ya öncədən görmək bacarığı; müəyyən riskləri gözə almaq; qəbul olunan qərarların son nəticəsi kimi mənfəət. İlk dəfə müəssisənin təşkili və onun imkanlar anlayışını P.Druker tətbiq edib. Yeni müəssisəyə lazımlı resurslar tapmaqdan və təşkil etməzdən öncə, biznesin tərəqqisi üçün əlverişli imkanlara sahib olmaq lazımdır. İqtisadçılar müəssisənin qazancının maksimum həddə gətirilməsi haqqında danışırlar. Əsas məğz mənfəət qazanmaq üçün imkanların yüksək həddə gətirilməsindən gedir. XX əsrin ən tanınmış iqtisadçısı De.M.Keyns sahibkarı, yəni biznesmeni tam yeni tip, yeni formalı təsərrüfatçı kimi səciyyələndirir.

Sahibkarlığın mahiyyətinə aid nəzəriyyələri təhlil edərək onun tərifini düzəltməyə imkan verən lazımlı və əsas xarakteristikaları qruplara ayırmaq olar. Sahibkarlıq- müəyyən olunmuş risklilik dərəcəsiylə yanaşı həmçinin mövcud olanın tərəqqi etdirilməsi və ya yeni təsisatların yaradılması ilə əlaqədar innovasiya fəaliyyətidir. Bununla bağlı tədqiqatlara əsaslanıb sahibkarlığı aşağıdakı kimi qruplaşdırmaq olar: 1) fərdin qazanc əldə etməsi və yenilikçilik fikrini həyata keçirtmək üçün riski gözə alması və çevikliyi; 2) təsərrüfatçılığın daha da faydalı üsullarının tətbiqi və yenilərinin axtarışı; 3) təsərrüfat davranışının fərqlənən növü; 4) mikro sahibkarlığın iqtisadi yüksəlməsinin aşağı xərci istiqamətində yeni fəaliyyət və iş yerlərinin təşkil edilməsində və texnoloji tərəqqidə rolu; 5) təşkilati-təsərrüfatda yenilik. Sahibkarlığı modern



nəzəriyyələrdə yeddi konsepsiyaya bölürlər. Bunların isə hər birinin bağımsız istiqamətə sahib olmaqla, sahibkarlıq prosesinə və yaxud sahibkarlığa öz baxış formaları vardır. Belə ki fərdi keyfiyyətlər aspektindən yola çıxaraq konsepsiyada sahibkarın bir sıra təbii qabiliyyətlərə sahib olması da qeyd olunur.

Bir sıra xaraterik olan qanunauyğunluqlarla kiçik sahibkarlığı müəyyənləşdirmək olar: - rəqabət şəklində münasibətlərin formalaşması; məhsulun çeşidinin çoxaldılması və keyfiyyətinin artırılması; mülkiyyətçi olan sosial təbəqələrin yaradılması; iri istehsal sahəsində məhdudiyyət qoyulan əhalinin bir sıra qruplarının (pensiya alan təqaüdçülər, ev təsərrüfatlar) əmək fəaliyyətlərinə cəlb olunması; yerli xammal yerlərinin mənimsənilərək istifadə edilməsi; ölkənin az faydalı və zərərli müəssisələrdən qurtulması (elə müəssisələri icarəyə götürmək, satın almaq yolu ilə). Kiçik sahibkarlıq ölkəmizdə digər məsələlər ilə yanaşı, sosial məsələləri də həll etməyə imkan verir. Belə ki bunların arasında ən vacib yeri işsizliyin azaldılması probleminin aradan qaldırılmasıdır. Və əlverişli investisiya siyasətinin aparılması imkanlarının az olmasında çətinlik çəkən insanlar və işsizlər üçün yeni iş və fəaliyyət yerləri təşkil edən müəssisə və təşkilatlara real cəhətdən dəstəyin olması və təsir göstərilməsi çox vacibdir. Ümumilikdə bunlar kiçik sahibkarlığı rəqabətli bazar mexanizminin vacib və əsas inteqral ünsürünə çevirmişdir ki, beləliklə, bazarın potensial yaradıcı imkanlarından əlverişli istifadə etmək mümkün deyildir. Belə ki kiçik və orta sahibkarlığın düzənlənməsi, onun fəaliyyəti və inkişafına faydalı şəraitin təşkil edilməsi bazar iqtisadiyyatı zamanı dövlətin əsas vəzifələrindən biri kimi çıxış edə bilər. Kiçik sahibkarlığın dövlət nəzarətinin, onun dəstəklənərək əlvərişli sisteminin formalaşması nəinki mikro müəssisə üçün, həm də ümumilikdə dövlət iqtisadiyyatı üçün vacib əhəmiyyətlidir. Həmçinin əhalinin geniş təbəqələri üçün kiçik sahibkarlıq həyat səviyyəsinin yüksəldilməsi üçün şəraiti təmin

edir, yeni iş yerləri təşkil edərək bütövlükdə insanlar üçün faydalı xidmətlər və mallar istehsal edir, bir sıra məhsulların alıcısı kimi çıxış edərək dövlətin və onun regionlarının iqtisadi inkişafına böyük təsir göstərir. (Hüseynli İ.Q. Quliyev R., Xəlilov H.,Abbasov və b. Azərbaycan iqtisaiyyatında kiçik və orta sahibkarlıq: nəticələr, problemlər və perspektivlər,"Səda"nəşriyyatı,2001).

Kiçik müəssisələrin iqtisadi imkanlarının yaradılması daha çox onların maliyyələşdirilməsinin şərtlərindən və imkanlarından asılı haldadır. Əsas mövzu ilk növbədə maliyyə mənbələrinin formasından və quruluşundan gedir. Şəxsi kapitalın əsas çəkisinin az olması, borc vəsaitlərinin isə yüksək həddə çatması hər zaman kiçik biznesdə təsadüf olunur. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən kiçik müəssisələrin pul vəsaitləri ilə təhciz olunması həm daxili, həm də xarici mənbələr hesabına həll olunur. Büdcə vəsaitləri, büdcədənkənar olan qeyri-kommersiya fondlarının hesabındakı vəsaitlər, məqsədli olan kreditlər, qeyri-dövlət fondlarında olan vəsaitlər (sığorta, pensiya və s.), kommersiya banklarında olan uzunmüddətli kreditlər, müəssisələrin emissiya etdiyi səhmlərdə olan vəsaitlər və s. maliyyələşmənin xarici mənbələri kimi istifadə edilir. Kiçik biznes müəssisələrinin pul vəsaiti ilə təmin olunmasının mühüm daxili mənbələri kimi sahibkarların pul yığımı və əmanəti, mənfəət, amortizasiya ayırmaları, sığorta fəaliyyətinin vəsaitləridir. Kiçik və orta biznesin, xüsusilə də sahibkarların dəstəklənməsinin çoxsəviyyəli sisteminin formalaşması müasir dövrdə vacib şərtlərdən biridir. Belə bir qurluşda sistemin olmaması kiçik biznesin inkişafı, tənzimlənməsi və dəstəklənməsi sahəsində lazımı qərarların qəbuluna maneə törədir. Və beləliklə bütün səviyyələrdə olan idarəetmə sisteminin pozulmasına, nəticədə isə qarşıya qoyulmuş olan məqsədə nail olunmur. Odur ki, əlverişli idarəetmə məqsədi ilə sahibkarlığın idarəolunmasının çoxşaxəli (regional, lokal, müəssisə, dövlət )



sistemini təşkil etmək məqsədə uyğundur. (YaqubovS.M., Sadıqov M.M.,Əliyev Ə.İ. 1990 – 2000 –ci illərdə Azərbaycan iqtisadiyyatı: inkişaf meylı strategiyası və problemləri, Bakı, 2001).

Müxtəlif ölkələrin iqtisadi çiçəklənməsinə, istehsalın canlanmasına səbəb olan və əhalinin iqtisadi fəallığının yüksəldil-məsi-nə güclü stimul verən əsas amillərdən biri də kiçik sahibkarlıqdır .İqtisadiyyatın ən güclü və nəticəli sektorlarından biri olan kiçik sahibkarlıq, həmçinin ÜDM-in (Ümumi Daxili Məhsul) xeyli hissəsi onun payına düşür və fəal əhalinin çox hissəsi də orada işləyir. İş yerlərinin sayının artırılmasından başqa dinamik, rəqabət qabiliyyəti olan və diversifikasiyalı iqtisadiyyatın yaradılmasında da kiçik və orta biznesin vacib əhəmiyyət kəsb edir. Bazar münasibətlərinin inkişafı və formalaşması bir sıra mülkiyyət şəklində olan təsərrüfat obyektlərinin fəaliyyətini tələb edir. Azərbaycanda da kiçik biznesin inkişafına xüsusi olaraq fikir verilir. Kiçik mülkiyyətçilər olan kiçik sahibkarlar əhəmiyyətli formada dövlətin sosial-iqtisadi inkişaf səviyyəsini müəyyənləşdirir. Buna görə də suveren ölkələrdəki kimi Azərbaycan Respublikasında da bu sektora böyük əhəmiyyət verilir. Kiçik biznesdə milli resursların vacib hissəsi yaradılır və bu isə orta və iri biznesə görə qida mühitidir. Kiçik təsislərin elə də böyük olmayan texnoloji istehsalı həmçinin idarəetmə çəldliyi bazarın dəyişən konyukturasına zamanında uyğunlaşmağa və reaksiyasına imkan verir. Daha da aktiv inkişafda olan sahə olmaqla yanaşı kiçik sahibkarlıq makroiqtisadi mühitə səmərəli təsir göstərməyə malikdir. O, məşğulluğun irəliləməsinə, inkişafına kömək edir, inhisarçılığın çiçəklənməsinə maneə törədən bazar mexanizminin əsl fəaliyyətinə imkan verir, ümumiyyətlə rəqabət mühitinin formalaşdırılmasının əsas amillərindən biri kimi çıxış edir. Ümumiyyətlə, iqtisadiyyatda kiçik sahibkarlığın dəyərini və rolunu qiymətləndirmək heç də asan deyildir. Amma buna baxmayaraq bir sıra sübutlarla bu sahənin iqtisadiyyatda

əhəmiyyətini müəyyən etmək mümkündür. Sosial funksiyanın da əhəmiyyəti böyükdür. Bir çox şəxslər kiçik sahibkarlıq vasitəsilə öz yaradıcı kreativ imkanlarını reallaşdırır. Əhalinin zəif təbəqəsi olanlar (qadınlar, pensiyaçılar, şikəstlər və s. ) kiçik təsisatlarda əmək fəaliyyəti və bacarığları ilə məşğul olurlar. Kiçik müəssisələrin müasir dövrdə ekoloji funksiyası da öz aktuallığı və indivudallığı ilə gözə çarpır. İqtisadiyyatı inkişaf edən ölkələrdə kiçik müəssisələr fəaliyyət göstərir ki, onların funksiyaları da iri və orta müəssisələrin sənaye tullantılarının təkrar emalı üzrədir.

**Nəticə**

Bu qeyd olunanlardan aydın olur ki, iqtisadiyyatda böyük müəssisələrlə yanaşı, kiçik müəssisələrin rolu və səmərəliliyi böyükdür və ən nəhayət, cəmiyyətin orta sosial təbəqəsinin formalaşmasının vacib mənbəyi olaraq aparılan islahatların sosial bazasını tam şəkildə genişləndirməyə imkan yaradır. Bu qeyd olunanlardan anlaşılır ki, ekonomikada kiçik müəssisələrin rolu nisbətən daha yüksəkdir, onun əlverişliliyi böyükdür və ən nəhayət, əhalinin orta sosial təbəqəsinin yaranmasının vacib mənbəyi olmaqla, həyata məşəqqətlə keçirilən islahatların sosial bazasını genişləndirməyə imkan yaradır. Kiçik bizneslərin ən qətli və düşündürücü problemlərindən biri də onun maliyyə təminatıdır. Kiçik biznesin dəstəyinin ən vacib vasitəsi kimi özünü göstərən biznes inkubatorlarından istifadə edilməsi daha məqsədəuyğundur.

Kiçik istehsal obyektlərinin və innovasiya müəssisələrinin stimullaşdırılmasında dövlət qaytarılma dərəcəsi yüksək olmayan güzəştli kreditlərdən ünvanlı təminat verməyə keçməlidir. Güzəştli kreditlərdən xüsusi investisiyanın və maliyyə resurslarından istifadənin cəlb edilməsinin daha əlverişli vasitəsidir. Kənd təəssürafatı sektorunda kiçik sahibkarlığın dəstəklənməsində istifadə olunan maliyyə resurslarının mənbələri qismində : dövlət, yerli büdcələr; bilavasitə xarici investisiyalar; depozitlər formasında



əhalidən vəsaitləri öz əlində cəmləşdirən kommersiya bankları; aqrobiznes müəssisələri; sığorta institutları; xüsusi dövlət proqramları; fərdi kreditorlar; pensiya fondları; iqtisadi institutlar və s. çıxış edir. Ümumilikdə ölkəmizdə sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinə, yeni kiçik və orta təsisatların yaradılmasına, yeni sahibkarlıq təbəqəsinin formalaşmasına çatmaq üçün kiçik və orta biznesin maliyyə yardımı aşağıdakı istiqamətlərdə həyata keçirilməsi məqsədəuyğundur: 1) Sahibkarların irəli sürdüyü layihələr dövlət tərəfindən verilən güzəştli kreditlərin faiz dərəcəsini azaltmaq və kreditləşmənin müddətini artırmaq; 2) Xarici bazara inteqrasiya edən kiçik firmalara kreditlər verilərək maliyyələşdirmək; 3) Bankların istifadəsində olan kredit resurslarından sahibkarları maliyyələşdirilməsinə sərbəstlik vermək; 4) Perspektivli olan layihələrin maliyyələşdirilməsinə yönələn kredit bazasının həcmini artırmaq; 5) Kreditlərin sənədləşdirmə proseduranı sadələşdirmək və müddətini azaltmaq.

**Ədəbiyyat**


1. Hacıyev N.Ö., Azərbaycanda kiçik müəssisələrin təşəkkülü və inkişafı. Bakı. “Bakı Universiteti Nəşriyyatı”. 2000.
2. Hüseynli İ.Q. Quliyev R., Xəlilov H.,Abbasov və b. Azərbaycan iqtisaiyyatında kiçik və orta sahibkarlıq: nəticələr, problemlər və perspektivlər,”Səda”nəşriyyatı, 2001.
3. İmanov Ə.Ş. Kiçik sahibkarlıq. Bakı. “Elm”. 2009.
4. M.Niftullayev. Sahibkalığın əsasları. Bakı, 2004.
5. YaqubovS.M., Sadıqov M.M.,Əliyev Ə.İ. 1990 – 2000 –ci illərdə Azərbaycan iqtisadiyyatı: inkişaf meylı strategiyası və problemləri, Bakı, 2001.

# MÜASİR PROQRAMLAŞDIRMA MÜHİTLƏRİNİN TƏDQİQİ

**Əliyeva Nərmin**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, magistrant*
*narminaliyeva.00@mail.ru*

Ölkəmizdə informasiya-kommunikasiya texnologiyaları sahəsindəki fəaliyyət ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətt üzrə bu gün uğurla davam etdirilir. Onun 2003-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" bu istiqamətin ölkəmiz üçün vacibliyini və əhəmiyyətini vurğulayan ilk rəsmi sənəd olmuşdur və güclü Texnologiya və İnformasiya Kommunikasiyası infrastrukturu, rəqəmsallaşdırma və innovasiya üçün əhəmiyyətli rolu oynayır [1]. Yüksək sürətli internet, məlumat analitikası, bulud hesablamaları və süni intellekt kimi texnoloji alətləri, və habelə müasir inkişafa nail olmaq üçün vacibdir. Son illərdə müasir proqramlaşdırma, proqramlaşdırma sahəsində aparıcı inkişaf və dəyişiklikləri təsvir edir:

**Müasir Proqramlaşdırma Dilləri:** Proqramçıların effektiv işləməsinə kömək etmək üçün daha yüksək səviyyəli və asan sintaksisə sahib olan dillər, həyata keçirilmiş proyektlərdə tərəqqi ilə nümayiş etdirilir. Python, JavaScript, Ruby, Java və C#, proqramlaşdırma dünyasında ən nüfuzlu dillərdir.

**Mikroservislər və Layihə İdarəetmə:** Layihələrin daha asan idarə olunması üçün hissələrə bölünmüş və müstəqil fəaliyyət göstərən mikroservislər, böyük təşkilatlar üçün sürətli və effektiv tətbiqlərin tərtib edilməsində kömək edir.



**Çoxplatformalı İnteqrasiya:** Proqram tərtibatının müstəqil platformalarda idarə olunması ilə eyni zamanda, mobil, veb və masaüstü tətbiqlərin birləşdirilməsi və bulud xidmətləri ilə əlaqəli olmaq üçün çoxsaylı platformaların inteqrasiyası əhəmiyyət kəsb edir.

**Məlumat Təhlükəsizliyi:** Proqramlaşdırma sahəsində məlumatın təhlükəsizliyin qorunması, müstəqil bir sahə kimi artan önəm kəsb edir. Verilənlərin müdafiəsi, təhlükəsiz proqram tərtibatı prinsipləri və kriptoqrafiya bu sahədə əsas məsələlərdən biridir.

Bu trendlər proqramlaşdırma sahəsindəki sürətli inkişafa cavab verir və müstəqil proqramçılardan böyük korporativ təşkilatlara qədər tətbiqlənir. Müasir proqramlaşdırma mühitləri proqramçılara effektiv və rahat bir şəkildə proqram tərtib etmək imkanı verən proqramlaşdırma alətləri və infrastruktur elementlərini birləşdirən kompleksdir. Bu mühitlər proqram tərtibatını asanlaşdırmaq, sürətləndirmək və proqramçıların effektiv işləməsinə kömək etmək üçün lazımlı alətləri təmin edir.

İnteqrasiya Olunmuş Mühit (Integrated Development Environment - IDE) - IDE'lar proqramçılara kod yazmaq, proqramı tərtib etmək, təhlil etmək və s. üçün bir sıra alətləri təklif edir. Bu alətlər, kodunuzun səhvlərini asanlaşdırmaq və düzəltmək, proqramı test etmək və idarə etmək imkanı verir. İnteqrasiya edilmiş mühit proqramçıların proqramı təşkil etmək, redaktə etmək, təhlil etmək, tərtib etmək və icra etmək üçün lazım olan bütün vasitələrin bir araya gətirildiyi proqramlaşdırma mühitidir [2]. IDE-lər proqramçılara effektiv emalda kömək etmək üçün geniş funksional imkanlara malikdir. Müasir İDE-lərin əksəriyyəti proqramçılara səmərəli işləməyə kömək edən geniş funksionallıq, yüksək performans və sadə əməliyyat təklif edir. Ən populyar müasir proqramlaşdırma mühitlərindən bəziləri [3]:

1. Visual Studio Code (VSCode): Az yer tutan və geniş əlavələr kimi genişlənən bu IDE, çoxlu proqramlaşdırma dillərini dəstəkləyir və yüksək performans göstərir.

2. Zend Studio: Həm veb, həm də mobil tətbiqlərin inkişafında PHP tərtibatçılarını dəstəkləmək üçün nəzərdə tutulmuş aparıcı PHP IDE-dir. Alət istifadəçilərini dəstəkləmək üçün qabaqcıl sazlama imkanlarına və böyük bir icmaya malik kod redaktoruna sahibdir.

3. PyCharm: Python üçün tərtibatlandırılmış bu IDE, Python proqramçıları üçün ideal bir seçimdir.

4. IntelliJ IDEA: Java proqramçıları üçün ən çox istifadə olunan IDE-lərdən biridir. Lakin, çoxlu əlavələr sayəsində digər dillər üçün də rahatlıqla istifadə oluna bilir.

Nəticə olaraq, müasir proqramlaşdırma mühitləri proqramçıların daha sürətli, effektiv və səhvsiz proqramlaşdırmağa nail olmalarına yardım edir. İstifadəçilər, öz istəklərinə və proqramlaşdırma tələblərinə əsasən müxtəlif IDE-lərdən və alətlərdən seçim edə bilərlər.

### Ədəbiyyat


1. https://republic.preslib.az/az_c5.html
2. Integrated development environment The Ultimate Step-By-Step Guide Paperback – October 6, 2021
3. Most Popular Integrated Development Environments (IDEs) Used by Data Scientists By Bob Hayes -July 15, 2020




## AZƏRBAYCANDA SƏMƏRƏLİ *GƏNCLƏR SİYASƏTİ*


**Əlizadə Əli**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı
*ali_lahic@mail.ru*


Ümumilli lider Heydər Əliyev gənclərlə bağlı olan məsələləri hər zaman öz siyasətinin tərkib hissələrindən biri hesab edib. Azərbaycanın tərəqqisində, onun iqtisadi. siyasi, mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında gənclərin rolunun artırılması ümumilli liderimizin gənlər siyasətində əsas yer tuturdu.

"Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir, Cəmiyyət təhsilsiz inkişaf vedə bilməz". Bu dəyərli fikirlərin müəllifi ümumilli liderimiz Heydər Əliyevdir. Dövlət gənclər siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən başlayaraq həmişə aparıcı istiqamətlərdən biri olmuşdur. Heydər Əliyev 1969 -1982-ci illər respublikaya rəhbərlik etdiyi dövrdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmışdır. Ümumilli liderimizin şəxsi təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına , yüksək ixtisaslı mütəxəsis kimi hazırlanmasında şərait yaratmışdır. Azərbaycan gənclərin I formunda bu barədə şəxsən özü bildirmişdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı. Bütün bunları bilən ümummilli liderimiz Heydər Əliyev gənc

nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirməyə başladı. Bu siyasətin davamı olaraq 1996-cı il yanvarın 26-da ulu öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, fevralın 2-də Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırıldı. Forum müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanmasına səbəb oldu.

Ümummilli lider Heydər Əliyev gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədi ilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin etdi. Gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəldilən, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, dövlət proqramları bu qəbildəndir.

Ulu Öndərin gəncliyə və gənclərə etimadı bu gün artıq öz təsdiqini tapmaqdadır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir.

Ulu öndərin dövlətçilik ənənələri layiqli davamçısı İlham Əliyev tərəfindən bu gün yaşadılır və böyük ardıcıllıqla davam etdirilir . Azərbaycan dövlətinin həyatında keyfiyyətcə yeni mərhələyə yol açan cənab Prezident “ qara qızılı insan kapitalına



çevirmək” deməklə , əslində insan potensialının bütün sahələrdə inkişafın aparıcı lokomativi kimi müəyyənləşdirib.

Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, öz məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır. Prezidentin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin, davamlılığının daha bir əyani sübutudur.

Bu gün Azərbaycanda yetərincə bilikli , istedadlı , vətənpər gənc var . onların gələcək uğurlarına aparan yol biliklərinin artırılması və bacarıqlarının təkminləşdirilməsindən keçir . Ölkə Prezidenti cənab İlham Əliyevin “qara qızıl”-ın “insan qızılı”na transformasiyasına yönəlik konsepsiyası və bu istiqamətdə reallaşdırılan siyasət məhz qeyd edilən məsələnin çözülməsinə xidmət edir .

Bu sahədə ən önəmli məsələlərdən biri də , müasir gəncliyin seçdiyi ixtisaslara əmək bazarında olan tələbatla bağlıdır . XXI əsrinəvvəllərində BMT ölkələrin inkişafının qiymətləndirilməsi üçün Texnoloji Nailiyyətlər İndeksini tətbiq etməyə başladı . Bu göstəriciyə əsasən dünya ölkələri 4 qrupa bölünürdü : liderlər , potensial liderlər , müasir texnologiyalardan fəal istifadə edənlər və geridəə qalanlar . Azərbaycan bu göstəriciyə görə potensial liderlər sırasında yer alıb . liderlər qrupunda cəmi 18 ölkənin olduğu nəzərə alınarsa bu çox yaxşı göstəricidir . Bu məqsədlə dövlət səviyyəsində çox iş görülür , amma ixtisası seçən gənclərin iradəsinində böyük önəmi var.

Bu gün tam əminliklə demək olar ki, ulu öndər Heydər Əliyevin gəncliyə və gənclərə qayğısı indi yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

Banisi ümumilli lider Heydər Əliyev olan və onu böyük uğurla həyata keçirən Prezidentimiz İlham Əliyevin gənlər siyasətinin, gördüyü işlərin nəticəsi kimi tam əminliklə deyə bilərik ki, bu gün Azərbaycan gəncliyi öz intellektual, kreativ və mənəvi-ideoloji yetkinliyi ilə dünya gəncləri arasında qibtə olunacaq nüfuz qazanıb. Bu nüfuzun qorunması və inkişaf etdirilməsi hər bir Azərbaycan gəncinin borcudur .

## Ədəbiyyat


1. Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal 2012 № 4 (40) 2012. DİA-nın nəşriyyatı
2. Mübarək səfərlər , səmimi görüşlər, Bakı “ Lettapress” nəşriyyat evi , 2013.
3. İnternet resursları: https://haydaraliyevcenter.wordpress.com/heyder eliyev/heyd%c9%99r-%c9%99liyev-muasir-g%c9%99ncl%c9%99r-siyas%c9%99tinin-banisidir/




# AZƏRBAYCANDA İXRACIN VƏ İNVESTİSİYALARIN TƏŞVİQİNİN ƏSAS İSTİQAMƏTLƏRİ


**Əsədova Kəmalə**

*Azərbaycan Texnologiya Universiteti*

*Email: kesedova082@gmail.com*



**Xülasə:** İstənilən ölkədə iqtisadi artımı təmin etmək üçün əsas məqsəd ixrac potensialının yüksəldilməsi və “holland sindromu” təhlükəsini nəzərə alaraq bütün sahələrin mümkün qədər balanslı invetisiyalaşmasına təşəbbüs göstərməkdir. Təbii ki, həm ixracı həm də investisiya yatırımlarını təşviq etmək üçün müəyyən struktur və strategiyaya malik olmaq lazımdır. Təsadüfi deyil ki , ixracı stimullaşdırmaq üçün, ilk öncə ixrac potensialını təhllil etmək, ixrac olunan məhsulun dünya bazan standartlarına və qiymətlərinə uyğunluğunu nəzərə almaq lazımdır. O cümlədən, investisiya təşviqi üçün, xarici və ya daxili investorların maraqlarına xitab edilməli, onları müəyyən sahələrə cəlb etmək üçün, həmin sahədə hesabat və statistikaları hazırlamaq vacibdir.



***Açar sözlər:*** *ixracın təşviqi, iqtisadi artım, investisiya, iqtisadi sabitlik.*


İxrac potensialının yüksəldilməsi və investisiyaların təşviqi Azərbaycan iqtisadiyyatının davamlı inkişafının təmini üçün də prioritet məsələlər arasında öz yerini alır. Məhz bununla bağlı Preziden İlham Əliyev tərəfindən təsdiq edilən Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də isə növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair reallaşdırılmalı olan beş milli prioritetdən ikisi “dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat və işğaldan azad olunmuş ərazilərə böyük qayıdış” adlandırılmışdır. Bu qeyd edilən istiqamətlər məhz başlıca olaraq dayanıqlı iqtisadi

artımın təmin edilməsi investisiya, istehsal, ixracat və məşğulluq (İİİM) modeli əsasında həyata keçiriləcəkdir.

Uzunmüddətli dövrdə iqtisadi artım sağlam və tarazlı olmalıdır. Belə iqtisadi artım ölkənin davamlı inkişafı üçün möhkəm zəmin yaradacaq. Bu prioritetin effektiv həyata keçirilməsi üçün aşağıdakı iki məqsəd təmin olunmalıdır:

- davamlı və yüksək iqtisadi artım;
- daxili və xarici təsirlərə dayanıqlıq. [1]

Bu istiqamətlərlə bağlı nəinki növbəti onillikdə hətta son illərə qədər də müxtəlif proqramlar həyata keçirilmişdir.

**Nəticə:** İxracın və investisiyaların təşviqinin həyata keçirilməsi ilə bağlı nəinki müəyyən proqramlar Azərbaycanda qeyri-neft sektorunun inkişafı, həmçinin istehsal olunan məhsulların xarici bazarlarda təşviqi ilə bağlı ölkə rəhbəri tərəfindən qarsıya qoyulmuş bir sıra hədəflərə nail olmaq məqsədilə xarici ölkələrdə müxtəlif beynəlxalq tədbirlər təşkil edən, xarici alıcıları Azərbaycan məhsulları barədə məlumatlandıran və yerli şirkətlərlə əlaqələndirən, eləcə də Azərbaycanın investisiya mühiti haqqında ətraflı məlumat toplamaq istəyən və investisiya yatırmaqda maraqlı olan xarici şirkətlərə "vahid pəncərə" funksiyası əsasında xidmət göstərən və dəstək verən publik hüquqi şəxs kimi Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO yaradılmışdır.[2] Azərbaycan Respublikası Prezidentinin 2021-ci ildə fərmanı ilə Agentliyin strukturu təsdiq edilmişdir:

- Azərbaycan Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin Aparatı;
- Nümayəndəlik və filiallar.[3]

Nəzərdə tutulan bütün fəaliyyətlər Azərbaycanda ixracın və investisiyaların təşviqinin nə dərəcədə uğurlu istiqamətlərlə və düzgün siyasətlə həyata keçirilməsinə sübutdur.



**Ədəbiyyat**


1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" // Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.
2. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı.
3. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 iyul tarixli 1411 nömrəli Fərmanı.


## BÜDCƏ GƏLİRLƏRİNİN ARTIRILMASINDA TƏŞVİQEDİCİ VERGİ SİSTEMİNİN ROLU


**Əsgərova Emilya**
*Gəncə Dövlət Universiteti*


***Açar sözlər:*** *vergi sistemi,büdcə gəlirləri,maliyyət təşviq mexanizmləri, fiskal siyasət*

Məlumdur ki, dövlətin iqtisadi siyasətinin əsas ünsürü kim vergi siyasəti iqtisadi siyasətin tətbiq olunması forma və metodlarından yüksək dərəcədə asılıdır.Odur ki, vergi siyasəti birmənalı şəkildə büdcənin gəlir hissəsinin formalaşdırılması imkanlarını artırır və büdcənin xərcləri nəzərə alınmadan həyata keçirilməsi mümkün deyildir.Bu mənada,rasional vergitutma sisteminin başlıca fərqli xüsusiyyətləri onun iqtisadiyyatın strukturu, real olaraq təşəkkül tapan iqtisadi proporsiyalar ilə sıx qarşılıqlı əlaqəsi, habelə iqtisadi inkişafın məqsədlərinə, hər şeydən də əvvəl,istehsalın artımına yönləndirilməsidir. Bütövlükdə,qlobal qeyri-sabitlik şəraitində vergi siyasəti, ilk növbədə,real sektorun

dəstəklənməsinə yönəlməli, stimullaşdırıcı,investisiya siyasətinin və iqtisadi rəqabət qabiliyyətinin qorunmasında təşviqedici xarakter daşımalı, elastik olmalı, innovasiya sahələrinin inkişafına dəstək verməlidir.

Cədvəl 1.

| **Göstəricilər** | **2005** | **2010** | **2015** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|
| ÜDM | 12552,5 | 41574.7 | 50069.0 | 81896,2 | 72578,1 | 92857,7 |
| Büdcə gəlirləri | 2055,2 | 11402,5 | 15107.1 | 24398,5* | 26077,9* | 26631.7 |
| Vergi daxilolmaları | 1427,7 | 4292,8 | 5475,0 | 11755,1 | 11151,4 | 12647,5 |
| Vergi daxilolmalarının ÜDM-dəxüsusi çəkisi,%-lə | 11,4 | 10,0 | 10,9 | 14,3 | 15,3 | 13,6 |
| Vergi daxilolmalarının büdcə gəlirlərində xüsusi çəkisi,%-lə | 69,5 | 37,6 | 36,2 | 48,1 | 42,7 | 47,4 |

ÜDM –də və büdcə gəlirlərində vergilərin payı ( mln.man.)



* Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun daxilolmaları nəzərə alınmaqla.

Cədvəl.taxes.gov.az və stat.gov.az saytının məlumatları əsasında hazırlanmışdır.

Son on ildə respublikamızda həyata keçirilən iqtisadi islahatlar nəticəsində ölkə iqtisadiyyatında əhəmiyyətli inkişaf qeydə alınmışdır. Belə ki, 2005-ci illə müqayisədə 2021-ci ildə ÜDM 7,4 dəfə artaraq 92857,7 milyon manat büdcə gəlirləri isə 12,9 dəfə artaraq 26631,7 milyon manat ,vergi daxilolmalarının ÜDM-də xüsusi cəkisi isə 2005-ci ildə 11,4 % 2011-ci ildə 12,0% olmuşdur[4].

Hazırda Azərbaycan respublikasında makroiqtisadi göstəricilərin yüksəlişinə təkan verən əsas faktor neft sektorundan əldə olunan gəlirlərdir. Qloballaşma prosesinin intensivləşdiyi müasir şəraitində büdcə-vergi siyasətinin səmərəliliyinin yüksəldilməsi və onun təkmilləşdirilməsi istiqamətləri geniş aspektdən tədqiq olunur. Məlumdur ki, iqtisadi baxımdan inkişaf etmiş ölkələrdə büdcə gəlirlərində vergi daxilolmalarının payı orta hədd kimi təqribən 80-85% civarındadırr. Azərbaycan Respublikada isə son on ildə Dövlət Neft Fondundan büdcəyə transfer olunan maliyyə vəsaitinin artması ilə əlaqədar vergi gəlirlərinin büdcədəki payı nəzərəçarpacaq qədər azalmışdır. Belə ki, 2005-ci ildə 1427,7 milyon vergi daxilolmaları büdcənin 69,5 %-ni təşkil edirdisə, 2021-cü ildə bu göstərici **büdcə daxilolmalarının** 52,6 % -ni təşkil etmişdir [4]. Qeyd edək ki, son illər həm vergi gəlirləri həm də neft ixracatında artım müəyyən qədər oxşar tendensiyalara malik olduğu üçün büdcə gəlirlərinin strukturunda kəskin dəyişmələr müşahidə olunmamışdır.

Apardığımız araşdırmalar göstərir ki, ölkədə formalaşdırılan vergi siyasəti istehsalı stimullaşdırmaq probleminin həllinə bir qədər təkan verməlidir. Mənfəət vergisi üzrə dərəcələrin bərabər şəkildə aşağı salınması maddi istehsal sferasından daha çox tədavül sferasında fəaliyyəti stimullaşdırır.

Respublikada istehsal sahələrinin potensial imkanlarına uyğun olaraq tətbiq olunan vergi güzəştləridə dövlətin iqtisadi siyasətinin tərkibində önəmli yer tutur. Vergi sistemi vergi güzəştləri və diferensial vergi dərəcələri təqdim etməklə maddi istehsala stimullaşdırıcı təsir göstərir. Bir sıra tədqiqatçılar vergi güzəştlərinin səmərəsiz olduğunu iddia etsələr də, fikrimizcə, bazar münasibətlərinin tam formalaşmadığı və müəssisələrin rəqabət qabiliyyətinin zəif olduğu bir şəraitdə müəssisələrin müəyyən kateqoriyalarının fəaliyyətinin güzəştlər sistemi vasitəsilə stimullaşdırılması daha məqsədəuyğun hesab etmək olar.

Sahibkarlığın təşəkkülü və inkişafı istiqamətində vergi qanunvericiliyinin qeyri-sabitliyini iqtisadi subyektlərə müəyyən mənada mənfi təsirə malik iqtisadi meyar kimi qiymətləndirmək olar.İstənilən iqtisadiyyatda, ilk növbədə də bazar iqtisadiyyatında sabit vergi sisteminin yaradılması vergitutma sahəsində dövlət siyasətinin əsasıdır; vergi qanunvericiliyinin tez-tez dəyişdirilməsi normal iqtisadi inkişafa mane olur, makro və mikro iqtisadiyyat səviyyələrində proqnozlaşdırmanı və planlaşdırmanı çətinləşdirir.

1991-2022-ci illəri əhatə edən dövrlərin məlumatlarını təhlil edərkən məlum olur ki, Azərbaycan Respublikasında vergitutmaya dair qəbul edilmiş normativ bazada bəzi kiçik çatışmazlıqlara baxmayaraq, vergi növləri və dərəcələri, vergitutma istehsal subyektlərinin təşviqini intensivləşdirən zəruri nüansları özündə ehtiva edir.

Hesab edirik ki, büdcə gəlirləri ilə istehsal subyektlərin maraqlarına təzad yaratmayan optimallığın təmin olunması, vergitutma bazasının genişlənməsinə və son nəticədə Azərbaycanın vergi sisteminin tənzimləyici (stimullaşdırıcı) funksiyasının güclənməsinə səbəb ola bilər.



## Ədəbiyyat

1. Kəlbiyev Y.A.. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri : monoqrafiya.-B.: Elm, 2005.- 468 s.
2. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. Vergilər və vergitutma, Bakı, 2006.
3. www.taxes.gov.az
4. www.stat.gov.az

## MOBİL ELEKTRON TƏTBİQLƏRİN AZƏRBAYCANIN BANK SİSTEMİNİN İNKİŞAFINDA ROLU

**Əzizova Lalə**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
*lala.azizova3008@gmail.com*

Azərbaycanın bank sistemi, ölkənin maliyyə sahəsindəki strukturu təşkil edən əsas komponentlərdən biridir. Bank sektorunun effektiv və sürətli inkişafı, ölkənin ümumi iqtisadi inkişafına və maliyyə sisteminin istiqrarına ciddi təsir göstərir. Azərbaycanın bank sistemində mobil elektron proqramlar (məsələn, mobil bankçılıq və ya mobil ödəniş proqramları) bu gün daha çox populyarlıq qazanır. Bu proqramlar istifadəçilərə bank əməliyyatlarını asan və tez həyata keçirməyə imkan verir.

Bir çox bank müştərilərinə əməliyyatlarını internet bankçılıq platformaları vasitəsilə həyata keçirməyə icazə verir. Bu platformalar vasitəsilə istifadəçilər öz hesablarını, ödənişlərini və digər bank əməliyyatlarını asanlıqla idarə edə bilirlər. Bankomatlar gəlir və xərclərin idarə edilməsi, möhürlərin verilməsi və kredit kartları

vasitəsilə əməliyyatların aparılması kimi funksiyalar üçün effektiv alternativdir. Bank kartları vasitəsilə mağazalara və digər satıcılara ödəniş etmək mümkündür. Bu, mobil ödəniş proqramlarına alternativ kimi görünə bilər. Müxtəlif ödəniş sistemləri və portalları (məsələn, e-Dizayn, e-Çatdırılma, e-Sığorta) internet proqramları vasitəsilə pul köçürmələri və ödənişlər üçün xidmətlər təqdim edir. [1]

QR kodlar vasitəsilə ödəniş etmək də alternativ ola bilər. Bu, mağazalarda, restoranlarda və ya onlayn platformalarda həyata keçirilir. Bəzi istifadəçilər üçün blokçeyn texnologiyası və kriptovalyutaların istifadəsi bank xidmətlərinə alternativdir. Bu, istifadəçilərə anonimlik və özünü idarə edən maliyyə sistemləri təklif edir Bu alternativlər mobil bankçılıq proqramlarının xüsusiyyətləri, risksizliyi və emal sürəti baxımından fərqlənə bilər. İstifadəçilər özlərinə uyğun olanı seçməklə bank əməliyyatlarını daha asan və tez həyata keçirə bilərlər. Azərbaycanın bank sistemi, ölkənin iqtisadi inkişafına və maliyyə sisteminin sabitliyinə dair qlobal standartlara uyğun şəkildə fəaliyyət göstərən dinamik və müstəqil bir sektor kimi özünü təqdim edir. [2]

Mobil elektron proqramlar (MET) Azərbaycanın bank sisteminin inkişafında mühüm rol oynamışdır. Bu proqramlara bank müştərilərinə bəzən mürəkkəb əməliyyatları asan və tez yerinə yetirməyə imkan verən texnologiyalar daxildir. Fəaliyyət göstərən və effektiv mobil bankinq proqramı müştərilər üçün bank xidmətlərinə daha asan və daha sürətli çıxış yaratmaq üçün sürətli tədbirlərə imkan verir. Azərbaycanın bank sistemi son illər müstəqil və güclü şəkildə inkişaf edir. Azərbaycanın iqtisadi inkişafı ümumilikdə bank sektorunun inkişafına da öz təsirini göstərir. İqtisadi aktivliyin və artımın olması banklara öz fəaliyyətlərini artırmağa və geniş çeşiddə xidmətlər təklif etməyə imkan verir. Azərbaycanın bank sistemi ölkənin maliyyə bazarının ən mühüm paylarından birini təşkil edir.



Banklar istirahət, kredit, əmanət, vəsait mübadiləsi və s. kimi müxtəlif sahələrdə geniş çeşiddə xidmətlər təklif edir. [4]

Bank sisteminin inkişafına təsir edən digər fundamental amil təhlükəsizlik və risksiz standartlara riayət edilməsidir. Təhlükəsiz effektiv tədbirlər və standartlar sistemdə iştirak edən müştərilərin və digər tərəflərin təhlükəsizliyini artırmağa kömək edir. İnformasiya texnologiyalarının inkişafı mobil bankçılıq, internet bankçılıq, elektron ödəniş sistemləri kimi bank xidmətlərinin digər sahələrə ötürülməsinə imkan yaradır. İnnovativ təcrübə və effektiv texnologiyalar bank sektorunun sürətli inkişafını təmin edir. Bankların işinin tənzimlənməsi və düzgün mühasibat uçotunun aparılması sektorun çiçəklənməsini və istiqamətini təmin edir.[3]

Bu aspektlər Azərbaycanın bank sisteminin möhkəm, inkişaf etmiş və müasir olmasını təmin etmək üçün birlikdə işləyir.

Bu üstünlüklər sayəsində mobil elektron proqramlar Azərbaycan bank sisteminin effektivliyini artırır, müştərilərə daha sürətli və rahat xidmət göstərir. Banklar həmçinin müxtəlif mobil xidmətlər vasitəsilə müştəriləri cəlb etmək və əlaqəni artırmaq üçün kreativ üsullar tətbiq edirlər.

**Ədəbiyyat**


1. Chris Skinner (2015) - Digital Bank: Strategies to launch or become a digital bank. – 375 PP. 73
2. Dan Schatt (2016) - Virtual Banking: A Guide to Innovation and Partnering – 243 PP.
3. Katuri Nageswara Rao A.K Sohani (2018) - Innovations in Banking: Some New Concepts and Cases – 428 PP.
4. Zahid Fərrux Məmmədov. Bank fəaliyyətinin əsasları. (Elmi-nəzəri və praktiki məlumat kitabı). Bakı, Azərnəşr. 2013.

# DÖVLƏT QULLUQÇUSUNUN HÜQUQİ STATUSUNUN MAHİYYƏTİ VƏ XÜSUSİYYƏTLƏRİ

**Fərəcova Aydan**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*

Dövlət idarəetmə sistemində və kadr siyasətində dövlət qulluqçusunun hüquqi statusunun layiqincə təmin edilməsi məsələləri olduqca mühüm yer tutur.

Hüquqi status dövlət və şəxsiyyət arasındakı əlaqələrin əsasını müəyyənləşdirir, insanın hüquq, vəzifə və azadlıqlarının məcmusunu nəzərdə tutur. Şəxsin konstitusiyada təsbit olunmuş konstitusiyon hüquqi statusu onun xüsusi hüquqi statusunun özəyidir.

Dövlət qulluğuna qəbul olanadək ümumi vətəndaş statusuna malik olan şəxs dövlət qulluğuna daxil olduğu andan etibarən dövlət qulluqçusu statusu əldə edir. Bu statusla əlaqədar olaraq o, yeni hüquqlar, vəzifələr, səlahiyyətlər əldə etdiyi kimi, bir sıra məhdudiyyətlərlə də üzləşir. Daimi dövlət qulluğuna daxil olmaqla əldə olunan hüquqi status dövlət qulluğuna xitam verilənə qədər qüvvədə olur. Dövlət qulluqçusu qulluqda irəliləyərkən, ixtisas dərəcəsində yüksələrkən, məsuliyyət tədbirləri ilə üzləşən zaman bu hüquqi statusun məzmunu da dəyişir.

Hazırda Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında” qanununun 18-ci maddəsində dövlət qulluqçularının əsas vəzifələri müəyyənləşdirilmişdir. Qanuna uyğun olaraq yaradılmış attestasiya komissiyası tərəfindən peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətlərinin səviyyəsinin kifayət dərəcədə olmadığına görə dövlət qulluqçusunun tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə verilmiş qiymət və tövsiyələr əsasında dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən müvafiq qərar qəbul oluna bilər.



Dövlət qulluqçularının müxtəlif kateqoriyaları biri-birindən öz hüquqi statuslarının xüsusiyyətlərinə görə fərqlənirlər. Bu xüsusiyyətlər onların tutduğu vəzifənin növü, təsnifatı, qulluq funksiyaları, vəzifə və səlahiyyətlərin xarakteri, işlədikləri dövlət orqanının spesifik xüsusiyyətləri ilə şərtlənir.

Beləliklə, dövlət qulluqçusunun hüquqi statusu dövlət qulluğu təsisatının əsas elementi olub, dövlət qulluqçusunun dövlət qulluğuna qəbul, qulluq keçmə qaydasını və şərtlərini, onun hüquq və vəzifələrini, funksiyalarını, məhdudiyyətlərini, təminatlarını, məsuliyyət dərəcəsini, ixtisas dərəcəsi alma qaydasını və s. müəyyənləşdirir.

Malik olduğu hüquqi statusla əlaqədar olaraq dövlət qulluqçusu qulluğa daxil olduğu vaxtdan etibarən qulluq hüquq münasibətlərinin subyekti kimi xüsusi hüquq və vəzifələrə malik olur.

Müəyyən kateqoriya qulluqçuların hüquqi statusunu müəy-yənləşdirən, onların fəaliyyətini nizamlayan sahəvi qanunvericilik aktlarında nəzərdə tutulmuş sahəvi, yəni funksional hüquq və vəzifələri isə dövlət qulluqçularının xüsusi (sahəvi) hüquq və vəzifələri adlandırmaq olar. Çünki, bunlar bütün dövlət qulluqçularına yox, dövlət qulluğunun konkret növü üzrə qulluqda olan şəxslərə aid olur.

Dövlət qulluğu sisteminin əsasını təşkil edən dövlət qulluqçusunun hüquqi statusunun *(lat.status - hüquqi vəziyyət, işin vəziyyəti, vəziyyət)* düzgün müəyyən olunması və dəqiq tərtib edilməsi əsas məsələlərdən olub dövlət orqanlarının işinin təşkilinin ilkin şərtidir.

Dövlət qulluqçusunun hər hansı statusu, yəni onun dövlət və cəmiyyətdə vəziyyəti, yeri və rolu konstitusiya, qanunlar və digər normativ-hüquqi aktlarla müəyyən edilir. Dövlət qulluqçusunun statusu özündə şəxsi, sosial, hüquqi, vətəndaş statuslarını əks etdirir.

Beləliklə, dövlət qulluqçusunun statusu çoxsaylı statuslardan yaranır. Onlar dialektik olaraq qarşılıqlı təsirdə olub bir-birini tamamlayır. Onların vəhdəti və ciddi tənzimlənməsi dövlət qulluğunun effektivliyi üçün mühüm amildir.

Dövlət qulluqçusunun hüquqi statusu - qulluqçunun öz funksiyalarını yerinə yetirmək üçün verilmiş hüquq və vəzifələrin vəhdəti kimi baxılır. Qulluqçu öz funksiyalarını tutduğu vəzifəyə müvafiq olaraq ona verilmiş vəzifə borclarının *(qulluqçu nə etməlidir)* və hüquqlarının *(qulluqçu nə edə bilər)* yerinə yetirilməsi ilə həyata keçirilir.

Qeyd etmək lazımdır ki, vəzifə və hüquqlar dövlət qulluqçusu yalnız dövlət qulluğunda olarkən və qulluq fəaliyyəti həyata keçirərkən yaranır. Odur ki, dövlət qulluqçusunun səmərəli fəaliyyəti vəzifə borclarının və hüquqların dəqiq müəyyən olunmasından asılıdır.

Bütövlükdə, dövlət qulluqçusunun güclü sosial-hüquqi statusu dövlət qulluğunun və bütövlükdə dövlətin yüksək səmərəliliyinin və nüfuzunun ən mühüm amilidir.

### Ədəbiyyat


1. Məmmədov O.C. Dövlət qulluğunda iş vaxtının hüquqi tənzimlənməsinin bəzi məsələləri. Hüquqi dövlət və qanun. 2008. №6. S. 36;
2. Rzayev Ə.H. Dövlət qulluğunun hüquqi əsasları. Bakı, 2011. S. 70;
3. Козлов М.Ю. Административное право в вопросах и ответах. М., 2000. С. 225.




## AZƏRBAYCANDA KİBERTƏHLÜKƏSİZLİYİN HÜQUQİ BAZASININ QİYMƏTLƏNDİRİLMƏSİ


**Fleydanlı Fidan**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası (Magistr)*
*f.fleydanli@gmail.com*


Rəqəmsal transformasiya dövründə kibertəhlükəsizliyin təmin edilməsi, xüsusilə kibertəhlükələrin və kiberhücumların artması kontekstində dövlətlər üçün kritik vəzifəyə çevrilir. Fəaliyyətinin müxtəlif sahələrinə informasiya texnologiyalarını fəal şəkildə tətbiq edən ölkə kimi Azərbaycan informasiya ehtiyatlarının və şəbəkələrinin etibarlı mühafizəsini təmin etmək üçün kibertəhlükəsizlik sahəsində hüquqi bazasını qiymətləndirmək zərurəti ilə üzləşib.

Müasir informasiya cəmiyyətində kibertəhlükəsizlik məsələləri getdikcə aktuallaşır və əhəmiyyət kəsb edir. Bu tezis Azərbaycanda kibertəhlükəsizliyin hüquqi aspektlərinin vəziyyətini, onların mövcud problemlərini və inkişaf perspektivlərini araşdırır.

Bu tezisin məqsədi kibertəhlükəsizliklə bağlı mövcud qaydaları sistematik şəkildə nəzərdən keçirmək və onların effektivliyini və müasir çağırışlara uyğunluğunu, habelə beynəlxalq informasiya təhlükəsizliyi standartlarına uyğunluğunu qiymətləndirməkdir.

Azərbaycanda kibertəhlükəsizlik sahəsində mövcud qanunvericilik bazası təhlil edilərkən təkcə müsbət cəhətlər deyil, həm də əhəmiyyətli boşluqlar müəyyən edilir. Ölkədə qəbul edilən hüquqi normalar və tədbirlər sürətlə dəyişən texnoloji və kibertəhlükələrə uyğun olaraq əlavə təkmilləşdirmə və yenilənmə tələb edir. Milli

qanunvericiliyin beynəlxalq standartlara uyğunlaş-dırılması zərurəti də kibertəhlükəsizliyin gücləndirilməsinin mühüm aspektidir.

Qanuna əsasən informasiyanın mühafizəsinin məqsədləri aşağıdakılardır:

1) informasiyanın məhvinin, itməsinin, saxtalaşdırılmasının qarşısının alınması;
2) dövlətin, ictimaiyyətin, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi;
3) informasiyanın məhvi, modifikasiyası, surətinin çıxarılması, təcrid edilməsi ilə bağlı sanksiyalaşdırılmamış hərəkətlərin qarşısının alınması;
4) dövlət sirri təşkil edən və konfidensial informasiyanın qorunması.[1]

Kibertəhlükəsizlik sahəsində milli ekosistemin formalaşdırılması və inkişafı istiqamətində aparılmış əməli fəaliyyət ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin ciddi şəkildə yaxşılaşdırılması ilə nəticələnmişdir. Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqının tərtib etdiyi "Qlobal kibertəhlükəsizlik indeksi 2020" (Global Cybersecurity Index, GCI) reytinqində mövqeyini 15 pillə yaxşılaşdıraraq, 194 ölkə arasında 89.31 xal ilə 40-cı yerdə qərarlaşmışdır.[2]

Tezisdə mövcud qanunvericilik bazası kibertəhlükəsizliyin təmin edilməsi üçün dünyanın ən yaxşı standartları və tövsiyələri ilə təhlil ediləcək və müqayisə edilmişdir. Fərdi məlumatların qorunması, müxtəlif sahələrdə informasiya texnologiyalarından istifadə ilə bağlı kiberhücumların və təhdidlərin qarşısının alınması kimi aspektlərə xüsusi diqqət yetirilmişdir.

Tezis Azərbaycanda kibertəhlükəsizliyin hüquqi təminatı sahəsində gələcək fəaliyyətin aktuallığını vurğulayır. Azərbaycanda kibertəhlükəsizliyə dair qanunvericilik bazasının təkmilləşdirilməsi üçün əlavə səylərə ehtiyac olduğu müəyyən edilmişdir. Görülən tədbirlərə və işlənib hazırlanmış qaydalara baxmayaraq, ölkənin



informasiya sistemlərinin və məlumatlarının daha etibarlı mühafizəsini təmin etmək üçün əlavə iş tələb edən bir sıra çatışmazlıqlar və boşluqlar mövcuddur.

İnformasiya sistemlərinin və məlumatların effektiv mühafizəsini təmin etmək üçün yeni qanunvericilik vasitələrinin hazırlanması və tətbiqi zəruridir. Bundan əlavə, təcrübə mübadiləsi üçün beynəlxalq əməkdaşlıq mexanizmlərinin yaradılması və kibertəhlükələrlə mübarizə üzrə birgə strategiyaların hazırlanması vacibdir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası. "İnformasiya, informasiya texnologiyaları və informasiyanın mühafizəsi haqqında" qanun, fəsil 5, maddə 18.
2. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası.

## QİDA MƏHSULLARI İSTEHSALINDA İNSULİN MƏNBƏYİ KİMİ İSTİFADƏ EDİLƏN BİTKİLƏRİN ROLU

**Hacıyeva Aygün**
*Doktorant*
*ami2011.65@mail.ru*
**Babayev Davud**
*magistrant*
*Azərbaycan Texnologiya Universiteti*
*babayevdavud071@gmail.com*

Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin inkişaf strategiyasını uğurla davam etdirən möhtərəm Prezident İlham

Əliyevin imzaladığı "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda insanların tam təhlükəsiz qida məhsulları ilə təminatı mühüm əhəmiyyət kəsb edir. Belə ki, sağlam qidalanma əhalinin sağlamlığının qorunmasında, müxtəlif xəstəliklərin qarşısının alınmasında, ömrün uzadılmasında, həmçinin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Müasir dövrdə ekoloji şəraiti əlverişsiz olan bölgələrdə əhalinin qidalanma strukturunun pozulması qida ilə sıx bağlı olan bir sıra xəstəliklərin geniş yayılmasına səbəb olmuşdur. Bu xəstəliklər - mədə-bağırsaq xəstəliyi, ürək-damar xəstəliyi, ateroskleroz və şəkərli diabetdir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatna görə, bu xəstəliklərin arasında şəkərli diabet ölümlərin sayına görə ən yüksək yerdə durur.

Alimlərin bu sahədə apardıqları tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, bitki xammalının bəzi kimyəvi komponentləri bu xəstəliklərin qarşısının alınmasında və müalicəsində mühüm rol oynayır. Bu nöqteyi-nəzərdən şəkərli diabet xəstələri üçün ən vacib profilaktik və müalicəvi amil tərkibində inulin olan bitki xammalından istifadə edilməsidir.

Elmi ədəbiyyatların təhlili göstərmişdir ki, bitki xammalı arasında yer alması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bu xammal çoxkomponentli kimyəvi birləşmələrdən ibarətdir. Yer almasından hazırlanan məhsulları digər məhsullardan fərqləndirən xüsusiyyət, onların tərkibində yüksək miqdarda inulinin olmasıdır [1]. İnulin yeganə təbii polisaxariddir ki, onun tərkibinin 95%-i fruktozadan ibarətdir. İnulin yer almasından başqa kasnı, ənginar, zəncirotu və digər bitkilərin köklərində ehtiyat karbohidratı kimi toplanır. Yer alması təbii antioksidant olub, insan orqanizmində immunitet sistemini gücləndirir [2]. Yer alması bağırsaq disbakteriozu üçün faydalı vasitədir. Bununla yanaşı yer alması uşaqlar üçün faydalı tərəvəz bitkisidir.



Aparılan araşdırmaların nəticələri bunları deməyə əsas verir ki, şəkərli diabet xəstələri yer almasından istifadə etdikdə qanda şəkərin miqdarının aşağı düşməsinə kömək edir. Bu səbəbdən, tibbdə rəsmi şəkildə, yalnız şəkərli diabet xəstələri üçün deyil, sağlam insanlar üçün də müntəzəm olaraq bu tərəvəzləri gündəlik qida rasionuna daxil etmək məsləhət görülmüşdür.

Əldə edilən məlumatlara əsasən belə nəticəyə gəlmək olar ki, regionlarda yetişdirilən yer almasından qida sənayesində şəkərli diabet xəstələri üçün inulinlə zənginləşdirilmiş müxtəlif çeşidli təhlükəsiz, müalicəvi-profilaktik təyinatlı konserv məhsulların hazırlanmasında istifadə etmək məqsədəuyğun hesab edilir.

**Ədəbiyyat**

1. Əhmədov Ə-C.İ., Əliyev N.T. Meyvə və tərəvəzin əmtəəşünaslığı. Dərslik. – Bakı.: 2009. - 437 s.
2. Fətəliyev H.K. Bitkiçilik məhsullarının saxlanması və emalı texnologiyası. - Bakı: Elm, 2010. - 432 səh.

## SÜNİ İNTELLEKTİN GƏLƏCƏYİ VƏ TƏTBİQ SAHƏLƏRİ

**Heydərli Aytən**
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
[2]Təhsil marketinqinin təşkili və idarə olunması ixtisası üzrə II kurs magistr
ayten.heyderli.92@mail.ru

**Mövzunun aktuallığı.** Dünya sürətlə rəqəmsal dövrə keçdikcə, süni intellekt (Sİ) gündəlik həyatın çoxsaylı aspektlərinin formalaşmasında getdikcə daha mühüm rol oynayır. Bu, müəssisələrin fəaliyyət göstərmə üsulunu, səhiyyənin necə təqdim

edildiyini və təhsilin necə verildiyini yenidən müəyyənləşdirərək, onu tədqiqatçılar, siyasətçilər, bizneslər və bütövlükdə cəmiyyət üçün əhəmiyyətli maraq və narahatlıq sahəsinə çevirir [1]. Süni intellektin transformativ dəyişikliklərə səbəb olmaq potensialını və bununla bağlı çoxsaylı etik, hüquqi və sosial nəticələri nəzərə alaraq, süni intellektin gələcəyi və onun tətbiqi sahələri ilə bağlı dərin araşdırma aparmaq vacibdir.

**İşin məqsədi.** İşin əsas məqsədi Sİ inkişafının gələcək trayektoriyalarının və onun səhiyyə, təhsil, biznes və təhlükəsizlik daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq müxtəlif sektorlar üzrə müxtəlif tətbiqlərinin hərtərəfli tədqiqini təklif etməkdir. Bu məqsədə nail olmaq üçün qarşıya qoyulan vəzifələrə aşağıdakılar daxildir:

1. Sİ inkişafının hazırkı vəziyyətinin və tərəqqinin tədqiqi və potensial gələcək tendensiyaların müəyyən edilməsi;

2. Müxtəlif sektorlar üzrə Sİ-nin tətbiqlərini və onların təsirlərini araşdırmaq;

3. Sİ qəbulunun etik, hüquqi və ictimai nəticələrinin araşdırılması;

4. Süni intellektin inkişafı və mənimsənilməsi üçün çətinliklərin və maneələrin təhlili;

5. Süni intellektin inkişafı və tətbiqi ilə bağlı mürəkkəblikləri və çətinlikləri həll etmək üçün strategiya və həllərin təklif edilməsi [2].

Sİ texnologiyasında gələcək inkişafın hərtərəfli təhlili nəzərdə tutur. Bu, digərləri arasında səhiyyə, təhsil, diaqnostika, müalicənin planlaşdırılması və dərman kəşfi kimi müxtəlif sektorlarda onun müxtəlif tətbiqlərinin ətraflı öyrənilməsini əhatə edir. Bundan əlavə, tədqiqat süni intellekt texnologiyalarının geniş şəkildə mənimsənilməsi ilə gələn etik, sosial və hüquqi nəticələri də həll etmək məqsədi daşıyır.



Keyfiyyət və kəmiyyət tədqiqatı metodlarını birləşdirən qarışıq metodlar yanaşmasını qəbul edəcəkdir. Bu, mövcud ədəbiyyatın geniş nəzərdən keçirilməsini, nümunə araşdırmalarını, müqayisəli təhlili, həmçinin zəruri hallarda sorğular və müsahibələr vasitəsilə ilkin məlumatların toplanmasını əhatə edəcəkdir.

Nəticələr süni intellektin gələcəyi və onun tətbiqləri haqqında hərtərəfli başa düşülməyə imkan verəcək və mövzu ilə bağlı mövcud biliklər toplusuna əhəmiyyətli dərəcədə töhfə verəcək. Həmçinin siyasətçilər, bizneslər, müəllimlər, səhiyyə işçiləri və süni intellekt üzərində işləyən tədqiqatçılar üçün qiymətli fikirlər təqdim edəcək, onlara qərar qəbul etmə proseslərində və strateji planlaşdırmada kömək edəcəkdir. Bundan əlavə, dissertasiya süni intellektin etik, hüquqi və sosial nəticələrini vurğulayaraq, daha məlumatlı və məsuliyyətli Sİ-nin qəbulu və tətbiqi üçün yol açacaq [4].

Alan Turinq kimi qabaqcılların təməl işindən başlayaraq ən müasir süni intellekt modelləri və texnikalarının inkişafına qədər irəliləyişlə süni intellektin təkamülü təsvir edilmişdir. Əsas məqsəd süni intellektin illər ərzində necə inkişaf etdiyi və yetkinləşdiyi barədə anlayış yaratmaqdır. Maşın öyrənməsinin və dərin öyrənmənin yüksəlişindən Generativ Rəqib Şəbəkələr (Generative Adversarial Networks (GANs)), Variasiyalı Avtokodlayıcılar (Variational Autoencoders (VAEs)) kimi qabaqcıl Sİ modellərinin yaranmasına və gücləndirci və trabsfer öyrənməsində (reinforcement and transfer learning) irəliləyişlərə qədər bu fəsil müasir Sİ mənzərəsini anlamaq üçün zəmin yaradır.

Sİ-nin maliyyə, istehsal və nəqliyyat kimi müxtəlif sənaye sahələrində tətbiqinə yönəldilir. Bu sektorların hər biri Sİ-nin çox yönlülüyünü nümayiş etdirən unikal kontekst təqdim edir. Lakin Sİ-nin qəbulu və inkişafı ilə bu fəsildə müzakirə olunan etik nəticələr ortaya çıxır. Bunlara qərəzlilik, ədalətlilik, məxfiliklə bağlı narahatlıqlar və Sİ-nin işin gələcəyinə təsiri, Sİ-nin faydaları və

çətinlikləri haqqında balanslaşdırılmış bir görünüş təqdim etmək daxildir.

Müasir dünyada Sİ-nin artan əhəmiyyətini nəzərə alaraq, bu dissertasiya onun gələcək inkişaflarını və müxtəlif tətbiqlərini başa düşmək üçün hərtərəfli bələdçi rolunu oynayacaq, Sİ tədqiqatı sahəsinə və ondan kənara əhəmiyyətli töhfə verəcəkdir.

## Ədəbiyyat

1. Qurbanov F. Elmi idrakın kreativlik paradoksu//Unikal. Beynəlxalq ictimai fənlərarası elmi-tədqiqat jurnalı. Bakı, № 1, 2014, s. 47-55.

2. f-r.e.d., İsayev Fəxrəddin Qurban oğlu İntellektual sistemlər və texnologiyalar(2016). "MSV NƏŞR" nəşriyyatı, 256 s.

3. Lotfi A Zadeh, Rafik Aliev, Fuzzy Logic Theory and Applications: Part I and Part II, https://doi.org/10.1142/10936 | December 2018, Pages: 61

4. Ahmed Valiyev, Rahib Imamguluyev, Gahramanov Ilkin, Application of Fuzzy Logic Model for Daylight Evaluation in Computer Aided Interior Design Areas, January 2021, In book: 14th International Conference on Theory and Application of Fuzzy Systems and Soft Computing – ICAFS-2020, DOI: 10.1007/978-3-030-64058-3_89



# AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCLƏR STRATEGİYASININ FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Həsənxanlı Murad**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı*
*mhsnxanli@gmail.com*

**Xülasə**

Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əliyevin uğurlu gənclər siyasəti nəticəsində gənclərimiz bu gün müxtəlif dövlət orqanlarında, qurumlarda, təşkilatlarda, sosial, iqtisadi və siyasi arenalarda ölkəmizi qürurla təmsil edirlər.

***Açar sözlər:*** *Ulu Öndər, gənclər siyasəti, insan hüquqları, təhsil, Azərbaycan gəncliyi.*

Gənclərimizin bilikli, dünyagörüşlü, sağlam və yüksək mənəvi keyfiyyətlərə malik olmasında cəmiyyətin və dövlətin rolu olduqca böyükdür. Cəmiyyətin və dövlətin gələcəyi gənclərdən asılıdır və buna görə də gələcəyini düşünən hər bir cəmiyyət gənclərə dəstək olmalı, onlara qayğı ilə yanaşmağı bacarmalıdır. Bu həqiqəti anlayan, başa düşən və bunun üçün mühüm addımlar atan mühüm şəxsiyyətlərdən biri Ümummilli liderimiz Heydər Əliyev olmuşdur [4].

Heydər Əliyevin rəhbərliyi dövründə respublikamızda yeni təhsil müəssisələri, hərbi məktəblər, gənclər mərkəzləri açılmış və minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almışdır. Azərbaycan gənclərinin I Forumunda bu barədə danışan ölkə rəhbəri demişdir:"*Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər*

*hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm*" [1].

Ulu Öndərin gənclərə etimadının, inamının yüksək olması Azərbaycanda, eyni zamanda,"Gənclər Günü"nün təsis olunması kimi tarixi günlə də yadda qalır. 1997-ci il fevralın 1-də Azərbaycan Gənclərinin I Forumunun ildönümünə həsr olunmuş görüşdə Ulu Öndər gənclərin müraciətinə diqqətlə yanaşaraq, 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, 2 fevral tarixini "Azərbaycan Gəncləri Günü" elan edib. MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda "Gənclər günü" təsis edilmişdir və hər il təntənəli şəkildə qeyd edilir [5].

Heydər Əliyev gənclərə güvəndiyi, dəstək olduğu kimi, gənclər də onu böyük tarixi şəxsiyyət, lider kimi qəbul edirdilər. Gənclərin böyük bir qismi bu gün respublikamızın dövlət quruculuğunda yaxından iştirak edir, səhiyyə, mədəniyyət, tibb, iqtisadi və digər sahələrdə böyük xidmətlər göstərirlər. Onun **"Azərbaycanın bugünkü gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir"** - sözləri hər kəsin həyat devizinə çevrilmişdir [2]. Biz gənclər Ümumilli lider Heydər Əliyevin uğurlu siyasi kursunu davam etdiririk.

**Ədəbiyyat**


1. https://files.preslib.az/projects/heydaraliyev/articles/he1112.pdf
2. https://mod.gov.az/az/pre/25662.html
3. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/heyd%C9%99r-%C9%99liyev-muasir-g%C9%99ncl%C9%99r-siyas%C9%99tinin-banisidir/
4. https://www.yeniazerbaycan.com/SonXeber_e29300_az.html
5. https://www.yeniazerbaycan.com/Siyaset_e17345_az.html




# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ ÜÇÜN RİSKLƏRİN İDARƏ EDİLMƏSİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ


**Həsənli Xatirə**
*ADNSU*
*doc.xatire.hesenli@gmail.com*


İnformasiya təhlükəsizliyi risklərinin idarə edilməsi təşkilatlar üçün öz həssas məlumatlarını, sistemlərini və əməliyyatlarını qorumaq üçün çox vacibdir. İnformasiya təhlükəsizliyi risklərinin idarə olunması ilə bağlı əsas addımlardan biri riskin qiymətləndirilməsidir. Riskin müəyyən edilməsi informasiya təhlükəsizliyi üçün risklərin idarə edilməsi prosesində ilk addımdır. Bu, təşkilatın informasiya aktivləri üçün potensial risklərin müəyyən edilməsi prosesidir. İlk addım təşkilatın informasiya aktivlərini müəyyən etməkdir [1]. Buraya təşkilatın topladığı, saxladığı və ötürdüyü məlumat növlərinin, habelə bu məlumatların idarə edilməsi və işlənməsi üçün istifadə olunan sistemlərin müəyyən edilməsi daxildir. Təşkilatın aktivləri müəyyən edildikdən sonra növbəti addım bu aktivlər üçün risk yarada biləcək təhlükələri müəyyən etməkdir. Buraya həm daxili, həm də xarici təhlükələrin, həmçinin təbii və texnogen təhlükələrin müəyyən edilməsi daxildir. Növbəti addım təşkilatın aktivlərinin müəyyən edilmiş təhlükələrə qarşı zəifliklərini qiymətləndirməkdir. Bu, təşkilatın sistemlərində və proseslərində təcavüzkarlar tərəfindən istifadə edilə bilən zəif tərəflərin müəyyən edilməsini əhatə edir. İnformasiya təhlükəsizliyi üçün riskləri müəyyən etmək üçün istifadə edilə bilən bəzi üsullar aşağıdakılardır:

- İnformasiyanın toplanması - Bu, təşkilatın məlumat aktivləri, təhdidləri və zəiflikləri haqqında məlumat toplamaqdan ibarətdir. Bu məlumat təhlükəsizlik qiymətləndirmələri, zəifliklərin

skanları və işçilərlə müsahibələr kimi müxtəlif mənbələrdən toplana bilər.

- Risklərin qiymətləndirilməsi seminarları - Bu, təşkilatın risklərini müzakirə etmək üçün bir qrup maraqlı tərəfin bir araya gətirilməsini nəzərdə tutur. Bu, digər üsullarla müəyyən edilməmiş riskləri müəyyən etməyə kömək edə bilər.
- Risk modelləşdirməsi - Bu, risklərin ehtimalını və təsirini qiymətləndirmək üçün riyazi modellərdən istifadəni nəzərdə tutur. Bu, riskləri prioritetləşdirməyə və ilk olaraq azaldılması lazım olanları müəyyən etməyə kömək edə bilər [2].

Bu üsullara riayət etməklə təşkilatlar öz məlumat aktivləri üçün potensial riskləri müəyyən edə və onları azaltmaq üçün tədbirlər görə bilərlər.

Riskin qiymətləndirilməsi informasiya təhlükəsizliyi üçün risklərin idarə edilməsi prosesində ikinci addımdır. Bu, təşkilatın informasiya aktivlərinə potensial risklərin ehtimalının və təsirinin qiymətləndirilməsi prosesidir.

İnformasiya təhlükəsizliyi üçün risklərin idarə edilməsində risklərin qiymətləndirilməsinin əsas komponentlərindən biri risk ehtimalı onun baş vermə ehtimalıdır. Bu, təhlükənin tezliyi, təşkilatın təhlükəsizlik nəzarətinin effektivliyi və təcavüzkarın mürəkkəbliyi kimi amillər əsasında qiymətləndirilə bilər. Riskin təsiri onun təşkilatın məlumat aktivlərinə vura biləcəyi zərərdir. Bu, məlumatların məxfiliyi, bütövlüyü və əlçatanlığı, habelə təşkilatın məruz qala biləcəyi maliyyə və reputasiya itkiləri kimi amillər əsasında qiymətləndirilə bilər. Risk reytinqi təşkilat üçün ümumi riskin ölçüsüdür. Risk ehtimalını riskin təsiri ilə vurmaqla hesablanır.

İnformasiya təhlükəsizliyi risklərini qiymətləndirmək üçün istifadə edilə bilən üsullardan bəziləri cədvəl 8-də verilmişdir.

**Cədvəl 1: İnformasiya təhlükəsizliyi risklərini qiymətləndirmək üçün istifadə edilə bilən üsullar**



| | |
|---|---|
| Keyfiyyətli risklərin qiymətləndirilməsi | Bu, risklərin ehtimalı və təsirinə subyektiv reytinqlərin verilməsini nəzərdə tutur. Bu daha az dəqiq bir üsuldur, lakin onu həyata keçirmək daha sürətli və asan ola bilər |
| Kəmiyyət riskinin qiymətləndirilməsi | Bu, risklərin ehtimalı və təsirinə ədədi dəyərlərin təyin edilməsini nəzərdə tutur. Bu daha dəqiq üsuldur, lakin daha çox vaxt aparan və mürəkkəb ola bilər |

**Mənbə:** William S. 2023: p.144, məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır

Bu üsullara riayət etməklə təşkilatlar öz məlumat aktivlərinə potensial risklərin ehtimalını və təsirini qiymətləndirə və onların azaldılması üçün tədbirlər görə bilərlər.

İnformasiya təhlükəsizliyi üçün risklərin idarə edilməsində effektiv risk qiymətləndirməsini təmin etmək üçün bəzi məsləhətlər [3]:

- ISO 27001 və NIST Cybersecurity Framework kimi bir sıra risklərin idarə edilməsi çərçivələri mövcuddur. Bu çərçivələr risklərin qiymətləndirilməsinə strukturlaşdırılmış yanaşma təmin edə bilər.
- Risklərin qiymətləndirilməsi prosesinə biznes sahibləri, İT mütəxəssisləri və təhlükəsizlik mütəxəssisləri daxil olmaqla bütün maraqlı tərəflər cəlb edilməlidir. Bu, bütün potensial risklərin nəzərə alınmasına kömək edəcək.

## Ədəbiyyat

1. Charles C.Mann., Susan L.H. (2023), "Information Security and Ethics", "Iowa State University", 504 p.
2. Peter K. (2016), "The Hacker Playbook: A Practical Guide to Penetration Testing", New York, "Garden Press", 453 p.

3. Richard B. (2013), "The Cyber Kill Chain: The Only Book You Need to Understand Cyberwarfare", New York, "Van Nostrand Reinhold", 473 p.
4. William S. (2023), "Information Security: Concepts and Practice", New York, "Wiley Publishing", 521 p.

## GƏLƏCƏYİN MARKETİNQİ : MARKETİNQ 5.0

**Həsənov Çərkəz**
*Azərbaycan Texnologiya Universiteti*
*Biznesin idarə edilməsi (marketinq sahələri üzrə) MBA tələbəsi*
i.f.d.,dos. M.H.Urkayev
charkazhasanli@gmail.com

Bütün sahələrin olduğu kimi, marketinq elminin də zəngin inkişaf tarixi vardır. İlk dövrlərdə formalaşan marketinq anlayışı ilə, müasir marketinq anlayışı arasında böyük fərqlər mövcuddur. Elm və texnologiyanın yüksək sürətlə inkişafı bütün sahələrdə olduğu kimi, marketinq sahəsində də yeni innovativ yeniliklərin tətbiq olunmasına təkan vermişdir. Müasir marketinqin atası olaraq adlandırılan Filip Kotler, İndoneziyalı həmkarı Hermawan Kartaja ilə birlikdə marketinqin inkişaf tarixini dövrlərə bölən nəzəriyyəyə imza atmışlar. Bu nəzəriyyəyə əsasən 2017-ci ildə nəşr etdirdikləri "*Marketing 4.0*: Moving from Traditional to Digital" adlı kitabda marketinq inkişaf tarixini 1.0-4.0 aralığında intervalda təsvir etmişdilər. O dövrdən bu günümüzə qədər olan periodda texnologiyaların sürətli inkişafı davam etmişdir ki, bunun nəticəsində 2021-ci ildə nəşr etdirdikləri yeni "Marketinq 5.0" adlı kitabda elm tarixinə yeni bir zaman periodu daxil etmişdilər.



| | |
|---|---|
| Marketinq 1.0 | "Məhsul" |
| Marketinq 2.0 | "Müştəri" |
| Marketinq 3.0 | "İnsan" |
| Marketinq 4.0 | "İnternet" |
| Marketinq 5.0 | "Süni intellekt" |

(Filip Kotler, "Marektinq 5.0 : Technology for Humanity, 2021) .[2]

Yuxarıda qeyd olunan cədvəl, Kotlerin 2021-ci ildə nəşr edilən kitabında qeyd olunmuş, marketinqin inkişaf tarixinin dövrləri və əsas hədəf obyektlərini əks etdirmişdir. Marketinq 1.0 adlanan dövrdə əsasən məhsul üzərdindən həyata keçirildi. Bu dövrdə müştəri istəyinin önəmi yox idi. Nə istehsal olunarsa, satılacaq düşüncəsi hökm sürürdü. .[1] 2.0-da artıq yavaş-yavaş düşüncələr dəyişməyə başlayırdı. 3.0-dan etibarən artıq insanların tələb və ehtiyacları haqqında düşünülməyə başlanmış, müştərilərlə birbaşa əlaqələr yaradılmışdı. Marketinqin 4.0 dövründə isə yeni eranın başlanğıcı qoyuldu. .[1] Bu eranın ən başlıca özəlliyi internetin kəşf edilməsi, davamında isə "www" protokolunun istifadəyə verilməsi oldu. Rəqəmsal marketinq tarixinin başlanğıcı da bu dövr hesab olunur.

Bu tezisdə biz marketinq 5.0 anyalışına toxunacağıq. Marketinq 5.0 anlayışı bizi gözləyən yaxın gələcəyin xəbərçisidir desək yalan olmaz. Filip Kotler öz kitabında bu anlayışı mərkəzində insan dayanan, texnologiyanın ən son yeniliklərindən və süni intellektdən istifadə olunaraq aparılacaq marketinq strategiyaları olaraq təsvir etmişdir.[2] İlk öncə marketinq 5.0 anlayışının mahiyyətini dərk etmək lazımdır ki, bu mövzuda hansısa mülahizələri önə sürə bilək.

Hər kəsə aydındır ki, elm və texnologiyanın həddindən artıq inkişaf etdiyi dövrdə yaşayırıq. Süni intellekt, robotexnika, virtual reallıq, nano texnologiyası kimi yeniliklərin geniş həcmdə tətbiqi artıq yeni bir eranın başladığının əlamətidir. Marketinq 5.0 anlayışı

da, bütün bu texnoloji yeniliklərin istifadə edilərək, mərkəzində insan amili dayanan yeni strategiyaların mənimsənilməsini və tətbiqini özündə birləşdirir. Sahibkar və şirkətlər artıq 3 böyük problemlə qarşı-qarşıya olduqlarını dərk edirlər.

Bunlardan birincisi hər biri öz fərqli baxış bucağına sahib olan müxtəlif nəsillərin bir arada olmasıdır. Bu şirkətlər üçün ciddi bir problemdir. Çünki, rəhbər və idarəçilikdəki insanların ortalaması "Baby Boomers" və "X kuşağı" adlandırılan nəslin nümayəndələridir. Lakin, bazara baxacaq olarsaq istehlakçı kütləsinin böyük əksəriyyətini "Y" və "Z" kuşağı adlandırılan gənc nəsil təşkil edir. Şirkətlər satışda uğurlu olmaq üçün bu nəsil qrupunu arasında olan müxtəliflikləri qəbul etməli, ona uyğun şəkildə fəaliyyət aparmalıdır.

İkinci vacib problem isə ortaya çıxan sosial və iqtisadi təbəqələr arasındaki uçurumdur. Artıq, bazarda orta seqmentdə fəaliyyət göstərmək şirkətlər üçün çox çətin məsələyə çevrilib. Onlar ayaqda qalmaq üçün ya böyük şirkətlərlə eyni strategiya aparmalı olurlar, ya da, qapadılmalara gedərək kiçik biznes sektorunda fəaliyyətə davam edirlər. ("Nokia", "Sony", "Motorolla", "HTC", "SİEMENS" kimi). Bu insanların sosial təbəqəsi üçün keçərlidir. Gəlirlərin və xərclərin paralel şəkildə xeyli yüksəlməsi, insanların bir qisminin "lüks əmtəə" adlanan qrupa ehtiyac duymasına gətirib çıxarıb. Digər qisim insanlar isə, daha çox orta seqmentdə qərarlaşan, "qiymət-performans" adlanan qrup əmtəələrinə maraq göstərir.

Üçüncü vacib problem isə insan qrupları arasında yaranan rəqəmsal uçurumdur. İnsanların öz düşüncə tərzlərinə görə, yeni texnologiyaların tətbiqinə qarşı çıxan və dəstəkləyən olaraq iki qrupa ayrılır. Bəziləri bu texnologiyalardan istifadəni qəbul etmək istəmir. Onlarda gizlilik, iş yerlərinin azalması, insanların tənbəl həyata keçirilməsi kimi mənfi düşüncələr formalaşır. Digər qrup insanlar isə, insan həyatını asanlaşdıracaq hər şeyin lehinədirlər. Onlar zamanın



ən böyük sərvət olduğunu qəbul edirlər. Ona görə də, insanlara vaxt qazandıracaq hər şeyi qəbul edirlər.

Dünyada artıq bir çox nəhəng şirkətlər işlərin müəyyən bir qismini süni intellekt vasitəsilə edir. Onlar başa düşür ki, süni intellektin köməyi ilə, təxmin prinsipi ilə işləyən alqoritmlər vasitəsilə bir çox işləri problemsiz şəkildə təşkil etmək olur. Bu marketoloqların uzun vaxt sərf edərək gördüyü bir çox sadə prosesləri, qısa vaxt ərzində və daha dəqiq şəkildə etmək mümkündür. Süni intellekt bir çox prosesləri, şablonlar vasitəsi ilə düzgün yerinə yetirsə də, insani düşüncə baxımından, istehlakçı qrupunu anlamaq baxımından o qədər də etibarlı deyil. Heç bir alqoritma marketoloqların uzun müddət düşünərək ərsəyə gətirdiyi strategiyaları, kampaniyaları, istehlakçı təhlillərini 100/100 düzgün şəkildə təşkil edə bilməz.

Ümumiyyətlə, istər şirkətlər olsun, istər işçi qrupu olsun, istər sə də, istehlakçı qrupu olsun fərqi yoxdur. Hər bir kəs, elm və texnologiyanın bu cür yüksək inkişafı ilə ayaqlaşmalıdır. Şirkətlər, yeni texnologiyaların tətbiqindən yayınmamalı, süni intellekt texnologiyalarının tətbiqinə önəm verməlidir. Qabaqcıl texnologiyaların tətbiqi müxtəlif marketinq funksiyalarına kömək etdiyinə görə, marketoloqlar Marketinq 5.0 dövründə işini itirmə düşüncəsinə qapıla bilərlər.Amma bu doğru düşüncə deyil. Əsas məsələ müştəri mərkəzli strategiyalarda insan və texnologiyanın imkanları arasında optimal tarazlığı tapmaqdır. Süni intellekt müştəri davranışını təxmin edə bilir, lakin bunun səbəbini anlamaq üçün hələ də insan anlayışı lazımdır.

**Ədəbiyyat**


1. Filip Kotler "*Marketing 4.0*: Moving from Traditional to Digital"
2. Filip Kotler, "Marektinq 5.0 : Technology for Humanity, 2021

## AZƏRBAYCAN RESPUBLİKASININ KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ İXTİSASLAŞMIŞ TƏŞKİLATLARLA ƏMƏKDAŞLIĞI

**Həsənov Kamran**
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*

Korrupsiya müxtəlif sosial və iqtisadi problemlərin əsas səbəbi kimi təsvir edilir (Feathers, 2014, s.287). Korrupsiya insanların rifahı və həyat standartlarının yaxşılaşdırılmasına yönəlmiş bir sıra aktual Dayanıqlı İnkişaf Məqsədlərinə doğru irəliləməkdə çətinliklər yaratmaqla fərdlər və bütövlükdə cəmiyyət üçün zərərlidir (Trapnell, Jenkins, and Chêne, 207). Alimlər həmçinin hesab edirlər ki, korrupsiya insan hüquqlarına, qlobal institutların dürüst fəaliyyətinə, milli təhlükəsizlik və hüquq sistemlərinə mənfi təsir göstərən ən aktual problemlərlərdən birinə çevrilmişdir. Korrupsiya mənfi anlamda çox geniş yayılmış termin olmaqla, mahiyyətcə mürəkkəb və çoxsaylı təzahür formalarına malikdir (Fakhrul and Ananya, s.2). Təsadüfü deyil ki, korrupsiya məfhumunun konkret və vahid tərifi yoxdur və hətta Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya əleyhinə Konvensiyasında korrupsiyanın vahid tərifi verilmir (UNCAC, 2003). Məsələn, Dünya Bankı (1997) korrupsiyanı "abuse of public office for private benefit – dövlət vəzifəsindən şəxsi mənfəət üçün istifadə" kimi təsvir edir. Beynəlxalq Şəffaflıq Təşkilatı (2020) isə korrupsiyanı "abuse of entrusted power for private gain - həvalə edilmiş səlahiyyətdən şəxsi maraq üçün istifadə kimi" təsvir etmişdir". Korrupsiyaya sadəcə mənəvi problem prizmasından yanaşmaq doğru olmazdı. Korrupsiyanın fəsadları özünü dövlət və demokratik institutların zəifləməsində ifadə edir.

Korrupsiya sosial hadisə olaraq iki əsas nəzəriyyə çərçivəsində tədqiq edilir. Bu nəzəriyyələr – "Principal-Agent – Müdirlər və



İşçilər problemi" və "Collective Action Problem – Kollektiv Tədbirlər Problemi" nəzəriyyələridir (Olsen, 1965 və Jensen və Meckling,1976).

Principal-Agent nəzəriyyəsinə görə korrupsiya o zaman yaranır ki, səlahiyyət həvalə edilmiş agent müdirinin məqsədləri əvəzinə şəxsi mənafeyini güdür, yəni dövlət məmurları öz vəzifələrindən şəxsi maraqları üçün istifadə edirlər.Lakin bu yanaşma bir sıra alimlərin tənqidi ilə üzləşir. Belə ki, bu nəzəriyyə görə korrupsiya hallarının baş verməsində müdirlərin məsuliyyəti kənara qoyulur və korrupsiya assimetirik olaraq yalnız işçilər ilə əlaqələndirilir.

Digər nəzəriyyə isə Collective Action adlanır. Bu nəzəriyyəyə əsasən fərdlərin və biznes subyektlərinin korrupsiya ilə mübarizədə ortaq marağı mövcud olsa da, onlar bu mübarizəni əlaqələndirilmiş şəkildə həyata keçirə bilmirlər.

Korrupsiyaya qarşı effektiv strategiyalarının işlənib hazırlanması üçün hər iki nəzəriyyəni başa düşmək çox önəmlidir. Burada həm müdirlər və işçilər arasında məlumat assimetriyasının aradan qaldırılması üçün hesabatlıq mexanizmləri inkişaf etdirilməli, həm də korrupsiyadan çəkindirən motivasiya sistemləri qurulmalıdır (Rose-Ackerman, 1999).

Sevindirici haldır ki, gənc dövlət olmasına baxmayaraq, Azərbaycan Respublikası qısa müddət ərzində korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq standartlar səviyyəsində strategiya formalaşdırmış və onun səmərəli tətbiqinə nail olmuşdur. Azərbaycanın korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, kompleks və innovativ xarakteri ilə seçilir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı" yeni inkişaf mərhələsində bu siyasi kursun prioritetini ortaya qoymuş olur. Bu çoxşaxəli dövlət sənədi fərqli fəaliyyət istiqamətləri olan

müxtəlif qurumların korrupsiyaya qarşı mübarizədə səylərini birləşdirməyə xidmət edir və korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsinə imkanlar yaradır.

Qanunun aliliyinin təmin edilməsi və insan hüquqlarının etibarlı şəkildə qorunmasını təmin etmək məqsədilə inkişaf etmiş ölkələrin və beynəlxalq təşkilatların təcrübəsi diqqətlə öyrənilir və nəzərə alınır. Ölkəmiz 2005-ci ildən BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına qoşulmuşdur. Ölkəmiz bununla üzərinə götürdüyü öhdəlikləri müvəffəqiyyətlə yerinə yetirməkdədir.

Azərbaycan Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" və "Korrupsiya ilə əlaqədar mülki məsuliyyət haqqında" konvensiyalarını 2004-cü ildə ratifikasiya etmiş və beynəlxalq Korrupsiyaya qarşı Mübarizə Dövlətlər Qrupuna (GRECO) üzv olmuşdur. Ölkəmiz müxtəlif dövr ərzində bu qurum tərəfindən həyata keçirilən Korrupsiyaya qarşı beynəlxalq konvensiyaların hüquq sisteminə implementasiyasının I, II, III və IV dəyərləndirmə raundlarını bitirmiş, hazırda V raundda iştirak edir. Bundan başqa, Azərbaycan hökuməti İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün antikorrupsiya şəbəkəsi ilə əməkdaşlığını davam etdirməkdədir. Ölkəmizin Avropa İttifaqı ilə Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində əməkdaşlığı korrupsiyaya qarşı mübarizə sahəsində də yeni mərhələ açmışdır. Bir sözlə, dövlət başçısının siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində mövcud kompleks tədbirlərin ayrılmaz tərkib hissəsi olan beynəlxalq əməkdaşlıq əlaqələri daim inkişaf etdirilməkdədir.

Bundan başqa, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində də ötən dövr ərzində mühüm işlər görülmüşdür. Bununla əlaqədar, qeyd edilməlidir ki, Azərbaycan Respublikasında



qanunvericiliyin və çirkli pulların yuyulmasına qarşı mübarizə mexanizmlərinin effektivliyinin MONEYVAL tərəfindən V raund qiymətləndirilməsi prosedurları başlamışdır. Bu sahədə qanunvericiliyinin FATF tövsiyələrinə və beynəlxalq standartlara uyğunlaşdırmaq məqsədilə geniş təhlil və araşdırma işləri aparılmış, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" yeni qanunlar, habelə bu qanunların gətirdiyi yenilikləri sahəvi qanunlarda təsbit etmək üçün məcəllələrə və qanunlara dəyişikliklər edilmişdir.

Yeni qanunvericilikdən irəli gələn tələblərin həyata keçirilməsinin effektivliyini təmin etmək üçün "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üzrə Milli Fəaliyyət Planı" hazırlanaraq 2023-cü il 28 fevral tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq korrupsiyaya ilə mübarizədə preventiv tədbirlərin və cinayət təqibinin daha da səmərəli aparılmasına imkan verir.

## Ədəbiyyat


1. Takhrul, I. and Ananya, A.D., 2015. Reducing Corruption through Enhancing Public Service Ethics in Bangladesh. International Journal of Social Science Research, [e-journal] 4(1), pp.1-15, DOI: 10.5296/ijssr.v4i1.8418
2. Feathers, B., 2014. Bribes without borders: The challenge of fighting corruption in the global context. American University International Law Review. [online] 29(2), pp.287-293. Available at:https://digitalcommons.wcl.american.edu/cgi/viewcontent.cgi?

article=1808&context=auilr&httpsredir=1&referer=Jensen, M. C., & Meckling, W. H. (1976). Theory of the firm: Managerial behavior, agency costs, and ownership structure. Journal of Financial Economics, 3(4), 305-360.Available at:https://www.sciencedirect.com/science/article/pii/0304405X7690026X

3. lson, M. (1965). The Logic of Collective Action: Public Goods and the Theory of Groups. Harvard University Press.
4. Rose-Ackerman, S. (1999). Corruption and Government: Causes, Consequences, and Reform. Cambridge University Press.
5. Transparency International,2020. How does corruption affect you? | Transparency International.[video online] Available at:< https://library.aru.ac.uk/referencing/harvard.htm>
6. Trapnell, S., Jenkins, M. and Chene, M., 2017. Monitoring corruption and anti-corruption in the Sustainable Development Goals. A Resource Guide[pdf] Berlin: Transparency International. Available at:https://images.transparencycdn.org/images/2017_MonitoringCorruptionSDGs_EN.pdf
7. The World Bank, 1997. Helping Countries Combat Corruption. The Role of the World Bank. [pdf] Washington DC: The World Bank. Available at:http://www1.worldbank.org/publicsector/anticorrupt/corruptn/corrptn.pdf
8. United Nations Convention against Corruption 2003,.[pdf]United Nations. Available at: <https://www.unodc.org/documents/treaties/UNCAC/Publications/Convention/08-50026_E.pdf>



# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK SİYASƏTİNDƏ MÜASİR AZƏRBAYCAN GƏNCLİYİ

**Həsənov Murtəza**
**S.e.f.d. dosent**
*Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi İdarəetmə Fakültəsinin Dekanı*
m_hasanoglu@yahoo.com.tr

“Hər bir xalq özünün xoşbəxt gələcəyi olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata- babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır”.

***Açar sözlər:*** *Azərbaycan, Ümummilli lider Heydər Əliyev, Gənclər siyasəti , Gənclərin inkişaf strategiyası*

## Giriş

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, köklü dəyişikliklərə başlanılır. Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi mühüm islahatlar bu dövrdən başlayaq gənclər siyasətinin formalaşmasına öz təsirini göstərmişdir. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan inkişaf və tərəqqi siyasəti nəticəsində bu gün ölkəmiz yeni inkişaf dövrünə qədəm qoyub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu siyasətinin nəticələri artıq əhalinin rifahının yaxşılaşdırılmasında, iqtisadi inkişafda özünü göstərir. Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə canlanan və sürətlə inkişaf etməyə başlayan dövlət gənclər siyasəti bugün ölkə prezidenti cənab İlham Əliyev

tərəfindən layiqincə davam etdirilməkdədir. Azərbaycan Respublikasında gənclərlə bağlı məsələlərin həllinə, ümumilikdə gənclər sektoruna xüsusi önəm verilməsini 2018-ci ildən etibarən ali təhsil müəssisələrinin magistratura pilləsinin ixtisasları arasına "Gənclərlə iş" ixtisasının əlavə edilməsində də görmək mümkündür. Bugün Azərbaycan "Gənclərlə iş" ixtisasının tədris olunduğu 10 ölkədən biridir.

Ulu Öndər Heydər Əliyev dahi, uzaqgörən lider və cəsur insan idi. Ümummilli liderimiz Heydər Əliyev həyatını doğma xalqına həsr edib. Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev hər zaman xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Ulu Öndər Heydər Əliyev daim xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəli aparırdı [5]. Ulu Öndər Heydər Əliyev çoxəsrlik dövlət tariximizdə yeni, parlaq səhifə açmış əsrarəngiz, nadir şəxsiyyətdir. Tarixin yaddaşında əbədi iz buraxmaq hər insana nəsib olmayan böyük xoşbəxtlikdir. Bu, ancaq Ulu Öndər Heydər Əliyev kimi dahilərin başına gələ bilən qeyri-adi aqibətdir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin formalaşmasına və inkişafına həsr etmiş bu dahi şəxsiyyətin xidmətləri misilsizdir [3].

Gənclərin ruhunun sağlam olması, onların savadlı olması, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün əhəmiyyətlidir. Cəmiyyətin aparıcı təbəqəsi gənclərdirsə, inkişaf, inteqrasiya da onların adı ilə bağlıdır. Cəmiyyətin gələcəyi gənclərdir və gələcəyini düşünən hər bir cəmiyyət gənclərə böyük əhəmiyyət verir. Beləliklə, ölkə özünün xoşbəxt və firavan sabahını təmin etmək üçün faktiki olaraq vacib addımlar atmışdır. Ulu Öndər Heydər Əliyev Azərbaycanda yeganə insan idi ki, bu məlum həqiqəti hamıdan yaxşı başa düşür və onun həyata keçirilməsi üçün lazımi addımlar atırdı [1].



Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda demokratik islahatların aparılmasını, insan hüquqlarının qorunmasını daim diqqət mərkəzində saxlayıb. İctimai-siyasi və mədəni həyatımızın müxtəlif sahələrində sistemli islahatlar aparan ulu öndərimiz bütün bu proseslərdə gənclərin roluna daim xüsusi diqqət yetirmişdir. Bu, gənclərin müxtəlif qurumlarda, rayon idarələrində, siyasi və iqtisadi arenalarda fəal iştirakını təmin edib.

Azərbaycanın tərəqqisində, iqtisadi, siyasi və mədəni həyatında, demokratik dövlət və cəmiyyətin formalaşmasında gənclərin rolu danılmazdır. Azərbaycan tarixinə nəzər salsaq görərik ki, onun hər bir mərhələsində gənclərimiz özünəməxsus rol oynayıb.

Ümummilli lider Heydər Əliyev həmişə gənclərlə bağlı məsələləri öz siyasətinin əsas tərkib hissələrindən biri hesab etmişdir. Dövlət gənclər siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk illərindən başlayaraq həmişə aparıcı istiqamətlərdən biri olmuşdur. Ulu Öndər Heydər Əliyev gəncliyə arxalandığı üçün gənclər onu ulu öndər, əvəzolunmaz tarixi şəxsiyyət, milli dövlət quruculuğumuzun banisi kimi qəbul edirdilər.

Ulu öndərimiz Heydər Əliyevin bu sahədə apardığı siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsinə, onların sosial rifahının yüksəldilməsinə, zəngin elmi potensialın yaradılmasına xidmət etmişdir. Təsadüfi deyil ki, Ümummilli lider Heydər Əliyev həmişə gənclərə qayğı ilə yanaşır, onların problemlərini həll etməyə çalışır [2].

### Azərbaycan Gənclər Siyasətinin Formalaşması

Ümummilli liderin siyasətinin əsasını həmişə gənclərlə bağlı məsələlər təşkil edib. Onun hakimiyyətdə olduğu 1969-82-ci illərdə yüzlərlə yeni təhsil ocağı, gənclər ocağı, hərbi məktəblər yaradılıb, minlərlə azərbaycanlı gənc keçmiş Sovet İttifaqının aparıcı ali məktəblərində təhsil alıb, müasir ixtisaslara yiyələnib. Şəxsi təşəbbüs və qayğı sayəsində 15 mindən çox azərbaycanlı gənc Sovet

İttifaqının 50-dən çox iri şəhərlərində 170-dən çox aparıcı universitetdə 80-dən çox sahəni əhatə edən 150-dən çox ixtisas üzrə ali təhsil və təlim ala bildi. Bu barədə Azərbaycan Gənclər Forumunda çıxış edən ölkə başçısı deyib: "Bütün bunlar o dövrdə Azərbaycanın gələcəyi üçün yeni mütəxəssislər yetişdirmək məqsədi daşıyırdı. Biz bu işə 70-ci illərdə başlamışıq. Bu gün qeyd etməkdən çox məmnunam ki, bu mənim şəxsi təşəbbüsüm olub. Mən hələ də ölkəmizin gələcəyini düşünürdüm". Bu, həmin illərin ən böyük nailiyyətlərindən biri idi. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk illərindən başlayaraq dövlət gənclər siyasəti həmişə aparıcı istiqamətlərdən biri olmuşdur. Hətta Sovet hakimiyyəti illərində ümummilli liderimiz ittifaqın bir çox iri və mərkəzi şəhərlərində yüzlərlə azərbaycanlı gəncin təhsil almasına şərait yaratmış, bu gənclər müxtəlif ixtisaslar üzrə ali təhsil almaq üçün keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə göndərilmiş, vətənə qayıtdıqdan sonra savadlı kadrlar kimi fəaliyyətə başlamışlar..Bu gün həmin gənclərin xeyli hissəsi müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunda fəal iştirak edir, hüquq-mühafizə orqanlarında rəhbər vəzifələrdə çalışır, dövlətimizin inkişafında əvəzsiz xidmət göstərirlər.

Ulu Öndər Heydər Əliyev təhsili, bacarığı, istedadı ilə seçilən gənclərə qayğı və diqqət göstərməyi bacarırdı. Şübhəsiz ki, o, bu gənclərin çoxunu özü seçib, onların qabiliyyət və biliklərini sınayaraq, onları Moskvaya, Leninqrada oxumağa göndərib. Həmin gənclərə maddi dəstək verilib, onların yüksək və mükəmməl təhsil almaları üçün hər cür şərait yaradılıb. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsini ən çox alqışlayan gənclər oldu. Heydər Əliyev gəncliyə arxalandığı üçün gənclər onu ulu öndər, əvəzolunmaz tarixi şəxsiyyət, milli dövlət quruculuğumuzun banisi kimi qəbul edirdilər. Ulu öndərimiz Heydər Əliyevin bu sahədə apardığı siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin



gücləndirilməsinə, onların sosial rifahının yüksəldilməsinə, zəngin elmi potensialın yaradılmasına xidmət etmişdir. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev həmişə gənclərin qayğısına qalır, onların problemlərini həll etməyə çalışırdı.

Gənclərin ictimai-siyasi həyatda fəallığının artırılması, dövlət orqanlarında gənc mütəxəssislərə üstünlük verilməsi üzrə Dövlət Proqramının icrası ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasətinin uğurlu nəticəsidir.

Ulu öndər Heydər Əliyevin adı Azərbaycanda gənclərlə iş sahəsində mühüm tədbirlərin həyata keçirilməsi ilə bağlıdır. 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyevin diqqət mərkəzində saxladığı mühüm sahələrdən biri də gənclərlə iş olub. Həyata keçirilən gənclər siyasətinin əsas məqsədi milli dəyərlərə söykənən, Vətənə, xalqa bağlı müasir gənc nəslin formalaşması, bu gənclərin potensialından dövlətin inkişafı üçün istifadə edilməsidir. 1994-cü il iyulun 26-da ölkədə demokratik proseslərin sürətləndirilməsi ərəfəsində gənclərin təşkilatlanması məqsədilə Gənclər və İdman Nazirliyinin yaradılması haqqında dövlət başçısının fərmanı imzalandı. Beləliklə, dövlətin gənclər siyasəti vahid mərkəzdən idarə olunmağa başladı. Ulu öndər Heydər Əliyevin gənclərlə çoxsaylı görüşləri, dəyərli tövsiyələri gənclərin milli maraqlar, dövlət maraqları ətrafında birləşməsinə xidmət etmişdir. Bunun məntiqi nəticəsidir ki, 1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin I sinfi baş tutdu. Gənclər və idman siyasəti sahəsində görülən işlərdən danışan ulu öndər Heydər Əliyev Azərbaycan gəncliyinin daha uğurlu gələcəyinə inandığını vurğulamışdır. Həmin dövrdə fərmanların imzalanması, qanunların qəbulu, gənclərin dövlət quruculuğuna fəal cəlb olunması dövlətin gənclər siyasətinə mühüm töhfə verdi. Eyni zamanda, Azərbaycan gənclərinin tamhüquqlu vətəndaş kimi gələcəkləri üçün məsuliyyət

daşımaları, onlara göstərilən etimadı doğrultmağa çalışmaları üçün hər cür şərait yaradılmışdır.

Ümummilli liderimizin 1997-ci il fevralın 2-də imzaladığı sərəncama əsasən bu tarix "Azərbaycan Gəncləri Günü" elan edilmişdir. "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Dövlət gənclər siyasəti haqqında" qərarlar, o cümlədən "Gənc ailə" proqramı 1996. 2002-ci ilin "Gənclər arasında vətənpərvərlik və vətəndaşlıq hisslərinin aşılanması haqqında" və "Ordudan tərxis olunmuş gənclərin işlə təmin olunması haqqında" dövlət sənədləri bu baxımdan təqdirə layiqdir. Təbii ki, gənclərə dövlət qayğısı, onlarla bağlı qəbul edilən qərarlar gənc nəslin xoşbəxt gələcəyinə hesablanmış addımlar idi. Ulu Öndər Heydər Əliyevin tələbə gənclərə, qaçqın və məcburi köçkünlərə qayğısı onun bütün ölkə vətəndaşları qarşısında əvəzsiz xidmətlərinin tərkib hissəsidir. Sevinclə demək olar ki, bu gün də dövlətimiz gənclərə xüsusi diqqət və qayğı göstərir. Ümummilli liderimiz Heydər Əliyevin gənclər siyasəti onun layiqli davamçısı dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu siyasət dövlətin idmana göstərdiyi qayğıda da özünü göstərir [4].

Bu gün hər bir Azərbaycan gənci öz fəaliyyətində daim ümummilli lider Heydər Əliyevin ideyalarını rəhbər tutmalı və Azərbaycan gəncliyinin lideri olan möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan gənclərinin əbədiyaşar olması üçün səy göstərməlidir. Təbii ki, indiki gənclər vətənpərvər, ruhən sağlam, özünə güvənən, mübariz gənclərdir. Əminliklə demək olar ki, Azərbaycan gəncliyi dövlət başçısının iqtisadi, siyasi və mədəni arenada siyasi fəaliyyətini açıq şəkildə dəstəkləyir. Ümummilli liderimiz Heydər Əliyevin gənclər siyasəti onun layiqli davamçısı dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla həyata



keçirilir. Bu siyasət idmana göstərilən dövlət qayğısında da özünü göstərir. Təbii ki, bu yönümlü siyasət Azərbaycanın milli genefondunun qorunması, eləcə də gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi zərurətindən yaranıb. İstedadlı gənclərə diqqət və qayğının artırılması məqsədi ilə Ulu Öndər Heydər Əliyevin "Azərbaycan Respublikasının istedadlı gənc yazıçılarına dövlət qayğısının gücləndirilməsi haqqında" 1999-cu il 6 dekabr tarixli və "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında" 6 dekabr tarixli fərmanları icra edilmişdir [1].

**Azərbaycanda Gənclər Siyasətinin Əsas İstiqamətləri**

Bugün Azərbaycan Respublikasının gənclər siyasəti ölkə prezidenti cənab İlham Əliyev tərəfindən uğurla icra olunur. Ölkədə gənclər siyasəti 2002-ci ildə qəbul edilmiş "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tənzimlənir. Bu sənədə əsasən Azərbaycanda 14-29 yaş aralığındakı şəxslər gənc hesab olunur.

2020-ci il üçün olan statistik məlumatlara əsasən "ölkə əhalisinin 2,4 milyon nəfərini və ya 23,6 faizini gənclər təşkil edir. Gənclərin 50,2 faizi şəhər yerlərində, 49,8 faizi isə kənd yerlərində yaşayır. Gənclərin 47,8 faizini qadınlar təşkil edir". (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2020)

Məqsədi "gənclərin bilik və bacarıqlarını reallaşdırmalarına, sosial problemlərinin həllinə kömək etmək, eləcə də hüquqlarının qorunmasına təminat vermək" olan gənclər siyasəti altı əsas istiqamətdə həyata keçirilir:

1. Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı;
2. İstedadlı gənclərə dövlət qayğısı;
3. Gənclərin sağlamlığının qorunması və fiziki inkişafı;
4. Gənclərin məşğulluğunun təmin edilməsi;
5. Gənc ailələrə dövlət yardımı;

6. Gənclər təşkilatlarına dövlət yardımı. (Gənclər Siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu, 2002).

**Nəticə**

Ümummilli liderimiz Heydər Əliyevin gənclər siyasəti onun layiqli davamçısı dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu siyasət idmana göstərilən dövlət qayğısında da özünü göstərir. Təbii ki, bu yönümlü siyasət Azərbaycanın milli genefondunun qorunması, eləcə də gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi zərurətindən yaranıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gənclər sektoruna diqqəti özünü həm də 2007-ci ilin Azərbaycan Respublikasında "Gənclər ili" elan edilməsində göstərmişdir. Bu qərar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 Fevral 2007-ci il sərəncamı ilə təsdiq edilmişdir. 2007-ci ildə gənclər siyasəti istiqamətində görülən işlər bununla yekunlaşmamaqdadır. Azərbaycan Respublikasında sağlam gənclərin yetişməsi üçün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən də valideyn himayəsindən məhrum olan, eləcə də talassemiya və şəkərli diabet kimi bir sıra ciddi xəstəliklərdən əziyyət çəkən uşaqların sağlamlıqlarına qovuşması məqsədilə olduqca əhəmiyyətli addımlar atılır. Tibb müəssisələrinin təmir olunması, ən yeni avadanlıqlarla təchiz olunması, yeni tibb mərkəzlərinin istifadəyə verilməsi, "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat" kimi layihələrin keçirilməsi bu addımların sadəcə bir neçəsidir. Azərbaycanda həyata keçirilən gənclər siyasətinin hər bir istiqaməti, bu istiqamətlərdə görülən işlər gənclər və onların inkişafı üçün olduqca əhəmiyyətli məsələləri əhatə edir. Dövlət proqramları və Azərbaycan gənclərinin inkişafı istiqamətində atılan ayrı-ayrı addımlar gənclər siyasətinin dövlətimizin prioritetləri sırasında olduğunun göstəricisidir. Görülən bütün tədbirlər bugün



Azərbaycan gənclərini bir sıra imkanlarla təmin etməklə, onların potensiallarını üzə çıxarmaqla, inkişaf etdirməklə, Azərbaycanın uğurlu gələcəyini formalaşdırır. Gənclər siyasətinin istiqamətlərinə daxil olan fəaliyyətlərin icra olunmasına dövlət xüsusi diqqət göstərir. Məhz bu diqqət və gənclər siyasətinin ayrı-ayrı istiqamətləri üzrə görülən tədbirlər, təsdiq olunan dövlət proqramları Azərbaycan gəncinin hərtərəfli inkişafını təmin edir.

## Ədəbiyyat


1. Ağcabədi rayon Heydər Əliyev mərkəzi,Heydər Əliyev müasir gənclər siyasətinin banisidir https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/heyd%C9%99r-%C9%99liyev-muasir-g%C9%99ncl%C9%99r-siyas%C9%99tinin-banisidir/

2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycan Gəncləri - Statistik məcmuə", 2020

3. Hatəm Qocayev, Ulu Öndər Heydər Əliyev müasir gənclər siyasətinin banisidir https://ikisahil.az/post/194789-ulu-onder-heyder-eliyev-muasir-gencler-siyasetinin-banisidir

4. Hicran Hüseynova,Heydər Əliyev irsi:müstəqil dövlətçilik, müasirlik http://scfwca.gov.az/post/1546/heyder-eliyev-irsi-musteqil-dovletcilik-ve-muasirlik

5. Orxan İsmayılov, Müasir gənclər siyasətinin banisi https://ikisahil.az/post/387280-muasir-gencler-siyasetininbanisi

6. Telman Şahbazov,Ulu Öndərin ömür yolu vətənə və xalqa xidmət nümunəsdir.
https://mod.gov.az/az/pre/25149.html
https://e-qanun.az/framework/1619

# MİLLİ RUHUN ŞƏHƏRİ

**Həsənova Aidə**
*Gəncə Dövlət Universiteti*
*aidahasanova1@mail.ru*

***Şuşa əsl Azərbaycan şəhəridir. Çünki burada Azərbaycan ruhu hiss olunur.***

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Təbiəti dillərə dastandır Susanın. Səfalı yaylaqları, füsunkar Cıdır düzü, soyuq, xeyirli, dumduru İsa bulağı, Turşsuyu Şuşanı bütün dünyaya tanıtdırıb. Cıdır düzü Şuşanın daha yüksək hissəsindədir. Cıdır düzü Daşaltı çayının iki yüz metr aşağısından axan Daşaltı dərəsinə baxır. Cıdır düzünün kənarındakı cığır Xan mağarasına doğru gedir. İsa bulağı Azərbaycan təbiətinin nadir incilərindən biridir.Əsrarəngiz təbiət amili, saf, dupduru bulaqlar bu yerlərin şöhrətini daha da artırırdı. Bu diyarın ən məşhur bulağı olan İsa bulağını isə çoxları Şuşanın rəmzi hesab edirlər.

Şuşa həm də mədəniyyətimizin incisidir. Azərbaycanın mədəniyyət beşiyidir, Pənahəli xanın mirasıdır, Qarabağın baş tacıdır, Qafqazın sənət məbədidir, xalqın qürur yeridir, tariximizin rəngarəngliyinin sübutudur, dünya səviyyəli ziyalılarımızın həyata atdığı ilk addımların məskənidir. Ulu öndər Heydər Əliyev Şuşanın Azərbaycan üçün nə dərəcədə əhəmiyyətli olduğunu bildirərək deyib: "...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük



abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

Şuşa həm də bir çox görkəmli sənətkarların, musiqiçi, memar, rəssam və ədiblərin, dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş şəxsiyyətlərin yetişdiyi bir yerdir.

Xarı bülbülün vətəni olan Şuşa bütün gözəlliyi ilə fərqləndiyindən tarixboyu yağıların göz dikdiyi məkana çevrilib.

Təbii ki, Şuşa uğrunda mübarizədə seçilən taktika dünya hərb tarixinə yazılası bir hadisədir. Şuşa əməliyyatı hərb tarixində tamamilə yeni bir dönəmdir. Təbii ki, bütün bunlar ilk növbədə hərbçilərimizin peşəkarlığından, Şuşa əməliyyatına başçılıq edən hərbi rəhbərliyin yüksək döyüş taktikası seçməsindən və hər şeyin başında isə vətənpərvərlik hissi dayandığından xəbər verir. Şuşaya hücum edərək onu düşmən əsarətindən qurtaran oğullar bilirdilər ki, doğma torpaq uğrunda, müqəddəs iş üçün vuruşurlar. Şuşanı işğaldan azad edən oğullarımızın gücü, iradəsi, vətənpərvərliyi, daxili inamı, torpağımızı düşməndən azad etmək uğrundakı qüsursuz mübarizəsidir. Azərbaycan əsgəri Şuşanı öz ürəyinin təpəri, içindəki böyük Vətən sevgisinin işığı ilə düşməndən aldı, kökləndiyi güclü mənəvi-ruhi əhvalı ilə düşmənə qələbə çaldı.

Prezident İlham Əliyev Şuşanın tarixi kimliyini bir daha özünə qaytardı.

"Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir!.. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu

tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!.. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

Şuşanın bərpası, dirçəldilməsi, tarixi simasının qaytarılması Qarabağın döyünən ürəyinin, regionun mədəniyyət mərkəzinin yenidən dirçəldilməsi demək olacaq. Bu milli qürurumuzun, mənliyimizin, mədəniyyətimizin, incəsənətimizin, tariximizin bərpa edilməsi, yenidən yüksəliş mərhələsinə daxil olmasıdır. Bu mənada Prezident İlham Əliyevin Şuşanı Azərbaycan mədəniyyətinin paytaxtı elan etməsi olduqca mühüm qərardır.

Dövlət rəhbəri bu şəhəri mədəniyyətimizin paytaxtı elan etməklə Şuşanın tarixi kimliyini bir daha özünə qaytardı. Bu qədim şəhərimizin dəyərini, qiymətini bütün dünyaya bir daha bəyan edərək mesaj verdi.

### Ədəbiyyat


1. Heydər Əliyev: "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir". /08.05.2019/ *https://azertag.az/xeber/Heyder*

2."Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yox-dur". *http://www.anl.az/down/meqale/palitra/2018/may/590180.htm*




## HEYDƏR ƏLİYEV VƏ GƏNCLƏR SİYASƏTİ


**Həsənova Könül**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*

*f.ü.f.d., Müasir Azərbaycan dili kafedrasının baş müəllimi*

*ORCID: 0000-0003-1490-5751*

*konul_salmanova@mail.ru*



***Açar sözlər:*** *Heydər Əliyev, gənclər siyasəti, İlham Əliyev, tarixi xidmət*


Ümummilli lider Heydər Əliyev gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədi ilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin etdi. Gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəldilən, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, dövlət proqramları bu qəbildəndir. Qanunlar, fərman, sərəncam və dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib.

Ulu Öndərin gəncliyə və gənclərə etimadı bu gün artıq öz təsdiqini tapmaqdadır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir.

Dövlətimizin başçısının 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici

ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradıb. Bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyur. Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin ölkədə "Gənclər ili" elan olunması da Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsi məqsədi daşıyır.

Azərbaycanın gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin mətin iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Bu gün respublikamızda çoxlu sayda Olimpiya İdman Komplekslərinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın Olimpiya və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi də onların yeni uğurlarında mühüm rol oynayır.

Təsadüfi deyil ki, beynəlxalq yarışlarda qazanılan idman nailiyyətlərimizin sayı ildən-ilə artır. Azərbaycanın "Rio-2016" XXXI Yay Olimpiya Oyunlarında 18 medal qazanaraq bu göstəriciyə görə, 14-cü yerdə qərarlaşması bu sahəyə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bundan başqa, milli komandamızın ölkəmizdə yüksək səviyyədə keçirilən "Bakı-2015" I Avropa Oyunlarında ikinci, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutması, şahmatçılarımızın üçüncü dəfə Avropa çempionu



olmaları Azərbaycan gənclərinin son illərdə idman sahəsində qazandıqları uğurların əyani göstəriciləridir.

Bu gün tam əminliklə demək olar ki, ulu öndər Heydər Əliyevin gəncliyə və gənclərə qayğısı indi yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, öz məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır. Prezidentin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin, davamlılığının daha bir əyani sübutudur. Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı, postneft dövrünün başlanması Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Bu zərurəti nəzərə alan dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının

təsdiq olunmasına dair Sərəncam imzalayıb. Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm sənədin məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir.

Bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan Azərbaycan Ordusu sıralarında Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə yerinə yetirən şəxsi heyətin böyük əksəriyyətini gənclər təşkil edir. Azərbaycan gənclərinə günü-gündən artan dövlət qayğısı nəticəsində bu gün orduda vətənpərvər, mənəviyyatca saf, fiziki cəhətdən sağlam gənclər xidmət edirlər. Göründüyü kimi, yürüdülən gənclər siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri cəmiyyətin inkişafında, sosial təbəqə kimi demokratikləşmə prosesində fəal iştirak edir, mədəniyyət, incəsənət, iqtisadiyyat və digər sahələrdə nailiyyətlər qazanır, dövlətçiliyin möhkəmləndirilməsi prosesində yaxından iştirak edirlər.

Artıq Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənc nəsil formalaşıb. Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatında rolu günü-gündən artır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Gənclər də öz növbəsində dövlət qayğısını daim hiss edərək nailiyyətləri ilə onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışırlar. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və



müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

Tam inamla demək olar ki, ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabahlara aparacaq.

## REGİONLARIN İNKİŞAFINDA DÖVLƏT PROQRAMI

**Həziyev Vasif**
*Azərbaycan Kooperasiya Universiteti*
*"Menecment və ticarət" kafedrasının müdiri, dos.* 1_hvb_1@mail.ru

Azərbaycanda 2004-cü ildən başlayaraq, regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən Dövlət proqramları ölkəmizin tərəqqisində önəmli rol oynayıb. Bu proqramların icrası respublikamızın hərtərəfli inkişafının təmin edilməsinə, paytaxtla bölgələr arasında fərqin azalmasına səbəb olub.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu daxili və xarici siyasət xəttini bu gün uğurla davam etdirən Prezident İlham Əliyev son 18 ildə hər bir Azərbaycan ailəsinin rifahının yaxşılaşmasına, respublika həyatının bütün sahələrini əhatə edən dinamik inkişafa və təhlükəsizliyinin təmin edilməsinə, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsinə nail olub[3]. Aparılan geniş təhlillər də göstərir ki, regional dövlət proqramları ölkə iqtisadiyyatında mühüm prioritetə çevrilən əsas inkişaf istiqamətlərinin reallaşdırılmasını sürətləndirir. Bu cür önəmli istiqamətlərdən biri məhz elə iqtisadiyyatın diversifikasiyasıdır. Belə ki, regional proqramlar vasitəsilə Azərbaycanın bölgələrində

iqtisadiyyatın ayrı-ayrı sahələri geniş inkişaf edərək, dünya bazarlarına müxtəlif məhsulların çıxarılmasını təmin edir və bununla da qeyri-neft sektorunun güclənməsinə gətirib çıxarır.

Regionların inkişafını stimullaşdırmaq üçün dövlətin qəbul etdiyi proqram və qərarlar bu sahənin ölkə siyasətinin prioritetlərindən biri olduğunu göstərir. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulan bütün tədbirlər yüksək səviyyədə yerinə yetirilmişdir. İcrası planlaşdırılan sosial infrastruktur layihələri yüksək səviyyədə reallaşdırılır və gələcək inkişaf üçün güclü təməl yaradılır.[2]

Prezident İlham Əliyevin bölgələrə ardıcıl səfərləri regional proqramların icrasını sürətləndirməklə bərabər, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin yüksəldilməsi sahəsində görülən işlərə güclü təkan verib. Xüsusilə 2020-ci ilin dekabr ayından etibarən işğaldan zad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri nəinki Azərbaycanda, eləcə də, dünyada maraqla izlənilir. Belə ki, birbaşa ölkə başçısının rəhbərliyi altında Şuşa şəhəri sürətli şəkildə dirçəlməkdədir. Füzulidə rekord bir müddətdə-cəmi 6 ayda hava limanı tikilərək istifadəyə verildi. Laçın və Zəngilanda da beynəlxalq hava limanları tikilməkdədir. "Ağıllı kənd" və "ağıllı şəhər" layihələri icra olunur. Digər əyalətlərimizlə yanaşı, işğaldan azad olunmuş ərazilərimizdə də kənd təsərrüfatı və turizmin, eləcə də digər sahələrin gələcək inkişafı üçün planlı, nizamlı işlər həyata keçirilir.

Ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın fevralın 13-də Ağdam və Ağcabədi rayonlarına səfərləri də xüsusi diqqətçəkən məqamlarla yadda qalıb. Belə ki, dövlətimizin başçısı cənab İlham Əliyevin səfəri zamanı Ağdamda "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyaları, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin



Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib, eyni zamanda, Ağdam Sənaye Parkında fəaliyyət göstərəcək bərpaolunan enerji mənbələri ilə qidalanan işıq dirəkləri, xalça istehsalı müəssisələri, "Park Forest Otel Ağdam" mehmanxanası və 209 mənzildən ibarət yeni yaşayış kompleksinin təməlləri qoyulub. Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində bərpa işlərinin gedişi ilə tanış olan ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə maraqlanaraq Qarabağ xanlarının türbələri və yaşayış evi – İmarət kompleksində olublar. Daha sonra 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlini qoyulub.

Mütəxəssislərin fikrincə, Azərbaycanda aparılan iqtisadi islahatlar regionların sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsinə, əmək ehtiyatlarından səmərəli istifadə edilməsinə, yerli və xarici sahibkarlığın, müxtəlif təsərrüfat sahələrinin inkişaf etdirilməsinə yönəldilib. Hal-hazırda planlı şəkildə Qarabağ iqtisadi zonasının yekun formalaşdırılması gedir. Ekspertlərin fikrinə görə, Azərbaycanın Qarabağ regionunun dayanıqlı inkişafı üçün kifayət qədər resurs var.

**Ədəbiyyat**


1. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
2. "Azərbaycan Respublikası regionlarının 2019-2023-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
3. https://ikisahil.az/post/286722-regionlarin-inkishafi-dovlet-siyasetinin-esasprioritetlerindendir.

# UNİVERSİTET TEXNOPARKI: İNNOVATİV İDARƏÇİLİYİN REALLAŞMASI

**Hüseynov Yusif**
*Azərbaycan Texnologiya Universiteti*
*yusif.guseynov.99@bk.ru*

***Açar sözlər:*** *universitet, innovasiya, idarəetmə, texnopark*

Universitet texnoparklarının əsas məqsədi innovativ layihələrin və ideyaların yarandığı andan sənaye müəssisəsində kiçik istehsalın təşkilinə qədər olan prosesin bütün mərhələlərində onların dəstəyi və təşviqi ilə "çiçəklənməsidir". Texnoparklar daxili infrastrukturuna görə fərqlənsələr də, onların aşağıdakı oxşar cəhətləri də vardır:

1. Elmi-tədqiqat işlərinin və ya layihələrinin həyata keçirilməsi;
2. Gənc tədqiqatçılara və ya sahibkarlara ideyaların yarandığı andan sənaye müəssisəsində kiçik istehsalın təşkilinə qədər olan prosesin bütün mərhələlərini keçməyə imkan verən mühitin təşkili;
3. Yüksək ixtisaslı, peşəkar kadrlar üçün yeni iş yerlərinin yaradılması;
4. Gənc innovativ potensialdan səmərəli istifadə;
5. Ali təhsil müəssisələri (ATM), elmi-tədqiqat institutları (ETİ) və sənaye müəssisələri arasında əlaqələrin qurulması və möhkəmlənməsi;
6. ATM və ETİ üçün yeni gəlir mənbələrinin yaranması üçün şəraitin formalaşdırılması;
7. Ölkədə yaradıcı sənaye və ixrac potensialı qüvvəsinin artırılması;
8. Günü gündən infrastrukturun inkişafı;



9. ETİ, ATM və sənaye müəssisələrinin elmi və texniki imkanlarının inkişafı.

Texnopark funksiyalarını stabil saxlamaq şərtilə daima yenilənən mürəkkəb orqanizm kimi fəaliyyət göstərir. İnnovativ yanaşmada rəqabət aparan universitetlər akademik nəticələri, elmi nailiyyətləri yüksəltmək üçün mühəndis düşüncə tərzini, sahibkarlıq təfəkkürünü stimullaşdıraraq iqtisadi gəlirlərinin artmasına can atır, bu istiqamətdə işlərin aparılmasını təşviq edirlər. Bununla da universitetlər innovativ ekosistemin yaranmasına nail olurlar. Məhz texnoparklar bilik əsaslı innovativ iqtisadiyyatın formalaşmasının elmi platformasıdır.

İstənilən universitet texnoparkına uyğun olan modeli bir qrup ingilis tədqiqatçıları tərəfindən yazılmış “Texnoparklar: təşkili və idarə edilməsi” kitabında təklif olunur. Şəkildə “mükəmməl” texnopark təklif olunur. Müəlliflərin fikrincə “mükəmməl” texnopark tərkibində 75 ədəd 5-7 nəfərlik kiçik innovativ müəssisələr, hər biri 20-25 nəfərlik 20 orta yüksək texnoloji firmalar və 2-3 əsas müəssisə, istehsalat sahələri, laboratoriyalar, anbarlar olan texnoparkdır. Bu cür texnopark vahid infrastruktur zəncirinə malikdir və innovativ fəaliyyətin davamlılıq şərtini təmin edir. Təklif olunan texnopark modeli fundamental elmin texnologiyalara, istehsala və bazarda son məhsulların reallaşmasına hesablanıb. Əsas müəssisə adətən texnoparkın ərazisində yerləşən, heç bir imtiazı olmayan və uzun illər (təqribən 21-50 və daha uzun illər) ərzində fəaliyyət göstərən qüdrətli firmalar olur. Bu müəssisələr texnoparka öz maliyyə məsələlərini, xüsusən də texnoparkın fəaliyyətinin ilk mərhələlərində həll etməyə imkan yaradır.




Şəkil. D.Allen, D.Berr, T.Brodxerstə görə texnoparkın "mükəmməl" modeli

İki texnopark modelini: ingilis alimlərinin təklif etdiyi "mükəmməl" texnopark və yerli sənayenin fəaliyyət prinsiplərini özündə ehtiva edən, dünya trendlərini və Azərbaycanda texnoparkların yaradılmasında olan problemləri nəzərə almaqla istənilən universitetə uyğun gələn təşkilati-idarəçilik strukturunu qurmaq olar. Bu modelləşdirmə metodu əvvəllər müəyyən edilmiş funksional zonaların və onların birləşmələrinin optimal yerini, eləcə də elmi parkın ərazisində binaların ən sərfəli yerləşdirilməsinin avtomatik axtarışını həyata keçirməyə imkan verir.

**Ədəbiyyat**

1. Аллен Д. Технопарки: организация и управление / Д.Аллен, Д.Берр,Т.Бродхерст, С.Брэйлфорд. Пер. с англ. А.А.Сенина под науч. ред. В.Е.Шукшунова. Ассоц. науч. парков Великобритании, Ассоц. «Технопарк», Россия. Москва: МЭИ, 1997. 163 с.
2. Пономарев М.В., Савельева Л.В. Университетские технопарки: универсальная модель и инструменты цифрового проектирования // Architecture and Modern Information Technologies. 2021. №4(57). С. 377–393
3. Seyidov B. Universitet-sənaye əməkdaşlığı və texnoparklar. // www.science.gov.az (10.12.2023)



# LANTANOİDLƏRİN TƏDQİQİ VƏ KƏŞFİ TARİXLƏRİ HAQQINDA

**Hüseynova Ceyran**
*Naxçıvan Dövlət Universiteti*
*KFTMM ixtisası*
*Huseynovaceyran763@gmail.com*

Ali məktəblərdə kimya fənlərinin tədrisi prosesində müvafiq dərsliklərdə öz əksini tapmayan hadisələr, tədqiqatlar haqqında fənn müəllimləri tərəfindən yığcam məlumatlar verilməsi tələbələrin keçilən fənnə olan marağının artırılmasına, dünyagörüşünün yüksəldilməsinə,yorğunluğunun aradan qaldırılmasına xidmət edir. Qeyri-üzvi kimya fənnində lantanoidlər mövzusu keçilərkən bəzi düşündürücü məqamlara (lantanoid sıxlaşması, onun izləri, eyni nadir tapılan mineralda 7 yeni lantanoidlər sırası elementinin mövcudluğu, elementlərin adlandırılmasında yeniliklər və s.) diqqət yetirilməsi və aydınlıq gətirilməsi vacib hesab edilmişdir.

Məlumdur ki, 14 kimyəvi elementdən ibarət olan lantanoidlər III əlavə yarımqrupdakı La (lantan) xanasında yerləşmişlər. Bu yarımqrup yeganə əlavə yarımqrupdur ki, nüvə yükünün artması ilə fəallıq yüksəlir. Baxılan skandium yarımqrupu elementləri də daxil olmaqla (aktiniumdan başqa) lantanoidləri (lantan xanasında yerləşən elementlər), xassələrindəki böyük oxşarlığa görə bəzən daha ümumi ad altında nadir torpaq elementləri (NTE), yaxud nadir torpaq metalları (NTM) adlandırırlar. Bu ad onlara nadir tapılan eyni minerallarda rast gəlindiyinə görə verilmişdir. Burada skandium (Sc) bir qədər müstəsnalıq təşkil edir. Lantanoidləri bəzən ümumi simvolla (Ln) işarə edirlər (1,s. 267-271).

Adətən skandium minerallarında başqa nadir torpaq elementlərinə rast gəlinmir, lantanoid minerallarında isə skandium mövcud olmur:

1. $ScPO_4 \cdot 2H_2O$ - sterettit
2. $Sc_2Si_2O_7$ - tortveytit
3. (La, Ce…) $CO_3F$ - bastnezit
4. (Y, La) $PO_4$ - ksenotim

Bütövlükdə skandium xassələrinə görə alüminiuma daha çox oxşayır. $E_2O_3$ oksidləri ağ, kristal maddələrdir, su ilə reaksiyaya girib əsaslar əmələ gətirirlər. Onlar əsaslar, karbonat və oksalatların termiki parçalanmasından alına bilir; La $(OH)_3$ kifayət qədər qüvvətli əsasdır, havadan $CO_2$ udub karbonata çevrilir:

1. $E_2O_3 + 3H_2O = 2E\,(OH)_3$
2. $E_2\,(CO_3)_3 = E_2O_3 + 3CO_2$
3. $2E\,(OH)_3 = E_2O_3 + 3H_2O$
4. $2La\,(OH)_3 + 3CO_2 = La_2\,(CO_3)_3 + 3H_2O$

Aydındır ki, nəzərdən keçirilən lantanoidlər 4f – elementlərə, aktinoidlər isə 5f -elementlərə aiddir. Bu 2 sıranın hər biri 14 elementi əhatə edir. Xassələrindəki kimyəvi oxşarlığa əsasən və nüvə yükünün artma qanunauyğunluqları nəzərə alınmaqla La və Ac d' elementlər ilə yanaşı müvafiq f – elementlərin, yəni lantanoid və aktinoidlərin də formal olaraq başlanğıcını təşkil edir (2,s. 431-437).

Lantanoidlərdə f – yarımsəviyyə nüvəyə daha yaxın olduğundan onlarda elektron sayı xassələrə çox az təsir edir. Lantanoidlərə eyni minerallarda rast gəlinməsi məhz bununla bağlıdır. f – yarımsəviyyənin elektronlarla tamamlanma xarakterinə görə lantanoidləri 2 yarımailəyə bölürlər.

1. Yüngül lantanoidlər (Ce y/ailəsi)
2. Ağır lantanoidlər (Tb y/ailəsi)

Yüngül lantanoidlər 4f – yarımsəviyyənin tək elekronlarla, ağır lantanoidlər isə cüt elektronlarla tamamlanmasına uyğundur.



Lantanoidlər və aktinoidlərdə f – yarımsəviyyənin elektronlarla tamamlanma xarakterinə görə 2 yarımailəyə bölünmə daxili dövrilik adlanır.

Qeyd edək ki, lantanoidlər sırasında elementlərin atom radiusu sıra nömrəsindən asılı olaraq monoton dəyişmir. 63-cu element Eu və 70-ci element Yb-da böyük kənara çıxma (artım) müşahidə olunur. Həmin kənara çıxma nəzərə alınmadıqda Ce-Lu sırasında nüvə yükünün artması ilə atom radiusu 1,82-1,75 $A^{\circ}$ arasında dəyişir, yəni azalır. Bu azalma **lantanoid sıxlaşması** adlanır və dövri sistemdə müəyyən anomaliyalar əmələ gəlməsinə səbəb olur.

Yer qabığında lantanoidlər çox səpələnmiş haldadır və tərkibində lantanoid olan 250-dən artıq mineral məlumdur. Sıra nömrəsi cüt olan lantanoidlər tək rəqəmlilərə nisbətən daha geniş yayılmışdır. Prometium radioaktiv lantanoiddir. Lantanoidlər əsasən gümüşü-ağ, ərimə temperaturu 800-1300ºC olan plastik metallardır. Ce-Lu sırasında ərimə, qaynama temperaturu, sıxlıqlarının dəyişməsində daxili dövrilik vardır.

Lantanoidlərin yer qabığında yayılması, əsas mineralları, səciyyəvi xüsusiyyətlərinə diqqət yetirdikdən sonra onlardan bəzilərinin, xüsusən ittriumun kəşfi və tədqiqi tarixlərinin maraqlı məqamlarını nəzərdən keçirək. Baltik dənizindəki çoxsaylı adalardan biri olan və Ruslagen adlanan yaşayış məskəni onunla məşhurlaşıb ki, buradakı İtterbyu şəhərciyinin adı, özündə lantanoidlər ailəsinin 4 kimyəvi elementinin adlarını (ittrium, itterbium, terbium, erbium) özündə birləşdirir. 1787-ci ildə İsveç ordusunun leytenantı, mineralogiya üzrə həvəskar Karl Arrenius buradakı köhnə karxanada parlaq qara rəngli mineral tapmış və bu minerala itterbit adı qoyulmuşdur. Bundan 130 il sonra Finlandiya mineroloqu Fliut göstərmişdir ki, tapılan mineral qeyri-üzvi kimya tarixində böyük rola malikdir. Şübhəsizdir ki, tərkibində 7 yeni kimyəvi elementin

olduğu mineralın mövcudluğu qeyri-adi hadisədir. Bu mineralın və ittrium oksidin ilk ciddi tədqiqatcısı finlandiya kimyaçısı Yuxan Qadolin (1760-1852) olmuşdur. O, itterbiti analiz edərək onun tərkibində Fe, Ca, Mg, Si oksidlərinin, həmçinin 38% miqdarında naməlum element oksidlərinin mövcudluğunu müəyyən etdi. Üç ildən sonra İsveç alimi Ekeberq Finlandiya aliminin nəticələrini təsdiq etdi, bununla da "ittrium torpağı" ifadəsi qəbul olundu. Sonradan, hələ Yuxan Qadolinin sağlığında kəşf edilən element ittrium adlandırıldı, itterbyu şəhərciyindən tapılan mineralın isə adı dəyişdirilərək qadolinit qoyuldu.

1879-cu ildə ittrium oksiddən əlavə olaraq 3 elementi (itterbium, tulium, skandium), 1907-ci ildə isə lütesiumu ayırmaq mümkün oldu.

Bu, kimya elmi tarixində yeganə hadisədir ki, eyni bir nadir mineral 7 yeni kimyəvi elementin daşıyıcısı rolunda çıxış etmişdir (3, s. 483-491).

Qeyd edək ki, "ittrium torpağından" (ittrium oksid) 7 lantanoidin (ittrium, itterbium, terbium, erbium, tulium, lütesium, skandium) alınmasına 100 il vaxt sərf etmək lazım gəlmişdir.

### Ədəbiyyat

1. İlyaslı T.M., Seyfullayeva J.M. Elementlər kimyası. Dərslik. Bakı, BDU nəşriyyatı, 2004, 384 s.
2. Qarayev Z.Ş. Qeyri-üzvi kimya. Dərslik. Bakı: Maarif, 440 s.
3. Популярная библиотека химических элементов. Книга первая.М., Наука, 1977, 567 с.



# DÖVLƏT QULLUĞUNDA STRATEJİ KOMMUNİKASİYA VƏ ONUN VƏTƏNDAŞ MƏMNUNLUĞUNA TƏSİRİ

**Hüseynova Günay**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı

Sürətlə inkişaf edən və bir-biri ilə kommunikasiyalı dünyada strateji kommunikasiya əvvəlkindən daha çox aktuallaşıb. Bu tədqiqat biznes, siyasət və ictimai hərəkatlar da daxil olmaqla müxtəlif sahələrdə strateji kommunikasiyanın əhəmiyyətini və

aktuallığını araşdırır. O, effektiv kommunikasiya strategiyalarının dəyişdirici gücünü və onların təşkilatlara, fərdlərə və bütövlükdə cəmiyyətə təsirini vurğulayır. Strateji kommunikasiya öz məqsəd və məqsədlərinə nail olmaq istəyən təşkilatlar üçün çox vacibdir. Bu, bizneslərə öz brend şəxsiyyətlərini, məhsullarını və xidmətlərini hədəf auditoriyaya effektiv şəkildə çatdırmağa imkan verir. Cazibədar mesajlar hazırlamaqla təşkilatlar rəqiblərdən fərqlənə,brendə sadiqlik yarada və müştəriləri cəlb edə bilərlər. Effektiv daxili kommunikasiya həm də işçilər arasında birlik, uyğunlaşma və motivasiya hissini gücləndirir, məhsuldarlığı və ümumi uğuru artırır.

Rəqəmsal əsrdə təşkilatlar üçün onlayn platformaların və sosial medianın mürəkkəb mənzərəsini idarə etmək üçün strateji kommunikasiya vacibdir.Güclü onlayn mövcudluq, yaxşı hazırlanmış rəqəmsal kommunikasiya strategiyaları ilə birlikdə təşkilatlara daha geniş auditoriyaya çatmağa, real vaxt rejimində müştərilərlə kommunikasiya saxlamağa, rəy və sorğulara effektiv cavab verməyə imkan verir.Rəqəmsal sahədə strateji kommunikasiya təşkilatlara etibarlılıq yaratmağa, reputasiyanı idarə etməyə və hədəf

auditoriyasının inkişaf edən ehtiyac və gözləntilərinə uyğunlaşmağa imkan verir.Strateji kommunikasiya ictimai rəyin formalaşmasında və qərarların qəbulu proseslərinə təsirdə mühüm rol oynayır. Məsələn, siyasi liderlər öz baxışlarını çatdırmaq, ictimai dəstək qazanmaq və vətəndaşları mühüm məsələlər ətrafında səfərbər etmək üçün strateji kommunikasiyadan istifadə edirlər.Mesajları effektiv şəkildə tərtib etməklə və müxtəlif maraqlı tərəflərlə kommunikasiya saxlayaraq, strateji kommunikasiya ictimai diskursu formalaşdıra, dövlət siyasətinə təsir göstərə və cəmiyyət dəyişikliyinə təkan verə bilər.

Böhran zamanı strateji kommunikasiya böhranın effektiv idarə edilməsi və risklərin azaldılması üçün vacibdir. Təşkilatlar və hökumətlər narahatlıqları həll etmək, dəqiq məlumat yaymaq və ictimai etimadı bərpa etmək üçün şəffaf, empatik və operativ şəkildə kommunikasiya qurmalıdırlar.Böhranlar zamanı effektiv idarə etmək və kommunikasiya qurmaq bacarığı reputasiyaya dəyən zərəri minimuma endirə, dezinformasiyanın qarşısını ala, insanların təhlükəsizliyini və rifahını təmin edə bilər. Strateji kommunikasiya ictimai hərəkatlar və təbliğat səylərində mühüm rol oynayır. Bu, sosial problemlər haqqında məlumatlılığın artırılmasına, tərəfdarların səfərbər edilməsinə və dəyişiklik üçün ictimai rəyin toplanmasına kömək edir. Effektiv kommunikasiya strategiyaları müxtəlif auditoriyalarda rezonans doğuran güclü hekayələrin və mesajların yayılmasını asanlaşdırır.Strateji kommunikasiya fərdlərə və icmalara öz səslərini gücləndirmək, ictimai normalara meydan oxumaq və daha ədalətli cəmiyyətə doğru irəliləyişə təkan vermək imkanı verir.

Müasir dünyada strateji kommunikasiyanın aktuallığını qiymətləndirməmək olmaz. İstər biznesdə, istər siyasətdə, istərsə də ictimai hərəkatlarda effektiv kommunikasiya strategiyaları təşkilati məqsədlərə nail olmaq, ictimai rəyə təsir etmək, böhranları idarə etmək və sosial dəyişikliyi təşviq etmək üçün çox vacibdir.Getdikcə bir-birinə bağlı olan və kommunikasiyaya əsaslanan cəmiyyətdə strateji kommunikasiyaya üstünlük verən təşkilatlar və fərdlər rəqabət üstünlüyü qazanır, inam yaradır və müsbət təsir göstərir. Müasir dünyanın çağırışları və imkanları ilə məşğul olarkən, strateji kommunikasiya uğur, inkişaf və hamı üçün daha yaxşı gələcək yaratmaq üçün əvəzsiz alət olaraq qalır.



## "GƏNCLƏR SİYASƏTİ"-NİN ÜMUMMİLLİ BANİSİ

**Xudatova Səadət**
**Gəncə Dövlət Universiteti Magistratura şöbəsi**
**"Pedaqoji psixologiya" ixtisasının tələbəsi**

***Açar sözlər:*** *Gənclik, Azərbaycan, Tərəqqi, cəmiyyət, Heydər Əliyev*

İnkişaf edən gənclik və onun təməlini təşkil edən "Gənclər siyasəti" Gəncliyin sağlam ruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün önəmlidir. Cəmiyyətin aparıcı təbəqəsi gənclərdirsə, deməli, inkişaf və inteqrasiya məhz onlarla bir addımlayır. Cəmiyyətin gələcəyi gənclərdir və öz gələcəyini düşünən hər bir cəmiyyət gənclərə qayğı göstərir. Bununla da əslində özünün xoşbəxt və firavan gələcəyinin təmin olunması istiqamətində mühüm addımlar atmış olur. Azərbaycanın tərəqqisində, onun iqtisadi, siyasi və mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında gənclərin rolu danılmazdır. Azərbaycanın tarixinə nəzər salsaq, onun hər mərhələsində gənclərimizin özünəməxsus rol oynadığının şahidi olarıq. Ulu öndərimiz Heydər Əliyevin bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və zəngin elmi potensialın yaradılmasına xidmət edirdi. Heç də təsadüfü deyildir ki, Heydər

Əliyev hər zaman gənclərə qayğı ilə yanaşır, onların problemlərini həll etməyə çalışırdı.

Gənclərin ictimai-siyasi həyatda fəallığını artırmaq üçün həyata keçirilən Dövlət Proqramının tətbiqi, idarəetmə orqanlarında gənc mütəxəssislərə üstünlük verilməsi ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş gənclər siyasətinin uğurlu nəticəsidir.

Gənclərimizin bir fərd, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında ümummilli lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var. Ulu Öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tuturdu. Müxtəlif qrupların hakimiyyət uğrunda çəkişmələrində yeniyetmələrin potensialından sui-istifadə halları gəncliyin mənəvi-psixoloji böhran vəziyyətinə düşməsi ilə nəticələnmişdi. Lakin Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsindən sonra bu vəziyyət kökündən dəyişdi. Təsadüfi deyil ki, ikinci dəfə hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyev ilk görüşünü məhz gənclərlə keçirdi.

Ulu öndər ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək söyləyirdi: “Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır”. Ümummilli lider Heydər Əliyev həmişə gənclərimizə böyük ümidlər bəsləyir və dəfələrlə qeyd edirdiki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin dövlət qulluğunda məsul vəzifələrdə iştirakını təmin etmək, aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin



həllini təmin etmək məqsədi ilə ölkə rəhbərliyi bütün lazımi tədbirləri həyata keçirir, önəmli Dövlət proqramları qəbul olunur. Əlbətdə ki, gəncliyə göstərilən dövlət qayğısı, onlarla bağlı qəbul edilən qərarlar gənc nəslin xoşbəxt gələcəyinə hesablanan addımlar idi.

Ulu öndərimizin gənclərlə çox saylı görüşü, onlara etdiyi dəyərli tövsiyələr gənclərin ümummilli maraqlar və dövlət mənafeyi ətrafında birləşmələrinə xidmət edirdi. Dövlət gənclər siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən başlayaraq həmişə aparıcı istiqamətlərdən biri olmuşdur. Ulu öndərimiz savadı, qabiliyyəti, istedadı ilə seçilən gənclərə qayğı və diqqət göstərirdi. Bu gənclər maddi cəhətdən təmin edilir, onların mükəmməl təhsil almalarına hər cür şərait yaradılırdı. Heydər Əliyev gənclərə arxalandığı kimi, gənclər də onu böyük bir lider, əvəzolunmaz tarixi şəxsiyyət, milli dövlət quruculuğumuzun banisi kimi qəbul edirdilər.

Ümummilli lider Heydər Əliyev 2 fevral 1998-ci ildə Azərbaycan Gəncləri Gününün ildönümü münasibətilə keçirilən bədii-idman bayramında tarixi çıxış etmiş və gənclərə müraciət ünvanlamışdır: "Mən sizi gördükcə daha da ruhlanıram, siz mənə daha da ilham verirsiniz və sizdən ilham alaraq Azərbaycanı daha da qüdrətli etməyə çalışıram. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, Azərbaycanın Prezidenti sizin - gənclərimizin bütün hüquqlarının qorunmasının təminatçısı olub və bundan sonra da təminatçısı olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan gənclərinin yaxşı yaşaması, təhsil alması üçün, yaxşı əmək fəaliyyəti göstərməsi üçün bundan sonra da əlimizdən gələni edəcəyik". Ümummilli liderimiz Heydər Əliyevin görmək istədiyi Azərbaycan bu günün reallığına çevrilib və ölkəmiz Heydər Əliyev siyasi kursu ilə inamla addımlayır. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Ümummilli lider Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahi naminə faydalanacaq. Heydər Əliyevin irsi gələcək nəsillər üçün zəngin xəzinə olacaq. Bu irsin laiqli davamçısı

Cənab İlham Əliyevin gənclərlə keçirdiyi görüşlərdə irəli sürülən təklif və təşəbbüslərin dəstəklənməsi, real həyatda həllini tapması gənclərə dövlət qayğısının ifadəsidir. Aparılan siyasətin, görülən işlərin nəticəsi kimi tam əminliklə deyə bilərik ki, bu gün Azərbaycan gəncliyi öz intellektual, kreativ və mənəvi-ideoloji yetkinliyi ilə dünya gəncləri arasında qibtə olunacaq nüfuz qazanıb.

Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Bu sahədə atılan bütün addımlar məhz dövlətimizin bir daha gənclərə olan etimadının, onların gələcəyinə necə məsuliyyətlə yanaşdığının göstəricisidir.

Müstəqil dövlətçiliyimizin inkişafında gənclərimizin rolu böyükdür. Gənclərimizin sağlam əqidəli, vətənpərvər Azərbaycan vətəndaşı kimi yetişdirilməsində ümummilli liderimiz Heydər Əliyevin danılmaz əməyi və xidmətləri var. Ulu öndərin zəngin dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutmuşdur. Gənclərə verilən önəm və diqqətin nəticəsidir ki, Bu gun özünəinamlı, azad və düzgün düşüncəli, müstəqil fikirli, vətənpərvər , sağlam psixologiyaya sahib gənclər yetişir. Milli vətənpərvərlik Azərbaycanın hər bir vətəndaşının, hər bir gəncinin həyatının əsas prinsipidir. Baxmayaraq ki, 1994-cü ilin mayından Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs əldə olunmuşdur, amma bununla yanaşı ordumuz daim gücləndirilmiş və xalqımız torpaqlarımızın azad edilməsi üçün daim döyüşə hazır olmuşdur. O cümlədən, bu gün hər bir gənc Azərbaycanın Milli Ordusunda xidmət etməyi özü üçün ən şərəfli vəzifə hesab edir.

Düzgün siyasət və idarəçilik nəticəsində 44 günlük Vətən müharibəsində gənlərimizin nə qədər ali və mötəbər hisslərlə böyüyüb formalaşdığını göstərdi. O gənclər ki, Vətən sevgisini hər şeydən öndə tutdu, Cənab Ali Baş Komandanın bircə sözüylə birləşib



bir yumruq oldu. 30 il sonra Azərbaycan xalqına əvəzolunmaz xoşbəxtliyi yaşadan dahi liderin siyasəti, onun davamçısı və bu dövlətin gəncləridir.

"Bizim bugünkü gəncliyimiz sağlamdüşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir... Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir".

Heydər ƏLİYEV

**Ədəbiyyat**


1. haydaraliyevcenter.wordpress.com (1), (2), (3)
2. veteninfo.az (4)
3. ikisahil.az (5), (6)
4. www.yeniazerbaycan.com (7)
5. sonxeber.az(8) (9)


## CƏMİYYƏTİN GƏLƏCƏYİ GƏNCLƏRDİR


**İbrahimova Sahilə**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Müasir Azərbaycan dili kafedrası*
*Filologiya üzrə fəlsəfə doktoru, baş müəllim*
**sahila.ibrahimova@yahoo.com**


*"Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir... Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir".* Heydər Əliyev [1]

Yaşadığımız cəmiyyətin gələcəyi gənclərdir. Əgər cəmiyyətin əsas təbəqəsi gənclərimizdirsə, deməli inkişaf da məhz onlarla birlikdə irəliləyir. Gənclərimizin bir fərd, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında ümummilli lider Heydər Əliyevin böyük əməyi, misilsiz xidmətləri var. Ulu Öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tuturdu. İctimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində sistemli islahatlar həyata keçirən böyük öndərimiz bütün bu proseslərdə gənclərin roluna xüsusi fikir veririydi.

Heydər Əliyev ölkədə gənclərin siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək söyləyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycan uşaqlarıdır, Azərbaycan gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".

Hər zaman gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədi ilə, gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəldilən, onların qabiliyyətlərinin inkişaf etmələrinə kömək edən fərman və sərəncamlar imzalamışdır. Qanunlar, fərman, sərəncam və dövlət proqramları gənclərimizin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına çox böyük müsbət təsir etmişdir.

Savadlı gənc mütəxəssislərin hazırlanması məktəbdən başalayır universitetdə davam edir. Ulu Öndərimizi hər zaman bu məsələyə xüsusi diqqət yetirir. Azərbaycanda hər zaman təhsil infrastrukturu yeniləşir. Böyük əhəmiyyət kəsb edən komputerləşmə proqramı həyata keçirilir. Nəticədə gənclərimiz, şagirdlərimiz, tələbələrimiz dünyada baş verən bütün hadisələrlə yaxından tanış olurlar, müasir texnoloji biliklərə yiyələnirlər. bu gün Azərbaycan gəncləri xarici



ölkələrə təhsil almağa, təcrübə qazanmağa, iş qurmağa və s. faydalı işlər görməyə gedir.

Bu gün cəmiyyətimizin əsas hissəsini təşkil edən Azərbaycan Ordusu sıralarında Vətənimizin müdafiəsi kimi müqəddəs vəzifəni böyük qürurla yerinə yetirən şəxsi heyətin böyük əksəriyyətini gənclər təşkil edir. Gənclərimizin Vətən torpağımızın müdafiəsi uğrunda mübarizəyə hazır olmasını göstərməsi, gənclərə olan münasibətdə Heydər Əliyev kursunun, Ilham Əliyev siyasətinin təntənəsidir.

Hazırki gənclərimiz Heydər Əliyevi görə bilməsə də onun haqqında yaranan təsəvvürləri Müzəffər Liderimizdə, Azərbaycan tarixinə adını Şuşa fatehi kimi qızıl hərflərlə həkk edən İlham Əliyev ilə görür. İlham Əliyev 44 günlük müharibə dövründə verdiyi bütün müsahibələrdə təkcə dövlət başçısı olaraq deyil, həm də Heydər Əliyevin adından tarixi dərs verdi. Heydər Əliyev qurucusu olduğu Azərbaycan indiki Lider, ordudu və gəncləri ilə daha da güclüdür.

Bu gün Azərbaycan yeni tarixinə başlayır. Beynəlxalq layihələr, əməkdaşlıq, yeni yolların açılması bizi tamam fərqli bir Azərbaycan edir. Və bu günün gəncliyi vətənpərvər, sağlam ruhlu, özünə inamlı, mübariz gənclikdir. Azərbaycan gəncliyi hər zaman dövlət başçısının iqtisadi-siyasi, mədəni arenadakı siyasi fəaliyyətini birmənalı dəstəkləyir.

**Ədəbiyyat**

1.https://respublika-news.az/news/heyder-eliyev-muasir-gencler-siyasetinin-banisidir

# MÜASİR AZƏRBAYCAN GƏNCLİYİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

**İsmailova Ruqiyə**
*Azərbaycan Respublikasının*
*Dövlət Turizm Agentliyi*
*mrs.ismailova99@gmail.com*

***Açar sözlər:*** *Xilaskar, Ulu Öndər, gənclik, Gənclər günü*

"Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir" deyən Ulu öndər Heydər Əliyevin dövlətçiliyimizin daha da möhkəmləndirilməsi və gənclərin aparıcı qüvvəyə çevrilməsində əvəzsiz xidmətləri olmuşdur. Gənclər millətin gələcəyinin, inkişafının mühüm qüvvəsi hesab olunmaqla yanaşı həm də ölkənin mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında əsaslı rol oynayır.

Ümummilli liderin hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq ölkəmizdə gənclər siyasəti ilə bağlı bir çox fərman və sərəncamlar imzalamış, gənclərin milli vətənpərvər ruhda tərbiyəsinə xüsusi önəm vermiş, istedadlı gənclərə xüsusi diqqət və qayğı ilə yanaşılmışdır. Onun təşəbbüsü ilə ölkədə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gəncin ali məktəblərdə təhsil almalarına şərait yaradılmışdır. Və bununla yanaşı gənclərin müasir ixtisaslara yiyələnmələrində rolunu olduqca böyük hesab etmək olar. Bu dəyərlər gənclərin enerji və imkanlarını milli maraqlarımızın müdafiəsinə və onların vətənpərvər ruhda formalaşmasına zəmin yaratdı. Bu məqsədlə gənc kadrların hazırlanması və təşkilatlanması üçün Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradılmışdır.

2 fevral 1996-cı il tarixində keçirilən Azərbaycan gənclərinə həsr olunmuş I forumda ölkə rəhbəri Heydər Əliyev şəxsən iştirak



etmiş və demişdir; *"Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm".* Daha sonra 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si "Azərbaycan Gəncləri Günü" elan edilmişdir. 1999-cu ildə Azərbaycan gənclərinə həsr olunmuş II formda imzalanmış "Dövlət gənclər siyasəti haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Gənc istedadlar üçün təqaüdlərin təsis edilməsi haqqında" fərmanlar, sərəncamlar, eyni zamanda, qəbul edilmiş "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı", "Gənclər siyasəti haqqında" proqramlar və.s qanunlar Azərbaycan gəncliyinin inkişafı yolunda çox mühüm faktora çevrildi. Hər ildə keçirilən bu əlamətdar gün Azərbaycanda gənc istedadlara dövlət qayğısı, dövlət gənclər siyasəti sahəsində çoxsaylı fərman və qanunlar verilməklə gənclərin dövlət idarəetməsində iştirakı təmin edildi, həm də gənclərə dövlətin diqqətini hiss etdirdi. Gənclərə dəstək siyasətinin davamı olaraq 2002-ci il aprelin 9-da "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu qanunda gənclər siyasətinin məqsəd və prinsipləri, dövlətin vəzifələri, bu siyasətin əsas istiqamətləri, maddi və maliyyə təminatı və digər məsələlər konkret öz əksini tapıb. Bu istiqamətdə aparılan məqsədyönlü işlər nəticəsində dövlət-gənclər siyasətinin normativ hüquqi bazası formalaşdı. Ümummilli Liderin müəyyənləşdirdiyi dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi gənclərin qarşısında duran problemlərin həllinə münasibətin köklü surətdə

dəyişməsinə imkan yaratdı və onları vahid azərbaycançılıq ideologiyası ətrafında daha da sıx birləşdirdi.

Heydər Əliyevin qurduğu siyasət nəticəsində Gənclərin Məşğulluğu və Sahibkarlığı yolunda müxtəlif addımlar atılmışdır ki, bu da onların özlərinə inamını artırmaq və ölkənin iqtisadi inkişafına töhfə vermək üçün görülən işlərdən biridir. Ölkəmizin dövlət quruculuğu prosesində gənclik enerjisinə ehtiyac duyulduğunu düzgün qiymətləndirən müstəqilliyimizin böyük xilaskarı müxtəlif illərdə gənclər siyasətinin ayrı-ayrı istiqamətlərini dəqiq müəyyənləşdirmişdir.

Azərbaycançılıq ideologiyasının mühüm istiqamətlərindən biri də gənclərin vətənə sədaqət ruhunda tərbiyə edilməsidir. Məhz dahi şəxsiyyətin fəaliyyəti nəticəsində Azərbaycan gəncliyi öz layiq olduğu səviyyəyə yüksələ bilmişdir. Hər zaman sonsuz sevgi, minnətdarlıq və qürurla xatırladığımız müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev daim gənclərə böyük qayğı və diqqət göstərib, onların ən böyük himayədarı olub. Gənclərimizə vətənpərvərlik ruhunun aşılanması, dərin köklərimizə bağlı əsl vətəndaş kimi formalaşması zamana sığmayan dahi şəxsiyyətin adı ilə bağlıdır.

Bu gün ümummilli liderin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də digər sahələrdə olduğu kimi gənclər siyasətində də ardıcıllığı yüksək səviyyədə təmin edir. Ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinin nəticəsi olaraq Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2007-ci il respublikamızda “Gənclər ili” elan edilib. Bu da Azərbaycanda gəncliyinin uğurlarına hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Gənclik enerji, təşəbbüs, gələcəyə ünvanlanmış inkişafdır. Özünün dinamik inkişaf yoluna qədəm qoymuş Azərbaycan dövlətində gənclərin enerjisindən istifadəyə obyektiv bir tələbat duyulur. Gənclər hər bir xalqın



gələcəyini və inkişaf yolunu müəyyənləşdirən, cəmiyyətin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı təbəqədir. Hal-hazırkı gəncliyimiz ictimai, sosial həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir.

Bu gün dövlətin və cəmiyyətin idarə edilməsində ölkənin ən fəal gəncləri olaraq daha inamla və həvəslə dövlətimizin inkişafı və bayrağımızın ucalması üçün yorulmadan çalışmalıyıq.

## AQRAR-EMAL SƏNAYESİNİN İNKİŞAFININ RƏQABƏTQABİLİYYƏTLİ MƏHSUL İSTEHSALININ ARTIRILMASINDA ROLU

**İsmayılova Cəmilə**
*Azərbaycan Dövlət İqtisad Universiteti,Magistr*
*ismayilzada1998@mail.ru*

Rəqabətin kəskinliyi ilə xarakterizə olunan hazırki iqtisadi şəraitdə hər bir ölkənin dayanıqlı inkişafını diversifikasiyalı istehsal sahələrinin mövcudluğu təyin edir. Çünki qloballaşma prosesinin intensivləşdiyi müasir şəraitdə çoxşaxəli və rəqabətqabiliyyətli qarşılıqlı istehsal münasibətləri olmadan kompleks iqtisadi inkişafı təmin etmək mümükün deyildir. Strateji sahələrdən olan kənd təsərrüfatı məhsullarının istehsalında intensivliyi təmin edən və bazar imkanlarını artıran aqrar-emal sənayesinin funksionallığı bu istiqamətdə xüsusi olaraq qiymətləndiril- məlidir. Bu sahənin dayanaqlı inkişafı perspektivdə ölkənin ixracyönümlü məhsul istehsalının artırılmasına da öz tövhəsini verir.

Rəqabət mühitini formalaşdıran və müəyyən qeyd-şərtlərlə, aqrar sahənin daxili inkişaf amilləri kimi təqdim edilən amillərə aşağıdakılar aid edilə bilər:

– aqropotensialın reallaşması səviyyəsi;

- maddi, əmək və maliyyə resurslarının səfərbərlik dərəcəsi;
- sahibkarlığın inkişaf tempi;
- aqrar sahəyə münasibətdə proteksionizmin mövcud səviyyəsi;
- vergi, kredit, qiymət və digər tənzimləmə vasitələrindən istifadə səmərəliliyi;
- əhalinin alıcılıq qabiliyyəti və bir sıra digər makroiqtisadi göstəricilər.

Dünyanın iqtisadi konyukturunda baş verən dəyişikliklər çərçivəsində hər bir ölkədə makroiktisadi tarazlığa nail olmaq ixrac potensialının artırılması ilə mümkün olur. İnkişaf edən ölkələrdə aqrar sahənin rəqabət qabiliyyəti, daxili bazarın konyunkturundakı kəskin tərəddüdlərin dövlət tərəfindən tənzimlənməsi imkanlarının reallaşması səviyyəsinin və iqtisadi fəallığın dəstəklənməsi mexanizminin səmərəliliyi göstəricilərinin funksiyası kimi çıxış edir. Sözügedən qabiliyyətin yüksəldilməsində aqrar sahibkarlara əlverişli fəaliyyət mühitinin yaradılması həlledici rola malikdir.

Formalaşma və təkamül mərhələlərinə diqqət yetirsək görərik ki, iqtisadiyyatda qarşılıqlı istehsal münasibətlərinin əsasını miqyasına, təsirlilik səviyyəsinə görə kənd təsərrüfatı və emal-sənaye sahələri arasındakı əlaqələr təşkil etmişdir. Kənd təsərrüafatı ilə emal sənaye müəssisələri arasında inteqrasiya prosesinin inkişafı təkcə bazara rəqabət-qabiliyyətli məhsul çıxarmaq deyil, həm də istehsalçıya yönəlmiş bir investisiya sifarişi rolu oynayır. Kənd təsərrüfatı ilə emal sənayesi arasında əlaqələrin inkişafı xüsusilə aqrar sahədəki kiçik sahibkarları maraqlandıran mühüm bir məsələdir. Kənd təsərrüfatı məhsullarının bazar imkanlarını artıran emal sənayesi aqrar bazarın elə bir elementidir ki, o, öz inkişafı ilə ölkənin ərzaq təminatını yaxşılaşdırmaqla bərabər, istehsalçı ilə istehlakçı arasında həm bazar, həm də keyfiyyət zəmanəti körpüsü rolu oynamaqdadır. Aqrar emal sənayesi ilə xammal istehsalçısı olan təsərrüfatlar arasında inteqrasiya əlaqələrinin inkişafı istehsal sahələri



üzərində emaledici sənayenin təsirini gücləndirən bir prosesdir. Bunun nəticəsində istehsalın texniki səviyyəsinə, xammalın keyfiyyətinə və göndərilməsinin ahəngdarlığına qarşı tələblər artır, istehsalla məşğul olan təsərrüfatlarla emaledici sənaye müəssisələri arasında birbaşa müqavilə əlaqələri keyfiyyətcə yeni pilləyə qalxır. İnteqrasiyaya qoşulan müəssisə və təsərrüfatlarda əmək resurslarından, maddi resurslardan, material ehtiyatlarından istifadənin mövsümlüyü azalır, əmək məhsuldarlığı yüksəlir, optimal iqtisadi göstəricilərin əldə olunmasına şərait yaranır. Bunun nəticəsində inteqrasiyaya qoşulan sahələrdə təkrar istehsal prosesinin intensivləşməsinə və sosial tədbirlərin həllinə real şərait yaranır ki, bu da nəticədə istehsalın səmərəliliyinə bilavasitə müsbət təsir göstərir.

Aqroemal sahəsində istehsal subyektləri ilə emal subyektləri arasında iqtisadi inteqrasiya əlaqələrinin optimal formada təşkilinə nail olunması aqroemal sahəsinin səmərəli inkişafının təmin edilməsində böyük rol oynayır. Bazar münasibətlərində belə əlaqələrin yaradılması qanunauyğun hal olub, hər iki sahənin formalaşdırılmasına həlledici təsir göstərir.

Araşdırmalardan məlum olur ki, hazırda kənd təsərrüfatı istehsal sahələri ilə aqrar-sənaye müəssisələri arasında inteqrasiya əlaqələrinin stimullaşdırılması respublikada ərzaq təhlükəsizliyinin təminatı, ekoloji durumun yaxşılaşdırılması və ümumilikdə optimal iqtisadi əlaqələrin qurulması kimi mühüm məsələlərin reallaşdırılmasında mühüm rol oynayır. İnteqrasiya əlaqələrinin məqbul səviyyəsi itkilərin azalması, risklərin bölüşdürülməsi və iqtisadi fəallığın yüksəldilməsi, məhsulun istehsaldan son istehlakçıya qədər hərəkətində səmərəliliyin yüksəl- dilməsi, korpo-rativ idarəetmə üstünlüklərinin gerçəkləşdirilməsi, mütərəqqi struktur siyasətinin həyata keçirilməsi və s. üçün əlverişli şərait yaradır. Təbii ki, qeyd olunan məsələləri nəzərə alaraq prosesə geniş aspektdən yanaşsaq inteqrasiya əlaqələrinin inkişafının stimullaşdırılması üçün adekvat

iqtisadi və institusional mühitin olmasını da xüsusi vurğulamaq lazımdır.

İnteqrasiya proseslərinin stimullaşdırılması dedikdə sözün geniş mənasında işçilərin davranışına təsir edən bütün daxili və xarici amillərin məcmusu nəzərdən keçirilə bilər. Məlum olduğu kimi, əlaqələrin fəallaşdırılması və stimullaşdırılması prosesində tələbat, mənafe, motivləşdirmə və bir sıra digər məsələlər aktuallaşır.

Aqrar-sənaye inteqrasiyası prosesinin stimullaşdırılması, müvafiq sahələrdə çalışanların əməyinin kəmiyyət və keyfiyyətini, onların vahid kontekstdə ölçülməsi və qiymətləndirilməsinə də imkan verir. İqtisadi motivləşdirmə səviy- yəsinin müəyyənləşdirilməsi və həmin səviyyənin gücləndirilməsi imkanlarının qiymətləndirilməsi maddi tələbat və maraq, işçinin gəlirində əmək haqqının xüsusi çəkisi, real əmək haqqının dinamikası və bir sıra digər göstəricilərin dəqiq kəmiyyət xarakteristikasının verilməsini, müvafiq təhlillərin aparılması və ümumiləşdirmələrin edilməsini tələb edir. Bununla belə, unutmaq olmaz ki, məhz maddi maraq kimi iqtisadi kateqoriyaların kəmiyyətcə səciyyələndirilməsi, ən mürəkkəb məsələlərdən biridir. Qeyd etmək lazımdır ki, məhz bu amil kənd təsərrüfatı ilə sənaye sektoru arasında işçi qüvvəsinin kəmiyyət dəyişikliyinə şərait yaradır.

Hesab edirik ki, ölkədə aqrar-emal sənayesinin mövcud imkanlarını yüksəltmək yeyinti sahəsinin inkişafı baxımından önəmli rol oynayacaqdır. Bu istiqamətdə ilk növbədə bioloji komponentlərlə zəngin yerli xammal istehsalının artırılması, məhsulun bioloji dəyərliliyinin və keyfiyyətinin təmin edilməsi, məhsulun qablaş- dırılma texnologiyalarının təkmilləşdirilməsi, xammalın emala daxil olmasından başlayaraq hazır məhsulun qablaşdırılmasına qədər bütün proseslərin modernləşdirilməsi, məhsulun nəqli və emalı zamanı itkilərin azaldılması, xammalın kompleks istifadəsi, təkrar xammal resurslarının emalı və əlavə yeyinti məhsullarının alınması, istehsal



edilən məhsulların keyfiyyətinin beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması, yeyinti sənayesi müəssisələrinin modernləşdirilməsi və yenidən qurulması üçün investisiya qoyuluşlarının həcminin artırılması yeyinti məhsullarının rəqabət-qabiliyyətliyinin təmin edilməsinə və dolayısı ilə perspektivdə respublikada neft məhsullarından başqa, digər ixracyönümlü məhsul istehsalının inkişafına əlverişli zəmin yaradacaqdır.

**Ədəbiyyat**

1.“Türkiye’de Tarım Sanayi Entegrasyonu, Sorunlar ve Çözüm Önerileri” (Türkiyədə aqrarsənaye interqasiyası, problemlər və həlli yolları) Volkan Burucu, 2012

2.“Ekonomik gelişme sürecinde tarım-sanayi ilişkilerinin sektörler arası bütünleşmeye etkileri” (İqtisadi inkişaf prosesində kənd təsərrüfatı-sənaye əlaqələrinin sektorlararası inteqrasiyaya təsirləri), Cahit Aydemir, Murat Pıçak, 2008

## DÖVLƏT QULLUĞUNDA HESABATLILIĞIN VƏTƏNDAŞ MƏMNUNLUĞUNUN ARTIRILMASINDA ROLU

**Kamallı Kamal**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*

İdarəetmə subyektinin yuxarı idarəetmə instansiyası və ya idarəetmə obyekti qarşısında mütəmadi olaraq öz fəaliyyətinin kəmiyyət və keyfiyyət parametrlərini bəyan etməsindən ibarət mexanizmlər toplusu hesabatlılıqdır. Hesabatlılıq siyasətin və ya fəaliyyətin öncədən proqnozlaşdırıla bilməsinə və icranın qiymətləndirilməsinə xidmət edir. Hal-hazırda həm özəl sektorda,

həm də dövlət idarəetməsində hesabatlılığın qiymətləndirilməsini nəzərdə tutan mexanizmlər formalaşdırılmışdır. Hesabatlılığın qiymətləndirilməsi zamanı strategiya, idarəetmə, cəlbetmə və təsir qiymətləndirilir.

Müasir idarəetmədə hesabatlılıq mühüm əhəmiyyətə malikdir. Xüsusilə də dövlət qulluqçularının peşəkar fəaliyyətini müəyyənləşdirən xüsusiyyətlər arasında şəffaflıq və hesabatlılıq önəmli yer tutur. Dövlət qulluqçularının fəaliyyətinin hesabatlılığı həm də dövlətin və qurumun hesabatlılığı deməkdir. Azərbaycanda inzibati amirlik idarəetmə rejimində vətəndaşlar qarşısında birbaşa hesabatlılıq mexanizmi olmayıbdır. Lakin Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra demokratik idarəetmə sistemi olduğu üçün hesabatlılıq da həm üfüqi, həm də şaquli formada təzahür edir.

Respublikamızda aparılan ardıcıl islahatlar idarəetmənin təkmilləşdirilməsinə, səmərəli və peşəkar dövlət qulluğunun, vətəndaş-məmur münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasına, dövlət qulluğunun xalqa qulluq mənasını ifadə etməsinə, məsuliyyətli, kreativ, dövlətinə və xalqına sadiq kadr potensialının formalaşdırılmasına xidmət edir.

Qurulan yeni modeldə "dövlət qulluğu" anlayışı "cəmiyyətə, xalqa qulluq" mənasını ifadə edir, vətəndaşla məmur arasındakı münasibətlərdə yeni düşüncə tərzi formalaşdırılır. Əhaliyə dövlət xidmətlərinin istehlakçısı kimi, onun məmnunluq səviyyəsinə isə dövlət orqanlarının fəaliyyətinin qiymətləndirilməsi meyarı kimi yanaşılır. Qiymətləndirmə və nəzarət sistemində də müvafiq dəyişikliklər edilir, ictimai rəy, şəffaflıq, çeviklik, xidmətlərin göstərilməsində keyfiyyət, fasiləsizlik ön plana keçir.

Müasir dövrdə dövlət qulluğunda həyata keçirilən normativ və institusional islahatlar hesabatlılığın təmin olunmasında mühüm rol oynayır.



Qəbul edilmiş yeni qanunlar, fərman və sərəncamlar, dövlət proqramları və digər qərarlar dövlət idarəçiliyində hesabatlılığın təmin edilməsinə mühüm töhfə verir. Bu mənada mövzunun bu və ya digər aspektlərinin elmi cəhətdən təhlili kifayət qədər aktuallıq kəsb edir.

## DAYANIQLI İNKIŞAF MƏQSƏDLƏRİNƏ ÇATMAQDA İNNOVASIYALARIN TƏTBİQİ VƏ YÜKSƏK TEXNOLOGİYALARIN ROLU

**Kərimov Rəşid**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
*İnzibati İdarəetmə Fakültəsi*

XXI əsrin dinamik mühitində, davamlı inkişaf axtarışı qlobal bir tələb kimi ortaya çıxaraq, dövlətləri müasir çətinlikləri həll etmək üçün inovasiya və yüksək texnologiyalardan istifadə etməyə çağırır. Bu tezis davamlı inkişaf məqsədlərinə (DİM-lərə) nail olmaq, onların tətbiqləri, çağırışları və transformasiya potensialını araşdırmaq kontekstində innovasiya və yüksək texnologiyaların oynadığı əsas rolu araşdırır.

Davamlı inkişaf gündəliyinin mərkəzində, iqtisadi tərəqqinin, sosial rifahın və ekoloji davamlılığın, cəmiyyətlərin hərtərəfli inkişafı üçün vacib olan bir-biri ilə əlaqəli sütunlar olduğunun qəbul edilməsi dayanır. Yeni ideyaların, proseslərin və texnologiyaların tətbiqi ilə xarakterizə olunan innovasiya müsbət dəyişikliklər üçün katalizator rolunu oynayır. Ən son vasitə və sistemləri əhatə edən yüksək texnologiya ilə birlikdə yeni sənayelər, idarəetmə strukturlarını və sosial normaları dəyişdirə biləcək nəhəng bir qüvvəyə çevrilir.

İnnovasiyaların və yüksək texnologiyaların təsirinin hiss olunduğu əsas sahələrdən biri enerji sektorudur. Günəş, külək və hidroenergetikada texnoloji irəliləyişlər hesabına bərpa olunan enerji mənbələrinə qlobal keçid innovasiyanın enerji təhlükəsizliyi və ekoloji davamlılıq kimi ikili problemi necə həll edə biləcəyini nümunə göstərir. Ağıllı şəbəkələr, enerji saxlama həlləri və mərkəzləşdirilməmiş enerji sistemləri davamlı enerjiyə nail olmaqda (DİM 7) və iqlim dəyişikliyi ilə mübarizədə (DİM 13) yüksək texnologiyaların transformativ potensialını vurğulayır.

İnnovasiyanın transformasiya potensialı təkcə enerji sektoru ilə məhdudlaşmır; kənd təsərrüfatını, səhiyyəni, təhsili və digər sahələri əhatə edir. Kənd təsərrüfatında GPS ilə idarə olunan traktorlar və məsafədən idarə edilən dəqiq kənd təsərrüfatı texnologiyaları resursdan istifadəni optimallaşdırır, davamlı torpaq idarəçiliyini təşviq edir (DİM 15) və ərzaq təhlükəsizliyinin təmin edilməsinə töhfə verir (DİM 2). Səhiyyə sektoru teletibbin, geyilə bilən cihazların və süni intellektin meydana çıxmasının şahidi olur, səhiyyə xidmətinə çıxışı, əlçatanlığı və keyfiyyəti artırır və bununla da hamı üçün sağlamlıq və rifahı təmin etmək məqsədini dəstəkləyir (DİM 3). Eynilə, e-tədris platformalarının, virtual reallığın və məlumat araşdırılmasının təhsilə inteqrasiyası inklüziv və bərabər keyfiyyətli təhsilin təmin edilməsi məqsədi ilə üst-üstə düşür (DİM 4).

Yekun olaraq, bu tezis davamlı inkişaf məqsədlərinə çatmaqda innovasiya və yüksək texnologiyaların transformator rolunu vurğulayır. Konkret nümunələri tədqiq etməklə və problemləri təhlil etməklə aydın olur ki, innovasiyaların strateji tətbiqi sektorlar arasında paradiqma dəyişikliklərinə səbəb ola bilər. Ölkələr və siyasi xadimlər hamı üçün uyğun və davamlı gələcək qurmaqda texnologiyanın tam potensialını üzə çıxarmaq üçün inklüziv, etik və davamlı innovasiyalara üstünlük verməlidirlər. Inovasiya və davamlı inkişafın bir-biri ilə əlaqəli olması, daha davamlı və bərabər bir



dünya vizyonunun həyata keçirilməsində beynəlxalq cəmiyyətin ortaq məsuliyyətini vurğulayaraq, dünya miqyasında əməkdaşlığa əsaslanan səylər üçün çağırış edir.

## ŞƏBƏKƏ İNFORMASİYA SİSTEMİNİN TƏHLÜKƏSİZLİYİ

**Qarayev Süleyman**
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, İnzibati İdarəetmə Fakültəsi,*
suleyman.qarayev.14@gmail.com

Şəbəkə İnformasiya Sistemi (Network Information System (NIS)) şəbəkəyə qoşulmuş cihazlar üçün mərkəzləşdirilmiş giriş və autentifikasiya xidmətini təmin etmək üçün istifadə edilən paylanmış verilənlər bazası sistemidir. NIS istifadəçi adları, parollar və qrup üzvlükləri kimi istifadəçi hesabı məlumatlarını saxlayan mərkəzləşdirilmiş server təmin etməklə işləyir. İstifadəçi şəbəkəyə qoşulmuş cihaza daxil olmağa cəhd etdikdə, cihaz istifadəçinin hesab məlumatı üçün NIS serverinə sorğu göndərir. İstifadəçinin hesabı etibarlıdırsa, cihaz istifadəçiyə giriş imkanı verir.

NIS birdən çox cihazda istifadəçi hesablarını idarə etmək üçün rahat bir yol təqdim etsə də, düzgün təmin edilmədikdə təhlükəsizlik riskləri də yarada bilər. NIS-in təhlükəsizliyini təmin etmək üçün bəzi ən yaxşı təcrübələr bunlardır:

1. Güclü autentifikasiyadan istifadəsi: Yalnız səlahiyyətli istifadəçilərin NIS serverinə daxil ola bilməsini təmin etmək üçün Kerberos və ya Secure Shell (SSH) kimi güclü autentifikasiya mexanizmlərindən istifadə.
2. NIS serverlərinə girişi məhdudlaşdırılması: NIS serverinə yalnız səlahiyyətli istifadəçilərin girişi olmalıdır. Bütün girişlər qeydiyyata alınmalı və yoxlanılmalıdır. Şəbəkə administratorları NIS

serverlərinə girişi məhdudlaşdırmaq və uzaqdan idarəetmə alətlərindən istifadəni məhdudlaşdırmaq üçün firewalllardan istifadə etməlidirlər.

3. Şifrələnmiş bağlantılardan istifadə: Tranzit zamanı həssas məlumatları qorumaq üçün NIS serverinə bütün bağlantılar SSL və ya TLS istifadə edərək şifrələnməlidir. NIS üçün SSL və ya TLS-i işə salmaqla, NIS serveri ilə müştərilər arasında bütün rabitə şifrlənəcək, dinləmə və “man-in-the-middle” hücumlarının qarşısı alınacaq. Bundan əlavə, SSL və ya TLS də yalnız səlahiyyətli müştərilərin NIS serverinə daxil ola bilməsini təmin etmək üçün autentifikasiya təmin edə bilər. NIS üçün SSL və ya TLS-ni aktivləşdirmək üçün açıq açar infrastrukturu (PKI) tələb olunur. Bu, NIS serverinin müştərilərə autentifikasiyası üçün istifadə ediləcək etibarlı üçüncü tərəf Sertifikat Təşkilatından (CA) rəqəmsal sertifikatın alınmasını əhatə edir. Müştərilər serveri autentifikasiya etmək üçün CA-nın açıq açarına malik olmalıdır.

4. Mürəkkəb parollardan istifadə: NIS verilənlər bazasındakı bütün hesablar üçün parollar mürəkkəb olmalı, və müntəzəm olaraq dəyişdirilməlidir. Parollar, həmçinin düz mətndə saxlanmamasını təmin etmək üçün hashing və ya şifrələnməlidir.

5. Mərkəzləşdirilmiş girişdən istifad: Mərkəzləşdirilmiş giriş təhlükəsizlik insidentlərinin aşkarlanmasına və araşdırılmasına kömək etdiyi üçün şəbəkə informasiya sistemlərinin (NIS) idarə edilməsinin mühüm aspektidir. Mərkəzləşdirilmiş giriş, müxtəlif cihazlardan və şəbəkədəki proqramlardan təhlükəsizlik məqsədləri üçün təhlil oluna bilən bir yerə toplanmasına aiddir.Tipik bir NIS mühitində çoxlu cihaz və proqramlar mövcuddur və hər biri sistemin fəaliyyəti haqqında kritik məlumatları ehtiva edən jurnallar yaradır. Mərkəzləşdirilmiş giriş bütün qeydlərin mərkəzi bir yerdə saxlanmasını, tez və asanlıqla əldə olunmasını və təhlil edilməsini təmin edir. Bu, təhlükəsizlik pozuntularının müəyyən edilməsində,



problemlərin aradan qaldırılmasında və şəbəkə fəaliyyətində meyllərin müəyyən edilməsində kömək edə bilər. NIS-də mərkəzləşdirilmiş girişi konfiqurasiya edərkən, hansı jurnalların toplanacağını və təhlil edilməli olduğunu müəyyən etmək vacibdir. Buraya sistem qeydləri, proqram qeydləri, təhlükəsizlik qeydləri, marşrutlaşdırıcılar və təhlükəsizlik divarları kimi şəbəkə cihazları tərəfindən yaradılan qeydlər daxil ola bilər. Təhlükəsizlik insidentlərinin aşkar edilməsi və onlara tez reaksiya verilməsini təmin etmək üçün qeydlər real vaxt rejimində təhlil edilməlidir.

6. NIS proqram təminatını yeni saxlayın: Şəbəkə administratorları məlum zəifliklərin aradan qaldırılmasını təmin etmək üçün müntəzəm olaraq NIS proqramını yeniləməlidirlər.

7. Müntəzəm təhlükəsizlik qiymətləndirmələrini həyata keçirin: Zəiflikləri müəyyən etmək və NIS sisteminin təhlükəsizliyini artırmaq üçün müntəzəm təhlükəsizlik qiymətləndirmələri aparılmalıdır.

Nəticə olaraq, NIS bir çox cihazda istifadəçi hesablarını və şəbəkə konfiqurasiyası məlumatlarını idarə etmək üçün güclü bir vasitədir. Bununla belə, düzgün təmin edilmədikdə təhlükəsizlik riskləri də yarada bilər. Yuxarıda göstərilən ən yaxşı təcrübələrə riayət etməklə təşkilatlar NIS-dən təhlükəsiz şəkildə istifadə edə bilərlər.

**Ədəbiyyat**


1. https://www.easytechjunkie.com/what-is-the-network-information-system.htm
2. https://docs.oracle.com/en/operating-systems/oracle-linux/6/security/ol_nisauth_sec.html
3. https://tldp.org/HOWTO/NIS-HOWTO/settingup_client.html
4. https://docs.oracle.com/cd/E18752_01/html/816-4558/a08paswd-11177.html

5. https://www.academia.edu/5744157/Authenticate_the_Centralized_Network_Using_NIS_Network_Information_System_in_Linux_Environment
6. https://www.academia.edu/5744157/Authenticate_the_Centralized_Network_Using_NIS_Network_Information_System_in_Linux_Environment

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV MÜASİR GƏNCLƏR SİYASƏTİNİN BANİSİDİR

**Qasımova Samirə**
*dosent*
*samira.qasimova82@mail.ru*
**Qasımova Rəna**
*Renaf4291@gmail.com*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

***Açar sözlər:*** *gənclik, ulu öndər, inkişaf, Azərbaycan Respublikası, gənclər siyasəti, dövlət proqramı, nailiyyətlər*

Gənclik hər bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır və bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Sevindirici haldır ki, bu gün respublikamızda məqsədyönlü şəkildə həyata keçirilən işlərin nəticəsi olaraq müasir Azərbaycan gəncliyi yeni inkişaf mərhələsinə qədəm qoymuş, sağlam, vətənpərvər, intellektli gənclik formalaşmışdır. Azərbaycan gəncliyi cəmiyyətin fəal üzvləri kimi ölkə həyatının bütün sahələrində səylə çalışır, dövlətimizin çiçəklənməsi və inkişafı yolunda öz imkanlarını səfərbər edirlər. Gənc nəslin yetişdirilməsi dövlətimiz üçün ən başlıca məsələlərdən biridir. Çünki, istənilən ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi,



gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır [7, 6].

Təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti bu gün Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir. Belə ki, xalqın təkidli xahişi ilə hakimiyyətə ikinci dəfə qayıtdıqdan sonra Ümummilli Lider Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri də gənc nəslə diqqət və qayğının artırılması, respublikamızın sosial-iqtisadi, ictimai-siyasi həyatında gənclərin fəal iştirakının təmin olunması, gənclərin sosial-mənəvi ehtiyaclarının ödənilməsi, onların gələcəyin layiqli vətəndaşları kimi formalaşması üçün münbit şəraitin yaradılması olub. Qeyd etmək lazımdır ki, hələ SSRİ-nin mövcudluğu dövründə Azərbaycan SSR-nin rəhbəri işləyərkən Heydər Əliyev Azərbaycanın gələcəyi haqqında düşünmüş və bununla əlaqədar bir sıra tədbirlər həyata keçirmişdi [1,7]. 1970-1980-ci illərdə on minlərlə gəncin SSRİ-nin ən nüfuzlu ali məktəblərinə göndərilməsi nəticədə 15 minə yaxın kadr ordusunun yaradılmasına səbəb oldu. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı ilə respublikamızdan kənarda SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində 80-nə yaxın ixtisas üzrə 15 min azərbaycanlı təhsil almışdır. Bu gün, Heydər Əliyevin milli kadrları ölkədə ən yüksək mövqelərdə çalışırlar [8, 3].

1993-cü ildə Ümummilli liderimizin Azərbaycana rəhbərliyə qayıdışından sonra gənclərin problemlərinin həlli vacib dövlət məsələləri ilə bir sırada prioritet yer aldı. Əgər sovet Azərbaycanına rəhbəriyi dövründə Heydər Əliyev gənclərə daha çox kadr potensialı kimi baxırdısa, müstəqil Azərbaycana rəhbərliyi dövründə isə onları artıq dövlətin idarə edilməsində aparıcı qüvvə kimi görürdü.

Ümumilikdə, Azərbaycanın Ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən olunan və həyata keçirilən gənclər siyasəti özündə beş mühüm istiqaməti ehtiva edirdi:

- milli-mənəvi dəyərlərin qorunmasında gənclərin rolunun artırılması, gənc nəslin tarixi köklərə bağlı olan vətənpərvərlik ruhunda tərbiyəsinin təmin edilməsi; gənclərin elmi və intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatların həyata keçirilməsi;

- gənclərin təşkilatlanmasının təmin edilməsi, dövlətin müstəqilliyinin müdafiəsi üçün onların aparıcı qüvvə qismində birləşməsinin gücləndirilməsi;

- dövlət idarəçiliyində gənclərin rolunun əhəmiyyətli dərəcədə artırılması və onlarda məsuliyyət hissinin formalaşdırılması;

- gənclərin Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyası ilə təmin olunan imkanlardan maksimum istifadə etmələri üçün möhkəm əsasın yaradılması [2,5-6].

Həyata keçirilən gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən, vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşdırılması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsidir. 1993-cü ilin 22 sentyabrında Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edərkən, Respublika Ali Sovetinin sədri Heydər Əliyev gənclərin bir qrupu ilə görüşmüş, Azərbaycan gəncliyini ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak etməyə, ölkənin taleyinə biganə qalmamağa çağırmışdı. Gənclərlə iş sahəsində dövlət siyasətinin mühümlüyünü nəzərə alaraq, Azərbaycan Prezidenti ümummilli lider Heydər Əliyev 1994-cü ilin iyul ayının 26-da bu siyasəti həyata keçirəcək yeni dövlət quruluşunun – Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. Yeni nazirliyin qarşısına qoyulan əsas məsələlərdən biri böyüməkdə olan nəslin Vətənə, xalqa məhəbbət ruhunda tərbiyə olunması, gənclərin sosial- iqtisadi problemlərinin həlli, mənəvi ehtiyaclarının ödənilməsi, gənc nəslin hərtərfli inkişafı üçün şəraitin yaradılması olmuşdur. Respublikada çoxsaylı gənclər təşkilatlarının fəaliyyət göstərdiyi bir şəraitdə onların işini əlaqələndirmək zərurəti



getdikcə özünü daha çox göstərirdi. Bu işi təmin etmək məqsədilə Prezident Heydər Əliyevin xüsusi fərmanı ilə 1996-cı ilin 2 fevralında keçirilmiş Müstəqil Azərbaycan Gənclərinin I Forumunun xüsusi əhəmiyyəti oldu. Forumda gənclərin bütün kateqoriyalarını: tələbələri, hərbiçiləri, jurnalistləri, siyasi partiya və gənclər təşkilatlarını təmsil edən 2 mindən çox nümayəndə iştirak etmişdi. Forumun işində respublika Prezidenti başda olmaqla bütün dövlət orqanlarının rəhbərləri iştirak etmiş, gənclərin irad və təkliflərini dinlənilmiş, bütün Azərbaycan gəncliyinin problemlərini yaxından öyrənilmişdir [3, 7].

Forumda nitq söyləyən Ulu Öndər gəncliyin qarşısında çox böyük vəzifələr durduğunu bildirmiş, əsas vəzifə isə özünü Müstəqil Azərbaycan Respublikasının inkişafına, və əbədi olmasına həsr etməkdən ibarət olduğunu qeyd etmişdir. Həmçinin, Ulu Öndər öz çıxışında gənclərə Azərbaycan Konstitusiyasını öyrənməyi, onun prinsiplərinə riayət etməyi tövsiyə etdi. Prezident eyni zamanda, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, işğal olunmuş torpaqlarımızın azad olunması, dövlət sərhədlərimizin bərpa olunması Azərbaycan gənclərinin mühüm vəzifəsi olduğunu onların nəzərinə çatdırdı [4, 89].

Ulu öndər 1997-ci ildə sərəncam imzalayaraq, 2 fevralı “Gənclər Günü” elan etdi. Artıq 20 ildən çoxdur ki, ölkəmizdə bu gün böyük təntənə ilə qeyd edilir. Ulu öndər Heydər Əliyev 1999-cu il iyulun 29-da imzaladığı “Dövlət gənclər siyasəti haqqında” fərmanla müstəqil dövlətimizdə gənclərin hərtərəfli inkişafı üçün daha əlverişli şərait, cəmiyyətin həyatında onların fəal iştirakının təmin edilməsi üçün siyasi, sosial-iqtisadi və hüquqi baza yaratmış, gənclərin dövlət quruculuğu işinə geniş cəlb olunmasına və ictimai-siyasi fəallığının artmasına kömək etmişdir. 2002-ci il aprelin 9-da “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Qanunda gənclər siyasətinin məqsəd və prinsipləri, onun

həyata keçirilməsində dövlətin vəzifələri, bu siyasətin əsas istiqamətləri, həyata keçirilməsinin təşkilati, maddi və maliyyə təminatı və digər məsələlər konkret əksini tapmışdır.

Gənclərimizin qarşısında duran əsas vəzifələrdən birinin mənəvi tərbiyə məsələsi olduğunu vurğulayan Heydər Əliyev nitqlərinin birində bu barədə demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik" [5, 42].

Respublikamızda demokratik dövlət quruculuğunun uğurla davam etdirilməsi, gənclər siyasətinin inkişafı ölkə gənclərinin beynəlxalq əlaqələrinin təşəkkül tapmasına və möhkəmləndirilməsinə təkan verdi. Azərbaycanın gənclər təşkilatlarının nümayəndələri dünya, Avropa, regional səviyyəli müxtəlif səpgili tədbirlərdə iştirak etmək, gənclərlə iş sahəsində dünya təcrübəsini öyrənmək və ölkəmizdə tətbiq etmək imkanı əldə etdilər. Ayrı-ayrı milli gənclər təşkilatları müxtəlif ümumavropa qurumları - Avropa Şurasının Gənclər Direktorluğu, Avropa İttifaqının Gənclər İdarəsi ilə sıx əməkdaşlıq edir, təcrübə mübadiləsi aparır, birgə layihələr və proqramlar həyata keçirirlər. 2000-ci ilin aprel ayında Azərbaycan Gənclər Təşkilatlarının Milli Şurası Avropanın ən nüfuzlu Qeyri-Hökumət Təşkilatı olan Avropa Gənclər Forumuna tam hüquqlu, 2002-ci ilin yanvarında isə BMT-nin İqtisadi və Sosial Şurasına müşahidəçi seçilmişdir. Azərbaycan Skautlar Assossasiyası Beynəlxalq Skaut Hərəkatı Təşkilatına, Gənc Hüquqşünaslar Birliyi Gənc Hüquqşünasların Beynəlxalq Assossasiyasına, Demokratik Tələbə Gənclər Təşkilatı Beynəlxalq Demokratik Tələbə İttifaqına üzv qəbul edilmələri Azərbaycan reallığının, xalqımızın haqq səsinin



beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm vasitə olmuşdur [6, 243].

Sevindirici haldır ki, gənclər siyasəti bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, Azərbaycan Respublikasının daxili siyasətinin mühüm hissəsi olaraq qalır. Cənab Prezident gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" sərəncamı da gənclərə dövlət qayğısının davamı idi.

Təhsil sahəsində aparılan islahatlar da gənclər siyasətinin ən vacib istiqamətlərindən biridir. Gənclərin maariflənməsinə, savadlanmasına, elmi inkişafına göstərilən xüsusi diqqət və qayğının davamı olaraq, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində tələbələrin dünyanın məşhur universitetlərində təhsil almaq üçün göndərilməsi xüsusi diqqətə layiqdir. "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında" Prezident fərmanları bu istiqamətdə görülən mühüm tədbirlərdəndir. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. "Bədən tərbiyəsi və idman haqqında", "Gənclər siyasəti haqqında" qanunlar, habelə "Gənc ailə" proqramı, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" Dövlət Proqramı da bu qəbildəndir. Cənab Prezident

İlham Əliyev tərəfindən 2007-ci ilin “Gənclər ili” elan edilməsi gənclərə ölkə rəhbərinin tərəfindən böyük önəm verməsinin növbəti sübutu idi. Hazırda, ölkəmizdə gənclər siyasəti uğurla həyata keçirilir. Sosial həyatın bütün sferalarına nəzər salsaq, görərik ki, orada gənclər əksəriyyət təşkil edir .

Son illər, həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması, onların ictimai-siyasi fəallığının artırılması üçün siyasi, sosial-iqtisadi, təşkilati - hüquqi şəraitlərin yaradılmasını sürətləndirmişdi. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Bu gün gənclər dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında, digər təşkilatlarda təmsil olunurlar və cəmiyyətin inkişafına öz töhfələrini vermək imkanına malikdirlər.

## Ədəbiyyat

1.Baxşəliyev R. Heydər Əliyev və gənclərimizin hərbi-vətənpərvərlik tərbiyəsi. Respublika - 2010, 27 may. №113.

2. Cəfərov A.M., İmaməliyev E.M. Azərbaycanın ictimai həyatında gənclərin rolu. MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Katibliyi. Bakı, 2012. 100s.

3.Cəfərov H. Heydər Əliyev və Azərbaycan gəncliyi. Palitra, 2013. № 59.

4.Cəfərov H. Müstəqillik dövründə dövlət gənclər siyasətinin formalaşmasında Heydər Əliyevin rolu. “Tarix və onun problemləri”, №2 2013

5.Əliyev H. Elektron sənədlər toplusu. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. 694 səh.



6.Əliyev V. Heydər Əliyev və müasir gənclik. “Tarix və onun problemləri” jurnalı. 2003, №3, s.235-246

7. Hacıyev R. Azərbaycan gəncliyinin himayədarı. (Heydər Əliyevin gənclər siyasəti (1993–2003-cü illər). Bakı, «Aspoliqraf», 2014. 192 səh

8. Paşayev Z. Öndər. Xalq qəzeti, 2014. №88.

# ORTA MƏKTƏB RİYAZİYYAT TƏLİMİNDƏ FƏRDİLƏŞDİRMƏ

**Quliyeva Gözəl**
quliyevagozl131@gmail.com,
**Cəfərli Esmira**
esmiraceferli@gmail.com

**Xülasə**

Bu məqalədə məktəb riyaziyyat təlimində fərdiləşdirmədən bəhs olunur. Fərdiləşdirmə haqqında ilkin məlumat verdikdən sonra riyaziyyat təlimində fərdiləşdirmənin əhəmiyyəti və vacibliyi qeyd olunub. Məqalədə Hovard Qardnerin “Çoxnövlü intellekt” nəzəriyyəsinə də toxunulub. Fərdiləşdirməni həyata keçirmək üçün dərsik və proqramlara verilən tələblər haqqında məlumatlar öz əksini məqalədə tapmışdır.

***Açar sözlər:*** *Təhsil, məktəb, riyaziyyat, müəllim, fərdiləşmə.*

## Giriş

Müasir dövrün tələblərinə və dövrün inkişaf səviyyəsinə uyğun riyaziyyatın məktəbdə öyrədilməsinin metodikasının, komponentlərinin yeniləşdirilməsinə ehtiyac duyulurdu. Müasir dövrümüz elmin son nailiyyətlərinə əsaslanan texniki cihazlarla təchiz edilən orta məktəblərimizdə müəllimlər, yəni mütəxəssislər qarşısında olduqca əhəmiyyətli və yüksək tələblər qarşı qoyaraq

onlarda peşə hazırlığına yeniliklər gətirdi. Ümumtəhsil və peşə təhsili sahəsində riyaziyyat təliminin məzmunu, inkişafı müəllim tərəfindən həyata keçirilir. Müəllim orta mətəblərdə şagirdlərin hər birinin müxtəlif intellekt səviyyəsinə malik olduğunu nəzərə alaraq riyaziyyatı tədris edir. Bu zaman müəllim analiz, sintez, fərdiləşdirmə (xüsusiləşdirmə), ümumiləşdirmə və. s kimi metodlardan istifadə edir. Bu metodlar içərisində fərdiləşdirmə ilə yaxından tanış olaq. Ümumi olaraq baxsaq görərik ki, tədrisin, təlimin fərdiləşməsi şagirdlərin şəxsi keyfiyyətlərini, onların intellektual inkişaf səviyyəsini, idraki maraqlarını, sosial statusunu, təhsilin keyfiyyətinə təsir edən faktorları nəzərə alan didaktik prinsiplərdən biridir. Orta məktəb riyaziyyat təlimində fərdiləşmə böyük əhəmiyyət kəsb edir. Sinif kollektivini ayrı-ayrı fərdlər şagirdlər təşkil etdiyi üçün müasir təlimdən fərqli olaraq ənənəvi təlimdə də fərdiləşmə üsulundan geniş istifadə olunurdu. Fərdiləşmə məktəb riyaziyyat təlimində materialların seçilməsi və siniflərə uyğunlaşdırılmasını didaktik cəhətdən təkmilləşdirir. Müşahidə və təhlillərin nəticələrinə əsasən, müəllim riyazi təfəkkürün inkişafına xidmət edən bütün zəruri metod və vasitələrdən istifadə etməlidir. Riyazi təfəkkür çox vaxt riyazi bacarıqların, riyazi istedadın təzahür etməsi ilə izah edilir. Riyazi və yaradıcı təfəkkür uzun müddətli prosesdir, bu prosesin reallaşdırılmasında müəllim və şagird əməkdaşlığı vacib məsələdir.

Hər bir şagirdə fərdi yanaşma, uzun müddətli bu prosesdə bizə düzgün üsul, metod və vasitələrin seçilməsində əsas rol oynayacaq. Beləki, təlim zamanı şagirdlərin potensial imkanları nəzərə alınaraq hər bir şagirdə fərdi yanaşılır. Orta məktəbdə şagirdlərə fərdi yanaşma özəlliklə də riyaziyyat təlimində fərdiləşmə onlarda yarana biləcək çətinlikləri aradan qaldırır və fənnə qarşı motivasiya yaradır. Fərdiləşmə nəticəsində hər bir şagird



öz bilik gücünə, yəni intellekt qabiliyyətinə uyğun müəyyən səviyyə üçün seçilmiş tapşırıqlarla işləyir. Təcrübələrə əsasən riyazi tapşırıqları yerinə yetirməyi asanlıqla bacaran bir şagird eyni riyazi tapşırığı böyük çətinliklə yerinə yetirən şagirddən daha ağıllı deyil. Sadə və asan riyazi tapşırıqları yerinə yetirməyi öyrənmək üçün daha çox vaxt ayıran şagird fərqli yanaşma yolu ilə riyazi tapşırıqları daha yaxşı öyrənə bilər və riyaziyyatdan kənar fəaliyyət sahələrində fərqlənə bilər. Həmin şagird riyazi tapşırıqları həlletmə prosesinə tamamilə fərqli bir proses kimi baxır. Bu formada əsaslı şəkildə dərindən anlama, kənardan müşahidə nəticəsində ləng görünə bilər. Ancaq bu riyazi tapşırıqları həlletmə prosesini dərindən dərk etməməsinə baxmayaraq, vurma cədvəlini tez xatırlayan bir şagirdin daha yüksək potensiallı riyazi zəkaya malik olduğunu demək olmaz. Hovard Qardnerin "Çoxnövlü intellekt" nəzəriyyəsində hər kəsin eyni tapşırığı fərqli yerinə yetirməsinin səbəbi izah edilir. Pedaqoji proseslə məşğul olan müəllimlər nəzəriyyənin təklif etdiyi yanaşmaların praktik dəyərini dəstəkləyir, şagirdlərinə fərdi yanaşmaq üçün bu nəzəriyyədən istifadə edirlər. Təlim zamanı müəllimlərin gündəlik təcrübəsi bunu təsdiqləyir. Şagirdlər müxtəlif düşünür və müxtəlif yollarla öyrənirlər.

Uşağın təhsilinə və inkişafına fərdi yanaşmanı təmin etməklə onun bir çox tərəfini və maraqlarını göstərə biləcəyi şərait yaratmağımız vacibdir. Bu nəzəriyyədən istifadə edərək, uşağın öyrənmə və inkişafını fərdi yanaşmanı təmin edəcək şəkildə təşkil etmək lazımdır. Nəticədə fərqli intellekt növünün yaxşı inkişaf etdiyi uşaqlar üçün tapşırıqlar və məşqlər əhəmiyyətli dərəcədə fərqli olacaqdır. Hər bir şagirdə uyğun olan mükəmməl təlim tərzini seçmək vacibdir. O zaman uşağın inkişafı mümkün qədər effektli olacaqdır. Təlimi planlaşdırarkən müəllim müəyyən nəzəriyyə və ya innovasiyanı əsas tutmamalı, şagirdlərin tələbatlarına və öz dərs tədris etmə tərzinə uyğun olaraq təlim

məqsədlərinə adaptasiya olmalıdır. İntellekt növlərini və şagirdlərin potensialını nəzərə alan müəllim fərdi yanaşmanı asanlıqla tətbiq edə bilər. Şagirdlərdə tədris fəaliyyətinin fərdiləşdirilməsi riyaziyyat təliminin diferensiallaşdırılmasının əsasını təşkil edir. Deyə bilərik ki, riyaziyyat təlimində fərdiləşmə səviyyə və peşə diferensiallaşdırılması ilə vəhdət təşkil edir. Orta məktəb riyaziy-yat təlimində fərdiləşməni həyata keçirmək üçün dərslik və proqramlara müəyyən tələblər qoyulur. Dərsliklər kurikuluma əsaslanır yəni riyaziyyat dərsliklərində mövzular ardıcıl, tapşırıq-lar isə asandan çətinə doğru düzülüb. Proqramlarda isə müəllim öz fərdi yanaşması əsasında istənilən dəyişikliyi apara bilər. Pedaqoji prosesin təşkili prinsiplərindən biri şagird yönümlülük prinsipidir ki, bu prinsip şagirdlərin maraq və təlabatlarının ödənilməsinə yönəlib. Fərdiləşdirmə fəaliyyəti sitimullaşdıraraq inkişaf yönümlülük prinsipini reallaşdırmağa imkan verir. Bu məqalədə fərdiləşdirmənin müsbət tərəflərini açıqladıq, lakin bu o demək deyil ki, mənfi tərəfi yoxdur. Bəli fərdiləşdirmənin mənfi yönü də vardır ki, bu da zamanla bağlıdır. 45 dəqiqəlik riyaziyyat dərsində fərdi yanaşma təlim zamanı vaxt məhdudluğuna gətirib çıxara bilir.

## Ədəbiyyat


1.Orta məktəb dərslikləri və proqramları, https://www.e-derslik.edu.az

2. Çoxnövlü intellekt https://www.arti.edu.az/az/presentation/842-hovard-qardner-quot-coxnovlu-intellekt-quot-nazariyyasi

3.Zahir Əzizov: Riyazi təfəkkürün inkişaf etdirilməsinə müxtəlif yanaşmalar səh-107

4.Diferensiallaşdırma, fərdi yanaşma, humanistləşdirmə prinsipləri. https://www.muallim.edu.az/news.php?id=1087




# İNSAN TƏHLÜKƏSİZLİYİ


**Qurbanova Aygün**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
*qurbanova010@gmail.com*


Hər bir dövlətin həqiqi sərvəti insanlardır və bütün sahələrdə aparılan inkişaf siyasəti məhz insanlara xidmət etməlidir. İnsan inkişafı insanları ali tutan, seçimlərinin, imkanlarının və bacarıqlarının genişləndirilməsini təbliğ edən, eləcə də sülh və təhlükəsizlik, ədalət və ləyaqət, sağlamlıq və təhsil kimi ümumi dəyərləri ön plana çəkən çoxşaxəli konsepsiyadır. İnsan təhlükəsizliyi insan inkişafının ön plana çəkdiyi mövzular arasında xüsusi yerə malikdir. [1]

İnsan təhlükəsizliyi anlayışını BMT-nin 1994-cü il Hesabatı Proqramı qısaca olaraq insan təhlükəsizliyini qorxu və sosial ehtiyaclardan azad olmaq kimi təsvir edir. Hesabat həmçinin insan təhlükəsizliyinin aspektlərini də müəyyən etmişdir: iqtisadi, ərzaq, sağlamlıq, ekoloji, şəxsi, icma və siyasi təhlükəsizlik. Həm də iddia edilmişdir ki, müasir dövrdə təhlükəsizliyi yalnız silahlı münaqişə təhlükəsilə, dövlət sərhədlərini və hərbi qüvvələri qorumaqla əlaqələndirmək düzgün deyil. İnsan təhlükəsizliyi ümumiyyətlə aclıqdan, xəstəliklərdən və repressiyalardan, eləcə də gündəlik həyatda qəfil və travmatik hadisələrdən qorunma kimi müəyyən edilmişdir. Bu, yalnız sosial ehtiyaclardan azad olmağı deyil, həm də insanın psixososial inkişafına olan təhdidləri də əhatə edir. İnsan təhlükəsizliyi, diqqəti dövlətdən fərdi insanlara dəyişdirərək antroposentrik bir kateqoriyadır. Bu, təhlükəsizliyin digər təriflərindən əsaslı şəkildə fərqləndiyindən təhlükəsizliyi daha dərindən başa düşməyə imkan verir. İnsan təhlükəsizliyinə milli

təhlükəsizliyə zidd olan bir konsepsiya kimi deyil, onu tamamlayan və ya alternativ təşkil edən bir yanaşma kimi yanaşmaq lazımdır. O əsasən təhlükəsizlik subyektlərinə, yəni insan və dövlətin interfeyslərinə yönəlmişdir. [2]

Bu Hesabata əsasən, insan təhlükəsizliyinə təhdidlər aşağıdakı yeddi kateqoriyaya bölünə bilər:

- iqtisadi təhlükəsizlik,
- ərzaq təhlükəsizliyi,
- sağlamlıq təhlükəsizliyi,
- ekoloji təhlükəsizlik,
- şəxsi təhlükəsizlik,
- icma təhlükəsizliyi
- siyasi təhlükəsizlik

Hesabat İnsan təhlükəsizliyi konsepsiyasının dörd səciyyəvi cəhəti müəyyən edilmişdir:

- İnsan təhlükəsizliyi universal bir problemdir. İstər zəngin ölkələrdə, istərsə də kasıb ölkələrdə eyni dərəcədə əhəmiyyətlidir.
- İnsan təhlükəsizliyinin təsirləri bir-birləri ilə əlaqəlidir. Bir yerdə baş verən xəstəlik, aclıq, ekoloji çirklənmə, narkotik ticarəti, terror və münaqişə bir yerdə baş verirsə, onun təsirləri daha geniş əraziyə yayılır.
- İnsan təhlükəsizliyinin qarşısını almaq sonrakı nəticələrini aradan qaldırmaqdan daha asan olur.
- İnsan təhlükəsizlyi insan yönümlüdür, belə ki, onların cəmiyyətdə nə dərəcədə azad olduqlarını, öz seçimlərini həyata keçirə bilmələrini, iqtisadi və sosial imkanlardan necə istifadə edə bildiklərini özündə ehtiva edir.

Beləliklə, insan təhlükəsizliyi insan həyatına və ləyaqətinə aid bir məsələdir

Hesabata görə, insan təhlükəsizliyinin təhlili onun universallığını, bütün hissələrinin bir-birindən asılılığını, gecikmədən



daha erkən qabaqlayıcı tədbirlər vasitəsilə təmin edilməsinin asanlığını, habelə insanlara kömək etməyi nəzərə almalıdır [1]. Beləliklə, insan təhlükəsizliyi insan ləyaqətinə aid bir məsələdir.

### Ədəbiyyat


1. Vəzirova A., Şirinova A., Eşonov B. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, İnsan İnkişafı, Bakı, 2014, s. 288, 301,304
2. Gates S., Hegre H., Mokleiv H., Nygård and Strand H. The consequences of internal armed conflict for development (part1), 30 March 2015, p. 67


## MÜASİR AZƏRBAYCAN GƏNCLƏR SİYASƏTİNİN FORMALAŞDIRILMASINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN DANILMAZ ROLU


**Mahmudova Pəri**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
perimusayeva98@gmail.com


Hər bir dövlətin, xalqın gələcəyi onun bu gün yetişdirdiyi gənc nəsldən asılıdır. Əsası ümummilii Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin uğurlu nəticələrini müasir Azərbaycan Respublikasına baxarkən görməzdən gəlmək mümkün deyil. Eyni zamanda, bu uğurlar Heydər Əliyev siyasətinin qorunması ilə yanaşı, öyrənilməsinin, davam etdirilməsinin və inkişaf etdirilməsinin nəticəsidir [2, s.29-33].

İllər öncə Ulu Öndər öz çıxışlarının birində üzünü gənclərə tutaraq belə demişdir: “Siz, əziz gənclər, müstəqil Azərbaycan

Respublikasının nə qədər çətinliklə başa gəldiyini dərk edərək Müstəqil Azərbaycan Respublikasının gələcəyini qoruyub saxlayacaqsız”. 1996-cı il, fevral ayının 2-də Heydər Əliyevin sərəncamı ilə “Azərbaycan Gənclər formu”nun keçirilməsi və 1992-ci il sərəncamı ilə 2 fevral Azərbaycanda “Gənclər günü” qeyd olunması Ulu Öndərin gənc nəslə diqqət və qayğısının göstəricisidir. Eyni zamanda, ümummilli Lider Heydər Əliyev bu sərəncamla gənc nəslə diqqətin, “gənclik siyasəti”nin nə dərəcədə dövlət əhəmiyyətli olmasına işarə etmiş və vurğulamışdır [3].

Xatırlatmaq yerinə düşər ki, dünyada gənclər günü 1998-ci ildən etibarən BMT-nin qərarı ilə avqustun 12-si dünya gənclər elan edilib.

“Gənclik siyasəti”nin əsas prioriteti yeni nəslin mənəvi, psixoloji və fiziki cəhətdən sağlam yetişdirilməsidir [5].

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, milli-mənəvi dəyərləri onlara öyrədilərək milli ruhda yetişməsində, əlbəttə ki, ilk öhdəlik təhsilin üzərinə düşür. Belə ki, təhsil zamanı qazanılan bilik və bacarıqlar nəticəsində gənclər ölkənin sosail-iqtisadi həyatının inkişafına təsir etməklə yanaşı etik-əxlaqi davranışlı, vətənpərvər vətəndaş olaraq cəmiyyətə inteqrasiya edirlər. Məhz bu səbəbdən ölkəmizdə gənc nəslin təhsilinə xüsusi diqqət yetirilir. Belə ki, yeni təhsil ocaqları istifadəyə verilir, ölkənin inkişafına tövhə vermək üçün potensialı olan Azərbaycan gəncləri dünyanın nüfuzlu ali məktəblərində dövlət hesabına təhsil alaraq peşəkar mütəxəssis kimi Vətənə qayıdırlar.

“Sağlam bədəndə sağlam ruh olar” prinsipi əsasında Ulu Öndər gəncləri tüfeyli həyatdan uzaqlaşdırmaq, onları sağlam, dövlətə və cəmiyyətə yararlı yetişdirmək məqsədi ilə Milli Olimpiya Komitəsi formalaşdırmışdır. Ardıcıl olaraq ölkənin bütün bölgələrində idman kompleksləri tikilərək isitifadəyə verilmişdir. Göstərilən bu diqqət və qayğının nəticəsi olaraq bu gün Azərbaycan



gəncləri bayrağımızı dünya miqyaslı turnirlərdə qalib gələrək dalğalandırır, himnimizi səsləndirirlər [1, s.370-390].

Nəhayət, 44 günlük şanlı Vətən müharibəsi Heydər Əliyevin “gənclik siyasəti”nin uğurlu nəticəsinin bariz sübutudur. Müharibə başlayan andan sonunadək Azərbaycan ordusunda 1 nəfər belə fərari qeydə alınmamışdır. Bunun tam əski olaraq Azərbaycan gəncləri könüllü şəkildə ordu sıralarına qoşulub döyüşə can atmışdırlar. Vətənimizin düşmən tapdağından azad olması uğrunda əzmlə, şücaətlə, qəhrəmanlıq göstərərək döyüşməklə şanlı qələbə çaldılar.

Tam əminliklə deyə bilərik ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyevin görmək istədiyi savadlı, müasir dünyagörüşlü, sağlam düşüncəli, vətənpərvər gənc nəsil artıq yetişmişdir. Buna səbəb birmənalı olaraq uzaqgörən Heydər Əliyev siyasəti və bu siyasi kursun layiqli davamçısı Prezident İlham Əliyevdir [4].

## Ədəbiyyat

1. Hüseynva İradə. “Müstəqil Azərbaycan Dövlətinin Qurucusu” Bakı, «Təhsil», 2004, 472 səh.
2. Məmmədli Ruhiyyə, Əhmədova Sevil. “Əbədi müstəqillik tarixi yazan lider Heydər Əliyev” Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. – 63s.
3. https://lib.aliyev-heritage.org/az/1570012.html
4. https://ikisahil.az/post/309720-heyder-eliyev-ve-azerbaycan-gencliyi-2
5. https://aztv.az/az/news/14405/bu-gun-beynelxalq-gencler-gunudur

# ÜMUMİMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN GƏNCLƏRİN İNKİŞAFI İLƏ BAĞLI SİYASƏTİ

**Mehdiyeva Nərmin**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*Müasir Azərbaycan dili kafedrasının müəllimi*
*nerminmhdv30@gmail.com*
*ORCİD:0009-0001-9072—8702*

Gənclərlə bağlı məsələləri həmişə Ümummilli lider Heydər Əliyev öz siyasətinin əsas tərkib hissələrindən biri hesab etməsi onun gənclərlə bağlı gördüyü işlərindən bəllidir. Beləki, Heydər Əliyev hələ 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir ki, bu da həm Azərbaycan dövlətinin güclənməsi, həm də Azərbaycan gənclərinin savadlı bir gələcək üçün inkişafına gətirib çıxardırdı. Sovet İttifaqı dövründə Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində 50-dən artıq iri şəhərlərdə, 170–dən çox nüfuzlu ali məktəbdə 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil alması məhz gəncliyin güclənməsinə, Azərbaycan gəncliyinin yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şəraitin yaradılmasına nail olmuşdur.

Heydər Əliyevin gənclərlə bağlı irəli sürdüyü ilk siyasəti 1994-cü ilin iyulun 26-da Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması oldu. Daha sonra isə Ümumimilli liderin 1995-ci ildə Azərbaycan gənclərinin forumunun keçirilməsi barədə təşəbbüs irəli sürərək, 2 fevral 1996-cı il tarixdə müstəqil Azərbaycan gənclərinin ilk forumunun keçirilməsinə göstəriş verərək özü də bu tədbirdə şəxsən iştirak etməsi gəncliyə verdiyi böyük dəyər və ümidin nəticəsi



idi. Bir ildən sonra 1 Fevral 1997-ci il tarixdə forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ulu öndər *"2 fevral - Azərbaycan gəncləri gününün elan edilməsi haqqında"* Sərəncam imzalayaraq gəncliyin sağlam ruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik olmasının dövlət üçün önəmli olduğunun sənədlərlə sübutunu göstərdi. Gənclər həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd etdilər. Gənclərlə bağlı digər bir siyasət isə gəncləri gördükləri işdə daha da həvəsləndirmək və onları dəyərli hiss etdirmək üçün irəli sürdüyü *"Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Dövlət gənclər siyasəti haqqında" qanun, fərman və sərəncamlar, həmçinin, "Gənc ailə", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı"* oldu. Bununla yanaşı digər proqramlar çərçivəsində ölkəmizdə gənclərin sosial-maddi şəraitinin yüksəldilməsi, ictimai fəallığının artırılması istiqamətində mühüm funda-mental bazanın yaradılması müasir gəncliyin elmə, təhsilə, mədəniyyətə, idmana və s. sahələrə olan maraqlarının artmasına və Azərbaycanı dünya mədəni, siyasi, iqtisadi arsenalında layiqincə tərənnüm etməsinə gətirib çıxartdı. Bu qəbildən olan proqram və sərəncamların siyahısı hər sahəyə uyğun şəkildə öz çoxluğunu təşkil edir. Bu qəbildən olanlardan bir neçəsi də 1996-2002-ci illərdə qəbul olunan "Bədən tərbiyəsi və idman haqqında", "Dövlət gənclər siyasəti haqqında" qanun, fərman və sərəncamlar, habelə, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "Orduddan tərxis olunmuş gənclərin məşğulluğu" Dövlət Proqramlarıdır ki, bu da gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına təsir göstərdi. Eyni

zamanda gənclərin idman, incəsənət sahəsində uğurlarının artmasına da səbəb oldu.

## TƏHLÜKƏSIZLİYİN GÜCLƏNDİRİLMƏSİ: AZƏRBAYCANIN KİBER TƏDBİRLƏRİ

**Məhərrəmova Ayla**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası magistrantı*
ayla.magerramova23@gmail.com

Azərbaycan Respublikasında informasiya təhlükəsizliyi sahəsindəki əsas vəzifələrin yerinə yetirilməsi, milli informasiya resurslarının qorunması və təhdidlərin qarşısının alınması, bu sahədə effektiv tədbirlərin gücləndirilməsi məqsədi ilə son zamanlar dövlət səviyyəsində ciddi fəaliyyət başlanmışdır. Bu tədbirlər sırasında Azərbaycan Respublikası Prezidentinin Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzinin yaradılması haqqında 26 sentyabr 2012-ci il tarixli və "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" 5 mart 2013-cü il tarixli fərmanlarını qeyd etmək olar.[1]

"İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" fərmanla ölkə başçısı Azərbaycanda informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması, bu sahədə təhdidlərin qarşısının alınması, təhlili və qabaqlanması üçün dövlət və qeyri-dövlət informasiya infrastrukturu subyektlərinin, onların istifadəçilərinin fəaliyyətinin əlaqələndirilməsi, kibertəhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi və idarə olunması, ümummilli hazırlığın və maarifləndirmənin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin bazasında Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət



Agentliyi yaratmış və onun əsas fəaliyyət prinsiplərini təsdiq etmişdir. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzinin yaradılması haqqında Fərmanda isə kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını, mövcud və yarana biləcək elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanı, əhalinin, özəl və digər qurumların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsini və onlara metodiki kömək göstərilməsini təmin edən əlaqələndirici mərkəzin yaradılması təmin edilmişdir.

Adlarından da göründüyü kimi, həm Agentlik, həm də Mərkəz əlaqəli şəkildə:

- Azərbaycanda kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiya edilməsini;
- informasiya sistemlərinin və şəbəkələrinin, kompüter avadanlıqlarının və onların proqram təminatının, lokal və korporativ informasiya sistemlərinin və ehtiyatlarının təhlükəsizliyinə qarşı yönəldilmiş kiberhücumların, qanunsuz müdaxilələrin, ziyanverici proqramların toplanması, təhlil edilməsi və zərərsizləşdirilməsini;
- mövcud və yarana biləcək elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanın həyata keçirilməsini, kibertəhlükəsizlik sahəsində istifadəçilərin maarifləndirilməsini;
- elektron təhlükələrin qarşısının alınması istiqamətində, o cümlədən istifadəçilərə qarşı istifadə oluna biləcək proqramlar, texniki vasitələr barədə təlimatların hazırlamasını, onlara tövsiyələrin verilməsini, metodiki dəstəyin göstərilməsini təmin edir;
- ümumi internet trafikində qlobal kiberhücumların qarşısını almaq məqsədi ilə milli internet operatoru ilə birlikdə qabaqlayıcı tədbirlərin həyata keçirilməsini;
- kibertəhlükəsizlik üzrə hazırlığı təmin etmək məqsədi ilə ölkədə fəaliyyət göstərən digər aidiyyati qurumlarla qarşılıqlı əlaqənin təmin edilməsini öz üzərinə götürür.[2]

Bundan başqa, ölkədə getdikcə artan kibertəhlükəsizlik çağırışlarına cavab olaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi İsrailin texnologiya üzrə nüfuzlu ali təhsil müəssisəsi – "Technion" İnstitutu ilə birgə Azərbaycan Kibertəhlükəsizlik Mərkəzini təsis edib. 2023-cü il 28 mart tarixində mərkəzin açılış mərasimi keçirilmişdir. Kibertəhlükəsizlik Mərkəzinin yaradılması ölkəmizin kibertəhdidlərə hazırlığının artırılması istiqamətində mühüm bir addımdır.[3]

**Ədəbiyyat**


1) https://president.az/
2) Ə.M.Həsənov. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları.Bakı,"Zərdabi LTD", 2016, 700 s.
3) https://cert.az/


## TURİZMDƏ MALİYYƏ FƏALİYYƏTİNİN UÇOTUNUN OPTİMALLAŞDIRILMASI PRİNSİPLƏRİ


**Məhərrəmova Təhminə**
*Azərbaycan Texnologiya Universiteti*
tahminamaharramova08@gmail.com


**Xülasə**


Turizmin maliyyə uçotunun optimallaşdırılması resursların səmərəli idarə edilməsinin təmin edilməsində və maliyyə sabitliyinin qorunmasında əsas rol oynayır. Turizmdə maliyyə fəaliyyətinin uçotunun optimallaşdırılması üçün bəzi prinsiplər bunlardır:

İnteqrasiya edilmiş və dəqiq uçot prinsipi mühasibat uçotu məlumatlarının şəffaflığını və etibarlılığını təşviq edən maliyyə uçotunun düzgün və vaxtında aparılmasını nəzərdə tutur.





Effektiv maliyyə planlarının hazırlanması və onların sonrakı monitorinqi turizm sektorunda maliyyə resurslarının idarə olunmasının təmin edilməsi üçün mühüm prinsiplərdir. Buraya büdcə tərtib etmək, maliyyə qeyri-müəyyənliyini idarə etmək və s.

Xüsusilə mehmanxana və restoranlarda aktivlərin effektiv idarə olunması daşınmaz əmlakın, avadanlıqların və digər aktivlərin optimal istifadəsini və texniki xidmətini nəzərdə tutur.

Müştərilərlə əlaqələr və marketinq prinsipləri müştərilər üçün dəyər yaratmaq, maliyyə strategiyalarından istifadə edərək müştəriləri cəlb etmək və saxlamaq kimi maliyyə aspektlərini əhatə edir.

Turizmdə uğurlu maliyyə əməliyyatlarını təmin etmək üçün sürətli qərarlar qəbul etmək və maliyyə təhlili aparmaq bacarığı lazımdır.

Risklərin idarə edilməsi prinsipi maliyyə, valyuta dəyişmələri, təhlükəsizlik riskləri və s. kimi müxtəlif risklərin qiymətlən-dirilməsini və idarə olunmasını əhatə edir.

Şəffaflığın təmin edilməsi və maliyyə nəticələrinin müntəzəm hesabatının verilməsi maraqlı tərəflərlə etimadı təşviq edən mühüm prinsipdir.

Mühasibat uçotu proseslərinin avtomatlaşdırılması, uçotun aparılması və maliyyə məlumatlarının təhlili üçün müasir informasiya texnologiyalarının tətbiqi də bura daxildir.

Bu prinsiplər turizm təşkilatlarına səmərəli maliyyə idarə-çiliyinə nail olmağa, turizm sənayesində məhsuldarlığı və uzunmüd-dətli davamlılığı yaxşılaşdırmağa kömək edə bilər.



***Açar sözlər:*** *turizm optimallaşdırılma prinsipləri, inteqrasiya prosesi, maliyyə uçotu,*


**Giriş**

Turizm-rekreasiya kompleksi müasir ölkələrin sosial-iqtisadi inkişafında əsas rol oynayır. Turizm-rekreasiya komplekslərinin

vəziyyəti dünya iqtisadiyyatında qloballaşma şəraitində əhalinin həyat keyfiyyətini qiymətləndirməyə imkan verir.

Turizm müəssisələrinin səmərəli fəaliyyəti və inkişafı üç əsas amildən asılıdır:

1. sahibkarlığa yönəlmiş dövlət siyasəti
2. bank maliyyə sisteminin biznesin vəziyyətinə təsiri
3. müəssisədə maliyyə idarəçiliyinin təşkilinin keyfiyyəti.

Maliyyə menecmenti dövlət siyasətindən və bank sistemindən fərqli olaraq daxili amillərə istinad edir ki, bu da maliyyə menecmentinin optimallaşdırılmasını istənilən turizm müəssisəsinin idarəetmə departamentinin əsas məqsədi edir.

İşin məqsədi inteqrasiya prosesləri əsasında turizm müəssisələrinin maliyyə idarəetmə sisteminin optimallaşdırılmasını nəzərdən keçirməkdir.

Turizm sektorunda menecment metodlar, prinsiplər, texnikalar, formalar və idarəetmə vasitələrinin məcmusunu özündə birləşdirən turizm istehsalının iqtisadi idarə edilməsi sistemidir. Maliyyə menecmenti maliyyə resurslarının hərəkətinin rasional və səmərəli idarə edilməsi mexanizmi kimi nəzərdən keçirilməlidir. Maliyyə menecmenti müəssisənin maliyyə resurslarını artırmaq, investisiya axınını artırmaq və kapitalın həcmini artırmaq məqsədi daşıyır. Turizm müəssisəsində maliyyə menecmenti maliyyənin və fondların formalaşması, onların istifadəsi və nəzarəti ilə bağlı proseslərin idarə edilməsini təmin edir.

Mövcud şəraitdə hər hansı bir müəssisənin idarə olunması prosesində ən mürəkkəb və məsuliyyətli həlqə maliyyə idarəetməsi sahəsidir. Maliyyə menecmenti biliklərin nisbətən yeni və müstəqil sahələrində risklərin idarə edilməsi, investisiyaların idarə edilməsi, maliyyə təhlili, iflas təhlükəsi altında olan müəssisənin böhran əleyhinə idarə edilməsində sürətli inkişaf əldə etmişdir [1, s. 89-90].



Ölkə iqtisadiyyatı bazar iqtisadiyyatına keçidlə müəyyən edilir ki, bu da öz növbəsində gedən iqtisadi proseslərin idarə olunması üçün yeni yanaşma və metodların tətbiqini tələb edir. Bu, daha çox turizm sektorundakı müəssisələrə aiddir.

Mövcud şəraitdə maliyyə menecmenti turizm müəssisələri üçün obyektiv zəruridir, çünki onun köməyi ilə müəssisənin maliyyə resurslarının artırılmasına yönəlmiş idarəetmə qərarlarının qəbulu prosesi həyata keçirilir. Maliyyə menecmenti həm də davamlı inkişafı və ödəmə qabiliyyətini təmin edir.

Maliyyə idarəetməsinin yüksək səmərəliliyini təmin etmək üçün müəssisənin idarəetmə şöbəsi maliyyə menecmentinin təşkilinin aşağıdakı prinsiplərinə əsaslanmalıdır:

- müəssisənin ümumi idarəetmə sistemi ilə qarşılıqlı əlaqədə olan fəaliyyətlər;
- idarəetmə qərarlarının qəbulunun sistemli xarakteri;
- xarici amillərin dəyişməsinə tez reaksiya vermək bacarığı;
- alternativ fəaliyyət kurslarının nəzərə alınması;
- müəssisənin strateji inkişaf məqsədlərinin həllinə diqqət yetirmək.

Ölkədə maliyyə menecmenti, xüsusən də turizm biznesi, keçid iqtisadiyyatının obyektiv iqtisadi problemləri, tənzimləyici bazadakı çatışmazlıqlar və mütəxəssislərin hazırlığının aşağı səviyyəsi ilə əlaqəli formalaşma dövrünü yaşayır. Turizm biznesi müəssisələrində maliyyə menecmenti turizm müəssisəsinin maliyyə resurslarının yaradılması, bölüşdürülməsi və istifadəsi və onun vəsaitlərinin dövriyyəsinə yönəldilmiş idarəetmə qərarlarının işlənib hazırlanması və həyata keçirilməsi üçün metod və prinsiplər kompleksi vasitəsilə həyata keçirilir [2, s. . 117].

Turizm biznesi müəssisəsində maliyyə menecmenti aşağıdakı əsas vəzifələrin həllini həyata keçirir:

- yaxın gələcəkdə müəssisənin fəaliyyəti və inkişafı üçün lazım olan kifayət qədər miqdarda maliyyə resurslarını təmin etmək;

- müəssisənin fəaliyyətinin əsas istiqamətləri üzrə yaradılmış maliyyə vəsaitlərinin həcminin istismarının ən yüksək səmərəliliyini təmin etmək;

-təşkilatın pul vəsaitlərinin hərəkətini effektiv idarə etməklə pul vəsaitlərinin hərəkətini optimallaşdırmaq;

-maliyyə riskləri nəzərə alınmaqla müəssisənin gəlirlərinin artırılmasını təmin etmək;

- planlaşdırılan mənfəət nəzərə alınmaqla maliyyə risklərinin səviyyəsinin azaldılmasını təmin etmək;

-müəssisənin fəaliyyəti və inkişafı zamanı onun davamlı maliyyə balansını təmin etmək [3, s. 67-68].

Turizm biznesinin müasir inkişafı şəraitində dövlətlərin və ictimai təşkilatların iqtisadi, siyasi, mədəni və digər sahələrdə əməkdaşlığında özünü göstərən qloballaşma tendensiyası mövcuddur. İnteqrasiya prosesləri ölkənin turizm biznesinin inkişafının ayrılmaz tərkib hissəsinə çevrildi, bu proseslər artan rəqabət qabiliyyəti ilə müşayiət olunur.

Sənaye müəssisələri, banklar, assosiasiyalar və assosiasiyalar turizm biznesinə inteqrasiya olunur, biznes və ya strateji ittifaqlar yaradılır.

Strateji ittifaqlar, şirkətlərin birləşmiş və bir-birini tamamlayan resurslarının sinerjisi vasitəsilə istənilən biznes məqsədlərinə nail olmaq məqsədi daşıyan iki və ya daha çox müstəqil şirkətin kooperativləridir.

Strateji alyansın yaradılması bir sıra turizm fəaliyyətinin yaxşılaşdırılması üçün əhəmiyyətli kapital qoyuluşlarına ehtiyac yoxdur; antiinhisar qanunvericiliyinin yaratdığı maneələri dəf etmək bacarığı; beynəlxalq fəaliyyətləri əlaqələndirmək bacarığı; turizm



müəssisələrinin təşkilati strukturlarının idarə edilməsinin sadələşdirilməsinin mümkünlüyü kimi mühüm üstünlüklər açır.

Strateji ittifaqların yaradılmasının məqsədəuyğunluğu aşağıdakı amillərlə - şirkətlər arasında münasibətlər prosesində zəruri çeviklik dərəcəsi; xərclərin miqdarı və mümkün risklər; sürətli nəticələr əldə etmək arzusu; tərəfdaşların strateji məqsəd və vəzifələri və s müəyyən edilir.

Strateji ittifaqlar birgə müəssisələrin yaradılmasına imkan verir ki, bu da öz növbəsində investorlar üçün müəyyən üstünlüklər açır ki bunlar aşağıdakılardır:

- ✓ qeydiyyatdan keçmiş birgə müəssisələr sırf milli müəssisələrlə eyni hüquqlara malikdir; investorun riskləri azalır
- ✓ çünki onun məsuliyyəti tamamilə kapitaldakı payından asılıdır;
- ✓ birgə müəssisələrin əksəriyyəti səhmdar cəmiyyətlərinin təşkilati formasına malikdir və bu da öz növbəsində onlara borc vəsaitlərini cəlb etməyə imkan verir;
- ✓ birgə müəssisənin yaradılması tərəfdaş dövlətdən müəyyən güzəştlər almaq imkanı açır və s. [4, s. 111].

İnteqrasiya proseslərində maliyyə menecmentinə xüsusi rol verilir, çünki onun köməyi ilə iqtisadi vəziyyət və inteqrasiyanın həyata keçirilməsinin mümkünlüyü, buna görə də strateji ittifaqın yaradılması qiymətləndirilir.

İnteqrasiya prosesləri hazırda mehmanxana biznesi müəssisələri üçün obyektiv zərurətdir.

Otel assosiasiyalarının yaradılması otelin potensialını reallaşdırmağa imkan verir, həmçinin aşağıdakı imkanları açır:

- hər bir otel şəbəkəsinin öz rezervasiya sistemi var ki, bu da zəncirə daxil olan otelləri tez yükləməyə imkan verir;

- yüksək keyfiyyətli xidmətin təmin edilməsi və problemlərin vaxtında aradan qaldırılması üçün mehmanxana assosiasiyaları

avadanlıq və mebel istehsalı və təmiri üzrə ixtisaslaşmış təchizat müəssisələri yaradır;

- mehmanxanaların potensialını reallaşdırmaq üçün müştəri kütləsi, bazar təhlili, təchizatçılar, rəqabət aparan otellər və s. haqqında məlumatlara malik olmaq, effektiv marketinq və satış şirkəti aparmaq lazımdır ki, bu da öz növbəsində əhəmiyyətli maliyyə, informasiya və insan resursları tələb edir;

- turizm assosiasiyaları kadrların yetərincə hazırlanmamasını nəzərə alır və buna görə də öz təlim və ixtisasartırma sistemini təşkil edirlər ki, bu da müəyyən xərclərə səbəb olur [5, s. 157-158].

**Nəticə**

Turizm biznesinin hazırkı inkişafı şəraitində ən optimal idarəetmə modelini dəqiq müəyyən etmək mümkün deyil, çünki bu sahə daim dəyişkəndir.

İnteqrasiya prosesləri daxili iqtisadiyyatın və xüsusən də turizm sektorunun qloballaşması prosesində mühüm rol oynayır. İnteqrasiya prosesləri turizm müəssisəsində maliyyə idarəetməsini optimallaşdırmağa imkan verir. Rəhbərlik digər müəssisələrlə səmərəli və uzunmüddətli kooperativlər yaratmaqla müəssisənin inkişafının taktiki və strateji məqsədlərini həll etmək imkanı əldə edir.

İnteqrasiya prosesləri əsasında strateji ittifaqlar yaratmaq olar ki, bu da öz növbəsində bütün turizm sektorunun inkişafına faydalı təsir göstərir. Son bir neçə ildə inteqrasiya proseslərində dinamik artım müşahidə olunur ki, bu da strateji ittifaqların yaradılmasına gətirib çıxarır. Bu tendensiya onunla izah olunur ki, inteqrasiya prosesləri eyni sahədə fəaliyyət göstərən bir sıra müəssisələr arasında qarşılıqlı faydalı əməkdaşlığın perspektivli və səmərəli formasını təmsil edir.

Strateji ittifaqlar rəqabətin vacib elementi olmaqla yanaşı, təkcə konkret regionun deyil, bütövlükdə ölkənin iqtisadiyyatını inkişaf etdirmək yoludur. Son bir neçə ildə strateji ittifaqlar turizm və mehmanxana biznesində geniş yayılmışdır, çünki bu əməkdaşlıq üsulu ən effektivdir və əhəmiyyətli kapital qoyuluşu tələb etmir.



**Ədəbiyyat**


1. Vdovin, S.M. Təşkilati keyfiyyət idarəetmə sistemi: Dərslik / S.M. Vdovin, T.A. Səlimova, L.İ. Biryukova. - M.: İNFRA-M, 2015. - 299 s.
2. Vinoqradova, M.V. Diplom dizaynının əsasları: "Təşkilatın idarə edilməsi" ixtisasının tələbələri üçün tədris-metodiki vəsait / M.V. Vinoqradova. - M.: Daşkov və K, 2016. - 272 s.
3. Lukiçeva, L.I. Təşkilat idarəetməsi: nəzəriyyə və təcrübə: Bakalavrlar üçün dərslik / L.I. Lukiçeva, E.V. Yegorycheva; Ed. Yu.P. Aniskin. - M.: Omega-L, 2015. - 488 s.
4. Mamaeva, L.N. Təşkilat menecmenti. İxtisasa giriş / L.N. Mamaeva. - M.: KnoRus, 2016. - 232 s.
5. Nikulina, N.N. Təşkilatın maliyyə idarəçiliyi.Nəzəriyyə və təcrübə: Dərslik / N.N. Nikulina, D.V. Suxodoev, Eriaşvili. -M.: BİRLİK, 2014. - 511 s


## HEYDƏR ƏLİYEV MÜASİR GƏNCLƏR SİYASƏTİNİN BANİSİDİR


**Məmmədli Xəyalə**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*


Gəncliyin sağlam ruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün önəmlidir. Cəmiyyətin aparıcı təbəqəsi gənclərdirsə, deməli, inkişaf və inteqrasiya məhz onlarla bir addımlayır. Cəmiyyətin gələcəyi gənclərdir və öz gələcəyini düşünən

hər bir cəmiyyət gənclərə qayğı göstərir. Bununla da əslində özünün xoşbəxt və firavan gələcəyinin təmin olunması istiqamətində mühüm addımlar atmış olur. Bu məlum həqiqəti Azərbaycanda hamıdan yaxşı anlayan və bunun həyata keçirilməsi üçün lazımı tədbirləri görən yeganə bir insan var. O da Heydər Əliyevdir.

Ümummilli liderimiz Heydər Əliyev ölkədə gedən demokratik islahatlara və insan hüquqlarının qorunmasına həmişə diqqət yetirirdi. İctimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində sistemli islahatlar aparan böyük öndərimiz bütün bu proseslərdə gənclərin roluna həmişə xüsusi fikir verirdi. Müxtəlif qurumlarda, dövlət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakını təmin edirdi.

Azərbaycanın tərəqqisində, onun iqtisadi, siyasi və mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında gənclərin rolu danılmazdır. Azərbaycanın tarixinə nəzər salsaq, onun hər mərhələsində gənclərimizin özünəməxsus rol oynadığının şahidi olarıq.

Ümummilli lider Heydər Əliyev gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edib. Heydər Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradılmışdır. Azərbaycan gənclərinin I forumunda bu barədə danışan ölkə rəhbəri demişdir: “Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə



biz, hələ, 1970-ci ildən başlamışdıq. Mən, bu gün, çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən, hələ o vaxtdan, ölkəmizin gələcəyini düşünürdüm”. Bu, həmin illərin ən böyük nailiyyətlərindən idi. Dövlət gənclər siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən başlayaraq həmişə aparıcı istiqamətlərdən biri olmuşdur.

Qeyd etdiyimiz kimi, hələ Sovet hakimiyyəti illərində ümummilli liderimiz yüzlərlə Azərbaycan gəncinin ittifaqın bir çox böyük və mərkəzi şəhərlərində təhsil almalarına şərait yaratmışdır. Bu gənclər keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə ali təhsil almağa göndərilir və savadlı kadr kimi vətənə qayıdaraq fəaliyyət göstərməyə başlayırdılar. Həmin gənclərin böyük bir qismi bu gün müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunda yaxından iştirak edir, hüquq-mühafizə orqanlarında rəhbər vəzifələrdə çalışır, elmimizin, səhiyyəmizin, mədəniyyətimizin inkişafında əvəzsiz xidmət göstərirlər. Ulu öndərimiz savadı, qabiliyyəti, istedadı ilə seçilən gənclərə qayğı və diqqət göstərməyi bacarırdı. Şübhəsiz ki, bu gənclərin bir çoxunu özü seçir, onların qabiliyyətini və biliyini sınaqdan çıxarandan sonra Moskvaya, Leninqrada oxumağa göndərirdi. Bu gənclər maddi cəhətdən təmin edilir, yüksək, mükəmml təhsil almalarına hər cür şərait yaradılırdı. Buna görə də Heydər Əliyevin 2-ci dəfə hakimiyyətə qaydışını ən çox alqışlayanlar elə gənclərin özü idi. Heydər Əliyev gənclərə arxalandığı kimi, gənclər də onu böyük bir lider, əvəzolunmaz tarixi şəxsiyyət, milli dövlət quruculuğumuzun banisi kimi qəbul edirdilər.

Düzdür, 1988-ci ildən 1993-cü ilə qədər ölkə gəncliyi ictimai-siyasi proseslərdən kənarda qalmışdı, onun potensialı lazımınca qiymətləndirilmirdi. Ölkədə gənclər siyasəti demək olar ki, unudulmuşdu. Həmin dövürdə qeyri-sağlam ictimai-siyasi vəziyyət təhsil sisteminin iflic hala düşməsinə gətirib çıxarmış gəncliyin başlı-başına buraxılması onlarda sabaha inam hissinin itirilməsinə səbəb

olmuşdu. Müxtəlif qrupların hakimiyyət uğrunda çəkişmələrində yeniyetmələrin potensialından sui-istifadə halları gəncliyin mənəvi-psixoloji böhran vəziyyətinə düşməsi ilə nəticələnmişdi. Lakin, Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsindən sonra bu vəziyyət kökündən dəyişdi. Belə bir məqamda hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyev ilk görüşünün məhz gənclərlə keçirdi. 22 sentyabr 1993-cü ildə Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşündəki çıxışında onlara dərin inam bəslədiyini ifadə etdi. Onun "Azərbaycanın bugünkü gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir" -sözləri hər kəsin həyat devizinə çevrildi.

Ulu öndərimiz Heydər Əliyevin bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və zəngin elmi potensialın yaradılmasına xidmət edirdi. Heç də təsadüfü deyildir ki, Heydər Əliyev hər zaman gənclərə qayğı ilə yanaşır, onların problemlərini həll etməyə çalışırdı.

Gənclərin ictimai-siyasi həyatda fəallığını artırmaq üçün həyata keçirilən Dövlət Proqramının tətbiqi, idarəetmə orqanlarında gənc mütəxəssislərə üstünlük verilməsi ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş gənclər siyasətinin uğurlu nəticəsidir.

Ölkəmizdə gənclərlə iş sahəsində mühüm tədbirlərin gerçəkləşdirilməsi ulu öndərin adı ilə bağlıdır. 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin diqqət yetirdiyi mühüm istiqamətlərdən biri də gənclərlə iş olmuşdur. Həyata keçirilən gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən, vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşdırılması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsidir. Ölkədə demokratik prosesin sürətlənməsi ərəfəsində gənclərin təşkilatlanması məqsədi ilə dövlət başçısı tərəfindən 1994-cü il 26 iyul tarixində Gənclər və İdman Nazirliyinin



yaradılması barədə fərman imzalandı. Bununla da dövlətin gənclərlə bağlı siyasəti vahid mərkəzdən idarə olunmağa başladı. Ulu öndərimizin gənclərlə çox saylı görüşü, onlara etdiyi dəyərli tövsiyələr gənclərin ümummilli maraqlar və dövlət mənafeyi ətrafında birləşmələrinə xidmət edirdi. Bunun məntiqi nəticəsidir ki, 1996-cı ilin 2 fevralında Azərbaycan Gənclərinin Birinci Formu keçirildi. Formda gənclər və idman siyasəti sahəsində görülən işlərdən, gəncliyin qarşısında böyük məsuliyyətin dayandığından danışan ulu öndər Heydər Əliyev Azərbaycan gəncliyinin daha uğurlu sabahına inandığını vurğuladı. Həmin dövürdə gənclərin problemlərinin həllini təmin edən fərmanların imzalanması, qanunların qəbul edilməsi, gənclərin dövlət quruculuğuna fəal cəlb olunması dövlətin gənclər siyasətinə mühüm töhfə verdi. Bununla da Azərbaycan gəncinin tam hüquqlu vətəndaş kimi öz gələcəyinə sahib çıxması və ona göstərilən ehtimadı doğrultmağa çalışması üçün bütün şərait yaradıldı. Ümummilli liderimizin 1997-ci il 2 fevral tarixində imzaladığı fərmana əsasən həmin tarix "Azərbaycan gəncləri günü" elan edilmişdir. 1996-2002-ci illərdə qəbul olunmuş "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Dövlət gənclər siyasəti haqqında" qərarların, habelə "Gənc ailə" proqramı, "gənclərdə vətənpərvərlik və vətəndaşlıq hislərinin yüksəldilməsi haqqında", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" dövlət sənədləri bu baxımdan təqdirə layiqdir. Əlbətdə ki, gəncliyə göstərilən dövlət qayğısı, onlarla bağlı qəbul edilən qərarlar gənc nəslin xoşbəxt gələcəyinə hesablanan addımlar idi. Heydər Əliyevin qaçqın və məcburi köçkün tələbə gənclərə göstərdiyi qayğı onun bütün ölkə vətəndaşları qarşısında göstərdiyi əvəzolunmaz xidmətlərinin tərkib hissəsidir. Fərəh hissi ilə deyə bilərik ki, bu gün də dövlətimiz gənclərə xüsusi diqqət və qayğı göstərir. Ümummilli liderimiz Heydər Əliyevin gənclər siyasəti onun

layiqli davamçısı, dövlət başçısı İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu siyasət idmana göstərilən dövlət qayğısı ilə də öz əksini tapır. Təbii ki, bu yönümlü siyasət Azərbaycanın milli genefondunun qorunması, habelə gəncləri vətənpərvər ruhda tərbiyə etmək zərurətindən meydana gəlmişdir.

Gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması mühüm yer tutur. Dövlət başçısının ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Azərbaycanın müxtəlif bölgələrində olimpiya komplekslərinin açılması, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi buna əyani sübutdur.

Hələ 1997-ci ildə MOK-nin prezidenti seçilən cənab İlham Əliyev Azərbaycanı dünya idman arenasında tanıtmaq məqsədilə ölkədə olimpiya hərəkatının genişlənməsinə xidmət edən siyasətin əsasını qoydu. Qısa müddət ərzində regionlarda 13 olimpiya idman kompleksinin tikilərək istifadəyə verilməsi bu siyasətin uğrundan xəbər verir. Dövlət başçısı İlham Əliyev ölkənin mənafeyi, xalqımızın rifahı naminə gənclərin potensialından tam və düzgün istifadə edilməsi, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçilik sistemində iştirakının gerçəkləşdirilməsi məqsədi ilə 30 avqust 2005-ci il tarixdə "Azərbaycan Gəncliyi Dövlət Proqramının təsdiq edilməsi haqqında" sərəncam imzalamışdır. Sərəncamda Azərbaycanda gənclərlə bağlı dölət siyasətinin başlıca istiqamətləri açıqlanmış, habelə bu təbəqəyə diqqətin artırılması üçün konkrekt tədbirlər hazırlanması və maliyyələşdirilməsi Nazirlər Kobnetinə həvalə olunmuşdur. Ölkədə gənclərin sosial vəziyyətinin yaxşılaşdırılması, dövlət orqanlarında gənclərin üstünlük təşkil etməsi göstərir ki, Prezident İlham Əliyev gənclərlə bağlı siyasətə xüsusi həssalıqla yanaşır.

Azərbaycan Respublikasının "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi



barədə" 5 may 2007-ci il tarixli Qanununa əsasən Azərbaycanda gənclər 14–29 yaşlarında hesab edilir. Gənclər bu gün ölkə əhalisinin 28,1 %-ə qədərini təşkil edir. Bu təbəqənin sosial-iqtisadi inkişafı güclü ölkə, parlaq gələcək deməkdir. Ölkənin sosial-iqtisadi inkişafında gənclərin potensialından istifadə etməklə həm gəncləri inkişaf etdirmiş olarıq, həm də ümumi problemlərimiz öz həllini tapar. Bu gün gənclərin peşə hazırlığı, məşğulluğunun təmin olunması, sosial təminatı sahibkarlıq fəaliyyəti, bazar iqtisadiyytının əsaslarına dair biliklərə yiyələnməsi sahəsində tədbirlər həyata keçirilməsi durmadan genişləndirilməlidir. Məlumdur ki, ölkədə fəaliyyət göstərən bazar sturukturları iş təcübəsi olan və bazar iqtisadiyyatı prinsiplərini bilən mütəxəssislər axtarışındadır. İlk növbədə, gənclərin təhsilinə, peşə hazırlığı məsələlərinə böyük diqqət yetirilməlidir. Xüsusilə texniki-peşə təhsili müəssisələrinin kadr hazırlığında mövcud əmək bazarını və ya sahibkarların tələbatları nəzərə alınmalıdır. Son illər ölkəmizdə aparılan sosial-iqtisadi islahatlar öz müsbət nəticəsini versə də, işsizlik problemi aktual olaraq qalır. Çünki, keçid dövrü ilə əlaqədar olaraq əmək bazarının tələbləri də dəyişir. Artıq dünyada belə bir fikir formalaşıb ki, hər il bilik və bacarıqların 20-30 %-i, hər 5-8 ildə isə peşələr tamamilə köhnəlir. Artıq gənclərimiz işsizlik problemlərini mükəmməl təhsilə yiyələnmədən həll edə bilməyəcəklərini daha yaxşı başa düşürlər. Digər tərəfdən neft sektorunun inkişafı nəticəsində ölkəmizdə fəaliyyət göstərən xarici şirkətlər müasir texnologiyalarla işləməyi bilən gənclərə daha çox üstünlük verirlər. Nəticədə gənclərimizin təhsil səviyyəsi ilbəil artır.

Hələ 2003-cü ildə cənab Prezident İlham Əliyevin seçkiqabağı platformasında prezident seçiləcəyi təqdirdə ölkədə 600 min yeni iş yerlərinin açılacağı bildirilirdi. Seçkilərdə xalqın etimadını qazandıqdan sonra möhtərəm prezident öz vədinə sadiq qalaraq ölkənin, xüsusən də regionların inkişafına diqqət yetirməyə başladı.

Bununla bağlı xüsusi dövlət proqramı təsdiq edildi. Qəbul olunmuş proqram nəticəsində regionlarda yeni istehsal və xidmət müəssisələri istifadəyə verildi. Dövlətin maliyyə dəstəyi ilə iri infrastruktur layihələrin həyata keçirilməsinə başlandı. Əlbəttə, görülən işlər ixtisaslı mütəxəsislər olmasaydı mümkün olmazdı.

Savadlı gənc mütəxəsislərin hazırlanması orta məktəbdən başlayır. Dövlətimiz bu məsələyə də xüsusi diqqət yetirir. Azərbaycanda büdcənin ən böyük hissəsi təhsil xərclərinə yönəldilibdir. Son illər həm dövlət vəsaiti hesabına, həm də Heydər Əliyev fondunun hesabına yüzlərlə məktəb tikilib. Məktəb tikintisi bu gün də sürətlə davam etdirilir. Azərbaycanda bütövlükdə təhsil infrasturukturu yeniləşir. Böyük əhəmiyyət kəsb edən kompüterləşmə proqramı həyata keçirilir. Hər bir məktəbdə kompüter sinifi yaradılır və intrnetə çıxış təmin olunur. Nəticədə gənclərimiz, şagirdlərimiz, tələbələrimiz dünyada baş verən bütün hadisələri yaxından izləyir, yeni müasir informasiya texnologiyalarına yiyələnirlər. Onlar dünyada gedən prosesləri təhlil etmək üçün imkanlar əldə edirlər. Bu gün Azərbaycan gəncləri xarici ölkələrə təhsil almağa, biznes qurmağa, təcrübə qazanmağa, işləməyə və s. faydalı işlər görməyə gedir. Xaricdə çalışan gənclərimizin böyük hissəsi bir neçə ildən sonra vətənə dönərək əldə etdikləri təcrübəni, işgüzarlığı və iqtisadi sistemin xüsusiyyətlərini ölkəmizdə tətbiq edirlər.

Azərbaycan hökuməti müsir gənclərimizlə bərabər gələcəkdə yetişəcək gəncləri də düşünüb. Belə ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra öz təbii sərvətlərindən istifadə edilməsi məsələsi ön plana çəkildi. Çünki, respublikamıza neft sərvətlərinin sahibi kimi tarixi şans verilmişdi və bundan da dövlət başçısı Heydər Əliyev böyük uzaqgörənliklə istifadə etdi. İri həcmli neft müqavilələri bağlandı, Azərbaycan neftini dünya bazarına daşıyacaq neft kəmərləri tikildi. Ən əsası neftin satışından gəlirlər əldə etməyə başladıqdan dərhal sonra Neft Fondu təsis edilmişdir. Azərbaycanda fəaliyyət



göstərən Dövlət Neft Fondu iqtisadi inkişaf üçün artıq çox güclü bir amildir. Bildiyimiz kimi, Neft Fondunun əsas gəlirləri və vəsaiti gələcək nəsillər üçün əmanət kimi saxlanılacaqdır. Gələcək nəsillər, gənclər Neft Fondunun imkanlarından səmərəli istifadə edəcəklər.

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu inkişaf və tərəqqi siyasəti nəticəsində bu gün ölkəmiz yeni bir inkişaf dövrünə qədəm qoyub. Artıq prezident İlham Əliyevin uğurlu siyasətinin nəticələri özünü əhalinin rifah halının yüksəlməsində və iqtisadi inkişaf sahəsində göstərməkdədir.

Dövlət başçısının 2007-ci ili gənclər ili kimi qeyd etməsi çox mühüm tarixi hadisə idi. Bu sərəncam Azərbaycan dövlətinin gənclərə göstərdiyi qayğını əyani şəkildə sübut edir. İndi iqtisadiyyatın müxtəlif sahələrində aparıcı qüvvə kimi gənc nəsil iştirak edir. Cəmiyyətin hər bir sahəsində gənclərin rolu böyük əhəmiyyət kəsb edir. Bu hər şeydən əvvəl dövlətimizin gənc nəslə göstərdiyi qayğının bariz nümunəsidir. Azərbaycan gəncliyinin beynəlxalq gənclər hərəkatına inteqrasiyası sahəsində böyük uğurlar qazanılmışdır. Respublikanın gənclər təşkilatları BMT-nin, YUNESKO-nun, Avropa Şurasının, Avropa Birliyinin və s. Beynəlxalq qurumların gənclər proqramlarına qoşulur, birgə layihələrdə iştirak edir, MDB və digər ölkələrin gəncləri ilə müntəzəm tədbirlər keçirirlər.

2001-ci il fevralın 2-də ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan gəncləri ilə görüşü olmuşdur. Ulu öndər görüşdə geniş nitq söyləmiş və gənclərin qarşısında duran vacib məsələlərdən danışmışdır. O, dövlət idarəetmə orqanlarında gənclərin məsul işlərə cəlb olunmasını təmin etməklə bağlı verdiyi tapşırığı yerinə yetirmək məqsədilə bacarıqlı, intelektli və fəal gənclər seçilib icra hakimiyyəti sistemində, müəssisə, komitə və təşkilatlarda məsul vəzifələrə irəli çəkirlər.

Bu gün milli vətənpərvərlik Azərbaycanın hər bir vətəndaşının, hər bir gəncinin həyatının əsas prinsipidir. Baxmayaraq ki, 1994-cü ilin mayından Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs əldə olunmuşdur, amma bununla yanaşı ordumuz gücləndirilir və xalqımız torpaqlarımızın azad edilməsi üçün daim döyüşə hazırdır. O cümlədən, bu gün hər bir gənc Azərbaycanın Milli Ordusunda xidmət etməyi özü üçün ən şərəfli vəzifə hesab edir.

İstedadlı gənclərə diqqət və qayğını artırmaq üçün H. Əiyevin " Azərbaycan Respublikasının istedadlı gənc yazıçılarına dövlət qayğısının artırılması haqqında" 6 dekabr 1999-cu il tarixli və "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında" 22 iyun 1996-cı il tarixli fərmanları bu qayğının təcəssümüdür.

Beləliklə, bu gün hər bir Azərbaycan gənci ümummilli lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətində daim rəhbər tutmalı, Azərbaycan gəncliyinin lideri olan möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin əbədi yaşaması üçün yumruğunu bir hədəfə vurmalıdır. Əlbəttə ki, bu günün gəncliyi vətənpərvər, sağlam ruhlu, özünə inamlı, mübariz gənclikdir. Əminliklə deyə bilərik ki, Azərbaycan gəncliyi dövlət başçısının iqtisadi-siyasi, mədəni arenadakı siyasi fəaliyyətini birmənalı dəstəkləyir.

## Ədəbiyyat


1. Ağcabədi rayon Heydər Əliyev Mərkəzi
2. Milli Kitabxana
3. https://sosial gov. az
4. https://mod gov. az




# İNTERNET VASİTƏSİLƏ BİR NEÇƏ YERLİ ŞƏBƏKƏLƏR ARASINDA TƏHLÜKƏSİZ KANALIN TƏŞKİLİ


**Məmmədov Qabil**
*Azərbaycan Dövlət Aqrar Universiteti*
m_qabil@rambler.ru
**Qədimov Fərid**
*Azərbaycan Texnologiya Universiteti*
feridqedimov99@gmail.com


İnternet üzərindən bir neçə yerli şəbəkə arasında təhlükəsiz kanal yaratmaq üçün siz Virtual Şəxsi Şəbəkə (VPN) həllindən istifadə edə bilərsiniz. Budur, izləyə biləcəyiniz addımlar: Qoşulmaq istədiyiniz şəbəkələri müəyyənləşdirin: İnternet üzərindən təhlükəsiz qoşulmaq istədiyiniz yerli şəbəkələri müəyyənləşdirin. VPN texnologiyasını seçin: OpenVPN, IPSec və SSL VPN kimi müxtəlif növ VPN texnologiyaları mövcuddur. Ehtiyaclarınıza ən uyğun olanı və yerli şəbəkələrinizdəki cihazlara uyğun olanı seçin. VPN şlüzünü quraşdırın: Qoşulmaq istədiyiniz hər bir yerli şəbəkədə VPN şlüzünü qurmalısınız. VPN şlüzü VPN bağlantısının idarə edilməsinə və istifadəçilərin autentifikasiyasına cavabdeh olacaq. VPN şlüzünü konfiqurasiya edin: VPN şlüzünü IP ünvanları və təhlükəsizlik protokolları kimi müvafiq parametrlərlə konfiqurasiya etməlisiniz

VPN bağlantısını qurun: VPN şlüzləri konfiqurasiya edildikdən sonra siz internet üzərindən yerli şəbəkələr arasında VPN əlaqəsi yarada bilərsiniz. VPN bağlantısı şəbəkələr arasında təhlükəsiz tunel yaradacaq və trafikin təhlükəsiz keçməsinə imkan verəcək.

Bağlantını sınayın: VPN bağlantısını qurduqdan sonra yerli şəbəkələrin bir-biri ilə təhlükəsiz əlaqə saxlamasını təmin etmək üçün onların əlaqəsini yoxlayın.

Əlavə təhlükəsizlik tədbirlərini həyata keçirin: Lokal şəbəkələr arasında əlaqənin təhlükəsiz qalmasını təmin etmək üçün siz firewall və müdaxilənin aşkarlanması/qarşısının alınması sistemləri kimi əlavə təhlükəsizlik tədbirləri həyata keçirməlisiniz. Bağlantıya nəzarət edin və onu qoruyun: Bağlantı işə düşdükdən sonra, yarana biləcək hər hansı problemləri aşkar etmək və həll etmək üçün onu mütəmadi olaraq izləməlisiniz. Siz həmçinin proqram təminatı və proqram təminatının yenilənməsi kimi müntəzəm texniki xidmət tapşırıqlarını yerinə yetirməlisiniz.

## Ədəbiyyat


1. https://az.wikipedia.org/wiki/VPN
2. Məmmədov F. H., Orucova M.Y "Informasiya Təhlükəsizliyi Və Təminatı" (Kompüter Şəbəkələrində Təhlükəsizliyin Təşkili Prinsipləri) , səh 152


# ELEKTRON TİCARƏTİN ÜSTÜN VƏ ƏKSİK TƏRƏFLƏRİ


**Məmmədov Oruc**
*Azərbaycan Texnologiya Universiteti*
*Magistr I Kurs*
*orucm4192@gmail.com*


## Giriş

Sosial-iqtisadi strukturda baş verən böyük dəyişikliklərlə əlaqədar olaraq, son vaxtlar "Yeni İqtisadiyyat" və "Bilik İqtisadiyyatı" anlayışlarından tez-tez istifadə olunur. Bu gün insanlar



informasiya texnologiyalarından və qeyri-məhdud informasiyadan geniş şəkildə istifadə edirlər. İnternetə inteqrasiya olunmuş rabitə və kompüterlərə əsaslanan bu yeni texnologiyalar informasiya istehsalının xərclərinin azalmasına, onun yayılmasına, qloballaşmasına, yeni rəqabət strategiyalarına, biznes proseslərində və təşkilati strukturlarda dəyişikliklərə səbəb olmuşdur. Məlum iqtisadi qaydaların tətbiqinin çətin olduğu bu iqtisadi nizam yeni iqtisadiyyat kimi təsvir edilmiş, yeni ixtiralar ilə ideyalara açıq olan və bunların uyğunlaşdırılmasına imkan verən biliklərə əsaslanan iqtisadiyyat kimi ümumi tərif verilmişdir.

Elektron ticarət (e-ticarət) yeni iqtisadiyyatın kommersiya ölçüsü hesab olunur. İnformasiya-kommunikasiya texnologiyalarının məhsulu olan internetdən kommersiya məqsədləri üçün istifadə yeni ticarət platformasının yaradılmasına imkan yaradıb. Bu platforma üçün uyğun olan ticarət tərzi e-ticarətdir. Elektron ticarət həm istehsal sektoru, həm də istehlak sektoru tərəfindən sürətlə mənimsənildi və sürətlə inkişaf etdi. Bu inkişaflarla e-ticarət yeni iqtisadiyyatın əsaslandığı təməl strukturlardan birinə çevrildi.

Ticarət həyatında yer almağa başlayan e-ticarət bir müzakirə mövzusunu gündəmə gətirib: Elektron ticarət ənənəvi ticarətə alternativdirmi və ənənəvi ticarəti əvəz edə bilərmi? Bu sualın cavabı ilə bağlı ümumi qəbul edilən fikir ondan ibarətdir ki, e-ticarət ənənəvi ticarətə alternativ deyil, ənənəvi ticarəti tamamlayan və asanlaşdıran, biznesin aparılması tərzini dəyişdirən yeni üsuldur.

Bu araşdırmada ənənəvi ticarəti asanlaşdıran və ticarətdə iştirak edən bütün tərəflərə müxtəlif yollarla rahatlıq təqdim edən e-ticarətin inkişafı və onun inkişafına təsir edən amillər qiymətləndiriləcək.

**Elektron Ticarətin Üstünlükləri**

Elektron ticarət əməliyyatlarının bəziləri ənənəvi üsullarla həyata keçirilə bilsə də, texnologiyanın təqdim etdiyi üstünlüklər elektron ticarətə üstünlük verilməsinə səbəb olur. Elektron ticarət

həm istehsalçılar, həm də istehlakçılar üçün üstünlüklər təqdim edir. Elektron ticarət sayəsində istehsalçılara malik olur:

- Xərc və vaxta qənaət,
- Daha geniş miqyasda bazara çıxarmaq və marketinq proseslərini azaltmaq bacarığı,
- Kommersiya sənədlərində səhvlərin minimuma endirilməsi və büruzələrin azaldılması,
- Böyük bazarlara açıq olmaqla rəqabətin artırılması və bazara giriş maneələrinin azaldılması,
- Məlumat dərhal və davamlı olaraq əldə edilə bilər, həmçinin qarşılıqlı əlaqəyə açıq və daha zəngindir;
- Məsafələrin aradan qaldırılması kimi üstünlükləri təmin edərkən, elektron ticarət sayəsində istehlakçılar;
- Qlobal seçim etmək bacarığı,
- İstehsalda rəqabətin artması ilə daha keyfiyyətli və daha ucuz məhsul və xidmətlər almaq mümkün olmuşdur,
- Yeni məhsul və xidmətləri izləmək.

Bu səbəblərdən elektron ticarətin inkişafı ilə bağlı gözləntilər kifayət qədər yüksəkdir.

**Elektron ticarətin inkişafında maneələr**

Elektron ticarət sahəsində ən böyük problemin infrastruktur problemlərindən əlavə təhlükəsizlik və edilən əməliyyatların qanuni qəbulunda yaşanan problemlər olduğunu xatırladır. Dövlətlər qlobal biznes və ticarəti dəstəkləmək üçün aydın və proqnozlaşdırıla bilən hüquqi mühit təmin etməlidirlər. Elektron kommersiya əməliyyatlarının aparılması üçün əvvəlcədən müəyyən edilmiş hüquqi bazanın olmaması səbəbindən bu gün bir çox müəssisələr və istehlakçılar İnternetdə biznes qurmaqda ehtiyatlı davranırlar. Bu, xüsusilə müqavilələrin bağlanması, öhdəliklərin yerinə yetirilməsi, əqli mülkiyyətin qorunması, beynəlxalq kommersiya fəaliyyətlərində məxfiliyin və təhlükəsizliyin təmin edilməsi üçün doğrudur.



Bu ifadələr WITSA (Wold Information Technology and Services Alliance) tərəfindən aparılan araşdırmada da təsdiqlənir. WITSA 2000-ci ildə keçirdiyi Beynəlxalq Elektron Ticarət Araşdırmasında e-ticarət qarşısındakı maneələri və onların nisbi çəkilərini müəyyən etdi.

- E-ticarət haqqında məlumatsızlıq və anlayışsızlıq 21%, -Elektron ticarətə keçid və tətbiq xərcləri 10%,
- Elektron ticarət üçün mövcud əməliyyat prosedurlarının uyğunsuzluğu 10%,
- İşçilərin avadanlığı və biliyi qeyri-adekvatdır və 10%-i üçün e-ticarət üçün yararsızdır,
- Vergi kimi məsələlərlə bağlı qaydalar 8%,
- İnstitusional büdcələr 7%,
- Texnoloji məhdudiyyətlər 1%,
- Digər maneələr 6% olaraq izah olunur. Digər 1% isə e-ticarət üçün heç bir maneə olmadığını müdafiə edib.

Tədqiqatın nəticələrindən göründüyü kimi, texnoloji məhdudiyyətlər e-ticarətin inkişafına mane olmur. Bu, texnoloji imkanlara malik şirkətlərin e-ticarətlə bağlı ehtiyatlı davranmasının başqa bir səbəbi ola biləcəyini göstərir. Bu fikir tədqiqat nəticələri ilə təsdiqlənir. Çünki bu araşdırma e-ticarət qarşısında ən mühüm maneələrin təhlükəsizlik (26% çəki) və e-ticarət haqqında məlumatsızlıq (21% çəki) olduğunu ortaya qoydu. Elektron ticarət haqqında məlumatın olmaması təhsillə həll oluna bilən bir problemdir. Lakin etimadın təmin edilməsi həm texniki, həm də hüquqi infrastrukturun yaradılmasını tələb edir. Eyni araşdırmada təşkilatların elektron ticarəti qəbul etməsinə və həyata keçirməsinə mane olan təhlükəsizlik problemləri aşağıdakı kimi müəyyən edilmişdir:

Göründüyü kimi, təhlükəsizlik e-ticarətdə fiziki şəxslər və ya şirkətlər üçün ciddi problem yaradır. Odur ki, elektron ticarətdə

təhlükəsizliyin təmin edilməsi e-ticarətin inkişafında mühüm amil olacaqdır.

**Nəticə**

Elektron ticarət yeni bir anlayış deyil. Əksinə, uzun illər əvvəl iqtisadi həyatda öz yerini tutan ticarət formasıdır. Bununla belə, sürətlə inkişaf edən texnoloji yeniliklərlə e-ticarət də inkişaf edib və bütün dünyaya yayılıb.

Bu prosesə ən böyük töhfə informasiya texnologiyalarına ciddi investisiyalardan gəldi. İnformasiya texnologiyalarının məhsulu olan kompüterlər, internet və s. Bu, e-ticarətin indiki mövqeyinə çatmasına imkan verdi. Qloballaşma elektron ticarətin inkişafını sürətləndirdi, elektron ticarət isə özünəməxsus qlobal xüsusiyyəti ilə qloballaşmanı sürətləndirdi.

Bu araşdırmalar göstərdi ki, e-ticarətin inkişafına təsir edən; Adambaşına düşən kompüterlərin sayı, internetə qoşulmaların sayı və server kompüterlərinin sayı kimi meyarların kəmiyyətcə artması da e-ticarətə müsbət təsir göstərir. Yuxarıda izah edilən məlumatlar təsdiq edir ki, adambaşına düşən kompüterlərin, internetə qoşulmaların və serverlərin sayının çox olduğu ölkələrdə də e-ticarət həcmi yüksəkdir.

**Ədəbiyyat**


1. Al-Abrrow, H., & Alnoor, A. (2017). The impact of locus of control and relationship quality in counterproductive work behavior through trust in the leader and psychological empowerment: An empirical study on workers in public hospitals in Basra. Jordan Journal of Business Administration, 13(2), 201-231.
2. Al-Abrrow, H., Alnoor, A., & Abdullah, H. (2018). Socio-Technical Approach, Decision-Making Environment, and Sustainable Performance: Role of ERP Systems. Interdisciplinary Journal of Information, Knowledge, and Management. (13). 397-415.
3. Alnoor, A. M., Al-Abrrow, H., Abdullah, H., & Abbas, S. (2020). The impact of self-efficacy on employees' ability to accept new technology in an Iraqi university. Global Business and Organizational Excellence, 39(2), 41-50.
4. Süleymanov. E., Əliyev. F, E-Ticarət Və Azərbaycanda Tətbiqinin İqtisadi Səmərəliliyi, (2010), Bakı, Qafqaz Universiteti




## AZƏRBAYCAN GƏNCLİYİ BİZİM GƏLƏCƏYİMİZDİR


**Məmmədov Sabir**
*p.ü.f.d.,dosent*
*ADPU-nun Ağcabədi filialı,*
*vilayetmemmedov1980@mail.ru*
*https://orcid.org/0009-0006-0671-1067*
**Cəfərov Fazil**
*k.t.ü.f.d.,dos.v.i.e.*
*ADPU-nun Ağcabədi filialı,*
*faziljafarov@yahoo.com*
*https://orcid.org/0009-0006-6478-3966*


***Açar sözlər:*** *Cəmiyyətin gələcəyi gənclərdir, Azərbaycan gəncliyi, Azərbaycanın tərəqqisi, mənəvi cəhətdən saglam gənclər, müasir milli-mənəvi dəyərlər.*

**Giriş**

Ümummilli liderimiz Heydər Əliyev ölkədə gedən demokratik islahatlara və insan hüquqlarının qorunmasına həmişə diqqət yetirirdi. İctimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində sistemli islahatlar aparan böyük öndərimiz bütün bu proseslərdə gənclərin roluna həmişə xüsusi fikir verirdi. Müxtəlif qurumlarda,

dölət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakını təmin edirdi.

Cəmiyyətin gələcəyi gənclərdir və öz gələcəyini düşünən hər bir cəmiyyət gənclərə qayğı göstərir. Bununla da əslində özünün xoşbəxt və firavan gələcəyinin təmin olunması istiqamətində mühüm addımlar atmış olur. Bu məlum həqiqəti Azərbaycanda hamıdan yaxşı anlayan və bunun həyata keçirilməsi üçün lazımı tədbirləri görən yeganə bir insan var idisə o da Heydər Əliyev idi.

Azərbaycanın tərəqqisində, onun iqtisadi, siyasi və mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında gənclərin rolu danılmazdır. Azərbaycanın tarixinə nəzər salsaq, onun hər mərhələsində gənclərimizin özünəməxsus rol oynadığının şahidi olarıq.

Vətənimizi işıqlı sabaha aparan Azərbaycan gəncliyi böyük gücə və istedada malik olmalıdır. Gənclərimizin savadlı, vətənpərvər və geniş dünyagörüşlü olması ən önəmli cəhətlərdən biridir. Bu günkü gənclərimiz zamanın tələblərini ödəmək üçün sağlam, mənəvi cəhətdən pak, elmli, hərtərəfli dünyagörüşə müasir dünyanın ictimai durumunu analiz etməyi bacaran, yetgin, mübariz olmaları ilə qarşılarına qoyduqları məqsədə nail ola bilərlər. Müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərlə silahlanmalı, potensialını düzgün qiymətləndirməli, müasir texnologiyaları bilməli, siyasi cəhətdən yetgin düçüncəli, elmlə təcrübəni əlaqələndirməyi bacarmalı və vətənimizin uğurlu gələcəyi üçün iz qoymağı bacarmalıdır[1:4].

Hazırda Azərbaycan gəncliyi vətənimizi uğurla gələcəyə aparır. Onlar var qüvvələri ilə calışırlar ki, vətənimiz daha da çiçəklənsin. Bunun nəticəsidir ki, 12 avqust 1998-ci ildə Lissabonda qəbul edilmiş Beynəlxalq Gənclər gününü Azərbaycan gəncləri təntənəli şəkildə bayram edirlər. Ümummilli Liderimiz Heydər Əliyev gənclərə böyük dəyər verərək söyləmişdir: ”Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm



də sabahıdır, ümididir”. Ulu Öndərin gənclər haqqında dediyi bu olduqca dəyərli sözlər indiki gənclərimizin Qarabağ-Vətən müharibəsində göstərdikləri qəhrəmanlığın nəticəsi kimi özünü göstərdi.

**Müzakirə və təhlil**

Ümummilli lider Heydər Əliyev gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edib. Heydər Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövürlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradılmışdır. Azərbaycan gənclərinin l forumunda bu barədə danışan ölkə rəhbəri demişdir: “Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm”. Bu həmin illərin ən böyük nailiyyətlərindən idi. Dövlət gənclər siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən başlayaraq həmişə aparıcı istiqamətlərdən biri olmuşdur. Qeyd etdiyimiz kimi, hələ Sovet hakimiyyəti illərində ümummilli liderimiz yüzlərlə Azərbaycan gəncinin ittifaqın bir çox böyük və mərkəzi şəhərlərində təhsil almalarına şərait yaratmışdır.

Ali Baş Komandam İlham Əliyevin komandanlığı altinda 44 günlük “Dəmir yumuruq” döyüşündə erməni işğalçılarınıa qarşı Azərbaycanın Müzəffər Ordusu cəsurluqla vuruşaraq düşməni

çökdürdü. Vətəni-Qarabağı yağı düşməndən azad etdi. Gənclərimizin bu zəfər döyüşündəki misilsiz qəhramanlıqları aləmə səs saldı. Onlar 30 illik işğal altında qalmış şəhər və kəndlərimizi, torpaqlarımızı cəllad işğalçaların caynağındam xilas etdilər. Bu sağlam düşüncəli, mübariz, vətənpərvər Azərbaycan gəncliyini iftixar hissi ilə gedən zəfər yolu oldu[5:6]..

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin söylədiyi kimi, rəşadətli və şanlı Azərbaycan Müzəffər Ordusunun Tarixi Zəfəri gənclərimizin sonsuz vətənpərvərliyini, müasir dövrdə vətənimizə, dövlətimizə və xalqımıza məxsus gözəl, olduqca qiymətli bir nəslin kamilləşdiyini və formalaşdığını bütün dünya xalqlarına göstərdi. Böyük dahi şəxsiyyət olan Ulu Öndər Heydər Əliyev Azərbaycanın sabahını gənclərin fəaliyyətində, inkişafında görürdü. Ümummilli Lider Heydər Əlirza oğlu Əliyev hələ 1970-1980-ci illərdə Azərbaycan gənclərinin inkişafı üçün xeyli iş, əvəzolunmaz işlər görmüş, onların yaxşı təhsil alması üçün keçmiş sövetlər birliyində fəaliyyət göstərən ayrı-ayrı respublikalarda olan ali məktəblərə göndərərək onların yaxşı təhsil alması üçün lazımı şərait yaratmış və onların təhsil almalarına görə bütün köməkliklər göstərilməsini təmin etmişdir[2:3]..

Ulu öndərimiz Heydər Əliyevin bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və zəngin elmi potensialın yaradılmasına xidmət edirdi. Heç də təsadüfü deyildir ki, Heydər Əliyev hər zaman gənclərə qayğı ilə yanaşır, onların problemlərini həll etməyə çalışırdı.

Gənclərin ictimai-siyasi həyatda fəallığını artırmaq üçün həyata keçirilən Dövlət Proqramının tətbiqi, idarəetmə orqanlarında gənc mütəxəssislərə üstünlük verilməsi ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş gənclər siyasətinin uğurlu nəticəsidir.



Bu gün Ulu Öndərin gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ugurla və məqsədyönlü şəkildə davam etdirilir. Cənab Prezident İlham Əliyev gənclərin cəmiyyət həyatında fəal iştirakını təmin etmək üçün məqsədyönlü suyasi kursun davamı olaraq “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsil almasına böyük imkanlar yaradır. Bu proqram əsasında dünyanın 33 ölkəsinin 544 ali təhsil müəssələrində təhsil almaq yolları açılmışdır. Bunlarla əlaqədar Azərbaycan Republikasının Prezidenti İlham Əliyev demişdir: ”Ona görə mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatında yaxşı yer tutmasına gətirib çıxaracaqdır”. Cənab İlham Əliyev hər zaman gənclərə diqqət və xüsusi qayğı göstərir. Bunun nəticəsidir ki, “2015-2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf strategiyası” sərancamı verilmişdir. Gənclərimizə ayrılan bu qayğı və diqqət onların dövlət orqanlarında Milli Məcilisdə, bələdiyyələrdə, biznes sturukturlarında və başqa sahələrdə çalışmalarına böyük imkanlar açmışdır. Azərbaycan gəncləri Beynəlxalq aləmdə fəal iştirak edir, onlar istər idmanda, istər siyasətdə və s. yerlərdə hər zaman öz müstəqil sözlərini deməyi bacarırlar. Bu da gənclərimizin hər tərəfli inkişaf etməsindən xəbər verir[2:3].. Hər zaman, xüsusi ilə bu gün milli vətənpərvərlik Azərbaycanın hər bir vətəndaşının, xüsusən gənclərin həyat amalıdır. Ümumiyyətlə, bu gün Azərbaycan Respublikasında bütün sahələr üzrə gənclərin aktiv rolu danılmaz dərəcədə yüksəkdir və onlar uğurla irəliyə doğru addımlayırlar.

**Nəticə**

Nəticə üçün qeyd etmək lazımdır ki, gəncliyin sağlam ruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün önəmlidir. Cəmiyyətin aparıcı təbəqəsi gənclərdirsə, deməli, inkişaf və inteqrasiya məhz onlarla bir addımlayır. Cəmiyyətin gələcəyi

gənclərdir və öz gələcəyini düşünən hər bir cəmiyyət gənclərə qayğı göstərir.

Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevin apardığı hər tərəfli siyasət nəticəsində gənclərimiz üçün geniş imkanlar açılmış və onlar bundan bəhrələnərək bütün sahələr üzrə fəal iştirak edir, öz işləri ilə xalqına hər tərəfli xidmət göstərir.. Var olsun Azərbaycan gəncliyi, onlar xalqımızin bu günü və sabahıdırlar.

**Ədəbiyyat**


1. Heydər Əliyev. Təhsil millətin gələcəyidir (Tərtibedənlər: Misir Mərdənov və Əsgər Quliyev) Bakı:"Təhsil", 2002.səh.15-40
2. Mərdanov M.C., Şahbazlı F.Ş. Azərbaycanın təhsil siyasəti. Bakı, «Çaşıoğlu», 2002.səh.50-60
3. Mərdanov M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, «Çaşıoğlu», 2009, səh. 20-35
4. https://multiculturalism.preslib.az/az_a2.html
5. https://www.yeniazerbaycan.com/Siyaset_e57531_az.html
6. https://respublika-news.az/news/veten-muharibesinde-sanli-qelebemiz


## İNSAN SAĞLAMLIĞINA TƏSİR EDƏN SOSİAL AMİLLƏR


**Məmmədov Zaur**

*Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Maliyyə-iqtisadiyyat şöbəsinin baş məsləhətçisi* z.mammadov@health.gov.az


Əhalinin sağlamlıq səviyyəsinin artırılması və uzunömür-lülüyünün təmin olunması üçün onların sağlamlığına təsir edən sosial amillərin yaxşılaşdırılması çox böyük əhəmiyyət daşıyır. ÜST-nin araşdırmalarına görə sağlamlığın sosial amilləri (SSA) sağlamlıq



nəticələrinin 80 faizini təşkil edir [1]. Ona görə də bir çox ölkələrdə xəstələrin həyat tərzini və davranışlarını müsbət istiqamətdə dəyişməklə sağlamlıq səviyyəsinin artırılmasında müxtəlif yollar axtarılır. Buna görə SSA məlumatlarının əldə edilməsi teletəbabət, xəstələrin məsafədən monitorinqi (RPM), skrininq və bir çox bu kimi sağlamlıq müayinəsi alətinin mühüm sosial təyinedicisidir. Qeyd olunan alətlər daha yaxşı qayğı göstərmək üçün xəstənin sağlamlığı, yaşayış vəziyyəti və digər sosial amillər haqqında ətraflı məlumat əldə etmək məqsədi daşıyır.

ÜST-nin bəyanatlarına görə, SSA insanın ümumi sağlamlığının müəyyən edilməsində birbaşa rol oynayan və nəticədə sağlamlıq nəticələrinə təsir edən qeyri-tibbi amillərdir . SSA bizim doğulduğumuz, yaşadığımız, böyüdüyümüz, işlədiyimiz şərtlər və digər ətraf mühit amilləridir. Bu şərtlər həyat keyfiyyətini təşkil edir. Həyat keyfiyyəti nə qədər yaxşı olarsa, sağlamlıq da bir o qədər yaxşı olar [2].

ÜST insanın sağlamlığına təsir edən sosial amillərin siyahısını aşağıdakı kimi təqdim edir:

- Həyat tərzi
- Davranış
- Təhsil
- Gəlir və məşğulluq
- Sosial həyat
- Qonşuluq
- Ailə və dostlar
- Resursların mövcudluğu və əlçatanlığı
- Səhiyyə xidmətlərinə əlçatanlıq [2]

Bunlar insanın ümumi sağlamlıq vəziyyətinə təsir edən əsas sosial amilləridir. Bu amilləri ümumiləşdirərək aşağıda göstərildiyi kimi 5 əsas hissəyə ayırmaq olar [1]:

**İnsan sağlamlığına təsir edən sosial amillər**




Tədqiqatlar göstərir ki, SSA fərdlərə, o cüm-lədən onların həyat keyfiyyətinə və ümumi rifahına böyük təsir göstərir.

Məsələn, insanların yaşadığı məhəllələr onların sağlamlığına və rifahına böyük təsir göstərir. Ona görə də insanların doğulduğu, yaşadığı, öyrəndiyi, işlədiyi, oynadığı, ibadət etdiyi və yaşlandığı yerlərdə sağlamlıq və təhlükəsizliyin yaxşılaşdırılmasına daima diqqət yetirilməlidir. Hətta ABŞ kimi inkişaf etmiş ölkələrdə belə bir çox insan şiddətin yüksək olduğu, təhlükəli hava və ya su və digər sağlamlıq və təhlükəsizlik riskləri olan məhəllələrdə yaşayır. Əgər kimsə suyun içilməsinin təhlükəli olduğu, havanın çirkli olduğu, fiziki fəaliyyətə və qidalı yeməklərə çıxışın məhdud olduğu bir ərazidə yaşayırsa, bu, onların inkişafını xeyli çətinləşdirir. Bu, diabet, hətta ürək xəstəliyinin riskini artırır [1].

İnsanların ailə, dostlar, iş yoldaşları və icma üzvləri ilə münasibətləri və qarşılıqlı əlaqələri də onların sağlamlığına və rifahına böyük təsir göstərə bilər. Bir çox insanlar nəzarət edə bilmədikləri problem və təhlükələrlə üzləşirlər – təhlükəli məhəllələr, ayrı-seçkilik və ya ehtiyac duyduqları şeyi əldə etməkdə çətinlik. Bu, həyat boyu sağlamlıq və təhlükəsizliyə mənfi təsir göstərə bilər. Evdə, işdə və cəmiyyətdə müsbət münasibətlər bu mənfi təsirləri



azaltmağa kömək edə bilər. Ancaq bəzi insanlar – valideynləri həbsdə olan uşaqlar və zorakılığa məruz qalan yeniyetmələr çox vaxt yaxınlarından və ya başqalarından dəstək almırlar. İnsanlara ehtiyac duyduqları sosial dəstəyi almağa kömək edən müdaxilələr sağlamlıq və rifahın yaxşılaşdırılması üçün çox vacibdir [3].

İqtisadi sabitlik dedikdə işçilərin maaşından tutmuş iş mühitinə və iş təhlükəsizliyinə qədər olan bütün nüanslar başa düşülür. Gəlir sağlamlıqla bağlı davranışlara ən böyük təsir göstərən məhsul və xidmətlərə çıxış imkanı verdiyinə görə, SSA-nın ən vacib amillərindən biri hesab olunur.

Keyfiyyətli təhsil insanlara bilik və bacarıqlar, məhsuldarlıq ruhu, yeniliklərə uyğunlaşmaq və özünü yeniləmək kimi xüsusiyyətlər qazandırdığına görə SSA-nın vacib amili hesab olunur.

Keyfiyyətli səhiyyə xidmətlərinə çıxış dedikdə isə tibbi sığorta, ilkin və profilaktik tibbi qayğıya çıxış, tibb müəssisələrinə, apteklərə və tibbi ləvazimatlara yaxınlıq başa düşülür.

## Ədəbiyyat


1. https://info.totalwellnesshealth.com/blog/social-determinants-of-health
2. https://www.who.int/health-topics/social-determinants-of-health#tab=tab_1
3. https://health.gov/healthypeople/objectives-and-data/browse-objectives/social-and-community-context

# ŞİRKƏTLƏRDƏ MÜHASİBAT UÇOTUNUN TƏŞKİLİ

**Məmmədova Arzu**
*Elmi rəhbər: İ.Ü.F. dos. İsmayılov Fazil İsmayıl oğlu*
*Azərbaycan Texnologiya Universiteti, Magistrant*
arzumemmedova1002@gmail.com

***Açar sözlər:*** *Mühasibat uçotu, şirkətlər.*

Mühasibat uçotunun bir elm kimi əsası Benedetto Kotruli (1458) və Luka Paçolinin (1494) əsərlərində qeyd olunmuşdur. Hələ bizim eradan əvvəl 2000-ci ildə uçot sisteminin inkışafı Çində, ikili mühasibatlığın elementləri isə qədım Romada qeydə alınmışdır. [s.5.1,1.2]

Şirkətlərin idarə edilməsində mühasibat uçotunun informasiyalarından daha səmərəli istifadə edə bilmək üçün mühasibat uçotunun qabaqcıl uçot metodlarından, mühasibat uçotunun beynəlxalq standartlarından istifadə olunması, uçot əməliyyatlarının kompüterləşməsi istiqamətində ətraflı iş aparılması dövrün vacib məsələsidir. Şirkətlərin inkişafında yüksək ixtisaslı mühasiblərin, iqtisadçıların hazırlığının həyata keçirilməsində mühasibat balansının quruluşu, növləri və formaları, mühasibat hesabları, sintetik və analitik hesablar üzrə dövriyyə cədvəllərinin tərtibi, mühasibat sənədlərinin təsnifatı və təyinatı, sənədlərin qəbulu rolunda böyük əhəmiyyəti olacaqdır.

**Nəticə**

Azərbaycan iqtisadiyyatına xarici investisiyanın cəlb edilməsi, müştərək və xarici müəssənin, şirkətlərinin yaradılması, dünya təsərrüfat sisteminə sıx inteqrasiya xarici tərəfdaşlar və potensial investorlar üçün beynəlxalq maliyyə institutları qəbul edilən formada mühasibat uçotu və maliyyə hesabatlarının qurulmasını zəruri edir. Müəssisə və şirkətlərdə mühasibat uçotunun təşkili qaydası mülkiyyət formasından, ölçüsündən, şirkətinin uçot işlərinin həcmindən, mühasibat işçilərinin ixtisas səviyyəsindən, uçot proseslərinin avtomatlaşdırılması vasitələrinin miqdarından, fəaliyyət növündən, sahə xüsusiyyətindən, xarici iqtisadi fəaliyyətin səviyyəsindən, müəssisənin təşkilati quruluşundan, istehsal tipinin əvəzsiz rolu vardır.

**Ədəbiyyat**

1. A.H.Əliyeva. Mühasibat uçotu. Bakı, “Elm və təhsil”,m 2016, 256 səh.
2. https.//unec.edu.az

# ABŞ VƏ AZƏRBAYCAN ARASINDA ENERJİ DİPLOMATİYASI (1994-2000)

**Məmmədova Rahilə**
*Azərbaycan Dillər Universiteti*
*Beynəlxalq Münasibətlər və İdarəetmə fakültəsi*
*Regionşünaslıq (Amerika) ixtisası, IV kurs*
*rahilamv.2003@gmail.com*

XX əsrin 90-cı illərinin əvvəllərində yeni dünya nizamında əsas güc mərkəzinə çevrilən ABŞ yeni müstəqillik əldə etmiş ölkələrlə siyasi və iqtisadi münasibətlərin qurulmasına xüsusi önəm verməyə başladı. Dünyanın iqtisadi gücü hesab olunan ABŞ yaranmış siyasi proseslərdən istifadə edərək formalaşan birqütblü dünya sistemində Şərqi Avropa və Mərkəzi Asiyada olduğu kimi Qafqaz regionunda da fəal xarici siyasət strategiyası həyata keçirmək üçün geniş imkanlar əldə etmiş oldu. 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanması ABŞ-Azərbaycan iqtisadi və enerji təhlükəsizlik əlaqələrində yeni mərhələnin başlanğıcını qoydu. Bundan sonra ABŞ-Azərbaycan

arasında bir sıra neft yataqlarının işlənilməsi ilə bağlı müqavilələrin imzalanması iqtisadi sferada qarşılıqlı münasibətlərdə müsbət dinamikaya səbəb oldu [1].

Uzun illərdən sonra müstəqillik əldə edən Cənubi Qafqaz ölkələri (xüsusilə Azərbaycan və Gürcüstan) regionda yaranan ağır iqtisadi və siyasi vəziyyətin normallaşması, mövcud problemlərin aradan qaldırılması baxımından ABŞ-la çoxtərəfli əməkdaşlığın qurulması və inkişafında maraqlı idi. Bunun vacibliyini şərtləndirən ən mühüm amillərdən biri də İran və Rusiyanın təhdid və təzyiq mexanizmlərindən xilas olmaq idi. Azərbaycan Respublikası da suverenlik əldə etdikdən sonra ABŞ-la bir çox sahələrdə olduğu kimi, iqtisadi sferada da əməkdaşlığın formalaşdırılması məsələsinə xüsusi önəm verməyə başladı [3].

XX əsrin 90-cı illərinin əvvəllərində ölkədəki xarici siyasət kursunun uğursuzluğu iqtisadi sahədə də ikitərəfli münasibətlərin qurulmasına təsirsiz ötüşmədi. Məhz bu baxımdan ABŞ-Azərbaycan iqtisadi münasibətlərinin qurulması və inkişafını şərti olaraq iki mərhələyə bölməyə imkan verir: 1991-1993-cü illər; 1993-cü ildən sonrakı dövr. Birinci mərhələdə iki ölkə arasında iqtisadi sahəni əhatə edən bir sıra müqavilələr bağlanıb, danışıqlar aparılsa da, bu ABŞ-Azərbaycan iqtisadi münasibətlərinin geniş sferada inkişafı ilə nəticələnmədi. İkinci mərhələdə isə “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın neft strategiyasında yeni bir mərhələnin başlanğıcını qoydu. “Əsrin müqaviləsi” 1994-cü il sentyabr ayının 20-də Bakıda Gülüstan sarayında imzalandı [2]. “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının işlənilməsi və məhsulun pay bölgüsü haqqında 400 səhifəlik bu müqavilə 4 dildə tərtib edilmişdi. Bu müqavilə daha sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açdı. Enerji təhlükəsizlik sahəsində əməkdaşlıq 1994-cü ildən başlayaraq 2000-ci illədək olan dövrdə dünyanın mühüm neft şirkətləri ilə bağlanan ikitərəfli müqavilələr



Azərbaycanda mövcud enerji ehtiyatlarının hasilatı və ixracı üçün əlverişli mühit formalaşdırdı [3].

Beləliklə, iki ölkə arasında enerji sahəsində baza rolunu oynayan “Əsrin müqaviləsi”nin imzalanmasından sonra aparılan danışıqlar, imzalanan bir sıra mühüm müqavilələr, həyata keçirilən tədbirlər və icra edilən layihələr ABŞ-Azərbaycan iqtisadi münasibətlərinin gələcək inkişafına müsbət zəmin yaratdı. Azərbaycan tərəfindən yeridilən uğurlu xarici siyasət strategiyası nəticəsində ABŞ-ın ən mühüm şirkətlərinin ölkədəki beynəlxalq neft-qaz layihələrinə cəlb edilməsi bu sferanın inkişafına təsir göstərməklə yanaşı, ABŞ-ın Azərbaycana yönəlik siyasətində dəyişikliyə səbəb oldu [4].

Bundan sonra qarşıda duran əsas məsələ Azərneftin dünya bazarlarına təhlükəsiz daşınmasını təmin etmək idi. Təbii olaraq bu prosesdə neft sahəsində böyük pay sahibi olan ABŞ da olduqca maraqlı idi. Buna baxmayaraq rəsmi Vaşinqtonun bölgəyə daha da nüfuz etməsi İran və Rusiyanı qıcıqlandırırdı. Rusiyadan fərqli olaraq “Əsrin müqaviləsi” ndə yer almayan İran ən azından Azərbaycan enerji ehtiyatlarının ixracında əsaslı rol oynamaq niyyətində idi. Elə bu reallıqdan çıxış edən rəsmi Tehran neftin Bakı-Bəsrə ixrac boru kəmərinin reallaşması vasitəsilə daşınmasını təklif etdi.

Qeyd edilən məsələdə heç də İrandan geri qalmayan rəsmi Moskva isə neftin daşınması üçün Bakı-Novorosiysk neft kəmərinin yetərli olduğunu bildirdi. İran tərəfindən irəli sürülən bu təklif nə ABŞ, nə də Azərbaycan hökumətləri tərəfindən qəbul edilmədi. Bəs buna səbəb olan amillər nə idi? Nəyə görə Azərbaycan mövcud enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasında İran deyil, ABŞ və Türkiyə ilə əməkdaşlığa üstünlük verərək, yeni neft kəmərinin çəkilməsinin reallaşmasına çalışırdı? Fikrimizcə, bunu aşağıda qeyd etdiyimiz amillərlə izah etmək olar:

- Ölkədəki mövcud zəngin enerji ehtiyatlarından səmərəli istifadə etmək;
- Ölkə iqtisadiyyatının yüksək inkişafının təmini ilə Azərbaycanın iqtisadi və hərbi gücünü artırmaq;
-Dağlıq Qarabağ məsələsinin beynəlxalq müstəvidə müzakirəsinə nail olmaq;
-Azərbaycanın təhlükəsizliyini təmin etmək.

Qeyd etdiyimiz bu reallıqlar Azərbaycanı vurğuladığımız məsələdə daha təkidli mövqe tutmağa vadar edirdi. ABŞ isə Sovet İttifaqının iflasından sonra İranı təsir gücünün məhdudlaşdırılması və enerji lahiyələrində yer almaması gərəkən bir ölkə kimi dəyərləndirdi [5].

Bu baxımdan ABŞ diplomatları Stefen Sestanoviç və Mark Qrosman Xəzər dənizindəki enerji resurslarının daşınmasında İran variantına qarşı çıxış edərək, bir sıra şirkətlərin bu sahədəki fikirlərinin dəyişməsinə nail oldular. Stefen Sestanoviç İran variantının məntiqsiz olduğunu qeyd etdi. Mark Qrossman isə İrandan keçəcək boru xəttinin nəinki riskli olduğunu, bununla yanaşı enerji ehtiyatlarının çox az ölkənin nəzarətində olmasına yol açacağı ilə heç kimin mənafeyinə uyğun olmayacağını qeyd etdi.

Belə şəraitdə rəsmi Vaşinqton həm İran, həm də Rusiya məngənəsində sıxılan Cənubi Qafqaz regionunun inkişafına nail olmaqla, bölgədə öz hərbi, siyasi və iqtisadi mövqelərini gücləndirmək istəyində israrlı olduğundan, həm də Xəzərdəki mövcud mövcud enerji ehtiyatlarını Körfəz kimi önəmli hesab etdiyindən neft ehtiyatlarının yeni boru xətti ilə daşınmasının tərəfdarı idi.

1999-cu ilin aprel ayının 17-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadze və Ukrayna Prezidenti Leonid Kuçmanın iştirakı ilə imzalanan Bakı-Supsa neft kəməri, Qara dəniz sahilində Gürcüstanın Supsa ixrac terminalının işə düşməsinə yol açdı. Bu



kəmərin işə salınması, daha sonra isə Bakı-Tbilisi-Ceyhan kəmərinin çəkilməsində dair müqavilənin imzalanması "Əsrin müqaviləsi" nəticəsində ortaya çıxan yeniliklər oldu.8 Elə həmin ilin noyabr ayında İstanbulda ATƏT-in sammitində Türkmənistan, Qazaxıstan, Gürcüstan, Azərbaycan, Türkiyə və ABŞ BTC boru kəmərini dəstəklədiklərini bildirdilər. 2003-cü ildə isə boru kəmərinin çəkilişinə başlanıldı [1].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci ilin 27 iyul-6 avqust tarixlərində ABŞ-a rəsmi səfəri də iqtisadi əlaqələrin inkişafına yeni təkan verdi. Səfər zamanı 5 mühüm sənəd- Amerika-Azərbaycan münasibətləri haqqında Birgə Bəyanat, Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında müqavilə, Birləşmiş Ştatlar ilə Azərbaycan arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlər barədə Birgə Bəyanat, Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoq yaradılması niyyətləri haqqında bəyanat, Layihələrin təşviqinə dair Baş Saziş imzalandı. Bundan sonra isə Amerika Birləşmiş Ştatları Hökuməti və Azərbaycan Respublikası hökuməti onların gömrük idarələri arasında qarşılıqlı yardım haqqında 14 maddəlik Saziş bağlandı [3].

Beləliklə, 1991-1993-cü illərdən fərqli olaraq, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasından sonra aparılan danışıqlar, imzalanan bir sıra mühüm müqavilələr, həyata keçirilən tədbirlər və icra edilən layihələr ABŞ-Azərbaycan iqtisadi münasibətlərinin gələcək inkişafına müsbət zəmin yaratdı.

Azərbaycan tərəfindən yeridilən uğurlu xarici siyasət strategiyası nəticəsində ABŞ-ın ən mühüm şirkətlərinin ölkədəki beynəlxalq neft-qaz layihələrinə cəlb edilməsi bu sferanın inkişafına təsir göstərməklə yanaşı, ABŞ-ın Azərbaycanan yönəlik siyasətində

dəyişikliyə səbəb oldu. Azərneftin dünya bazarlarına çatdırılmasını təmin etmək üçün ABŞ-ın iştirakı ilə reallaşdırılan mühüm layihələr Azərbaycanın iqtisadi potensialını gücləndirməklə yanaşı, ölkənin təhlükəsizliyinin təminində əsaslı roy oynadı [5].

### Ədəbiyyat


1. Azərbaycan Respublikası Qanunvericilik Toplusu-1997-ci il, №3, Azərbaycan Respublikası Prezidentinin Nəşri, Bakı 1997.
2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Tarix-Arxiv İdarəsi, fond 26, siyahı 11.
3. GEORGE. H, W. Bush Presidential Records, National Security Council, stack: V, row 9, section 5.
4.HƏSƏNOV,Ə.Azərbaycan-ABŞ anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991-avqust 1997), Bakı, Azərbaycan Universiteti Nəşriyyatı, 1997.
5. KAZIMLI, X. Yeni əsrə keçidin iqtisadi panoramı. Neft strtategiyası və Azərbaycan iqtisadiyyatı, "Azərbaycan" qəzeti, 2000, 22 noyabr.


## QASTRONOMİK TURİZM MƏHSULLARI VƏ MARKETİNQ STRATEGİYALARI


**Məmmədova Sevil**
Seva28245@gmail.com


Qastronomik turizm milli mətbəx, kulinariya ənənələri, istehsal xüsusiyyətləri və məhsul və xörəklərin hazırlanması texnologiyası ilə tanış olmaq, həmçinin qastronomiya sahəsində yeni biliklər əldə etmək məqsədilə ölkə və regionlar üzrə səyahətdir. Yeməyin tarixi və bir çox ifadə formaları var ki, bu da onu qastronomik və ya kulinariya



turizmi adlanan xüsusi bir turizm növü üçün mənbəyə çevirir. İnsanların həyatını, mədəniyyətini və ənənəvi mətbəxini təqdim edən kənd yerlərində qastronomik turlar populyarlıq qazanır. Dünya xalqlarının mətbəxi müxtəlifdir və onun fərqli xüsusiyyətləri iqlim, təbii şərait, qida ehtiyatları, dini ənənələr, mədəni əlaqələr və digər amillərlə bağlıdır.

Azərbaycan öz marketinq fəaliyyətində ölkənin qədim zamanlara dayanan qastronomik irsindən geniş istifadə edir. Köhnə reseptlər hazırlamaq üçün təzə, yerli və üzvi məhsulların istifadəsi onlara ənənəni qorumağa və orijinallığı təmin etməyə kömək edir.

Qastronomiya sürətlə turizm məkanı seçiminə təsir edən mühüm amilə çevrilir və yüksək keyfiyyətli qastronomiya məhsulları turistlərin yaddaşında uzun müddət qalır. Bu gün bir çox turizm istiqamətləri öz marketinq strategiyalarını qastronomik turizm əsasında qururlar. Qastronomik turizmin marketinqi və təşviqi sahəsində təklif olunan tədbirlərə aşağıdakılar daxildir:

- beynəlxalq səviyyədə güclü və ahəngdar imic yaratmaq üçün dövlət-özəl sektor əməkdaşlığının yeni modellərindən istifadə
- qastronomik bilikləri qorumaq və turizm məkanının inkişafını təşviq etmək üçün aşpazlar və yerli istehsalçılarla əməkdaşlıq
- bütün əsas media kanallarında, turist bələdçilərində, qastronomiya bloqlarında və sosial şəbəkələrdə imic yaratmaq üçün proaktiv yanaşma nümayiş etdirin.
- qida və içkilərin ixracının inkişafı və xaricdə yüksək keyfiyyətli restoranlar şəbəkəsinin yaradılması
- real gözləntiləri müəyyən edən ədalətli və etibarlı marketinq siyasətinin həyata keçirilməsi.

Turizm nazirlikləri, kənd təsərrüfatı nazirlikləri, qeyri-hökumət təşkilatları və yerli bizneslər arasında əməkdaşlıq mühitində aqro-turizm təşəbbüslərinin inkişafı yerli icmalara investisiya qoyuluşunu, dayanıqlı turizmi və kənd təsərrüfatı təcrübələrini təşviq edir.

## Ədəbiyyat


1. Витковская Н.С., Кудряшова Н. (2010), Новое направление в туризме - гастрономические туры // Вестн. филиала Сочинского государственного университета туризма и курортного дела в г. Нижний Новгород. № 3. С 158-165.
2. Gordin V., Trabskaya J. (2013), The Role of Gastronomic Brands in Tourist Destination Promotion: The Case of St. Petersburg // Place Branding and Public Diplomacy. № 9. P. 189-201.
3. Gyimothy S., Mykletun R. (2009), Scary Food: Commodifying Culinary Heritage as Meal Adventures in Tourism // J. Vacat. Marketing. 2009. № 15(3). P. 259-273.


## DƏMİRYOLU NƏQLİYYATININ İDARƏETMƏSİNDƏ BÖHRANLARIN İDARƏEDİLMƏSİ TEXNOLOGİYASI


**Mirzəyev Ruzigar**

*Azərbaycan Texnologiya Universiteti*

ruzigar_mirzayev@mail.ru



***Açar sözlər:*** *Dəmir yolu, logistika, böhran, təhlükəsizlik*


Müasir dövrdə qarşıya qoyulan əsas vəzifələrdən biri beynəlxalq standartlara cavab verən Dəmir yol-logistika sistemlərinin yaradılmasıdır. Bu problemin həlli ölkəmizin qlobal iqtisadi məkana inteqrasiyanı sürətləndirir və dünya ölkələri arasında tərəfdaşlıq əlaqələrini genişləndirir.

Dəmir yolu şirkətlərinin fəaliyyətinin təkmilləşdirilməsi çərçivəsində qeyri-ənənəvi yollarla inkişaf edən xarici və daxili şəraitə uyğun necə optimal cavab verməklə bağlı suallar yaranır. Bu sualların ən vaciblərindən biri istehsalçılar, müştərilər, nəqliyyat sistemi və digər əlaqəli sənayelər arasında böhranların yaranma səbəbləridir. Dəmir yolu nəqliyyatı sahəsində qurulan nəqliyyat və



logistika sisteminin məntiqli şəkildə təşkil edilmiş idarə edilməsi böhran hadisələri zamanı müvafiq mexanizmlərə və fəaliyyət qaydalarına malik olmalıdır. Belə mexanizmləri inkişaf etdirməyin əsas yollarından biri normal şəraitdə logistika sistemlərinin idarəedilməsini təsvir edən mövcud modellərin uyğunlaşdırılmasıdır.

Uyğunlaşma prosesində müşahidə olunan hadisələrin böhran xarakterini əks etdirən xarici parametrlərin yəni, daha ekstremal xüsusiyyətlərinin həyata keçirilməsi və böhran şəraitində nəqliyyat şirkətinin iş prioritetlərinin dəyişdirilməsi ilə əlaqəli modellərdə optimallaşdırılmış hədəf funksiyalarının mümkün qədər dəyişməsi. təmin edilməlidir. Belə bir yanaşma məntiqlidir və lakin onun da məhdudiyyətləri var. Bu məhdudiyyətlər, ilk növbədə, çox vaxt kardinal xarakter daşımalı olan logistika kompleksinin idarə edilməsinin təşkilində məqsəd parametrlərinə və prioritetlərinə yenidən baxılması zərurəti ilə əlaqələndirilir. Məsələn, normal şəraitdə hər hansı bir şirkət, ilk növbədə, mənfəətini artırmağa çalışır. böhran şəraitində isə şirkətinin batmaması və ya ən azından ziyan vurmaması ön plana çıxır.

Beləliklə, böhran şəraitində nəqliyyat şirkətinin iqtisadi təhlükəsizliyi məsələsi daha çox aktuallaşır. Bir sözlə, böhran hadisələrinin gücü və səviyyəsi iqtisadi təhlükəsizliyə təhdid səviyyəsini müəyyən edir-bir şirkətin sağ qalması, bütün sənayenin fəaliyyətinin uğuru və ya son nəticədə ölkə iqtisadiyyatının həyat səviyyəsi ilə məhdudlaşır.

Hazırda dəmir yolu idarəetmə sistemində çoxlu sayda logistik həllər tətbiq edilmişdir. Bu, texnoloji prosesdə nəzərdə tutulmayan hər hansı bir yolun dayandırılması istismar xərclərinin artmasına, daşınma prosesinin təmin edilməsi üçün xərclərin artmasına və nəticədə dəmir yolu şirkətinin mənfəət və ya zərərinin azalmasına səbəb olur. Bu istiqamətdə xərcləri optimallaşdırmaq üçün həddindən artıq səy iqtisadi təhlükəsizliyin təmin edilməsi ilə ziddiyyət təşkil

edə bilər, çünki vaqonların dayanma prosesinin planlaşdırılmış şəkildə təmin edilməsi vaqonun məcburi dayandırılmasına və sonradan qoşulmuş avtomobillərin işinin qeyri-mütəşəkkilliyinə səbəb olan mənfi risklərin həyata keçirilməsinə səbəb ola bilər.

Dəmiryol Stansiyalarının işinin idarə edilməsi üçün ənənəvi saatlıq planlaşdırma texnologiyasından istifadə etməklə həyata keçirilir. Yük, vaqon və qatar axınlarının idarə edilməsi daşınma prosesinin bütün müvafiq iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilir. Bu idarəetməni daşınma prosesini idarə edən sistem həyata keçirir.

Bundan əlavə, dəmir yolları dəmir yolu daşımalarının əsas istehsal fəaliyyətinə kömək edən nəqliyyat və digər təşkilatlarla səmərəli əməkdaşlıq edir. Belə bir sistemin yaradılması dəmir yolu stansiyaları, qatarların idarəetmə məntəqələri və dəmir yolu istiqamətləri səviyyəsində avtomatlaşdırılmış informasiya və idarəetmə texnologiyalarının sürətləndirilmiş və kompleks şəkildə tətbiqi sayəsində mümkün olmuşdur.

## HEYDƏR ƏLİYEV TÜRK DÜNYASININ LİDERİ KİMİ

**Mirzəyeva Bəyim**
*Nizami Gəncəvi adına Milli Ədəbiyyat muzeyinin doktorantı*
*mirzeyevabeyim83@mail.ru*

***Açar sözlər:*** *Heydər Əliyev, türk dünyası, gənclər siyasəti, İlham Əliyev, tarixi xidmət*

Görkəmli dövlət və siyasət xadimi ümummilli lider Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin qorunması, möhkəmləndirilməsində, daxili və xarici siyasətinin formalaşdırılması və həyata keçirilməsində misilsiz rolu olmuşdur. Ulu öndərin müəyyən etdiyi



məqsədyönlü siyasət nəticəsində Azərbaycanın xarici ölkələr, xüsusilə türk dövlətləri ilə dostluq və qardaşlıq münasibətləri yeni məcrada uğurla inkişaf etdirilmişdir.

Tarixdən məlumdur ki, müəyyən dövrlərdə türk dövlətləri arasında əlaqələr subyektiv səbəblərdən qırılmışdır. Əlalxüsus da sovet dönəmində müəyyən dövrləri nəzərə almasaq, Türkiyə ilə münasibət, demək olar ki, olmamışdır. Qazaxıstan, Türkmənistan, Özbəkistan və Qırğızıstan ilə münasibətlər isə İttifaq tərkibində sovet respublikaları olduğuna görə saxlanılmışdır. Azərbaycan müstəqil türk dövləti kimi dünya ictimaiyyəti tərəfindən tanınsa da, beynəlxalq aləmdə nüfuz qazana bilməmişdi. Azərbaycan dövlətinin xarici siyasətinin mühüm istiqamətlərindən biri türk dövlətləri ilə münasibətlərin yeni təməl üzərində qurulması oldu. Prezident Heydər Əliyevin yürütdüyü ardıcıl, uğurlu beynəlxalq siyasi fəaliyyət nəticəsində 1994-cü ilin əvvəllərindən etibarən türk dövlətləri ilə münasibətlərdə əsaslı dönüş yaranmağa başladı.

Ulu öndərin xarici ölkələrə ilk səfərlərindən biri 1994-cü ilin fevral ayında məhz Türkiyəyə oldu. Səfər zamanı Azərbaycan ilə Türkiyə arasında ikitərəfli siyasi, ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlığı daha da inkişaf etdirməyi nəzərdə tutan bir sıra mühüm sənədlər imzalandı. Bütün bunlar Heydər Əliyevin iki ölkə arasında münasibətlərin yeni təməl üzərində qurulmasında və bütövlükdə türk dünyası qarşısında tarixi xidməti idi.

1996-cı il mayın 27-də "Özbəkistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə"nin, 1997-ci ildə Qırğızıstanla ticarət-iqtisadi əməkdaşlığa dair sazişin, həmin ilin iyun ayında Qazaxıstana rəsmi səfər zamanı ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında bəyannamə və Qazaxıstan neftinin beynəlxalq bazarlara daşınmasında əməkdaşlıq haqqında memorandumun imzalanması ilə qarşılıqlı faydalı əməkdaşlıq quruldu.

Türkmənistan Respublikası ilə də münasibətlərin möhkəmlənməsinə xüsusi diqqət yetirən Ulu öndər 1994-cü ilin oktyabr ayında bu ölkəyə də rəsmi səfər etdi. Türkmənistan Prezidenti Saparmurad Niyazov da 1996-cı ilin mart ayında Bakıda rəsmi səfərdə oldu. Bu səfərlərin nəticəsində ikitərəfli siyasi, iqtisadi və mədəni əməkdaşlığın inkişaf etdirilməsi üçün bir sıra vacib sənədlər imzalandı və mühüm məsələlərə dair ümumi razılaşma əldə olundu. Sonrakı illərdə digər sahələrdə də əlaqələr tənzimləndi və münasibətlərin yeni təməl üzərində inkişafı üçün zəmin yarandı.

Bütün bunlar onu göstərir ki, türk dövlətləri ilə münasibətlərin inkişaf etdirilməsində Heydər Əliyevin xüsusi tarixi rolu danılmazdır. Heydər Əliyev Azərbaycan Respublikasının türk dövlətləri ilə qarşılıqlı münasibətlərinin çoxtərəfli əsasda (TÜRKSOY, türk xalqlarının dostluq, qardaşlıq və əməkdaşlıq qurultayları, türk dövlət başçılarının zirvə görüşləri) həyata keçirilməsində müstəsna rol oynamış, hərtərəfli əlaqələrin qurulub inkişaf etdirilməsi üçün bütün imkanları səfərbər etmişdir.

Ulu öndərin yorulmaz siyasi fəaliyyəti nəticəsində beynəlxalq diplomatik-siyasi münasibətlərin inkişafında mühüm addımlar atılmış, bu münasibətlər yeni təməl üzərində qurulmuş, ticarət-iqtisadi, elmi-texniki, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi istiqamətində birgə sənədlər imzalanmışdır. Heydər Əliyevin 1998-ci ilin fevral ayında Türkiyəyə səfəri isə dövlətlərarası əlaqələrin inkişafında xüsusi əhəmiyyət kəsb edirdi.

Həmin ilin sentyabr ayında TRASEKA proqramı çərçivəsində keçirilən beynəlxalq konfransda iştirak edən Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə görüşündə Ulu öndər türk dövlətləri arasında münasibətlərin daha da inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparmışdır. Hər iki ölkə prezidenti türk dünyası arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyindən bəhs edərək türk dövlətlərinin problemlərini müzakirə etmişlər.



Prezident Heydər Əliyev türk dünyasının möhkəmlənib inkişaf etməsi ilə bağlı qeyd etmişdir: “Bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayıb, bir-birimizlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik”.

“Biz bir millət, iki dövlətik” şüarını rəhbər tutan Ulu öndər türk dövlətləri arasında beynəlxalq əlaqələrin inkişafına xüsusi önəm verdiyini öz siyasi fəaliyyəti ilə sübut etmişdir. Dövlətlərarası qarşılıqlı münasibətlərin ən mühüm məsələləri Türkiyə dövlət və hökumət nümayəndə heyətlərinin Azərbaycana səfərləri zamanı geniş müzakirə edilmişdir. Ulu öndər Türkiyə ilə diplomatik-siyasi münasibətlərin möhkəmləndirilməsinə Azərbaycan dövlətinin xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi baxmışdır.

Ölkəyə rəhbərlik etdiyi dövrdə daim türk dövlətləri ilə səmimi münasibətlər yaradan, türk dünyası arasında birliyin təmin olunmasına xüsusi önəm verən Ulu öndər Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair yaradılmış beynəlxalq konsorsiumda da Türkiyənin fəal iştirakına çalışırdı. Böyük rəhbər Xəzər dənizinə türk dövlətlərini birləşdirən amil kimi baxır və enerji ehtiyatları sahəsində onların əməkdaşlığını yüksək qiymətləndirirdi. O, hesab edirdi ki, iqtisadi əlaqələrin genişləndirilməsi Azərbaycan–Türkiyə münasibətlərinə bir sıra siyasi

üstünlüklər verir. 1998-ci il oktyabrın 29-da Ankarada Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinə dair bəyannamənin imzalanması Heydər Əliyevin türk dünyası qarşısında mühüm tarixi xidmətidir.

1999-cu ildə Ümummilli lider Heydər Əliyevə sülh uğrunda apardığı mübarizəyə görə "Beynəlxalq Atatürk Sülh Mükafatı" təqdim olunmuşdur. Ulu öndər özü də dövlətçilik fəaliyyətində türk dünyasının böyük öndəri Atatürkün dövlət quruculuğu təcrübəsinə həmişə yüksək dəyər verir, onun irsinin öyrənilməsi və təbliğini vacib hesab edirdi. Bu məqsədlə də 2001-ci ildə Bakıda Atatürk Mərkəzinin yaradılması haqqında sərəncam imzalamışdır.

Türk dünyası dövlətləri ilə qurulan beynəlxalq əlaqələrin elmi-nəzəri, tarixi baxımdan mühüm əhəmiyyət kəsb etdiyini daima vurğulayan Ulu öndər türkdilli ölkələrin mədəniyyət səylərini birləşdirən beynəlxalq təşkilat TÜRKSOY-un fəaliyyətinə də xüsusi qayğı göstərmişdir.

Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə Azərbaycan və Türkiyə arasında ədəbi-mədəni əlaqələr də yüksək səviyyədə inkişaf etdirilmişdir.

Hazırda Ulu öndərin bu siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və onun Türk Dünyası Dövlətlərinin birliyi, qardaşlığı və həmrəyliyi uğrunda gərgin və yorulmaz fəaliyyəti öz bəhrəsini verməkdədir. Prezident özü bu barədə Türk-dilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında bildirmişdir: "Türk dünyası böyük dünyadır. Bizi birləşdirən aramızdakı münasibətlərdir, qardaşlığımızdır, ortaq keçmişimizdir, bugünümüz-dür. İyirmi ilə yaxındır ki, ölkələrimiz müstəqil dövlətlər kimi yaşayırlar. Bu müddət ərzində ölkələrimiz gücləndi, formalaşdı, dövlətçiliyimizin əsasları quruldu. Bu gün Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan kimi ölkələr öz növbəsində Türkiyəni gücləndirir, necə ki, böyük və güclü Türkiyə bizi



gücləndirir. Bizim gücümüz bizim birliyimizdədir. Biz çalışmalıyıq ki, bütün sahələrdə bu birliyi daha da möhkəmləndirək".

Ulu öndər tərəfindən müəyyənləşdirilmiş siyasi kursu uğurla davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanı inamla zəfərlərə doğru apardı və indi də aparmaqdadır. Ümummilli lider Heydər Əliyevin Azərbaycan–Türkiyə qardaşlığı, Türk dünyasının birliyi, həmrəyliyi ilə bağlı fikirləri möhtərəm cənab Prezidentimiz İlham Əliyevin siyasi fəaliyyətində təsdiqini tapmaqda və bütün sahələrdə öz töhfəsini verməkdədir.

## DATA ANALİTİKANIN NÖVLƏRİ VƏ TƏHLİLİ METODLARI

**Mirzəyeva Gülnar**
**Allahyarova Nərmin**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
gulnar.mirzayeva@gmail.com

Son zamanlar müəssisələr əldə edə biləcəkləri hər bir üstünlüyə və üstünlüklərə ehtiyac duyurlar. Sürətlə dəyişən bazarlar, iqtisadi qeyri-müəyyənlik, dəyişən siyasi mənzərələr, cəld istehlakçı münasibətləri və hətta qlobal pandemiyalar kimi maneələr sayəsində bu gün müəssisələr səhvlərə yol verməmək üçün çox çalışırlar.

Biznesdə qalmaq və inkişaf etmək istəyən şirkətlər "Data analitik nədir?" sualına cavab verərkən ağıllı seçimlər edərək uğur şanslarını artıra bilirlər. Bəs şirkət bu seçimləri necə edir? Onlar mümkün qədər çox faydalı, hərəkətə keçə bilən məlumat toplayır və sonra daha yaxşı məlumatlı qərarlar qəbul etmək üçün ondan istifadə edirlər [1-3].

İlk öncə Data və Data analitik nədir suallarını cavablandıraq. Data şəxslər və ya obyektlər haqqında miqdarlı və ya atributlu kəmiyyətlər çoxluğudur. Yəni, ingiliscə Quantitative və Qualitative Data. Data sadəcə müəyyən ədədlər, rəqəmlər, hərflər, stringlər çoxluğudur. Datanın özü məlumat demək deyil, məlumat bilgi demək deyil, bilgi isə müdriklik demək deyil.

Əvvəlcə DIKW Piramidasını təhlil edək.




Piramidanın ilk mərhələsində yerləşmiş, Data sadəcə rəqəmlərin yatdığı Excel, SQL və ya hər hansı bir məlumat bazasıdır. Excellərdə olan rəqəmlər, ədədlər datadır, yəni bunlar özü-özlüyündə heç nə ifadə etmir. Piramidanın növbəti mərhələsində “information”, yəni, məlumat dayanır. Məlumat bu datalardan istifadə edilərək ortalığa çıxarılan qanunauyğunluqdur. Məsələn, əlimizdə zavodun 10 illik istehsalat məlumatı var və oradan siz artıq trendləri çıxardırsınız. İldən ilə, məhsuldan məhsula, satışdan satışa nə qədər fərqlər olubsa, artıq bu məlumatdır (information).

Məlumatın bir üst mərhələsi bilgidir (knowledge). Əvvəldə bəhs etdiyim trendləri və digər məlumatları götürüb biznes üçün müəyyən bilgiyə çevirirsiniz. Sonda isə (wisdom), yəni müdriklik dayanıb. Datanı Exceldən götürüb, oradan trendləri çıxardıb, o trendlərin arxasında yatan səbəbləri araşdırıb, bunun nəticəsində şirkətə bir tövsiyə verirsiniz ki, satışları nə cür artırmaq olar. Bu artıq



müdriklik mərhələsidir. Məsələn, x məhsulunun istehsalını 10% artırsaq gəlirimiz 20% artar və yaxud da, y məhsullu faktiki olaraq bizə gəlir gətirmir. Y məhsulunu çıxarıb, yerinə daha gəlirli bir məhsul istehsal etsək satışlarımız artar. Bunlar ən yuxarı, yəni müdriklik mərhələsidir və hər mərhələ keçdikcə biznes üçün daha bir dəyər əlavə olunur [2].

Data analitik, bazar araşdırması, logistika, dilçilik və ya digər davranışlar haqqında məlumatları toplayır və saxlayır. Onlar həmin məlumatların keyfiyyətini və düzgünlüyünü təmin etmək üçün texniki təcrübə gətirir, sonra onları emal edir, dizayn edir və insanlara, müəssisələrə və təşkilatlara daha yaxşı qərarlar qəbul etməyə kömək etmək üçün təqdim edirlər.

Data analitikin məsuliyyətləri aşağıdakılardan ibarətdir:

Məlumatların toplanması

Nümunələrin tapılması

Hesabatların yazılması

Maraqlı tərəflərlə əməkdaşlıq

Təqdim etmə

Sistemlərin yaradılması.

Data analitik məlumatların analiz etmək üçün müəyyən bacarıqlara malik olmali və daima onları inkişaf etdirməlidir [3].



Bunlara SQL, ExcelElektron cədvəllər, tənqidi düşüncə, statistik proqramlaşdırma dilləri, məlumatların vizuallaşdırılması, Machine learning, araşdırma qabiliyyəti, detallara diqqət, əməkdaşlıq, layihənin idarə olunması aiddir.

Data analitikanın təsviri, diaqnostika, proqnozlaşdırıcı və təlimat kimi növləri vardır.

1. Təsviri analitika
Hadisələr haqqında hesabat vermək üçün keçmiş dataya baxan bir növ data analitikasıdır. Nəticələr adətən hesabatlarda, tabloda, bar diaqramlarında və asanlıqla başa düşülən digər vizualizasiyalarda təqdim olunur.
2. Diaqnostik analitika "Niyə belə oldu?" sualına cavab vermək üçün data və ya məzmunu araşdıran qabaqcıl analitika formasıdır. Məlumatların kəşfi, məlumatların çıxarılması və korrelyasiya kimi üsullarla xarakterizə olunur.
3. Proqnozlaşdırılan məlumat analitikası Proqnozlu analitika data analitikasının ən çox istifadə olunan kateqoriyasıdır. Müəssisələr tendensiyaları, korrelyasiyaları və səbəbiyyət əlaqəsini müəyyən etmək üçün proqnozlaşdırıcı analitikadan istifadə edirlər. Kateqoriya daha çox proqnozlaşdırıcı modelləşdirmə və statistik modelləşdirməyə bölünür.
4. Nəticələri proqnozlaşdırmaq və hansı tədbirlərin görüləcəyini müəyyən etmək üçün AI və Böyük Verilənlərin birləşdiyi yerdir. Bu analitika kateqoriyası daha da optimallaşdırma və təsadüfi sınaqlara bölünə bilər. ML-də irəliləyişlərdən istifadə edərək, göstərişli analitika "Bunu sınasaq nə olacaq?" kimi suallara cavab verməyə kömək edə bilər. və "Ən yaxşı hərəkət nədir?" Siz düzgün dəyişənləri test edə və hətta müsbət nəticə əldə etmək üçün daha yüksək şans təklif edən yeni dəyişənlər təklif edə bilərsiniz.



Data analitik üsullar keyfiyyət təhlili və kəmiyyət təhlili olaraq iki kateqoriyaya bölünür (4).

Keyfiyyət təhlili

Müəyyən bir təcrübəyə dair fikirlər əldə etmək üçün istifadə edilə bilər. Onun əvvəlcədən təyin edilmiş kateqoriyaları yoxdur. O, həmçinin kiçik bir nümunədən gələn məlumatların dərin təhlilini həyata keçirə bilər. O, anlayışlardan və konsepsiyalardan nümunələr yarada bilər.

Kəmiyyət təhlili

Müəyyən bir təcrübənin miqyasını ölçməyə kömək edir. Bu, əvvəlcədən təyin edilmiş kateqoriyalarını əhatə edir. Böyük statistik nümunədən müstəqil məlumat tələb edir. Verilənlərdən anlayışlar və nümunələr əldə etmək üçün test fərziyyəsinin statistik texnikasına əməl edir [4]. O, məlumatları ədədi şəkildə birləşdirə bilər və çıxış kateqoriyaları qruplaşdırıla bilər. İştirak edilən seçmə statistik xarakter daşıyır.

## Ədəbiyyat


1. Thomas Davenport. Big data at work: dispelling the myths, uncovering the opportunities. Harvard Business Review Press. Boston, Massachusetts. 2014 pag. 113-133 (Davenport, 2014) İmanov T.İ. Logistikanın əsasları: I və II hissə Bakı, 2005
2. From Big Data to Meaningful Information - Insights from a webinar sponsored by KMWorld Magazine and SAS; Conclusion paper; 2013
3. https://www.tutorialspoint.com/hadoop/hadoop_big_data_solutions.htm
4. https://www.ttec.com/articles/six-secrets-big-data-success

# AQRAR SAHƏNİN MALİYYƏ CƏLBEDİCİLİYİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Muradov Murad**
*Azərbaycan Dövlət Aqrar Universiteti, magistr*
muradmuradov152@gmail.com

***Açar sözlər***: *investisiya, rəqabət, iqtisadiyyat, qeyri-neft sektoru, xarici investisiya, dövlət tənzimlənməsi, sosial səmərə*

Müasir dövürdə cəmiyyətin artan təlabatı və buna uyğun olaraq formalaşan sosial-iqtisadi şərait mövcud istehsal potensialından tam və səmərəli istifadə edilməsini zərurətə çevirir. Bu baxımdan çoxşaxəli iqtisadi inkişafın təmin olunması iqtisadiyyatın o cümlədən onun strateji sahələrindən olan aqrar sektorun maliyyə dayanaqlığının yüksəldilməsi şərtləndirir. Ölkədə makroiqtisadi göstəricilərin yüksəldilməsi, ümumimilli məhsulun strukturunda aparıcı sahələrin, xüsusilə, strateji sahələrin rolunun və əhəmiyyətinin getdikcə artırılmasını tələb edir. Qeyd olunan bu mühüm məsələləri nəzərə alsaq respublikada investisiya qoyuluşlarının artırılması və onun dövlət tərəfindən tənzimlənməsində iqtisadiyyatın sahələrinin inkişafında lazımi proporsiyaların təmin edilməsi böyük elmi və praktiki əhəmiyyət kəsb edir. İnvestisiya qoyuluşlarının və investisiya cəlbediciliyinin artırılması şəffav bir iqtisadi mühitdən yüksək dərəcədə asılıdır. Ümumilikdə investisiya qoyuluşlarının artırılmasına bir sıra amillərin təsiri mövcuddur ki, bunlarında əsasını iqtisadi faktorlar təşkil edir.Xüsusilə faiz dərəcələrinin aşağı olması, proqnozlaşdırıla bilən inflyasiyanın mövcudluğu , vergilərin səviyyəsi , mülayim devalivasiya və bunun kimi digər elementlər xarici investorların investisiya layihələerini reallışdırılmasından öncə diqqət yetirdikləri əsas iqtisadi amillərdəndir. Ölkədə, sərbəst bazar münasibətlərinin formalaşması beynəlxalq ticarət əlaqələrinin genişlənməsi iqtisadi mühitin liberallaşması investorların qərarlarına müsbət istiqamətdə təsir göstərir. Respublikaya investisiya axınının təmin olunmasının ən başlıca səbəbi investorların bu əməliyyatlardan lazımi mənfəət əldə etməsidir ki,bu isə öz növbəsində dövlət tərəfindən aparılan investisiya siyasətində baş verəcək ciddi keyfiyyət dəyişikliklərinin aparılmasını tələb edir. Buna görə də respublikada həm investisiya qoyuluşlarının həyata keçirilməsinin ümumi qanunlarının, həm də xarici investisiyaların cəlb edilməsi məsələlərinin həlli bazar münasibətləri şəraitində zərurətə çevrilir.

Bazar münasibətlərinin spesifik xüsusiyyətəlri, o cümlədən sürətli dövriyyə, risksiz fəaliyyət investisiyanın daha çox gəlirli sahələrinə yönəldilməsini stimullaşdırır. Yuxarıda qeyd etdiyimiz kimi investisiya qoyuluşlarının mövcud tendensiyaları və sahəvi prioritetləri gələcək dövrün məhsulunun həcminin və bütövlükdə milli iqtisadiyyatın strukturunu müəyyən edir. Bu baxımdan iqtisadi liberallığın nisbətən yeni təşəkkül tapdığı ölkələrdə investisiya qoyuluşlarının bazar mexanizminin tələbləri əsasında və beynəlxalq hüquq normalarına uyğun olaraq reallaşdırılması labüddür ki, son nəticədə ölkənin strateji maraqlarını qorumaq mümkün olsun.

Araşdırmalar belə qənaətə gəlməyə əsas verir ki, hazırda milli iqtisadiyyatın inkişafını investisiya qoyuluşları olamadan təsəvvür etmək mümkün deyildir. İnvestisiya qoyuluşlarının həcminin artıb azalması nəticə etibarilə iqtisadi artıma öz təsirini göstərir. İnvestisiya qoyuluşlarının strukturu iqtisadiyyatın sahə strukturunda önəmli dəyişikliklərin yaranması ilə müşayət olunur. İnvestisiya qoyuluşları və bütövlükdə investisiya fəaliyyəti iqtisadi sistemin tipindən və xarakterik xüsusiyyətlərindən asılı olur. Belə ki, əvvəlki təsərrüfatçılıq sistemində investisiya qoyuluşlarının strukturu bilavasitə mərkəzləşdirilmiş planlaşdırmanın mənbələrinə tabe edilmişdir. Daha doğrusu investisiya qoyuluşlarının ümumi

istiqamətini dövlət tərəfindən müəyyənləşdirilirdi. Bazar münasibətləri şəraitində isə investisiya qoyuluşları bazar konyunkturunun tələblərinə əsasən həyata keçirilir. İnvestisiya qoyuluşlarının istiqamətlərini, strukturunu və həcmini bazar konyunkturundakı dəyişikliklər tənzimləyir. Təbii ki, mövcud iqtisadi sistem çərçivəsində investisiyaların reallaşdırılmasında dövlət heç də təmamilə təcrid olunmamış əksinə respublikamız kimi sosial-yönümlü liberal iqtisadi modeli mənimsəyən dövlətlərdə bu istiqamətdə bazar münasibətlərinin prinsiplərinə əks olaraq bir qədər fəallıq müşahidə olunur.

Bazar iqtisadiyyatının inkişafı təsərrüfat subyektlərindən onların rəqabət qabiliyyətinin artması, digər tərəfdən isə dinamik dəyişən iqtisadiyyat şəraitində onların fəaliyyətinin sabitliyinin və sarsılmazlığının təmin olunmasını tələb edir. Bütövlükdə, cəmiyyətin və onun ayrı-ayrı təsərrüfat obyektlərinin inkişafı maddi nemətlərin geniş təkrar istehsalına əsaslanır ki, bu da ümumi milli məhsulun və gəlirlərin artırılmasını təmin edir. Bu artımın təmin olunması üçün əsas vasitələrdən biri investisiya fəaliyyətidir ki, bu da özündə investisiya qoyuluşu prinsiplərini, həmçinin investisiyanın reallaşdırılması üzrə praktiki fəaliyyəti əks etdirir. Dövlət ölkədə sosial-iqtisadi inkişafı tənzimləmək, makroiqtisadiyyatda lazımi proporsiyaların yaradılmasını təmin etməklə investisiya qoyuluşlarından və habelə, investisiya fəaliyyətindən əldə edilən gəlirlərdən tam və səmərəli istifadə edilməsini ciddi surətdə tənzimləməlidir. Şübhəsiz ki, hər hansı istehsal və sosial sahələrin yaradılması, yenidən qurulması, genişləndirilməsi və habelə məşğulluğun təmin edilməsi müvafiq investisiya qoyuluşlarından, xüsusilə də ondan əldə edilmiş gəlirlərdən səmərəli istifadə olunmasını tələb edir. Bu baxımdan, investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi birinci dərəcəli əhəmiyyətə malikdir. Müasir iqtisadi şəraitdə investisya fəaliyyətinin tənzimlənməsinin mahiyyətini artıran



əhəmiyyətli məqamlardan biridə respublikada iqtisadiyyatın neft sektorundan olan asılılığını aradan qaldırmaq və bu baxımdan geniş potensiala malik digər sektorların inkişafını təmin etməkdən ibarətdir [2].

Hazırda aqrar sektorunun rəqabətqabiliyyətliyini artırmaq və çoxşaxəli iqtisadi inkişafı təmin etmək və maliyyə cəlbediciliyini yüksəltmək üçün aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- xammal təyinatlı istehsalın son məhsula çevrilməsini təmin edən istehsal infrastrukturunu reallaşdırmaq;
- mövcud istehsal infrastrukturunu əsasən paytaxtdan regionlara köçürülməsini təmin etmək ;
- regionlarda kiçik və orta sahibkarlığın inkişafını təmin edəcək investisiya layihələrini dəstəkləmək;
- rəqabətqabiliyyətli məhsul istehsalını artırmaq üçün istehsal sahələrinin innovasiya əsasında modernləşdirilməsini təmin edəcək investisiya layihələrinə üstünlük vermək;
- qeyri neft sektorunun aparıcı sahələrindən olan kənd təsərrüfatına yerli və xarici investisiyaları təşviq edəcək əlverişli iqtisadi mühiti formalaşdırmaq və s.

Hazırda dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətin prioritetlərini milli iqtisadiyyatın strukturunun sağlamlaşdırılması, xüsusən aqrar sektorunun daha sürətli inkişafını stimullaşdırılması, qeyri-neft sektorunun beynəlxalq rəqabət qabiliyyətini gücləndirilməsi və s. təşkil etməlidir. Hesab edirik ki, qeyd olunan bu nüansların nəzərə alınmasıyla reallaşdırılacaq investisiya tədbirləri ölkə iqtisadiyyatının fundamental inkişafını təmin edəcək, rəqabətqabiliyyətini yüksəldəcək və dünyanın iqtisadi konyukturunda baş verən ani dəyişgənliyə həssaslığını aradan qaldıracaqdır.

**Ədəbiyyat**

1.Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: “Nasir”, 2002, 447 s
2.Vəliyev D. Azərbaycanın qlobal iqtisadiyyat inteqrasiyası. Bakı “Adiloğlu”, 2008. 428 s.
3.Зверев В.А. Методы государственного регулирования инвестиционной деятельности. М.: Экономист, 2006. 124 с.
4.www.stat.gov.az

## AZƏRBAYCAN QƏRB BÖLGƏSİNDƏ YAYILAN BƏZİ DƏRMAN BİTKİLƏRİNİN BİOMORFOLOJİ VƏ BİOKİMYƏVİ XÜSUSİYYƏTLƏRİ

**Mustafayeva Vəfa**
*Gəncə Dövlət Universiteti, magistr*

Azərbaycan florası zəngin və müxtəlifdir.Floranın zənginliyinin səbəbi respublika ərazisinin geomorfoloji cəhətdən mürəkkəbliyi, təbii-coğrafi cəhətdən rəngarəngliyidir. Azərbaycan florasına daxil olan bitki növləri efir yağları, vitaminlər, alkaloidlər, aşı maddələri və digər bioloji aktiv maddələrlə zəngin olduğuna görə, onlar həmişə tədqiqatçı botaniklər, ekoloqlar və fitoterapevtlərin diqqətini cəlb etmişdir. Lakin, hələlik floranın cüzi nümayəndələrinin tibbi-bioloji xüsusiyyətləri öyrənilmişdir.

Azərbaycanın qərb bölgəsində yayılan bəzi təbabətdə istifadə olunan dərman bitkilərinin taksonomik tərkibi müəyyənləşdirilmiş, onların morfoloji, biokimyəvi xüsusiyyətlərini, yayılması, səmərəli istifadə olunma perspektivlərini aşkara çıxarlaraq və mühafizəsi üçün tədbirlər sistemi işlənmişdir. *Tədqiqat ərazisində Mentha piperita, Laminum album, Salvia officinalis, Scutellaria orientalis, Origanum*



*vulgare, Thymus transcaucasicus, Asparagus officinalis, Urtica dioica, Equisetum arvense, Malva sylvestris, Althaea officinalis, Achillea millefolium, Artemisia absinthium, Tussilago farfara, Taraxacum officinale, İnula helenium, Berberis vulgaris, Rubia iberica, Rosa canina, Filipendula ulmaria, Melilotus officinalis, Glycyrrhiza glabra, Vaccinium vitis ideae*, *Egusetum arvense* və s. dərman bitkilərinin istifadə olunma perspektivləri çoxdur [1-6].

Aşağıda Azərbaycanın qərb bölgəsində yayılan bəzi dərman bitkilərinin biomorfoloji, biokimyəvi, istifadə olunma istiqamərləri haqqında məlumat verilir.

QIJIKİMİLƏR FƏSİLƏSİ – *DRYOPTERİDACEAE*

Erkək ayıdöşəyi – *Dryopteris filix mas* Schott.

Boyu 30-100sm olan çoxillik ot bitkisidir. Çoxillik yarpaqları üzərində sorusları olan rozet tipli zoğları vardır. Yerüstü gövdəsi yoxdur. Yarpaqları vay adlanır, tünd yaşıl ucları itidir. Yarpaqların üzərində soruslar 2 sırada, yarpağın alt tərəfində yerləşir. Soruslarda sporlar yerləşir. Yetişmənin son dövründə soruslar partlayır, sporlar dağılır və ayıdöşəyinin yayılmasına xidmət edir. Sporlar iyundan sentyabr ayına kimi əmələ gəlir.

Azərbaycanın bütün meşələrində, rütubətli yerlərdə bitir.

Tibbi məqsədlə kökümsovlarından istifadə olunur, hansı ki, zəhərli təsirə malikdir. Kökümsovların tərkibində azotsuz zəhərli maddələr vardır ki, bunları da floroqlüsin və yağlı turşular təşkil edir. Dövlət Farmakopiyası (X nəşr) tələb edir ki, kökümsovlarda çiy filisin 1,8%-dən az olmasın. Bundan başqa aspidinol, albaspidin, flavonoidlər, aşılayıcı maddələr, efir yağları, piyli yağlar, qətran, nişasta, şəkər, kül elementləri və s. vardır.

QATIRQUYRUĞU KİMİLƏR FƏSİLƏSİ –*EQUİSETACEAE*

Çöl qatırquyruğu – *Eguisetum arvense* L.

Hündürlüyü 35-60 sm-ə çatan, sporla çoxalan, çoxillik ot bitkisidir. Çoxlu budaqlanan kökümsovu, üzərində, içərisində ehtiyat

qida maddələri toplanan yumurcuqları vasitəsilə torpağın 1 m dərinliyinə qədər inkişaf edir. Gövdəsi yaşıldır, qabırğalıdır. Kökümsovdan 2 tip yerüstü gövdə - yaz və yay gövdələri inkişaf edir. Erkən yayda açıq qəhvəyi rəngli, budaqlanmayan, içi boş, buğumlu, 15-20 sm hündürlüyündə yaz gövdəsi inkişaf edir ki, onun da ucunda sünbül əmələ gəlir. Sünbül çoxlu spor yarpaqlarından ibarətdir

Tarla qatırquyruğu Azərbaycanda Kür-Araz düzənliyində, Talış, Böyük və Kiçik Qafqazda düzənlik ərazilərindən başlamış subalp qurşağına qədər, rütubətli yerlərdə, su kənarlarında bitir.

Tərkibində akotin turşusu, saponinlər, quzuqulağı və alma turşuları, karotin və C vitamini, aşı maddələri, acı maddələr, karbohidrat, qətran, silisium turşusu, kalsium duzları, flavonoidlər, piyli yağlar vardır [1,2].

## Ədəbiyyat


1. Dəmirov İ., Bağırov R. Azərbaycanın faydalı dərman bitkiləri. Bakı: Azərnəşr, 1969, 112 s.
2. Dəmirov İ.A., İslamova N.A., Kərimov Y.B., Mahmudov R.M. Azərbaycanın müalicə əhəmiyətli bitkiləri. Bakı:Azərnəşr, 1988, 175 s.
3. Əliyev N. Azərbaycanın dərman bitkiləri və fitoterapiya. Bakı: Elm, 1998, 343s.
4. İbadullayeva S.J. Azərbayjan florasının Kərəvüzkimiləri. Bakı: Elm 2004, 321s.
5. İsmayılov N.M.Alkaloidonosnıe rasteniə Azerbaydjanskoy SSR. Baku: 1975, 199 s.
6. Flora Azerbaydjana. Tt.1-8, Baku: 1950-1961, 310 s.




# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN DİLİNƏ QAYĞISI


**Namazova Aynur**
*ORCID: 0009-0001-2498-8880*
*ADPU-nun Müasir Azərbaycan dili kafedrasının doktorantı*
aynamaz@mail.ru



***Açar sözlər:*** *Azərbaycan dili, Ümummilli Lider, Heydər Əliyev, Azərbaycan əlifbası, dövlət dili.*


Dil hər bir millətin mənəvi siması, onun milli varlığının timsalıdır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin genişmiqyaslı siyasi-ideoloji fəaliyyətində dil siyasəti çox mühüm yer tutur. Ümummilli Lider Heydər Əliyevin dil quruculuğu siyasəti onun milli dövlət quruculuğu siyasətinin tərkib hissəsi olaraq bütöv bir sistem təşkil edib.

Azərbaycan dilinin həm ümumxalq dili, həm də dövlət dili kimi inkişafında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri olub. Ulu Öndər Azərbaycan dilinə yalnız adi ünsiyyət vasitəsi kimi deyil, qədim tarixi, zəngin mədəniyyəti, müasir dünyada müəyyən ictimai-mədəni mövqeyi olan bir xalqın milli sərvəti kimi yanaşırdı.

Azərbaycan dili xalqımızın milli varlığını müəyyən edən sərvətdir. Harada yaşamasından asılı olmayaraq, milyonlarla soydaşımızın ünsiyyət vasitəsi olan dilimiz tarixən böyük inkişaf yolu keçib, zaman-zaman ən müxtəlif təzyiqlərə məruz qalsa da, öz varlığını qoruyub saxlayıb.

Dili, ilk növbədə, onun daşıyıcısı olan xalq yaşadır. Dilin dövlət dili statusu alması isə təkcə xalqdan, millətdən, yaradıcı ziyalılardan asılı məsələ deyil. Tarix dönə-dönə sübut edib ki, dilin inkişafı milli müstəqillik ideyalarına sadiq olan, siyasi iradəsi və qətiyyəti ilə xalqının tarixinə daxil olan liderlərin adı ilə sıx bağlıdır.

9 avqust 2001-ci il tarixdə Prezident Heydər Əliyev 1 avqust tarixinin "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" fərman imzaladı.

Fərmanda Azərbaycan xalqının tarix boyu müxtəlif əlifbalardan istifadə etdiyi diqqətə çatdırılaraq ilk dəfə XX əsrin 20-ci illərində gerçəkləşən latın qrafikalı əlifbaya keçidin əhəmiyyəti vurğulanırdı. Qeyd olunurdu ki, Azərbaycan ərazisində İslamın yayıldığı dövrlərdən başlayaraq xalqımız min ildən artıq bir zaman ərzində ərəb əlifbasından istifadə etmiş, ölkəmizin böyük ədibləri, mütəfəkkirləri bu əlifbada yazdıqları əsərlərlə bəşər sivilizasiyasını zənginləşdirmişlər. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqəsinə xidmət edən ərəb qrafikasının dilimizin səs sistemini bütün dolğunluğu ilə əks etdirə bilməməsi XIX əsrin ikinci yarısından etibarən Mirzə Fətəli Axundzadə başda olmaqla dövrün mütərəqqi maarifçi ziyalılarını əlifba islahatı problemi üzərində düşünməyə vadar etmişdi. Öz qaynağını Avropadan alan yeni dövrün maarifçilik hərəkatı Azərbaycan mədəniyyətinin inkişaf istiqamətini müəyyənləşdirmiş və bu da yeni mədəniyyət tipinə uyğun müasir əlifbaya olan ehtiyacı aktuallaşdırmışdı. XX əsrin əvvəllərində cərəyan edən ictimai-siyasi və mədəni proseslərin gedişatı mövcud əlifbanı daha münasibi ilə əvəz etmək ideyasını reallaşdırdı.

1922-ci ildə Azərbaycan hökumətinin qərarı əsasında Əlifba Komitəsinin yaradılması yeni qrafikaya keçilməsi yolunda atılmış ilk ciddi addım oldu. 1923-cü ildən latın əsaslı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş Birinci Türkoloji Qurultayın tövsiyələrinə cavab olaraq 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi. Qısa bir müddət ərzində latın qrafikasının işlədilməsi Azərbaycanda geniş kütlələr arasında savadsızlığın ləğvi üçün olduqca əlverişli zəmin yaratdı. Bütün bu nailiyyətlərə baxmayaraq, həmin əlifba 1940-cı il yanvarın 1-dən kiril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifba



ilə əvəz olundu. Bundan sonra yarım əsrdən çox bir müddət ərzində kiril qrafikası ilə Azərbaycan elmi və mədəniyyətinin qiymətli nümunələri yaradıldı.Lakin təcrübə göstərdi ki, kiril qrafikasının dilimizin səs quruluşuna uyğunlaşdırılması yolunda nə qədər cəhd göstərilsə də, optimal variantın əldə edilməsi mümkün deyildir, bu da onun nə vaxtsa dəyişdiriləcəyi ehtimalını gücləndirirdi.

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə müvafiq qanunun qəbul olunması ilə nəticələndi.

Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra, 1991-ci ilin dekabrında Azərbaycanda latın qrafikalı əlifbaya keçid barədə qərar qəbul edildi, amma icrası illərlə uzandı. Prezident Heydər Əliyevin 18 iyun 2001-ci il tarixli fərmanına əsasən, bu proses başa çatdı. 2001-ci ilin 1 avqustunda ölkə ərazisində bütün idarə-müəssisələr, təşkilatlar Azərbaycan dilində, bütün nəşrlər latın qrafikalı əlifbaya keçdi.

Azərbaycan əlifbası kimi, dilinin də hərtərəfli inkişafı, onun rəsmi dövlət dili statusu alması,beynəlxalq münasibətlər sistemində dünya diplomatiyasına yol açması məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1978-ci ildə o vaxtkı SSRİ rəhbərliyinin ciddi narazılıq və etirazlarına baxmayaraq, Heydər Əliyevin böyük qətiyyəti sayəsində Azərbaycan SSR Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olduğunu təsdiq edən maddə daxil edilmişdi. Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də qəbul olunan ilk Konstitusiyasında xalq referendum yolu ilə öz mövqeyini nümayiş etdirərək,ölkədə dövlət dilinin Azərbaycan dili adlandırılmasına yekdilliklə tərəfdar olduğunu bildirdi.

1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası təsdiq edilən zaman oraya dövlət dili haqqında maddənin salınmaması ilə heç cür

barışmayan Ümummilli Lider bu məsələdə sonadək öz prinsipial mövqeyini göstərib. 1978-ci il aprelin 2-də doqquzuncu çağırış Ali Sovetin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təkidi ilə 73-cü maddəni yeni dəyişikliklə vermək qərara alınır. Bu dəyişiklik Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dilinin Azərbaycan dili olduğunu əks etdirir. Bütün çətinliklərə baxmayaraq, Ümummilli Liderin bu cür tarixi qərara nail olması mənəvi varlığımızın əsası sayılan dilimizin inkişafında böyük addım oldu.

Bundan sonrakı illərdə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" imzaladığı fərmanlar, milli-mənəvi dəyərlərin qorunub saxlanması istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasət Heydər Əliyevin azərbaycançılıq ideyasının formalaşması yolunda göstərdiyi misilsiz xidmətlərdəndir.

Avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir. Bu əlamətdar gün Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən təsis edilib. Ulu Öndər həmin Fərmanı latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci ilin avqustunda bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq imzalayıb.

Ümummilli Liderin 2001-ci il iyulun 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", həmin il avqustun 9-da imzaladığı "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" fərmanlar ana dilimizin qorunması və inkişafı baxımından göstərdiyi misilsiz xidmətlərdəndir. 2003-cü il yanvarın 2-də isə Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə



"Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. Qanunda dövlətin ana dilinə qayğısı istiqamətində əsas vəzifələr dəqiq göstərilib.

Sovet dövründə yaranmış əngəllərə baxmayaraq, sarsılmaz təməlləri olan Azərbaycan dili mövcudluğunu qoruya bilib.

Ana dilimizin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tədbirlərində eşidilməsi qürurvericidir. Çünki dil təkcə ünsiyyət vasitəsi deyil, həm də xalqın tarixi, ədəbiyyatı, mədəniyyətidir. Hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz ana dilini, dinini, milli adət və ənənələrini unutmamalı, onları təbliğ etməlidir. Ümummilli Liderimiz Heydər Əliyevin dediyi kimi: "Dil ədəbiyyatla, mədəniyyətlə, mənəviyyatla bağlıdır. Bunlarsız isə vətənpərvərlik formulu yoxdur".

Azərbaycan dilinin qloballaşma dövrünün mənfi təsirlərindən qorunması və inkişaf etdirilməsi istiqamətində Ulu Öndərin səylərinin xalqımız üçün əvəzedilməz töhfələri olmuşdur.

## QİDA SƏNAYESİNDƏ İSTİFADƏ EDİLƏN YERKÖKÜ BİTKİSİNİN TEXNOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Nəbiyev Əhəd**
*Azərbaycan Texnologiya Universiteti*
Ahad.nabiyev@mail.ru
**Kazımova İnarə**
Kazimovainara@gmail.com
**Məmmədzadə Kənan**
Kenanmemmedzade6047@gmail.com

Bildiyimiz kimi günümüzün ən aktual problemlərindən biri qida problemidir. Qida problemi deyərkən insanların ekoloji cəhətdən

təmiz qida maddələri ilə qidalanması və eyni zamanda həmin qidalarda olan insanın yaşaması üçün lazımlı vitaminlər, makroelementlər, mikroelementlər, yağlar, karbohidratlar və s. kimi digər lazımı komponentlərlə günlük normasının alınaraq qidalanmasıdır. Ölkəmizin ərazisində yetişən tərəvəzlər və meyvələr yetərincə insan sağlamlığına və günlük qidalı maddələrlə təmin edilməsinə zəmin yaradır. Ölkəmizdə becərilən yerkökü bitkisinə nəzər salsaq görərik ki, həm vitaminlərlə zəngin həm də təbii rəng maddəsinin alımasında istifadə edilə bilir. Azərbaycanda Daucus carota L.yerkökü sortu becərilir. İstifadə edilən yerkökünün . növünün vətəni Avropa hesab edilir.İlk dəfə yerkökünə eramızdan 2-3 min il əvvəl Avropa ölkələri hesab edilən Almaniya və İsveçrədə təsadüf edilmişdir. Qərbdə yayılması isə X əsrə təsadüf edilir. Qərbdə onuncu əsrdə İranda daha sonra isə XIII əsrdən Çində becərilməyə başlanılmışdır.Optimal yetişmə temperaturu 15 C hesab edilir. 13 C temperaturda yerkökünün kökləri az miqdarda uzun və nazik olur. Temperatur yerkökünün yetişməsində mühüm rol oynayan faktorlardan biri hesab edilir. Qumlu və gilli torpaqlarda daha məhsuldar olur. Torpağın Ph-ı isə 4,9-8,0 arasında dəyişməlidir ki, məhsul daha yaxşı inkişaf etsin[1]. Yerkökü bitkisinin kökləri uzun və nazik olmaqla yanaşı, rəngləri də müxtəlif olur. Ağ rəng, narıncı rəng və narıncı-qırmızı rəngdə olur[1]. Bizim tədqiqat obyektimiz isə narıncı rəng olan yerkökü bitkisidir. Bu bitkinin kökləri uzunsov slindirik, konusabənzər formada olur. Yerkökü daha çox şirin dada malikdir. Şirin dad daha çox mərkəz hissəsində mövcuddur. Yerkökünün əsas hissələri kombi qatının bölmələri olan floemadan və ksilemadan ibarətdir. Bir-birləri ilə silindr formasında birləşmişlər. Bitkinin floemasında şirin dad, ksilemasında isə acı dad çoxluq təşkil edir. Bundan başqa acı dada yerkökünün uc və baş hissələrində də təsadüf etmək mümkündür. Həmçinin yerkökünün tərkibində olan şəkər dadında olan acılıq hissinin gizlənməsinə köməklik göstərir. Bəzi səbəblərdən



yəni, düzgün saxlanma baş vermədikdə yerkökünün tərkibində olan şəkərin miqdarı azalır və tərkibində olan acılıq dadı özünü büruzə verir. Həmçinin yerkökü otuz səkkiz meyvə və tərəvəz arasında qida dəyərinə görə on yeddinci sırada qərarlaşır.Yerkökü bitkisin tərkibində α və β- karotinlər vardır ki, A vitaminin əsas və tək mənbəyidir. Bu bitkidə bunlardan başqa 4 karotin qrupu vardır[2].

C vitaminin miqdarı portağalda olan miqdarın təxminən yarısı qədərdir. α-tokoferol şəklində E vitamini mövcuddur.α-tokoferolun ksilemində olan miqdarı floemində olan miqdarı ilə demək olar ki eynidir.

Yerkökü bitkisi ölkəmizdə də geniş sürətdə becərilir. Yerkökü bitkisindən alınan təbii boyaq maddəsi bir çox unlu qənnadı məmulatlarının, tort kremlərinin dondurma, istehsalında dondurmanın rənglənməsində istifadə edilə bilər.

## Ədəbiyyat

1. Galindo, F. G., Bråthen, E., Knutsen, S. H., Sommarin, M., Gekas, W., and Sjöholm, I. 2004.
2. Kjeldsen, F., Christensen, L. P., and Edelenbos, M. 2003. Changes in volatile compounds of carrots (Daucus carotaL.) during refrigerated and frozen storage. Journal of Agricultural and Food Chemistry

## RESPUBLİKADA MALİYYƏ BAZARININ HAZIRKİ VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**Nuriyeva Rəvanə**
*Azərbaycan Dövlət Aqrar Universiteti, Magistr*

***Açar sözlər:*** *Maliyyə bazarı, valyuta bazarı,əqdlər,pul, fond birjası,bazar iqtisadiyyatı.*

Liberal iqtisadi münasibətlərin formalaşdığı hər bir ölkədə maliyyə bazarının ən mühüm elementlərindən biri olan qiymətli kağızlar bazarının təşəkkülü və inkişafıdır. Bu sistem daxilində qiymətli kağızlar bazarı iqtisadi və maliyyə münasibətlərinin əsasını təşkil edir. Qiymətli kağızın mahiyyəti, onun əhatə etdiyi iqtisadi münasibətlər sferası kimi çoxşaxəli və mürəkkəbdir. Müəyyən bir dövr ərzində hər hansı bir qrup hüquqi, yaxud fiziki şəxsin sərəncamında sərbəst pul vəsaiti toplanır.

Qiymətli kağızlar bazarı ölkənin maliyyə təhlükəsizliyi baxımından riskli və geniş miqyaslıdır. Həmçinin, onun təşəkkül tapması üçün o qədər böyük resurs və infrastruktur tələb olunur ki, həmin bazarın sivil və təhlükəsiz formada yaradılmasına yalnız dövlətin dəstəyi və imkanları ilə həyata keçirmək mümkün olar.

Qiymətli kağızlar bazarı bazar münasibətləri sistemində bu iqtisadi sistemə qiymətli kağızların müəyyən qanunauyğunluqlarla hərəkət etdirilməsinə xidmət edir. Müxtəlif bazarların mövcudluğu şəraitində qiymətli kağızlar bazarının özünəməxsus yeri, spesifik vəzifələri, funksiyaları, bu funksiyaların həyata keçirilməsi bölmələri, sektorları və iştirakçıları vardır.

Qiymətli kağızlar bazar iştirakçıları arasında yaranan münasibətlərin elə bir formasıdır ki, həmin münasibətlərin obyekti kimi məhz özü çıxış edir. Belə ki, sözü gedən qarşılıqlı münasibətlərin yaranması, yaxud, onun iştirakçıları arasında hansısa razılaşmanın həyata keçirilməsi qiymətli kağızların hərəkəti, eləcə də onun pul və ya əmtəəyə mübadiləsi nəticəsində mövcud olur. Lakin, bütün bunlarla yanaşı, qiymətli kağız nə pul, nə də əmtəə demək deyildir. Çünki, sonunculardan fərqli olaraq onun dəyəri, sahibinə verdiyi hüquqlarla ölçülür. Müasir şəraitdə pul və əmtəə kapitalın müxtəlif təzahür forması kimi çıxış etdiyinə görə qiymətli kağızı iqtisadi baxımdan aşağıdakı kimi izah edə bilərik: qiymətli kağız kapitalın pul və əmtəə formalarından fərqli olaraq elə bir formasıdır ki, o həm bazarda əmtəə kimi təklif olunmaq, həm də mənfəət gətirmək imkanına malikdir. Kapitalın bir forması kimi qiymətli kağızın özünəməxsus cəhətlərindən biri də odur ki, onun sahibi konkret olaraq həmin pul, yaxud əmtəə formasında olan kapitala malik olmasa da, onun bütün hüquqlarına malikdir. Hansı ki, həmin hüquqlar qiymətli kağız formasında ifadə olunmuşdur. Məhz qiymətli kağız kapital ilə kapital mülkiyyətini ayırır. Qiymətli kağızlardan fərqli olaraq digər kapital formalarını misal göstərə bilərik. Məsələn, bankın təqdim etdiyi kreditləri. Bu, pul kapitalının bir forması olmaqla yanaşı, pul münasibətlərində başqa bir anlama deyildir. Belə ki, kreditləşmə pulun əmtəə kimi alqı-satqısını ifadə edir. Beləliklə, qiymətli kağızlardan fərqli olaraq pul kapitalı pul münasibətlərinin bir forması kimi çıxış edir. İqtisadi, yəni pul dəyəri olan bütün ictimai hüquqlar qiymətli kağızlar formasında ifadə oluna bilər. Bununla yanaşı, qiymətli kağızlarla bağlı iqtisadi münasibətlər daima inkişaf etdiyinə görə onun mahiyyəti də qeyri - sabit xarakter alır.

Maliyyə bazarının digər hissəsi kredit bazarıdır. Bu iki bazar bir-birilə sıx əlaqədardır və qarşılıqlı fəaliyyət göstərir. Məsələn, banklar qiymətli kağızlar bazarı iştirakçılarına qiymətli kağızlar buraxan emitentlərə kredit verir, digər tərəfdən özləri emitent kimi çıxış edir və yaxud digər emitentlərin buraxdığı qiymətli kağızları böyük partiyalarla sonradan salmaq üçün alırlar. Dünya dövlətlərinin

əksəriyyətində qiymətli kağızlar bazarında vasitəçilik rolunu iri kommersiya bankları həyata keçirirlər.

Qiymətli kağızlar bazarının mühüm tərkib hissəsi qısamüddətli borc öhdəliklərinin, xüsusilə də istiqrazların və xəzinə veksellərinin dövr etdiyi pul bazarıdır. Bu bazar dövlətin pul vəsaitlərinə olan ehtiyaclarını çevik surətdə ödəməyə imkan verməklə yanaşı, ayrı-ayrı hüquqi və fiziki şəxslərə öz sərbəst pul vəsaitlərini investisiya şəklində dövriyyəyə qatmaqla qazanc əldə etmək imkanı verir. Digər sivil bazarlarda olduğu kimi, qiymətli kağızlar bazarı da tələb, təklif və onların qarşılıqlı münasibətlərdən doğan qiymətdən asılı olaraq formalaşır. Qiymətli kağızlar bazarında tələb, adətən xərcləri gəlirlərini üstələyən dövlət və investisiyanın maliyyələşməsi üçün gəlirlə kifayət olmayan müəssisələr tərəfidən yaradılır. Hökümət və biznes qiymətli kağızlar bazarında çox vaxt borc alanlar kimi, əhali xüsusi sektor, borc verənlər kimi çıxış edir. Qiymətli kağızlar bazarının ən əsas vəzifələrindən biri ondan ibarətdir ki, əhalidə və xüsusi sektorda olan yığımların tez və tam şəkildə investisiya məqsədlərinə elə yönəldə bilsin ki, hər iki tərəf üçün sərfəli olsun. Bu vəzifə qiymətli kağızlar bazarında vasitəçilər hesab edilən peşəkar iştirakçılar vasitəsi ilə yerinə yetirilir. "Qiymətli kağızlar haqqında" qanununa görə Azərbaycan Respublikasının peşəkar iştirakçılara broker, diler, qiymətli kağızların idarə edilməsi üzrə fəaliyyət, klirinq, depozitlan fəaliyyəti, qiymətli kağız sahibinin reyestrinin aparılması və ticarətinin təşkili üzrə fəaliyyət aiddir.

Son illərdə tətbiq olunmuş elektron ticarət sistemləri və maliyyə alətləri ilə ticarət texnologiyalarının inkişafı təcrübəsi sayəsində BBVB Azərbaycanın maliyyə bazarında dayanıqlı bir yer tutub. Birja tərəfindən tətbiq olunmuş BEST elektron ticarət sistemini birja hərraclarının ümummilli sisteminin timsalı kimi qəbul etmək olar. Bu sistem milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiya çağırışları-na cavab verə bilən bir sistemdir. İnteqrasiya prosesi bir neçə



mərhələyə keçməlidir. Birjanın təsis edilməsi peşəkar iştirakçılara maliyyə bazarının bütün seqmentlərinə giriş, dövlət tənzimləyici orqanlarına isə - iki ölkənin maliyyə bazarlarının inkişafı sahəsində gələcək əməkdaşlığın vahid və razılaşdırılmış strategiyasını həyata keçirmək üçün imkan yaradacaq. Aydındır ki, bir birja çərçivəsində bir neçə bazarın birləşdirilməsi investor, emitent və dövlət tənzimləyici orqanlarının marağına işləyəcək. Dövlət və bazarın peşəkar iştirakçıları maliyyə bazarının müxtəlif seqmentlərində yaranan vəziyyətə tədricən və razılıqlı şəraitdə təsir göstərməklə, böhran vəziyyətlərindən cuzi itkilərlə çıxa biləcəklər. Son illər dünya maliyyə bazarlarında gərginliyin yüksəlməsi şəraitində milli birjalarda dövr edən maliyyə alətlərinin fəal istifadə edilməsi iştirakçı ölkələrin dünya maliyyə böhranının bank sistemlərinə şok təsiri problemlərinin aradan götü-rülməsi üçün imkan yarada bilər. Bundan əlavə bu yolla iki ölkənin maliyyə bazarlarının likvidliyini xeyli artırmaq, xarıcı ticarət əməliyyatları, kapital və investisiyaların köçürmə əməliyyatlarına keyfiyyətli və daha ucuz xidmət etmək olar.

Maliyyə bazarının, o cümlədən qiymətli kağızlar bazarının təkmilləşdirilməsindən danışarkən, kortəbii bir prosesdən deyil, məqsədli bir subyektin təsiri ilə vacib prosedurların müəyyən bir istiqamətə yönəlməsini nəzərdə tutulmalıdır. Belə bir istiqamətləndirici qüvvə isə yalnız dövlət ola bilər. Məhz dövlət bazarın bütün obyektiv və subyektiv şərtlərinin ən əlverişli şəkildə təşkilini həyata keçirə, inkişafı sürətləndirə bilər. Məhz bu baxımdan Azərbaycanda qiymətli kağızlar bazarının inkişafı maliyyə sferasında dövlət tənzimlənməsindən çox asılıdır. Ümumiyyətlə, dövlət hazırki mərhələlərdə ölkədə qiymətli kağızlar bazarının təşəkkül tapmasında aktiv rol oynamalıdır. Məsələ ondadır ki, bu bazar ölkənin maliyyə təhlükəsizliyi baxımından riskli və geniş miqyaslıdır. Həmçinin, onun inkişafı üçün o qədər böyük resurs və infrastruktur tələb olunur ki,

həmin bazarın sivil və təhlükəsiz formada yaradılmasına yalnız dövlətin dəstəyi və imkanları ilə həyata keçirmək mümkün olar.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının "Qiymətli Kağızlar haqqında" qanun
2. Azərbaycan Respublikasının "İnvestisiya fondları haqqında" qanun
3. A.Kərimov, A.Babayev."Qiymətli kağızlar bazarı". Dərslik. Bakı 2003.
4. A.Abbasov. "Qiymətli kağızlar bazarının formalaşması və inkişaf perspektivləri".Bakı 2005.
5. Т.Бердикова - Рынок ценных бумаг и биржевое дело, М.2006
6. www.fimsa.az


## AQRAR SAHƏDƏ LOGİSTİKA FƏALİYYƏTİNİN İNKİŞAFININ PRORİTETLƏRİ


**Orucova Leyla**
*Azərbaycan Dövlət Aqrar Univesriteti*
*email:orucova_01@bk.ru*


Müasir dövrdə dünya iqtisadiyyatında müşahidə olunan iqtisadi inkişaf tendensiyalarının əsas ünsürlərini təhlil edərkən məlum olur ki, bu cür nailiyyətlərin əsas meyarı innovasiyalar və onların tətbiqini dəstəkləyən biznes mühitidir. Bu aspektdə milli innovasiyalar mərkəzinin funksionallığının artırılması, xarici bazarlarda rəqabət apara biləcək iqtisadi fəaliyyətin inkişafına yardım göstərilməsi təxirəsalınmaz siyasi vəzifədir. İnnovasiyaların dəstəklənməsi iqtisadi subyektlərin rəqabətqabiliyyətini artırmaqla lokal və beynəlxalq bazarlara çıxış imkanlarını da sürətləndirir.



Məhz, bu baxımdan son illər respublikamızda innovasiya sahibkarlığının inkişafı üçün təşviqedici iqtisadi mühit formalaşdırılmışdır. Bu aspektdə milli iqtisadiyyatmızın diversifikasiasının təmin olunması istiqamətində ən vacib sahələrdən biri olan aqrar sahənin inkişafına təkan verəcək mühüm amillərdən biri məhz logistika fəaliyyətidir.

Aqrar sahədə bir çox problem hələ də mövcuddur və uyğun inkişaf strategiyasının yoxluğu məsələnin həllini çətinləşdirir. Logistik xidmətlərdən istifadə edərək milyardlar xərcləmədən ən böyük effekti verəcək əsas problemləri müəyyənləşdirmək və həll etmək mümkündür.Səmərəsiz logistika əməliyyatlarının funksiyalarını müəyyənləşdirmək və dəyişdirmək Azərbaycanın kənd təsərrüfatının vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər.

Hazırda, qida məhsullarının istehsalı, emalı, istehlakçıya çatdırılması və texnoloji prosesinin bütün mərhələlərində mövcud olan logistika son dərəcə zəifdir. Kənd təsərrüfatı və qida məhsulları üçün tədarük zənciri prosesi və logistika həqiqətən mürəkkəb xarakterə malikdir. Məhsullarını logistik xidmətlər vasitəsi ilə təklif edən subyektlər, bütün zəncir boyu yarana biləcək neqativ hərəkətlərə görə məsuliyyət daşıyırlar. Bu zəncir əlbəttə ki: güzəştə getmədən bütün məhsulların (heyvandarlıq da daxil olmaqla) keyfiyyətini qorumaq, istehlakçılar üçün optimal bir həll yaratmaq və onlara yüksək xidmət standartlarını təklif etməlidir. Bu səbəbdən aqrar sahədə logistikanın əhəmiyyəti dünya miqyaslı təşkilatlar tərəfindən daha çox tanınmağa başlamışdır. Dünyanın harasında olmasından asılı olmayaraq, xammalın keyfiyyətinin hər zaman qorunub saxlanması və məhsulun istehlak vəziyyətinə son nöqtəyə çatdırılması çox vacibdir. Məhsulların saxlanması ilə əlaqəli tədarük zənciri prosesi, zaman keçdikcə vaxtında çatdırılma, ixtisaslaşdırılmış istehsal sistemlərini mərkəzləşdirmək və aşağı yük nisbətlərini qorumaq kimi mühüm xidmətləri özündə ehtiva edir.

Aqrar sahədə fəaliyyət göstərən pərakəndə satıcılar, istehsalçılar üçün logistikanın imkanlarından istifadə müvəffəqiyyət elementlərindən hesab ounur. Məhsulun, lazımi vəziyyətdə, doğru ünvana , məqbul müddətdə çatdırılması logistika vasitəsi ilə dəqiq şəkildə izlənilməlidir. Bu bütün tərəflərin xərclərinin səmərəliliyinin təmin edilməsi üçün vacib amildir.

Logistik xidmətlərdən lazımi səviyyədə istifadə etməyən bir çox kənd təsərrüfatı müəssisələrində istehsal texnologiyası və tədarüklə bağlı bir sıra çatışmazlıqlar mövcuddur. Bunlar aşağıdakılardır:

- məhsul yetişdirmə və yığım üçün köhnə texnologiyalar;
- səmərəsiz maşın və avadanlıqlar,
- yüksək yanacaq xərcləri və məhsul itkisi;
- taxıl qurutmaq üçün yüksək enerji istehlakı;
- məhsul itkisinə səbəb olan səmərəsiz saxlama üsulları;
- çox sayda məhsul çeşidlənməsi və işlənməsi,
- habelə bahalı mürəkkəb çatdırılma sistemləri
- yersiz əmək məsarifi və məhsul itkiləri.

Aqrar sahədə logistika sistemlərinin təhlili onların təkmilləşdirilməsinə ehtiyac olduğunu göstərir.

Kənd təsərrüfatında malların fiziki hərəkətinin bəzi sahələrdə xərcləri yüksəkdir, çünki bəzi sahələrdə istehsal yerlərindən kənd təsərrüfatı məhsullarının emalı yerlərinə müəyyən qədər məsafə var. Kənd təsərrüfatında logistikanın səmərəli istifadəsi üçün heyvandarlıq, bitkiçilik, quşçuluq və yardımçı sahələr üçün uyğun sistemlər formalaşdırılmalıdır. Kənd təsərrüfatı müəssisələrində hazır məhsulun tədarükü, istehsalı və marketinqinin səmərəliliyini, bu funksiyalar arasındakı əlaqələrin kordinasiyalı təşkili ilə təmin etmək mümkündür. Burada əsas diqqət qeyd olunan fazada daxili əlaqələrin optimallaşdırılmasına yönəldilməlidir. Qeyd edək ki, kənd təsəsrrüfatında mövcud olan iri müəssisələrdə fəaliyyət göstərən



işçilərin yaşayış yerlərinin iş yerindən uzaq olması da bu aspektdə nəzərə alınmalıdır.

Logistikada nəqliyyat istiqamətləri miqyasına görə iki yerə bölnür. Daxili və xarici nəqliyyat. Daxili nəqliyyata: sahələrə toxumun, yanacaq və sürtkü yağlarının tədarükü, sahə boyu traktor və kombaynların hərəkəti, hazır məhsulların anbarlara çatdırılması daxildir. Aqrar sahədə aktual məsələlərdən biri kəndli təsərrüfatlarının yaradılması zamanı hazır məhsulların satılması ilə bağlıdır. Hər bir fermer hazır məhsulu müstəqil olaraq satarsa, miqyasın effektivliyi itirilir və tədarük xərcləri istehsal xərclərinin əhəmiyyətli hissəsini təşkil edir. Bu cür pərakəndə bir sistemdə nəqliyyat xərcləri olduqca əhəmiyyətlidir. Buna görə də hazır məhsulu istehsalçılardan yığaraq saxlama yerlərinə və ya emaledici müəssislərə köçürmək üçün vahid bir sistem yaratmaq lazımdır.Bunun üçün logistikanın inkişafına təsir edən amilləri dərindən təhlil etmək vacibdir.

Logistika əməliyyatları və funksiyalarının həcminə təsir edən və onun inkişafını şərtləndirən amillər aşağıdakı kimi qruplaşdırıla bilər:

**Regional amillər:**

- ✓ Şirkətin regionda mövcud olan maddi ehtiyat təminatçıları və məhsul istehlakçıları ilə münasibətlər sistemi (birbaşa, regiondakı və ya region xaricindəki topdansatış bazaları vasitəsilə);
- ✓ Region daxilində nəqliyyatın təmin edilməsi üzrə ixtisaslaşmış müəssisələrin, yükləmə-boşaltma və nəqliyyat-saxlama əməliyyatları və konteynerlərin mexanizasiyası üçün standart vasitələrin istehsalı və təmiri üzrə ixtisaslaşmış müəssisələrin olması.

**İstehsaldaxili amillər:**

- ✓ istehsal olunan məhsulların ölçüləri və çəkisi;
- ✓ istehsalın növü (tək, kiçik miqyaslı, geniş miqyaslı, kütləvi);

✓ istehsal prosesinin təşkili forması (texnoloji, predmetli, detallı ixtisaslaşma);
✓ müəssisənin əsas planı (istehsal bölmələri və anbarların qarşılıqlı təşkili, ərazi və giriş yollarının mövcudluğu);
✓ texnoloji avadanlıqların təşkili;
✓ anbar və sənaye binalarının tikinti xüsusiyyətləri (məsafələrin sayı, hündürlüyü, döşəməyə və tavana icazə verilən yük və s.).

Hazırda aqrar sahədə logistika fəaliyyətinin штеутышм inkişafı istiqamətində ən mühüm çatışmazlıqlardan biri dünya standartları səviyyəsində məhsul istehsalına nail olunmamasıdır. Dünya standartları səviyyəsində məhsul istehsalına nail olunması üçün ilk növbədə istehsal texnologiyalarının yenidən qurulması tələb olunur. Belə ki, xammal istehsalı üçün tələb olunan aqrotexniki, zootexniki, zoobaytar işləri, seleksiya, toxum yetişdirmə, bitkiçilik məhsulları istehsalı üçün torpaq sahələrinin seçilməsi, iqlim şəraitinin düzgün və dəqiq olaraq seçilməsi, kadrların, mütəxəssislərin elmi-texniki tərəqqinin nailiyyətlərinin tələbləri əsasında hazırlanması, bu sahədə tələb olunan texniki vasitələrin yeniləri ilə əvəz olunması problemlərinin həlli tələb olunur.

### Ədəbiyyat


1. Aqrar sahənin dayanıqlı inkişaf problemləri. Kollektiv monoqrafiya, Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu, Bakı, 2012, 438 s.
2. Abbasov A.F.Ərzaq təhlükəsizliyi. Bakı, 2007, 602 s., s. 465
3. Abbasov V.H.Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri. Bakı, 2012, 424 s.




## GƏNCLƏR PROBLEM DEYİL, PROBLEMİ HƏLL EDƏNLƏRDİR


**Ömərzadə Nəzrin**
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Tələbə və könüllülərlə iş şöbəsi*
nazrin.omarzada@sport.edu.az


**Açar sözlər:** *gənc, gənclərin iştirakçılığı, siyasət, siyasi, sosial, proses, cəmiyyət, qərar.*

Son illərin akademik tədqiqatlarında gənclərin iştirakçılığı mövzusunun təhlili və dövlət proqramlarının, siyasətlərin, qərarların qəbul edilməsində gənclərə yönəlik yanaşmanın, onların mənafelərinin əsas götürülməsi böyük aktuallıq qazanmışdır. Təəssüflər olsun ki, müasir dövrdə dünyanın müxtəlif bölgələrində gənclər təhsilə əlçatanlıq, savadsızlıq, yoxsulluq, iş yerlərində artan işsizlik və etibarsızlıq, maddə asılılığı, HİV/AİDS, sosial rifah proqramlarında azalma və silahlı münaqişəyə məcburi cəlb edilmə kimi milli və beynəlxalq səviyyədə geniş yayılmış çətinliklərlə qarşılaşır və bu hallarla mübarizə aparmaq məcburiyyətində qalırlar. Bu çətinliklərin öhdəsindən gəlmək üçün məhdud imkanlara, resurslara və fürsətlərə sahib olan gənclər özlərini fəaliyyətsiz və dəyərsiz hiss edir və bununla da əlaqəli olaraq daha çox xəyal qırıqlığına məruz qalırlar. Halbuki onlara effektiv iştirakçılıq üçün lazımı məlumat, təhsil və onların vətəndaşlıq hüquqlarına əlçatanlıq kimi lazımı vasitələr, fikirlərini ifadə etmək üçün söz hüququ verildikdə və onların fəaliyyət göstərməsi üçün təhlükəsiz məkanlar yaradıldıqda onlar siyasi dünyanı daha yaxşıya doğru hərəkət etdirə və daha irəliyə apara bilərlər.[1] Gənclərə təsir edə biləcək yeni siyasi qərarların formalaşmasında gənclərin müasir dövrdə qarşılaşdıqları problemləri

çox ehtimalla hiss etməyən yaşlı siyasətçilərlə müqayisədə, bu problemləri yaşayan və hiss edən gənclər daha mühüm rol oynayırlar.

Gənclərin iştirakı gənclərin öz icmalarında fəal şəkildə iştirakıdır, gənclərin qərar qəbul edilməsində və həyat şəraitinin formalaşmasında iştirakının və onun geniş konsepsiyasının bir hissəsidir.[2] Daha konkret olaraq, gənclərin iştirakı gənclərin planlaşdırma, qərarlar və onlara təsir edən qaynaqlar üzərində nəzarətə təsir edə biləcəyi bir prosesdir. Gənclərin iştirakı daha yaxşı qərar və nəticələrə gətirib çıxarır və gənclərin rifahı və inkişafını təbliğ edir. Gənclərin iştirakı onları dəstəkləyən və onlara təsir göstərən qərarlar və hərəkətlərdə gənclər üçün aktiv rol oynamağa imkan verir və onlara kömək edir, gəncləri müstəqil hərəkət etməyə və öz həyatlarına və ətraf mühitə görə məsuliyyətə cəlb etməyə təşviq edir, yerli icmaların, bölgələrin və ölkələrin inkişafına yardım edir. Gənclərin iştirakı cəmiyyətin imkanlarını gücləndirir, fəal vətəndaşlığın inkişafında vacibdir, çünki gənclərin sosial hüquqlarını onların öhdəlikləri ilə balanslaşdırır. Gənclərin iştirakçılığı vətəndaşlıq ideyaları, fərdi inkişaf və cəmiyyətdə baş verən proseslərdə fəal iştirakla bağlıdır. Gənclər öz cəmiyyətlərində əvəzsiz xidmətlər göstərir və onlar bu iştirak vasitəsi ilə özlərini inkişaf etdirir və gücləndirirlər.[3]

Gənclərin siyasətə qatılmalarının müxtəlif səbəbləri mövcuddur və onların cəlb olunmasının bir çox faydaları vardır:
Gənclərin siyasətə cəlb olunması siyasi iştirakdan daha geniş olan vətəndaş cəmiyyəti fəaliyyətinə gətirib çıxarır, çünki o, səhiyyə, təhsil və xeyriyyə işlərinə cəlb olunmaqla cəmiyyətə xidmət göstərə bilər. Siyasi inteqrasiya vətəndaş cəlbinin daha çox hədəflənməsidir və səsvermə, siyasi nümayişlərdə iştirak etmək və xüsusi məsələlərə dair ərizələrin imzalanması ilə ifadə edilə bilər. Cəmiyyətdə erkən dövrdə siyasi iştirak edən gənclərin vətəndaşlar və seçicilərlə məşğul olma ehtimalı daha çoxdur. Beləliklə, daha yaxşı gənc vətəndaşlığı



təmin etmək üçün siyasət ən yaxşı vasitədir. Diktatura ölkələrində gənc nəslin yeni fikirləri və yeni rəhbərliyi avtoritar praktikaları aradan qaldırmaq üçün kömək edə bilər. Gənc liderlər tərəfindən baş verən etirazlar otokratik liderləri hakimiyyətdən imtina etməyə məcbur edə bilər və bu gənclərin rəsmi qərar qəbul etməsinin bir hissəsi olmasına imkan verir. Gənclər dünyadakı bir çox problemlərlə üzləşirlər. Gənclər digər gəncləri daha yaxşı başa düşdükdən sonra bu yeni nəslin inkişaf etdirilməsinin ən yaxşı yolu inkişaf üçün hərəkətə keçmək üçün istifadə olunan siyasətdir. [4]

Təhlillərin nəticəsi olaraq qeyd etmək lazımdır ki, əgər yaşlı nəsil gənclərə sosial və siyasi həyatda iştirakçılıq üçün daha çox imkan verərsə və gənclik iştirakçılıqlarının uğurlu olmasını təmin etmək üçün əllərindən gələnin ən yaxşısını edərsə, bu bizə gənclər problemini həll edilə bilməsinə, nəsillərarası ədalətin qurulmasına və buna görə də siyasi sistemimizi demokratiya ideallarına yaxınlaşdırmağa doğru böyük ümid gətirir. Əgər yaşlı nəsil demokratiyanın faydalarını və nəsillərarası ədalətin dəyərini başa düşürsə, gənclər uğurlu iştirakçılıq fəaliyyətlərinin təmin edilməsi və davam etdirilməsinə təşviq etmək onların məsuliyyətidir.

Hazırkı siyasətdə bacarıqlı və potensiallı gənclərin azlığı var. Gənclərə siyasətin əlçatan olmasını təmin etməklə onlara özlərini sübut etmək imkanı verilməlidir. Gənc istedadın və təcrübəli siyasətçilərin düzgün balansı siyasətin təmizlənməsinə gətirib çıxara və cəmiyyətin siyasi sistemə inancını qaytara bilər.

## Ədəbiyyat

1. Hart, R. (1992). Children’s Participation: From Tokenism to Citizenship, Florence: Unicef Innocenti;
2. UNICEF/Commonwealth Youth Programme Participation Toolkits (2006) Book One, page 7;

3. Rys Farthing. (2012). Why youth participation? Some justifications and critiques of youth participation using new labour's youth policies as a case study, page 3;
4. De Backer, Kurt and Jans, Marc (2002) Youth (-work) and Social Participation: Elements for a Practical Theory. Brussels: Flemish Youth Council.

## HEYDƏR ƏLİYEV NÜMUNƏSİNDƏ TƏLƏBƏLƏRDƏ HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASI

**Paşayev Fəxri**
*Gəncə Dövlət Universitetinin magistrantı*
Fexri-pasayev@mail.ru

Respublikamızın bir cox ali məktəblərində auditoriyadankənar tədbir kimi illik fəaliyyət göstərən siyasi seminar məşgələləri fəaliyyət göstərir. Fikrimizi əsaslandırmaq üçün Azərbaycanda hərbi quruculuq sahəsində ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətini əks etdirən bir elmi seminar nümunəsinə diqqət yetirək.

Seminar üzvlərinin fəaliyyətinin nəticələri bütün tələbələrin uğuru olması, ictimai xarakter daşıması çox əhəmiyyətlidir. Seminarlar müxtəlif qruplardan olan çoxsaylı tələbələri əhatə edir və daha geniş miqyaslı və müxtəlif fəaliyyəti həyata keçirməyə imkan verir. Son illərdə tələbə qrupları daha geniş yayılıb. Tarix müəllimi tərəfindən yaradılan və idarə olunan tələbə birlikləri və b. müxtəlif qrupları birləşdirir. Bu tələbə özünüidarəsi prinsiplərinə uyğun təşkil edilir. Öz təbiəti, strukturu və məsələlərinin qoyuluşuna görə bu klublar tarix üzrə cəmiyyətlərə oxşayır. Amma bir qayda olaraq, onların fəaliyyəti müasirliyə həsr edilir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra auditoriyada işlər məzmununa görə əhəmiyyətli dərəcədə zənginləşdi, onun təşkilatının



formaları daha müxtəlif oldu. Gənc tarixçilərin ictimai faydalı fəaliyyəti həm ali məktəblərdə, həm də onun hüdudları xaricində də mümkündür. Tələbələrin universitet daxilində ictimai faydalı fəaliyyətinin aşağıdakı növləri var: tələbələr arasında siyasi və elmi biliklərin təbliğatı, tarixi hadisənin məzmunun əl ilə yazılmış nəşrlərinin buraxılışı, tematik sərgilərin rəsmiləşdirilməsi, stendlərin, zalların, muzeylərin yaradılması, ali məktəb tələbələri ilə ekskursiya işinin aparılması, təşkilatçı funksiyaların icra edilməsi, tarix gecələrinin, müsabiqələrin və s. keçirilməsi.

Aparılan araşdırmalar göstərir ki, auditoriyada və auditoriyadankənar tədbirlərdə tədqiqat metodlarından istifadə gələcəyin tədqiqatçılarını hazırlayır. Müəyyən bacarıq və vərdişlərə yiyələnmiş tələbələr məktəbdə yaradılan stendlərin, muzeylərin, otaqların, zalların hazırlanmasında yüksək bacarıq nümayiş etdirməklə iştirak edirlər. Bu işdə tələbələrdən müəyyən biliklə yanaşı, yüksək tərtibatçılıq dizayn bacarıqları da tələb olunur. Muzeyin yaradılması muzey işində iştirak tələbələri tədqiqat işinə qoşur, onların yaradıcılıq qabiliyyətlərini formalaşdırır, ictimai fəallığı inkişaf etdirir, kollektivçiliyi tərbiyə edir. Muzey materiallarından tədris-tərbiyə prosesində istifadə tərbiyə metodları ilə təlim metodlarının yaxınlaşmasına kömək edir, tələbələrə emosional təsir göstərir. Pedaqoji və metodik ədəbiyyatda ali məktəb muzeyi təbiət və cəmiyyət tarixi üzrə ən qədim abidələrin yığıncağı kimi müəyyən edilib.

Tələbələrin Heydər Əliyen nümunəsində hərbi vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasına xidmət edən elmi seminarı təşkil etmək üçün ulu öndərin irsini əks etdirən “Müstəqilliyimiz əbədidir” (hakimiyyətə ikinci qayıdışını əks etdirən) kitablarını ədəbiyyat kimi tövsiyə edilməlidir.

Tələbələrin hərbi vətənpərvərlik tərbiyəsini formalaşdıran mühüm vasitələrdən biri də onların Fəxri Xiyabana ziyarətinin təşkilidir. Ziyarət zamanı rəhbər müəllim tələbələrə Fəxri Xiyabanda

uyuyan qəhrəmanlarımızın milli-azadlıq və torpaqlarımızın rus-erməni təcavüzkarlarından təmizlənməsi uğrunda apardıqları mübarizə haqqında məlumat vermələridir.

Tələbələrin hərbi vətənpərvərlik tərbiyəsini formalaşdıran digər vasitələrdən biri də onların arxiv və muzey materialları ilə, eləcə də bədii memuarlarla tanış edilməsidir. Tələbələrin Qarabağ müharibəsi iştirakçıları ilə görüşüb söhbət etmələri, onlara aid məktub və əlyazmaların məzmununun öyrənilməsi də təsirli vasitələrdən biridir. Eləcə də qəhrəmanlara aid fotoalbomların, markaların, döş nişanlarının qorunub saxlanılmasıdır.

Tələbələrin hərbi vətənpərvərlik tərbiyəsində əsas vasitələrdən biri də Heydər Əliyevin respublikamızda ordu quruculuğuna dair gördüyü əvəzsiz işlərə aid materiallarla tələbələrin tanış edilməsidir. Qabaqcıl tarix müəllimlərimiz yuxarı kurs tələbələrini Heydər Əliyev Mərkəzinə ekskursiyaya apararaq onlara Ulu Öndərin həyat və fəaliyyəti haqqında məlumat verməli, Ümummilli Liderin Ölkəmizdəki ordu quruculuğu sahəsindəki tədbirlərini onların yaddaşlarına həkk etdirməlidirlər.

## Ədəbiyyat


1. Abbasov A. Pedaqogika (müxtəsər konspekt və sxemlər). Bakı, 2007. 80 səh.
2. Əmirov M. Orta məktəbdə tarixin tədrisinin aktual problemləri. Bakı, 2009. 160 səh.
3. Əmirov M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası. Bakı, 2014, 668 səh.
4. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı, Maarif,1995, 104 səh.
5. Fətəliyev X.O. Məktəbdə hərbi vətənpərvərlik tərbiyəsi. Bakı, Maarif, 1987, 148 səh.




# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ AĞILLI TEXNOLOGİYALARIN TƏTBİQİ


**Paşayeva Xanım**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası (Müəllim)*
*İnformasiya Texnologiyaları İnstitutu, doktorant*
pashayeva-khanim@outlook.com


Azərbaycan Respublikası ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin rəhbərliyi altında əvvəllər işğal olunmuş torpaqlarımızın azad edilməsindən sonra transformasiya yoluna qədəm qoyub. Cənab "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və davamlı inkişafı 2021-2025-ci illər üçün Dövlət Proqramı"nın uğurla həyata keçirildiyini nümayiş etdirən göstəricilərə aşağıdakıları nümunə göstərə bilərik:

- məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qaytarılması;
- işğaldan azad edilmiş ərazilərin enerji ilə təminatı istiqamətində görülən işlər, xüsusilə "Yaşıl enerji" təşəbbüsləri;
- şəhərsalma və nəqliyyat infrastrukturunun yaradılması;
- "Azərbaycanın münaqişədən sonrakı ərazilərinə repatriasiyanın proqnozlaşdırılması və səmərəli təşkili üçün təkliflərin hazırlanması" tədqiqat layihəsi çərçivəsində əldə olunan irəliləyişlərlə bağlı ADA Universiteti tərəfindən aparılan sorğuların nəticələri;

İşğaldan azad edilmiş ərazilərdə ağıllı texnologiyaların tətbiqi, müstəqil və inkişaf etmiş bir respublika olan Azərbaycan üçün çox vacibdir. Bu ərazilər ölkənin tarixi və mədəni varlığının bir hissəsidir və onların inkişafı Azərbaycanın ümumi inkişafına böyük təsir edir. İşğaldan azad edilmiş ərazilərdə ağıllı texnologiyaların tətbiqi üçün

potensial sahələrə nümunələrdən biri də aqrar sahələr və kənd təsərrüfatı hesab edilir. "Ağıllı kənd təsərrüfatı" anlayışı kənd təsərrüfatı sektorunda müasir informasiya və kommunikasiya texnologiyalarının (İKT) istifadəsinə istinad edən "Üçüncü Yaşıl İnqilab" kimi tanınan termindən qaynaqlanır. Bitki yetişdirmə və genetik tədqiqatlar sahəsində əvvəlki inqilablardan sonra Üçüncü Yaşıl İnqilab Əşyaların İnterneti (Əİ), sensorlar və aktuatorlar, pilotsuz uçuş aparatları (PUA, dronlar), robototexnika, qlobal yerləşdirmə sistemləri (GPS), "Big Data" və s. kimi informasiya və kommunikasiya texnologiyaları (İKT) həllərinin birgə tətbiqinə əsaslanır. "Ağıllı əkinçilik" həm dəqiq, həm də səmərəli bir üsul götürərək kənd təsərrüfatı məhsullarını məhsuldar və davamlı şəkildə artırmaq üçün əhəmiyyətli bir potensiala malikdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2021-ci il oktyabrın 20-də Zəngilan rayonuna səfəri [1] zamanı rayonun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlər, işğaldan azad olunandan 1 il sonra ərazidə yaradılan infrastruktur, bu torpaqlarda yaxın 5 il ərzində yaradılacaq "Ağıllı kənd təsərrüfatı"nın imkanlarının ilkin nümunəsi kimi qəbul edilə bilər. Kənddə yaradılan "Ağıllı məktəb"də distant təhsil üçün bütün mövcud imkanlar, 200 fərdi ekoloji evin, 4 ikimərtəbəli qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin, 60 yerlik uşaq bağçasının tikintisinin başa çatdırılması, Prezident cənab İlham Əliyevin uğurlu idarəçiliyinin nümunəvi nəticəsidir.

İşğaldan azad edilmiş bölgələrdə informasiya kommunikasiya texnologiyalarının tətbiqi bununla yekunlaşmır. Belə ki, Füzuli rayonunun Dövlətyarlı kəndində[2] yeni salınacaq "Ağıllı kənd" layihəsi də bu siyasətin davamıdır. "Ağıllı kənd" layihəsinin birinci mərhələsində yaşıl və alternativ enerji və "ağıllı idarəetmə" sistemindən istifadə etməklə üç, dörd və beş yataq otağı olan 450 ev



tikiləcək. Kəndin ətrafındakı rayon "Ağıllı kənd" kənd təsərrüfatı zonasına çevriləcək. Beləliklə, insanların əkinçiliklə məşğul olması və rahat yaşaması üçün nə lazımdırsa, şərait yaradılacaq. Bundan əlavə, kənddə ixracyönümlü balıqçılığın yaradılması məqsədi ilə Köndələnçay su anbarından istifadə etməklə smart akvakultura texnologiyaları tətbiq olunacaq.

İşğaldan azad edilmiş ərazilər, su ehtiyatları ilə əhatə olunmuş bölgələrdir. Bu ərazilərin ağıllı texnologiyalar ilə idarə edilməsi və su ehtiyatlarının effektiv şəkildə istifadə edilməsi, bu bölgələrin inkişafında çox böyük əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərlə su ehtiyatlarından istifadə etməklə əlaqədar bir neçə strateji təkliflər mövcuddur. Ağıllı sensorlar və monitorinq sistemləri vasitəsilə su ehtiyatları təhlükəsiz və effektiv şəkildə idarə oluna bilər. Bu sistemlər su sahəsində çıxan problemlərin həllinə tez müdaxilə etmək imkanını verir. Ağıllı texnologiyalar, suyun birləş-dirilməsi və nəql olunması proseslərini avtomatlaşdırmağa kömək edir.[3]

İşğaldan azad edilmiş torpaqlarda yeni binaların və infrastrukturun qurulması zamanı ağıllı bina texnologiyaları tətbiq edilə bilər. Bu, enerji təchizatı, isitmə və soyutma sistemləri, təhlükəsizlik və işıqlandırma üçün effektiv və inteqrasiya olunmuş həllər deməkdir. Təhsil sahəsində ağıllı texnologiyaların tətbiqi, məkəblilərə daha effektiv təhsil prosesləri təqdim etməyə yardım edə bilər. İşğaldan azad edilmiş ərazilərdə mədəni və elmi mərkəzlər yaradılması regional inkişafın və mədəniyyətin inkişafının bir hissəsinə çevrilməsinə kömək edəcəkdir. Sağlamlıq sektorunda ağıllı texnologiyaların tətbiqi, tibbi təşkilatların daha sürətli və effektiv xidmət göstərməsinə kömək edə bilər. Ağıllı tibbi texnologiyalar tibbi yardımın daha çox insana çatdırılmasına imkan verir. İşğaldan azad edilmiş ərazilər Azərbaycanın turizm potensialını artırmaq üçün əhəmiyyətli bir resurs təşkil edir. Burada ağıllı turizm

texnologiyalarının tətbiqi, turistlərin rahat və maraqlı səyahət etməsinə kömək edir.

İqtisadi diversifikasiya və innovasiya uzunmüddətli rifahı və sabitliyi təşviq edərək inkişaf edən iqtisadi mənzərəni gücləndirəcək. Bir vaxtlar işğal altında olan, artıq 3 ildir ki, işğaldan azad edilmiş ərazilər indi bütün xalq üçün ümid, möhkəmlik və tərəqqi çıraqları kimi dayanır.

### Ədəbiyyat


1. https://president.az/az/articles/view/53507
2. https://president.az/az/articles/view/53631
3. Singh, M., & Ahmed, S. (2021). IoT based smart water management systems: A systematic review. *Materials Today: Proceedings*, *46*, page 5214–5215. https://doi.org/10.1016/j.matpr.2020.08.588


## TƏHLÜKƏSİZLİK ANLAYIŞI VƏ TƏHLÜKƏSİZLİYİN TƏMİNİNDƏ NƏZƏRİ YANAŞMALAR


**Rəhimov Bəxtiyar**
*AR-nın Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının “İnzibati idarəetmə” fakültəsi, “Dövlət və bələdiyyə idarəetməsi” ixtisasının tələbəsi*
*Email-Baxtiyar.rehimov@gmail.com*


Realistlərdən fərqli olaraq plüralistlər təhlükəsizliyə başqa aspektdən yanaşır və beynəlxalq münasibətlər sistemində dövlətlərlə yanaşı, bir çox digər aktorları da əhəmiyyətini iddia edirlər (1,584). İlk öncə, bunlar dünyada əhəmiyyəti, səlahiyyət dairəsi durmadan artan beynəlxalq təşkilatlar və digər institutlardır. Bu nöqteyi nəzərdən məsələyə yanaşsaq, artıq milli təhlükəsizlik məfhumu yalnız dövlətlər arasında qüvvələr balansı, güc amili ilə müəyyən edilə bilməz. Bu səbəbdən də dövlətlərin milli təhlükəsizliyin təmin olunması məsələsi beynəlxalq sistemin bütün aktorları ilə qarşılıqlı fəaliyyətindən asılıdır və dövlətlərarası münasibətlərin adi hüdud-larından xeyli kənara çıxır. Marksist nəzəriyyənin nümayəndələri milli təhlükəsizlik konsepsiyasına tamamilə fərqli prizmadan baxır. Bu yanaşmanın tərəfdarları belə hesab edirlər ki, beynəlxalq miqyasda bütün münaqişələr öz maraqlarını diqtə etməyə çalışan dövlətlər arasındakı gərginlikdən çox, iki əsas sosial sinif, kapitalistlər və proletarlar arasındakı qarşıdurmalardan qaynaqlanır. Kapitalistlər proletarları təkcə ayrı-ayrı dövlətlər daxilində deyil, beynəlxalq münasibətlərdə də istismar edir, öz iradəsini zəif və az inkişaf etmiş ölkələrə sırımağa çalışır, bununla da qlobal miqyasda hökmranlıq əldə edirlər. Marksistlərə görə, hər hansı bir ölkənin milli təhlükəsizliyi ölkə daxilində hökmranlıq edən, devrilməli olan kapitalistlərə, sonra isə öz nüfuzlarını yaymaq istəyən xarici kapitalistlərə qarşı müqavimətə əsaslanmalıdır (2,595).

Müxtəlif fərqli nəzəri yanaşmalara baxmayaraq, bir çox nəzəri yanaşmalar milli təhlükəsizliyin təmin olunmasının hər bir dövlətin fəaliyyətinin əsas prioritet istiqamətlərdən biri olduğuna inanırlar. Müstəqilliyinin təmin edilməsində təhlükəsizlik sektorunun roluna daha çox diqqət yetirmək vacibdir. Təhlükəsizlik sektoru müəyyən bir dövlətin milli təhlükəsizliyini həm daxili, həm də xarici təhdidlərə qarşı qorumağa yönəlmiş daxili siyasət və fəaliyyət sahəsidir. Təhlükəsizlik sektoru müəyyən bir dövlətin milli təhlükəsizliyini həm daxili, həm də xarici təhdidlərə qarşı qorumağa yönəlmiş daxili siyasət və fəaliyyət sahəsidir. Hərbi sahədə təhlükəsizliyin təmin olunması tarixən milli təhlükəsizliyin birinci forması olmuşdur. İlk dövlətlərin yaranmasından başlayaraq, beynəlxalq iqtisadi münasibətlərin səviyyəsi müqayisə olunmayacaq

dərəcədə aşağı olduğu, beynəlxalq miqyasda əhəmiyyətli sosial qarşılıqlı əlaqənin müşahidə edilmədiyi dövrdə dövlətlər arasında bütün münasibətlər əsasən onların hərbi çalarların üstünlüyü əsasında inkişaf edirdi. Daha güclü ölkələr böyük imperiyalar qurmaq üçün daha zəif ölkələri işğal etməyə çalışırdılar. Dövr keçdikcə, beynəlxalq iqtisadi münasibətlərin inkişafı ilə yeni təsir mexanizmləri yaranmağa başladı. Hərbi işğal artıq başqa dövlətlərə öz hakimiyyətini diktə etməyin yeganə yolu deyildi. Rəqiblərə qarşı birbaşa güc tətbiq etmək əvəzinə, onları iqtisadi cəhətdən sıxışdırmaq, məsələn, bəzi malların dövriyyəsini əngəlləmək və ya onların iqtisadiyyatını çox asılı vəziyyətə salmaqla əslində onların təhlükəsizliyinə kölgə salmaq mümkün oldu. Dünya müharibələrindən sonra dünya ictimaiyyəti beynəlxalq arenada genişmiqyaslı münaqişələrin bəşəriyyət üçün təhlükə yaradacağını başa düşdükdən sonra qlobal miqyasda hərbi vasitələrin tətbiqi, daha doğrusu, beynəlxalq razılaşma və qaydalar vasitəsilə fəal şəkildə məhdudlaşdırılmağa başlandı. Digər dövlətlərin hərbi müdaxiləsi təhlükəsinə qarşı dövlətlərdə təhlükəsizlik sektoru yarandı. Bu, hərbi təhlükəsizliyi təmin etməyə yönəlmiş daxili siyasətdən ibarət idi. Dövlətlər bir sıra tədbirlər həyata keçirdilər - öz ordularını yaratdılar, onların təlimini təşkil etdilər, təchizatla təmin etdilər, hərbi əməliyyatların planlarını hazırladılar, istehkamlar tikdilər. Bütün bunlar milli sərhədləri xarici işğalçılardan qorumaq üçün edilirdi. Yeni texnologiyaların inkişafı ilə hərbi sektorun modernləşdirilməsi daha sürətlə inkişaf etməyə başladı təbii ki, yeni silahlar, avadanlıqlar sayəsində sürətləndi. Bu gün dövlətlərin heç bir hərbi vasitə tətbiq etmədən daha geniş əməkdaşlığa can atmalarına baxmayaraq, hərbi təhlükəsizlik istənilən beynəlxalq münaqişələrin eskalasiyasını məhdudlaşdıran əsas amillərdən biri olaraq qalır. Bu, əsasən, hərbi qüdrətin istənilən potensial təcavüzkarın hərəkətlərinə müqavimət göstərməyə hazır olması ilə bağlıdır. Bundan başqa, indiki şəraitdə terror aktlarının qarşısının alınması və ləğvi üçün hərbi



sektor çox vacibdir. Hərbi təhlükəsizliyin rolunu qiymətləndirmək olmaz və buna görə də ölkələr regional səviyyədə bu sahədə qarşılıqlı fəaliyyətə meyllidirlər.

Siyasi təhlükəsizlik təhlükəsizlik sahəsinin digər mühüm elementidir. Söhbət əsasən mövcud sosial nizamın qorunmasından gedir. Müəyyən bir dövlət daxilində siyasi təhlükəsizlik ölkədə siyasi sabitliyin təmin edilməsini, beynəlxalq aləmdə uzunmüddətli siyasətlərin formalaşdırılmasını nəzərdə tutur. Dövlət daxilində siyasi sabitlik onun ümumi milli təhlükəsizliyi üçün çox vacibdir, belə ki, belə sabitliyin olmaması potensial olaraq cəmiyyətin əsas təməllərinin korlanmasına və buna görə də hər hansı milli maraqların itirilməsinə gətirib çıxara bilər. Eyni zamanda, xarici tərəfdaşlarla möhkəm əlaqələrin qurulması, beynəlxalq müstəvidə əsas müttəfiqlərin müəyyənləşdirilməsi və s. üçün xarici inkişafın vektorları ilə bağlı uzunmüddətli siyasət tələb olunur (5,347). Ümumi siyasi kurs sabit qalarsa, dövlət təhlükəsizliyi daha yüksək olmağa meyllidir. İqtisadi təhlükəsizlik bu gün milli təhlükəsizliyin mühüm elementlərindən biri hesab oluna bilər. İqtisadi təhlükəsizlik dövlətlərin iqtisadi inkişaf səviyyəsində sabitliyini, yüksək sosial rifah səviyyəsini və iqtisadiyyatın ümumi fəaliyyətini təmin etmək üçün lazım olan bütün resurslarla təmin olunmasını nəzərdə tutur (3,562). Qloballaşma şəraitində iqtisadi təhlükəsizliyin rolu daha da yüksəlir, o zaman ki, ölkələr arasında iqtisadi qarşılıqlı əlaqə çox sıxdır və daha çox inkişaf etmiş ölkələr öz iqtisadi güclərindən zəif dövlətlər üzərində alət kimi istifadə etməyə meyllidirlər. İqtisadi resursları çox vaxt bəzi müstəqil dövlətlərdən daha yüksək olan transmilli korporasiyaların indiki təsirini nəzərə alsaq, iqtisadi təhlükəsizlik xüsusi əhəmiyyət kəsb edir, çünki o, bütün fəaliyyətləri maliyyələşdirməyə, insanlara dövlət dəstəyini təmin etməyə, gələcək üçün planlar hazırlamağa şərait yaradır (4,604).

**Ədəbiyyat**

1. Ağalar Abbasbəyli Dünya siyasəti: XX əsrin ikinci yarısı - XXI əsrin əvvəlləri Nurlar nəşriyyatı, Bakı 2011, 584 səh.
2. Buzan Barry People, State and Fear: An Agenda for lnternational Security Studies in the Post Cold War Era, ,Harvester Wheatsheaf Publiaction, London 1991, p. 595.
3. Babaoğlu Hikmət Dünya siyasəti və beynəlxalq münasibətlər Çinar-Çap Bakı 2011, səh. 562.
4. Kərimov Cəlil, Kərimova Tahirə Beynəlxalq münasibətlər və xarici siyasət, ADPU nəşriyyatı, Bakı 2013, səh. 347

## İKT - SƏRİŞTƏLİYİ TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ AMİLİ KİMİ

**Rəhimova Lalə**
*Gəncə Dövlət Universiteti*
*rahimova.lala@yandex.ru*

***Açar sözlər:*** *təhsil, tələbə, İKT, səriştəlilik, müasir müəllim*

Qlobal informasiyalaşma müasir cəmiyyətin inkişafının ən vacib istiqamətlərindən biridir. Tələbələrin peşəkar kadr və şəxsiyyət kimi formalaşması, yüksək səviyyəli mütəxəssis kimi müasir səriştələrə sahib olması ali peşə təhsilinin əsas məqsədlərindən biridir. Ali təhsilin qarşısında bu gün prinsipcə yeni məsələlər durur. Bunlar 21-ci əsrin bacarıqlarına malik, peşə mobilliyinə qadir, elmi və praktiki fəaliyyətdə baş verən yeniliklərə operativ reaksiya verən gələcək mütəxəssislərin inteqrativ modelinin yaradılması, bu model əsasında kadr hazırlığını həyata keçirmək yollarının müəyyənləşdirilməsi kimi məsələlərdir.



Təhsilin fasiləsiz modernləşdirilməsi prosesi elm, texnika və müxtəlif istehsal sahələrinin sürətli inkişafında əhəmiyyətli rol oynayır. Təhsilin modernləşdirilməsi həm də əmək bazarının tələblərinə uyğun olaraq vətəndaşların peşə, karyera və şəxsiyyət kimi inkişafına imkan verən fasiləsiz təhsil sisteminin inkişafına da güclü təsir göstərir.

İKT səriştəliyinin formalaşdırılması probleminin həllinin vacibliyi təhsil haqqında normativ-hüquqi sənədlərdə xüsusi vurğulanır. Təhsil proqramlarının məzmunu mürəkkəb peşələrin, iqtisadiyyatın yüksək texnologiyalar və peşə fəaliyyəti ilə əlaqəli bütün sahələrində işlərin yerinə yetirilməsi üçün praktiki vərdişlərin mənimsənilməsini nəzərdə tutur. Bu məqsədlə bəzən inteqrativ fənnlərin (kursların) tədrisi nəzərdə tutulur.

Bü gün dünyada 3D-printinq, onlayn-ticarət, mobil bankinq, rəqəmsal xidmətlər kimi perspektiv sahələr inkişaf edir. Sənayenin bu sahəsi inkişaf etmiş ölkələrin iqtisadi strukturunu artıq dəyişmiş və ənənəvi sahələrə fərqli, yeni keyfiyyət vermişdir. Ölkəmizdə də rəqəmsal iqtisadiyyata keçidlə əlaqədar müəyyən işlər aparılır. Belə ki, ölkəmizdə bu məsələlərlə əlaqəli nazirlik və agentliklər, bu istiqamətdə fəaliyyət göstərəcək müxtəlif yeni qurumlar yaradılmışdır. Hal-hazırda "Rəqəmsal İqtisadiyyatın inkişafı konsepsiyası" hazırlanır. Həmçinin kommunikasiyaların inkişafını, fiber-optik infrastruktura hərtərəfli çıxışı təmin etmək məsələlərinin həlli optimallaşdırılır. Rəqəmsal sənayenin inkişafı bütün digər sahələrin də inkişafına təkan verəcəkdir. Buna görə də Hökumət İT-sahəsinin inkişafı məsələsini xüsusi nəzarətdə saxlayır.

İnformasiya texnologiyalarının geniş tətbiqi və intensiv inkişafı, onların texniki bazası və proqram təminatının daim yenilənməsi müasir İKT əsaslı fənlərin öyrənilməsi üçün tədris proqramları və metodiki materialların fasiləsiz yenilənməsini tələb edir.

Ali peşə təhsilinin əsas məqsədi müvafiq səviyyəli və profilli, öz peşəsini yaxşı bilən, peşəsinə yaxın (yanaşı) fəaliyyət sahələrindən məlumatlı olan, daimi peşəkar inkişafa, sosial və peşəkar mobilliyə malik, yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasından, fərdin təhsil almaq tələbatının təmin edilməsindən ibarətdir.

Bu gün tədris prosesində müxtəlif İKT vasitələrindən istifadə imkanları var. Bunlar, məlumat bankları, İnternet resursları, çoxsaylı elektron tədris vəsaitləri, lüğətlər və soraqçalar, didaktik materiallar, təqdimatlar, biliklərin yoxlanılmasını avtomatlaşdıran proqramlar, ünsiyyət forumları və bir çox digər vasitələrdir.

Bu gün dünya İKT-dən asılı vəziyyətə gəlmişdir. Gələcəyin müəllimlərindən pedaqoji-psixoloji biliklər də daxil olmaqla, müxtəlif səriştələrə, xüsusən də İKT səriştələrinə sahib olmaq tələb edilir. Əmək bazarı hazır həllər əsasında geniş bilikləri və sürətli layihələri tələb edir. Eyni zamanda müəllim şagirdlərə təlim-tərbiyə verir, onları inkişaf etdirir, İKT-nin tətbiqi ilə özünütəhsil, peşəkar və yaradıcı inkişaf üçün güclü stimul alır. Müəllimlər İKT-yə yiyələnməklə, informasiya cəmiyyətinin fəal üzvü olur, gələcək mütəxəssislərin hazırlığı prosesində İKT-ni tətbiq etməklə, təhsilin keyfiyyətini, mütəxəssislərin hazırlanma səviyyəsini və öz peşəkarlığını artırırlar.

**Ədəbiyyat**


1. İlham Əhmədov. Təhsil mürəkkəb dinamik sistemdir. https://www.mektebgushesi.az/2019/11/18/__trashed/.
2. Əzimzadə Y.M. Səriştəli müəllim kadrlarının hazırlığı təhsilin keyfiyyətinin yüksəldilməsinin mühüm amili kimi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı 2021.
3. İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri / M.İ.İlyasov. - Bakı: Elm və təhsil, -2018.




# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA GƏNCLƏR SİYASƏTİ


**Rüstəmov Əlisuvar**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
ali2004rustamov@gmail.com


***Açar sözlər:*** *Heydər Əliyev, gənclər, gənclər siyasəti, dövlət siyasəti, Azərbaycanın gələcəyi*

Böyük fəxarət hissi ilə qeyd edə bilərik ki, ölkəmiz böyük bir tarixi geridə qoyaraq bu günkü gün öz inkişafının müasir mərhələsini yaşayır. Əlbəttə ki, inkişafın bu mərhələsinə çatmaqda gənclərin rolu danılmazdır. Sürətlə inkişaf edən ölkəmizdə hal-hazırda müxtəlif sahələrdə biz gənclər fəal iştirak edə bilir, hətta başda Cənab Prezidentimiz İlham Əliyev olmaqla dövlətimiz tərəfindən yaradılan şərait nəticəsində biz bu sahələrdə həyata keçirilən fəaliyyətlərin nəinki iştirakçısı, hətta aparıcı qüvvəsi kimi çıxış edə bilirik və burada dövlətimizin diqqəti və qayğısı böyük rol oynayır. Bu da bizə onu deməyə əsas verir ki, Azərbaycanda həyata keçirilən gənclər siyasəti çox uğurlu bir modeldir və bu gün bu model öz bəhrəsini verməkdədir. Bu modelin banisi isə Azərbaycan xalqının Ümummilli lideri, Milli qurtuluş mübarizəsinin qalibi və Yeni Azərbaycanın qurucusu Heydər Əliyevdir.

Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanununa görə gənclər siyasəti gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək məqsədi ilə dövlət tərəfindən ictimai-siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitin və təminatların yaradılmasına yönəlmiş tədbirlər sistem-idir.Bu gün böyük inam hissi ilə qeyd edirik ki, ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Respublika-

da dövlət gənclər siyasətinin formalaşdırıl-ması Ümum-milli lider Heydər Əliyevin adı ilə bağlıdır. Gənclərimizin bir fərd, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında ümummilli lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var. Ulu Öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tuturdu. Heydər Əliyevin bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və zəngin elmi potensialın yaradılmasına xidmət edirdi. Heç də təsadüfü deyildir ki, Heydər Əliyev hər zaman gənclərə qayğı ilə yanaşır, onların problemlərini həll etməyə çalışırdı. Ulu öndər Heydər Əliyev gəncləri Azərbaycanın gələc-əyi kimi dəyərləndirirdi və bütün fəaliyyət dövrü ərzində bu prinsipi özü üçün başlıca prinsip kimi rəhbər tutmuşdur. Bunu ümummilli liderimizin fəaliyyət tarixçəsinə nəzər yetirdikdə də bariz şəkildə görə bilirik. Heydər Əliyev deyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbay-can Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır.

Ulu öndər Heydər Əliyevin Azərbaycan gəncliyinə böyük qayğısı təkcə müstəqillik illərində deyil, hələ Sovet dönəmində də aşkar müşahidə olunurdu. Belə ki, ötən əsrin 70-ci illərində məhz Ümummilli liderin təşəbbüsü və gərgin səyləri nəticəsində xeyli miqdarda azərbaycanlı gənc SSRİ-nin 170-dən çox təhsil müəssisəsində ali təhsil almışlar. Bu addım Azərbaycanda ən müxtəlif sahələr üzrə peşəkar kadr bazasının formalaşmasına xidmət etmişdir.

1993-cü ildə xalqın istəyi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev 22 sentyabr 1993-cü ildə Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşündəki çıxışında onlara dərin inam bəslədiyini ifadə etdi. Onun "Azərbaycanın bugünkü gələcəyi



bütövlükdə sağlam düşüncəli gənclərdir" -sözləri hər kəsin həyat devizinə çevrildi. Ölkədə demokratik prosesin sürətlənməsi ərəfəsində gənclərin təşkilatlanması məqsədi ilə dövlət başçısı tərəfindən 1994-cü il 26 iyul tarixində Gənclər və İdman Nazirliyinin yaradılması barədə fərman imzalandı. Bununla da dövlətin gənclərlə bağlı siyasəti vahid mərkəzdən idarə olunmağa başladı. Bu nazirliyin yaradılması sübut edirdi ki, Ulu öndər ölkənin gələcəyini birbaşa gənclərin hərtərəfli inkişafı ilə bağlayırdı. Beləliklə, Ulu öndər dövlət başçısı kimi fəaliyyətə başladığı ilk dövrlərdən gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlətin və cəmiyyətin prioritet vəzifəsi səviyyəsinə yüksəltmişdir. Bu istiqamətdə yorulmadan böyük işlər görməklə Ümummilli lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının yüksək səviyyədə təmin edilməsinə nail olmuşdur. Ulu öndərin hakimiyyətinin ilk illərindən gənclərə yüksək qayğı göstərməsini bir daha sübut edən məqamlardan biri də ondan ibarətdir ki, O, 1995-ci ildə Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürmüş və 1996-cı ilin 2 fevralında Azərbaycan Gənclərinin Birinci Formu keçirilmişdir. Formda gənclər və idman siyasəti sahəsində görülən işlərdən, gəncliyin qarşısında böyük məsuliyyətin dayandığından danışan ulu öndər Heydər Əliyev Azərbaycan gəncliyinin daha uğurlu sabahına inandığının vurğuladı. 1 fevral 1997-ci il tarixdə ilk forumun ildönümü münasibəti ilə gənclərlə görüşən Ümummilli lider "2 fevral - Azərbaycan Gəncləri gününün elan edilməsi haqqında" Sərəncam imzalamışdır. Məhz həmin tarixdən etibarən hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi böyük təntənə ilə qeyd olunur.

Gənclərin II Forumu, həmçinin imzalanmış "Dövlət gənclər siyasəti haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Gənc istedadlar üçün təqaüdlərin təsis edilməsi haqqında" fərmanlar,

sərəncamlar, bu istiqamətdə qanunlar və s. Azərbaycan gəncliyinin inkişafı yolunda çox mühüm faktora çevrildi.

Ümummilli lider Heydər Əliyev həmişə gənclərimizə böyük ümidlər bəsləyir və dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin dövlət qulluğunda məsul vəzifələrdə iştirakını təmin etmək, aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədi ilə ölkə rəhbərliyi bütün lazımi tədbirləri həyata keçirir, önəmli Dövlət proqramları qəbul olunur. "Heydər Əliyev adına təqaüd"ün təsis edilməsi haqqında 24 iyun 2023-cü il tarixli Azərbaycan Respublikası Prezidentinin sərəncamı da bunun bariz nümunəsidir.

**Ədəbiyyat**

1. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu

## AQRAR SAHƏDƏ İSTEHSALIN İDARƏETMƏ STRUKTURU VƏ İQTİSADİ TƏŞVİQ MEXANİZMLƏRİNİN TƏDQİQİ

**Rzayev Rəhman**
*Azərbaycan Dövlət Aqrar Universiteti, Magistr*

***Açar sözlər:*** *rəqabət, sahibkarlıq, iqtisadi mexanizm, idar-ətmə, libera bazar münasibətləri.*

Aqrar sahədə iqtisadi fəaliyyətinin iqtisadi mexanizmləri ilk növbədə sahibkarlığın iqtisadi cəhətlərinin müdafiə edilməsinə, istehsalçıların iqtisadi cəhətdən stimullaşdırılmasına əsaslanır. Aqrar



sahədə sahibkarlıq fəaliyyətinin iqtisadi mexanizmi ilk növbədə məhsul istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsinə əsaslanır. Kənd təsərrüfatında sahibkarlığın inkişafına yardım göstərəcək iqtisadi mexanizmlər ilk növbədə ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsinə və bütövlükdə ərzaq təhlükəsizliyinin təmin edilməsinə xidmət edir. iqtisadi mexanizmlər nəticə etibarilə kənd təsərrüfatında sahibkarlıq qurumlarının davamlı inkişafının təmin edilməsində də əhəmiyyətli rola malikdir. Məlum olduğu kimi, kənd təsərrüfatı əmtəə istehsalçıları maddi-texniki resurslara olan tələbatın ödənilməsi, eləcə də kapital azlığı baxımından müəyyən problemlərlə üzləşirlər. Əslində bütün bunlar kənd təsərrüfatında dövriyyə imkanlarının o qədər də sürətli olmaması ilə sıx bağlıdır. Iqtisadiyyatın digər sahələri ilə müqayisədə kənd təsərrüfatının az gəlirliliyi sahibkarların geniş təkrar istehsal rejimində fəaliyyət göstərməsini əngəlləyir. məhz belə bir şəraitdə kənd təsərrüfatı az gəlirli sahə kimi fəaliyyət göstərir. Odur ki, sahibkarlığın inkişafının iqtisadi mexanizmləri, ilk növbədə sahibkarlıq qurumlarının əsas və dövriyyə vəsaitlərinə olan tələbatının ödənilməsinə, eləcə də kredit resursları ilə effektiv şəkildə təmin edilməsinə əsaslanır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında sahibkarlığın inkişafının iqtisadi mexanizmləri, ilk növbədə iqtisadi qanunlardan istifadəyə əsaslanmaqla sahənin davamlı inkişafının təmin edilməsinə, eləcə də maddi-texniki və əmək resurslarından səmərəli istifadə edilməsinə və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinə istiqamətlənmiş təsərrüfat proseslərinin forma və metodlarının məcmusunu özündə əks etdirir. Liberal münasibətlər şəraitində kənd təsərrüfatında sahibkarlığın inkişafı, əslində kənd təsərrüfatında bazar mexanizminin əsas elementləri ilə start götürür. Bu elementlərə ilk növbədə əmtəə istehsalı şəraitində qiymət, tələb, təklif və rəqabəti aid etmək mümkündür. Lakin nəzərə almaq

lazımdır ki, kənd təsərrüfatında bazar özünü tənzimləmə mexanizmi, bütövlükdə sahənin özəllikləri baxımından optimal geniş təkrar istehsal rejimi yaratmağa qadir deyildir. Bu baxımdan kənd təsərrüfatında sahibkarlığın inkişafının iqtisadi mexanizmləri tətbiq edilməlidir. Əslində iqtisadi mexanizmlər ilk növbədə dövlətin aqrar siyasəti və eləcə də dövlətin sahibkarlıq fəaliyyətinin tənzimlənməsinə istiqamətlənmiş tədbirlər çərçivəsində formalaşır. Onu da nəzərə almaq lazımdır ki, kənd təsərrüfatında sahibkarlığın inkişafının iqtisadi mexanizmləri, bazar özünü tənzimləmə mexanizminin fundamental prinsiplərinin pozulmamasına xidmət edir və bu baxımdan da, hətta inkişaf etmiş ölkələrin təcrübəsində belə iqtisadi mexanizmlərdən kifayət qədər geniş şəkildə istifadə edilir. İqtisadi mexanizmlər ilk növbədə davamlı inkişafa və yerli istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Aparılan araşdırmalar göstərir ki, bir sıra hallarda kənd təsərrüfatında bazar mexanizminin bəzi elementləri ilə sahibkarlığın inkişafının iqtisadi mexanizmlərinin bəzi elementləri arasında müəyyən paralelliklər də mövcuddur.

Araşdırmalar göstərir ki, sahibkarlığın inkişafının təşkilati mexanizmləri bazar rəqabət mexanizmi kimi xarakterizə edilir və bu mexanizmlər nəticə etibarilə sahibkarlıq qurumlarının bazar özünü tənzimləmə mexanizmində əlverişli iqtisadi məkana malik olmasına bilavasitə təsir göstərir. Bundan əlavə sahibkarlıq qurumlarının tənzimlənməsinin təşkilati metodları vasitəsilə dəstəklənməsi də mühüm rola malikdir ki, bu da iqtisadi qanunların tələblərinə adekvat təşkilati mexanizmlərin yaradılmasını nəzərdə tutur. Kənd təsərrüfatında sahibkarlığın inkişafının təşkilati mexanizmlərinin tərkibində infrastruktur sistemi də əhəmiyyətli rol oynayır. Qeyd etmək lazımdır ki, bazar infrastrukturlarının formalaşdırılması son nəticədə sahibkarlıq qurumlarının istehsal etdikləri məhsulların reallaşdırılmasında və səmərəli şəkildə bölüşdürülməsində



əhəmiyyətli rola malikdir. Bazar infrastrukturlarının təkmil fəaliyyəti, son nəticədə sahibkarlıq subyektlərinin gəlirlərinin artırılmasına da bilavasitə təsir göstərir. Bazar infrastrukturları həm də əhalinin ərzaq və qida məhsullarına olan tələbatın ödənilməsində, daha doğrusu, kənd təsərrüfatı məhsullarının istehlakçılara çatdırılmasında əhəmiyyətli rola malikdir. Ümumiyyətlə, bazar infrastrukturları bazarda əmtəə və xidmətlərin sərbəst hərəkətini təmin edən zəruri, təşkilati və digər qurumların məcmusunu özündə əks etdirir. Bazar infrastrukturlarının tərkibinə aşağıdakılar şamil edilir:

- təşkilati baza. Bu ilk növbədə birjaların təchizat-satış kampaniyalarını, broker və digər vasitəçilik təşkilatlarını, iri sənaye müəssisələrini, kommersiya firmalarını özündə əks etdirir;
- maddi baza. Bu ilk növbədə nəqliyyat sistemini, anbar və tara təsərrüfatını, informasiya sistemini və rabitə vasitələrini özündə əks etdirir (informasiya və sorğu sistemləri, eləcə də istehsal texniki təyinatlı məhsullarla bağlı informasiya mübadiləsinin təşkil edilməsi, xalq istehlak mallarının əhaliyə çatdırılması ilə bağlı zəruri təşkilati şəbəkələrin yaradılması və sair);
- kredit maliyyə bazası. Bu ilk növbədə kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə-kredit resurslarına olan tələbatın ödənilməsini məqsədi ilə orta və kommersiya banklarının formalaşdırılmasında, eləcə də kredit-əmanət təşkilati qurumlarının müstəqil bank strukturlarını və sığorta sistemlərini özündə əks etdirir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında sahibkarlığın inkişafının təşkilati mexanizmlərinin tərkibində, aqrar menecment sistemi də əhəmiyyətli rol oynayır. Aqrar menecment sistemi, ilk növbədə kənd təsərrüfatında istehsalın və satışın səmərəliliyinin yüksəldilməsinə, eləcə də mənfəətin artırılmasına istiqamətlənmiş idarəetmənin forma və metodlarının müasir prinsiplərinin məcmusunu özündə əks etdirir. Aqrar menecment sisteminin spesifik xüsusiyyətləri ilk növbədə kənd

təsərrüfatının özəlliklərindən irəli gəlir. Aqrar menecment sistemi də ilk növbədə kənd təsərrüfatında fərqli resurslardan asılı və eləcə də torpaq münasibətləri ilə sıx və üzvü şəkildə əlaqəyə malikdir. Ümumiyyətlə, kapital resurslarından istifadənin özəllikləri, eləcə də kənd təsərrüfatı məhsullarına olan tələbin aşağı elastikliyi, son nəticədə aqrar menecment sisteminin ən mühüm özəlliklərindən biri kimi çıxış edir.

Araşdırmalar göstərir ki, hal-hazırda kənd təsərrüfatı əmtəə istehsalçıları dolayı da olsa, idarəetmə sisteminin subyekti kimi sıxış edir və mülkiyyət mənsubiyyətindən asılı olmayaraq hər bir əmtəə istehsalçısı müəssisə və təsərrüfat vahidinin yenidən təşkilatlanmasını və ləğv edilməsini, eləcə də onların istehsalın maliyyə fəaliyyətinin tənzimlənməsini, mülkiyyətin bölüşdürülməsini, məhsulun istehsalı ilə bağlı onların çeşidinin müəyyənləşdirməsini sərbəst şəkildə həyata keçirirlər.

Müasir şəraitdə menecment sisteminin əsas vəzifəsi, ilk növbədə sahibkarlıq təşəbbüslərinin dəstəklənməsindən, eləcə də aqrobiznesin həyata keçirilməsi ilə bağlı müstəqillik və məsuliyyət prinsiplərinin reallaşdırılmasından, əməyin təşkili ilə bağlı daxili motivasiyaların formalaşdırılmasından, eləcə də inzibati amirlik metodlarından imtina edildiyi şəraitdə müqavilə yolu ilə tənzimləmə tədbirlərini həyata keçirməsinə, eləcə də sosial-əmək münasibətlərinin iqtisadi vasitələrlə tənzimlənməsinə nail olmaqdan ibarətdir.

Yuxarıda qeyd etdiklərimizi ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, kənd təsərrüfatında sahibkarlığın inkişafının iqtisadi-təşkilati mexanizmlərinin aktiv xarakter daşıması nəticə etibarilə yerli əmtəə istehsalçılarının daxili bazarda daha çox möhkəmlənməsinə, eləcə də istehsalın rəqabət qabiliyyətinin artırılmasına əhəmiyyətli təsir göstərə bilər.



## BÜTÖV VƏ QALİB AZƏRBAYCAN

**Sadıqova İlahə**
Naxçıvan Dövlət Universiteti
Beynəlxalq Münasibətlər və Diplomatiya
ilahesadiqova57@gmail.com

Dünyanın hazırki geosiyasi reallıqları fonunda Azərbaycan əldə etdiyi ard-arda qələbələr, diplomatiya sahəsində qazandığı uğurlar, Cənubi Qafqazın lider dövlətinə çevrilməsi, dünya miqyasında nüfuz sahibi olması ilə artıq yeni tarix yazır desək yanılmarıq. Bu güclü siyasətin, bu uğurun əsasını qoyan, müstəqil Azərbaycançılıq məfkurəsini yaddaşlara həkk edən ümummilli liderimizin layiqli davamçısı İlham Əliyevin başçılığı altında qazandığımız uğurlar dünya dövlətlərini heyrətə qoyub. Yaxın tarixə qədər torpaqlarının 30 faizi düşmən tapdağı altında olan Azərbaycan, artıq bu bütövlüyü və bölünməzliyi öz gücü və qüdrəti hesabına əldə edib. 44 günlük tarixi qələbəni qazanmağımızla dünyaya səs salan Azərbaycan bu qələbəni qazanmaq üçün keçən müddət ərzində ciddi iqtisadi, siyasi, hərbi və diplomatik islahatlar həyata keçirərək mövcud şəraitin yetişəcəyi vaxta qədər həmin tarixi təxiri salmışdı. Azərbaycanla Ermənistan arasında atəşkəş elan olunan müddətdən keçən zaman ərzində ermənilər dəfələrlə atəşkəsi pozmuş, hərbiçilərimizin o, cümlədən mülki vətəndaşların haqsız yerə öldürülməsinə səbəb olmuşlar. Baş verənlər artıq xalqın səbrini daşırırdı. Amma mübarizə meydanında igidliyi ilə seçilən xalqımız hər zaman düşmənə layiqli cavab vermək üçün lazımi şəraitin yetişməsini gözləyirdi. 2016-cı il Aprel döyüşləri və 2020-ci il Tovuz döyüşləri xalqın mübarizə əzmini daha da artıraraq, düşmənə layiqli cavab verməyimizin vaxtının artıq yetişdiyini bildiririrdi.

Ali Baş Komandanın rəhbərliyi altında "dəmir yumruq" əməliyyatı ilə 44 günlük tarixi qələbəmizdən sonra keçən 3 il ərzində müxtəlif cəhdlərlə sülh müqaviləsi imzalamaqdan yayınan ermənilər bu müddətdə hər il sentyabr ayında Azərbaycana qarşı təxribat törətməyi sanki ənənə halına salsalar da məhz 2023-cü il sentyabr ayının 19 və 20-də ölkəmiz tərəfindən keçirilən antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüz tamamilə bərpa olunmuşdur. Bu müharibədə də Azərbaycan ordusu öz gücü və qüdrətini tamamilə ortaya qoyaraq gözlənilən qələbəni əldə etməyi bacardı. Əslində 24 saatlıq müharibə yalnız Azərbaycan diplomatiyasının düzgün hesablanmış siyasəti nəticəsində bu qədər az müddətdə tarixi qələbəyə çevrildi. Beləliklə də 44 günlük tarixi zəfərə, 24 saatlıq şanlı qələbə də əlavə olundu. Məhz bu hadisə artıq ermənilərə Qarabağla bağlı olan heç bir xülya və iddialarının mümkün olmayacağını bir daha əyani şəkildə göstərdi. Əbəs yerə deyil ki, artıq ermənilər kütləvi şəkildə Azərbaycanın əzəli və əbədi ərazilərini tərk edərək Ermənistana qayıtdılar. Bu hadisə bir daha Azərbaycanın qələbəsinin dönməz olduğunu sübut edir.

Bu gün Azərbaycan tarixi ərazilərini bərpa etməklə nəinki regiona o cümlədən, bütün dünyaya səs salaraq qüdrətini bir daha nümayiş etdirdi. Azərbaycan artıq dünya dövlətlərinin diqqət mərkəzində olan bir ölkəyə çevrilib. Bunu Bakıda hər il keçirilən dünya səviyyəli görüşlər, beynəlxalq əhəmiyyətli tədbirlər bir daha sübut edir. Gələn il BMT iqlim dəyişikliyi üzrə Çərçivə konvensiyasının Tərəflər konfransının 29-cu sessiyasının - COP29 Bakıda keçirilməsinin nəzərdə tutulması və Ermənistanın səsvermədə Azərbaycanın xeyrinə çıxış etməsi bir daha sübut edir ki, Azərbaycan dünya birliyi üçün nə qədər əhəmiyyətli ölkədir.

Bütün bunlardan belə bir nəticəyə gəlmək olar ki, prezidentimizin yürütdüyü hərtərəfli düzgün siyasət nəticəsində Azərbaycan diplomatiyası artıq yeni eraya qədəm qoymuşdur. Ali



Baş Komandanımızın bu siyasətinin əsas məqsədi keçdiyimiz Zəfər yolu nəticəsində qazandığımız qələbənin nəticələrinin dünya səviyyəsində tanınması və qəbul olunmasıdır.

Dünyanın hazırki geosiyasi vəziyyəti Azərbaycanın beynəlxalq səviyyədə daha da nüfuz qazanmasına şərait yardır. Ölkəmiz dünya dövlətlərini həm siyasi, həm də iqtisadi baxımdan çox maraqlandırır. Xüsusilə Zəngəzur dəhlizinin açılması ilə bağlı nəzərdə tutulan layihələr bir sıra dünya dövlətlərinin maraqları ilə üst-üstə düşür. Azərbaycan həm yaşıl enerji, həm də neft və qaz təminatı baxımından dünya dövlətlərinin diqqət mərkəzindədir. Ona görə də hazırda dünya dövlətləri ilə enerji ixracı, iqtisadi və ticari əlaqələr ilə bağlı bir sıra maraqlı layihələrin həyata keçirilməsi nəzərdə tutulub.

Azərbaycan diplomatiyasının əsas uğurlarından biri də odur ki, həyata keçirilən bütün hərbi əməliyyatlar tamamilə beynəlxalq hüququn norma və prinsilərinə uyğun olaraq aparılır. Tarix boyu ermənilərin Azərbaycana qarşı heç bir hüquqa sığmayan vəhşilik və qeyri insani hərəkətlərinin əksinə olaraq Azərbaycan həm müharibə dövründə, həm də müharibədən sonrakı sülh imzalanmasına gedən yolda yalnız beynəlxalq hüquqda mövcüd olan normalara uyğun hərəkət edir. Bu bir daha bütün dünyaya ölkəmizin nə qədər humanist və tolerant millət olduğunu sübut etdi. Ona görə də müxtəlif beynəlxalq instansiyalarda Azərbaycanın adına xələl gətirməyə çalışan erməni lobbisi və bu lobinin havadarlıq etdiyi ölkələr heç bir yolla öz məqsədlərinə çatmağı bacarmadılar. Xüsusilə Xankəndinin qaytarılması ilə müstəqilliyini və suverenliyini tamamilə bərpa edən Azərbaycan dünyaya ədalətin bərpasının yalnız qanuni yollarla mümkünlüyünü bir daha sübut etdi. Beləliklə, bugün Cənubi Qafqaz regionunun geosiyasi və geoiqtisadi xəritəsində meydana gələn dəyişiklilərin mərkəzində məhz qalib Azərbaycan dayanır. Nəyi nə zaman və necə edəcəyini yaxşı bilən Ali Baş Komandan böyük səy,

güclü diplomatiya, iti zəka və düzgün siyasət ilə tarixin ən qüdrəti Azərbaycan dövlətini yaradır. Ali Baş Komandanımızın qeyd etdiyi kimi "ata vəsiyyəti layiqincə yerinə yetirildi". Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu uğurlu diplomatiyanı layiqincə davam etdirən Ali Baş Komandanımız bütün dünyanın diqqət mərkəzinə çevrilən vahid, azad, müstəqil və bütöv Azərbaycan yaradır. Bu gün Azərbaycan regionda yeni tarix yazır və hadisələrin gedişatı göstərir ki, bu tarix yazılmaqda hələ davam edəcək. Çox təəssüf ki, ölkəmizin uğurlarını və inkişafını qəbul etmək istəməyən bir sıra Avropa və qərb dövlətləri öz məkrli planları ilə Azərbaycanın beynəlxalq nüfuzuna xələl gətirmək, onu haqsız yerə günahlandırmaq istəsələr də, ədalət hər zaman öz yerini tapır. Əbəs yerə deyil ki, ölkəmizi beynəlxalq instansiyalarda Qarabağda yaşayan ermənilərə qarşı humanitar fəlakət törətməklə günahlandırmağa çalışan xain qüvvələr nəinki öz məqsədlərinə çatmadılar, əksinə Azərbaycan göstərdiyi tolerantlıq və humanist yanaşma ilə dünya xalqlarına nümunə oldu. Bu gün biz fəxrlə deyə bilərik ki, qalib millətin, qalib xalqın nümayəndəsiyik. Bu qələbə və zəfərlər hər zaman xalqımıza yaraşır. Aparılan ardıcıl və düzgün siyasət nəticəsində qazanılan ard-arda qələbələrimiz bizi daha ümidli sabaha kökləyir. Biz gənc nəsil xoşbəxtik ki, bu şanlı tarixin canlı şahidləriyik. Uğurlarımıza maneə olmağa çalışan bütün qüvvələrə öz layiqli cavabımızı verməyə hər zaman hazırıq. Qalib xalqın qüdrəti və gücü buna hər zaman yetər. Vətənini canından üstün tutan 3000 dən çox şəhidimizin həyat yolu buna bariz nümunədir. Həm uğurlu daxili və xarici siyasəti ilə seçilən Ali Baş Komandan, həm qəhrəman və əzmkar xalq, həm də qalib müzəffər ordumuz Azərbaycanın bütövlüyü və müstəqilliyi naminə hər şeyə hazırdır.



## HEYDƏR ƏLİYEV SİYASİ KURSUNUN TƏBLİĞİ PROSESİNDƏ GƏNCLƏRİN FƏALİYYƏTİ

**Salehsoy Gülsüm**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*gulsumnemtova@gmail.com*

Dahi şəxsiyyət Heydər Əliyev uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Azərbaycan xalqının ümummilli lideri, dünya səviyyəli siyasi xadim Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, bənzərsiz şəxsiyyətdir. Tarixin yaddaşında əbədi iz qoymaq hər insana nəsib olmayan böyük xoşbəxtlikdir. Bu yalnız Heydər Əliyev kimi dahi şəxsiyyətlərin qismətinə düşən müstəsna taledir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş bu dahi şəxsiyyətin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk Milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz ümummilli liderimiz Heydər Əliyevin xidmətləridir. Təsadüfi deyil ki, ulu öndərimizin fəaliyyəti öz miqyası və əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxıb. Dünya miqyasında ən nüfuzlu dövlət başçıları, politoloqlar tərəfindən dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan və

böyük türk dünyasının dahi oğlu Heydər Əliyev zəmanəmizin ən yüksək zirvəsində duran tanınmış siyasi xadimlər sırasında öz layiqli yerini tutub. Xalqımızın yaddaşında yaradıcı, qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illəri yaddaşlarda təkcə iqtisadi yüksəliş, təsərrüfatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi qalıb. Məhz həmin dövrdə gələcək müstəqilliyimizin təməl daşları hörülüb, iqtisadi, sosial və mədəni potensialı formalaşıb. 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində köklü islahatlar aparılmış, əsaslı dəyişikliklər baş vermişdir. Bu nəhəng işlər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir.

Heydər Əliyev fenomeninin ən mühüm göstəricilərindən biri də Azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir. Ulu öndərimizin vətənpərvər fəaliyyətinin nəticəsi olaraq respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşmışdır. Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik əldə edəcək respublikamızın gələcəyinə hesablanmış digər məqsədyönlü addımları ilə özünün ümummilli lider obrazını yaratmış, tarix isə böyük öndərin bu statusunu bütün mərhələlərdə qorumuşdur. 60-cı illərədək Azərbaycan aqrar ölkəsi kimi tanınırdı. Onun əsas sənaye mənbəyi neft idi. Lakin məhz Heydər Əliyev hakimiyyətinin ilk illərindən qəti addımlar atmaqla respublikaya olan bu münasibəti dəyişməyə nail oldu. Belə ki, qısa müddət ərzində həm yüngül, həm də ağır sənaye



inkişaf etdi, bir sıra zavod və fabriklər istifadəyə verildi. Yaradılmış yeni iş yerləri əsasında insanların rifah halı daha da yaxşılaşdı.

Heydər Əliyev o illərdə respublikanı nəhəng tikinti meydançasına çevirmək, irimiqyaslı obyektlərin, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşasına xüsusi əhəmiyyət verməklə yanaşı, bir sıra yeni təhsil ocaqları, o cümlədən Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratmışdı. Bu hadisə azərbaycanlıların döyüş ruhunun inkişaf etdirilməsində mühüm rol oynamışdır. Ordu quruculuğunda bu məktəbin rolu böyükdür. Respublikamız müstəqillik əldə etdikdən sonra hərbi liseyin məzunları ordumuzun yaranmasında, vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə olmuşlar. II Qarabağ müharibəsində vuruşan Azərbaycan zabitlərinin çoxu hərbi liseyin yetirmələridir.

İndi dünya politoloqlarının böyük önəm verdiyi milli mədəniyyətin yayılması siyasətini Heydər Əliyev hələ sovet dövründə özünəməxsus tərzdə həyata keçirirdi. Çünki ulu öndər Azərbaycanı dünyada məhz milli dəyərləri, tarixi, mədəniyyət özəlliyi ilə tanıdırdı. Məhz onun təşəbbüsü ilə ölkənin tanınmış musiqiçiləri, şairləri, yazıçıları, müğənniləri, bəstəkarları, artistləri dünyanın ayrı-ayrı ölkələrində çıxış edirdilər. Əlbəttə ki, burada siyasi məqam da var idi, o da Azərbaycanı tanıtmaq idi.

Təbiətcə musiqinin vurğunu olan, incə və həssas musiqi duyumuna, zövqünə malik olan, Azərbaycan və dünya mədəniyyətinin bədii nümunələrini həvəslə dinləyən, dövlət rəhbərliyində də, şəxsi həyatında da, ailəsində də musiqidən ayrılmayan, musiqi və musiqiçilər haqqında peşəkar musiqi tənqidçisi kimi çox dəyərli rəy və fikirlər söyləyən, musiqişünaslığın elmi fikir və ideyalar dairəsini zənginləşdirən, daim musiqiçilərlə dostluq edən Heydər Əliyevin həyat və fəaliyyətini musiqi mədəniyyətindən ayrı təsəvvür etmək qeyri-mümkündür. Hətta o Zərifə xanımın müşayiəti ilə mahnılar ifa edərək bundan çox böyük zövq alırdı. O, musiqiyə

dərindən bağlı bir şəxsiyyət kimi bu sənətə, onun yaradıcılarına, problemlərinə daim böyük diqqət yetirmiş, sənət adamlarına hörmət və ehtiramla yanaşmışdır. Musiqimizə, mədəniyyətimizə verdiyi yüksək qiymət və qayğı özünü, o cümlədən Heydər Əliyevin mədəniyyət işçilərinə münasibətində də göstərirdi. Prezidentin teatr tamaşasının premyerasında iştirakı və yaxud da teatrın truppasını qəbul etməsi, onlara yaradıcılıq uğurları arzulaması, neçə-neçə bəstəkarın, rəssamın, respublikada görkəmli muğam ustalarının yaradıcılıq gecələrinin, yubileylərinin keçirilməsi ilə bağlı sərəncamları mədəniyyətimizin həyatında önəmli rol oynamışdır. Heydər Əliyev sevməklə yanaşı, həm də onu musiqini insanlara sevdirirdi. Bu onun böyük maarifləndirmə missiyasından irəli gəlirdi. Heydər Əliyev yaşlı nəslin yaradıcılığına da çox böyük qayğı göstərmiş, gənc nəslin yaradıcılıq imkanlarının genişlənməsinə hərtərəfli yardım etmişdir. Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü Azərbaycan tarixinə siyasi, sosial-iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olaraq xalqın milli mənlik şüurunun, müstəqillik ideallarının oyanışına güclü təkan vermişdir. Ulu öndər hələ o dövrlərdən milli inkişafın yeganə yolunu xalqın yüksək təhsil almasında, maariflənməsində görmüş, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. O, yaxşı bilirdi ki, cəmiyyətin tərəqqisinə, elmin, mədəniyyətin inkişafına təsir göstərən ən qüdrətli vasitələrdən biri də təhsildir. Heydər Əliyev şəxsiyyətinin böyüklüyü məhz onda idi ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual və elitar təbəqənin formalaşmasına çalışmışdır. Təsadüfi deyildir ki, 1969-1982-ci illər həm də Azərbaycan elminin, təhsilinin intibah dövrü kimi xatırlanır. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni, mütərəqqi nailiyyətlərindən faydalanmış, cəmiyyətin, xalqın inkişaf zəminini elmdə, maariflənmədə görmüşdür. Ulu



öndərin ötən əsrin 70-80-ci illərində gənclərin respublikada və onun hüdudlarından kənarda yüksək səviyyədə təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür şərait yaradırdı.

## HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN GƏNCLİYİ

**Səmədov Yaqub**
*ADPU-nun Ağcabədi filialı*
*yaqub.semedov63@ mail.ru*
*tel. 050-661-64-22*

1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə yenidən hakimiyyət başına gəldikdən sonra gənc nəslə olan diqqət və qayğını ölkəmizdə dövlət siyasəti səviyyəsinə qaldırdı. Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi adlandıran Ümummilli Lider gənclərin də üzərinə düşən konkret vəzifələri uzaqgörənliklə müəyyənləşdirdi. Gənclərin daha mütəşəkkil təşkilatlanması üçün 1994-cü il 26 iyul tarixli Prezident Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Həmçinin, 1995-ci ildə Ulu Öndər tərəfindən irəli sürülən və 1996-cı ildən müntəzəm şəkildə həyata keçirilən Azərbaycan gənclərinin forumları da gənclərin cəmiyyətimizə daha sıx inteqrasiyasında əhəmiyyətli rol oynadı. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Heydər Əliyev çıxışı zamanı gənclər qarşısında belə mühüm bir tarixi vəzifə qoydu: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".

1 fevral 1997-ci ildə ilk forumun ildönümündə gənclərlə görüş keçirən Ulu Öndər hər ilin fevral ayının 2 - si gününü Azərbaycanda Gəncləri günü kimi qeyd olunması haqqında Sərəncam imzaladı. Həmin tarixdən etibarən hər ilin bu günü Gənclər bayramı kimi dövlət səviyyəsində böyük təntənə ilə qeyd olunur. Prezident

Heydər Əliyev 2 fevral 1998-ci ildə Gəncləri gününün növbəti ildönümü münasibətilə keçirilən bədii-idman bayramında da gənclərə belə bir müraciət ünvanlandı: **“**Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır”. Bir cəhəti də xüsusi vurğulamaq lazımdır ki, Ulu Öndərin banisi olduğu gənclər siyasətinin mərkəzində ümumibəşəri dəyərləri özündə ehtiva edən insan amili dayanır.

Müasir Azərbaycanın gənclər siyasətində gənclərə dövlət dəstəyi da mühüm yer tutur. Belə ki, H. Əliyevin “Azərbaycan Respublikasının istedadlı gənc yazıçılarına dövlət qayğısının artırılması haqqında” 6 dekabr 1999-cu il tarixli və ”Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında” 22 iyun 1996-cı il tarixli fərmanları bu baxımdan diqqəti cəlb edir.

Ümumilli Liderin Gənclərin II Forumunun (1999-cu il) keçirilməsi ilə əlaqədar, “Dövlət gənclər siyasəti haqqında” (2002-ci il 9 aprel) fərmanları və onun “İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş Dövlət Proqramı” (2000-ci il 4 avqus) Azərbaycan gəncliyinin inkişafı yolunda çox mühüm faktora çevrildi. 2001-ci il fevralın 2-də Ulu Öndərin Azərbaycan gəncləri ilə keçirilən növbəti görüşündə də gənclərin qarşısında duran mühüm məsələlər bir daha yendən diqqətə çatdırıldı.

Ulu Öndərin banisi olduğu gənclər siyasəti hal- hazırkı dövrdə Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. 30 avqust 2005-ci ildə “Azərbaycan gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)”, 17 aprel 2006-cı ildə ”Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)”, 2011-ci il 17 iyul da “Azərbaycan



gəncliyi 2011- 2015-ci illərdə Dövlət Proqramı”, 2015-ci il 26 yanvarda “2015- 2025-ci illərdə Azərbaycan gəncliyinin İnkişaf Strategiyası”, 2017-ci il 15 sentyabrda “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı”, 2022-ci li 28 fevralda “Gənclərin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almalarına dair 2022-2026- cı illər üçün Dövlət Proqramı”ı və qəbul edilən digər sənədlər Azərbaycanda gənclərlə bağlı məsələlərə dövlətin necə həssasaslıqla yanaşdığının bir daha əyani sübutudur.

Göründüyü kimi, müasir Azərbaycanın inkişafında, çiçəklənməsində əhəmiyyətli rol oynayan gənclərimiz dövlət tərəfindən böyük qayğı ilə əhatə olunmuş və yenə də əhatə olunmaqdadır.

## AZƏRBAYCAN-NATO MÜNASİBƏTLƏRİNİN İNKİŞAFINDA ŞƏXSİYYƏT AMİLİNİN ROLU

**Şammadov Fuad**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının dissertantı*

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövləti qarşıya çıxan problemlərini, ilk növbədə özünün təhlükəsizlik məsələlərini, xüsusilə Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü məsələsini beynəlxalq təşkilatlar vasitəsilə ümumavropa təhlükəsizliyi səviyyəsinə çıxarmış və beynəlxalq hüquq prinsipləri əsasında regionda sülhün təmin edilməsinə onların təsir etməsini sürətləndirəmyə çalışmışdır. Eyni zamanda, ölkədə islahatların həyata keçirilməsi və dünya inteqrasiya proseslərinə daha sıx cəlb olunması istiqamətində qısa müddət ərzində bir sıra beynəlxalq və regional təşkilatlarla çoxtərəfli əlaqələr yaratmışdır.

Azərbaycan Respublikası müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi, eyni zamanda dövlət quruculuğu prosesində qarşılaşdığı problemlərin həll edilməsində bu təşkilatların da siyasi və iqtisadi potensialından istifadə etməyə səy göstərirdi [1, s.41-42]. Hazırda Azərbaycanın dünya birliyinə inteqrasiya olunmasında BMT, ATƏT, NATO, Avropa İttifaqı, Avropa Şurası və s. kimi benyəlxalq təşkilatlar mühüm rol oynayırlar.

Azərbaycan Respublikası adı çəkilən nüfuzlu beynəlxalq təşkilatlarla siyasi, iqtisadi, hərbi, mədəni, humanitar və s. sahələrdə genişmiqyaslı əməkdaşlıq edir və bu da ölkəmizin maraqlarının daha dolğun ifadə olunmasına, dünyanın aparıcı dövlətləri ilə qarşılıqlı əlaqələrinin möhkəmləndirilməsinə mühüm təsir göstərir.

Müstəqilliyin ilk illərindən Azərbaycanın xarici siyasət prioritetləri içərisində Avroatlantik strukturlara və institutlara inteqrasiya mühüm yer tuturdu. Ərazisinin 20 faizinin Ermənistan hərbi birləşmələri tərəfindən işğal edildiyi Azərbaycanın qüdrətli beynəlxalq təşkilatlarla, xüsusən NATO ilə əməkdaşlığa daha böyük ehtiyacı hiss edilirdi. Eyni zamanda, NATO-nun müxtəlif struktur və institutları vasitəsilə dünyanın kollektiv təhlükəsizlik sisteminə daxil olmaq, öz təhlükəsizliyini beynəlxalq təhlükəsizlik məsələləri ilə uyğunlaşdırmaq, Alyansa daxil olan ölkələr ilə beynəlxalq münasibətlərin sivil qaydaları çərçivəsində hər cür əməkdaşlıq etmək imkanı əldə edilmiş olurdu. Bu da öz növbəsində NATO-nun hərbi strukturları ilə Azərbaycan ordusunun sülh naminə əməkdaşlıq etmək, birgə təlim və manevrlər keçirmək, onların ordu quruculuğu təcrübəsindən bəhrələnmək, kadr hazırlığı və s. sahədə birgə hərəkət etmək imkanını təmin edirdi.

Bütün bu amilləri nəzərə alan Azərbaycan Prezidenti Heydər Əliyev NATO proqramında iştirak etmək haqqında prinsipial qərar çıxardı və 1994-cü ilin mayın 4-də Belçikaya səfəri zamanı "Sülh naminə tərəfdaşlıq" (SNT) proqramının çərçivə sənədini imzaladı [2,



s.71-72]. Azərbaycan-NATO münasibətlərinin ilk addımı sayılan SNT proqramının gələcəkdə Şimali Atlantika bloku ilə əməkdaşlıq sahəsində açacağı imkanlar və bu əlaqələrin geniş parametrləri nəzərə alınarsa, atılmış addımın əhəmiyyətinə əsl qiyməti vermək olar.

NATO ilə münasibətlərdə digər mühüm addım 1996-cı il aprel ayının 23-də atılmışdır. Beləki, Brüsselə səfəri zamanı Prezident Heydər Əliyev Alyansın Baş katibi ilə görüşmüş və Azərbaycan-NATO əməkdaşlığını təsdiqləyən və şərtləndirən "Prezentasiya sənədi"ni ona təqdim etmişdir. Bu addım, Azərbaycan-NATO qarşılıqlı münasibətlərinin daha da intensivləşdirilməsi üçün əlverişli baza rolunu oynamışdır. Məhz bu tarixdən sonra münasibətlərin hüquqi cəhətdən tənzimlənməsi və bir sıra praktiki addımların atılması NATO-nun Azərbaycan ilə əməkdaşlığı inkişaf etdirməyə marağını artırmışdı.

1997-ci il iyul ayının 8-10 arası tarixində Madriddə keçirilən Avropa-Atlantika Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının sammitindəki çıxışı zamanı dövlət başçısı Heydər Əliyev yeni müstəqil dövlətlərlə NATO arasında əməli dialoqa və əməkdaşlığa böyük əhəmiyyət verdiyini xüsusi vurğulayaraq, Azərbaycanın bölgədə silahlı münaqişənin aradan qaldırılmasında həmçinin NATO-nun və Avropa-Atlantika Əməkdaşlıq Şurasının fəal roluna ümid bəslədiyini diqqətə çatdırdı [3, s.136].

Prezident Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında" sərəncam bu qurum ilə əməkdaşlığın inkişafı sahəsində növbəti addım sayılmaqdadır. Həmin sərəncama əsasən yaradılmış Dövlət Komissiyası SNT proqramı çərçivəsində əməkdaşlığın vahid proqramının hazırlanması ilə əlaqədar müvafiq nazirlik və təşkilatların fəaliyyətinin koordinasiya edilməsi sahəsində ardıcıl fəaliyyətini davam etdirməkdədir [6].

Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 2002-ci ilin noyabr ayında Praqada keçirilən Zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev Cənubi Qafqaz regionunda davam edən münaqişələrin aradan qaldırılmasında NATO-nu daha fəal olmağa çağırdı. O, həmin çıxışında Azərbaycanın NATO ilə əməkdaşlığını gələcək Avroatlantika təhlükəsizlik sisteminin əsası kimi qiymətləndirərək ölkəmizin Alyans ilə tərəfdaşlığa və intensiv ikitərəfli dialoqa səy göstərdiyini diqqətə çatdırmışdı [4].

Azərbaycan NATO ilə əməkdaşlığın inkişafında maraqlı olduğunu konkret praktiki tədbirləri ilə təsdiq edirdi. Beləki Kosovo və Əfqanıstanda beynəlxalq sülhməramlı qüvvələr tərkibində öz missiyasını uğurla yerinə yetirən Azərbaycan 2003-cü ilin mayında beynəlxalq koalisiya qüvvələrinin tərkibində İraqda keçirilən sülhməramlı əməliyyatlarda iştirak haqqında qərar qəbul etmişdi.

Bundan başqa, Azərbaycanda demokratik islahatlar həyata keçirildiyinə görə, onun NATO-nun strateji proqramlarına qoşulması təbii hesab olunmalıdır. Çünki, Azərbaycanın dövlətçilik maraqları və demokratiyanın inkişafı ilk növbədə yeni texnologiyaların mənimsənilməsi, vətəndaş cəmiyyətinin əsaslarının möhkəmləndirilməsi, bazar iqtisadiyyatı mexanizmlərinin yaradılması işində NATO və ona üzv olan ayrı-ayrı dövlətlərlə əməkdaşlığa da ehtiyac yaradırdı.

Son olaraq demək mümkündür ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Avroatlantik məkana inteqrasiya siyasəti bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Nəticədə, NATO ilə münasibətlərini genişləndirən Azərbaycan öz xarici siyasətinin prioritet istiqamətlərindən olan ümümavropa təhlükəsizlik sistemləri ilə əməkdaşlığını möhkəmləndirir və Avroatlantik məkana inteqrasiya olunmasına daha əlverişli imkanlar açmaqdadır.



## Ədəbiyyat


1. Azərbaycan Respublikası 1991-2001. XXI-Yeni Nəşrlər Evi, Bakı, 2001
2. Əzimli A. Azərbaycan –NATO münasibətləri (1992-2000). “Adiloğlu” nəşriyyatı, Bakı, 2001
3. Hüseynova K.M. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. “Hərbi nəşriyyat”, Bakı, 1998
4. “Azərbaycan” qəzeti, 23-24 noyabr 2002
5. http://aliyevheritage.org/cgi-bin/e-cms/vis/vis.pl?s=001&p=2073&n=000004&g=
6. http://www.azerbaijan.az/_WorldCommunity/_InterOrg/interOrg_04_a.html və ya http://aliyevheritage.org/cgi-bin/e-cms/vis/vis.pl?s=001&p=2068&n=000003&g=


## SATIŞ SƏNƏTİ


**Tanrverdiyeva Əfsanə**
**dos. Nazim Verdiyev**
*Azərbaycan Texnologiya Universiteti, magistr*
*efsanee0109@gmail.com*


Marketinqə dair yazılmış bir çox ədəbiyyatlarda qeyd edilir ki, satış prosesi alıcıların ehtiyaclarının müəyyən edilməsi ilə başlayır və satıcının yüksək keyfiyyətli xidməti əsasında alıcı məmnunluğunun təmin edilməsi ilə tamamlanır. Dünyaca tanınmış məşhur satış mütəxəssisləri isə bu məsələyə başqa cür yanaşırlar. Onların fikrincə satış prosesi alıcı etiraz etdiyi zaman, məhsulu almaqdan və ya xidmətdən yararlanmaqdan imtina etdikdə başlayır. Məhz bu mərhələdən sonra satış ideologiyası alıcıda məhsulu almağa və ya

xidmətdən yararlanmağa həvəs yaradır. Marketinqdə olduğu kimi, satışın da bir çox tərifləri mövcuddur. Ancaq ən yığcam və sadə tərif aşağıdakı kimidir: "Satış - əmtəənin və ya xidmətin pula dəyişdirilməsi prosesidir". [1]

Satış sənəti ən qədim sənətlərdəndir. Hər peşə sahəsinin özünəməxsus texnikaları olduğu kimi, satış sənətinin də bu cür texnikaları mövcuddur. Bu texnikalar birdən-birə deyil, yüz illər və min illər ərzində formalaşır. Bu cür xüsusi texnologiyalar satış işini daha tez, rahat və effektli şəkildə görməyə şərait yaradır. Satış texnikalarının köməyi ilə satıcı məhsula heç bir marağı olmayan müştərinin də diqqətini çəkə, hətta onu məhsulu almağına səbəb ola bilər.[2]

Hər bir peşəkar satıcı öz satış texnikalarının sayını daim artırmalı və bu texnikaları mükəmməl icra etməyi bacarmalıdır. Satış işi danışıq işi olmazdan əvvəl zehni bir işdir. Satış işində uğurlu olmaq üçün aşağıdakı satış texnikalarına yiyələnmək lazımdır:

1. Ünsiyyət qurma texnikaları
2. Tələbatı aşkarlama və onu yaratma texnikaları
3. Məhsulu təqdim etmə, istək yaratma texnikaları
4. İnandırma texnikaları
5. Etirazlarla iş texnikaları
6. Qiymət danışıqları aparma texnikaları
7. Satışı bitirmə texnikaları
8. Əlavə satış etmə texnikaları
9. Narazılığın aradan qaldırılması texnikaları
10. Telefon danışıqları aparma texnikaları

Satış texnikalarını mənimsəmək üçün onları dərindən öyrənib dərhal tətbiq etmək lazımdır.[3] Satış etmək elə də asan iş deyil, bu, çox çətin işdir. Bununçün satıcı daim yüksək əhval-ruhiyyədə olmalı, alıcılarla görüşməli, onların hansı ehtiyaclarının olduğunu müəyyən etməli, alıcı etirazlarına cavab verməli və nəhayət, uğurlu bir satış



həyata keçirməlidir. Satıcı satış etməyin nə qədər çox üsullarını bilərsə, bir o qədər uğurlu olar və məqsədlərinizə daha tez nail olar.[4]

**Ədəbiyyat**


1. Alməmmədov. F, Satışın qara qutusu. "Azprint" MMC, 2019
2. Brian. T, Satış psixologiyası. Qanun nəşriyyatı, 2022
3. Qəhrəmanov. A, SAT. Satış adamının kitabı. "Nurlar" nəşriyyat-poliqrafiya mərkəzi, 2017
4. Brian.T, Satış etmək sənəti. Qanun nəşriyyatı, 2020
5. Alməmmədov. F, Satışın qara qutusu. "Azprint" MMC, 2019
6. Brian. T, Satış psixologiyası. Qanun nəşriyyatı, 2022
7. Qəhrəmanov. A, SAT. Satış adamının kitabı. "Nurlar" nəşriyyat-poliqrafiya mərkəzi, 2017
8. Brian.T, Satış etmək sənəti. Qanun nəşriyyatı, 2020


## AZƏRBAYCANDA ELM VƏ TƏHSİLİN İNKİŞAF ETDİRİLMƏSİ ÜÇÜN İNNOVASİYALARIN VƏ İT-NİN TƏTBİQİ


**Teymurova Nəzrin**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası, magistrant*
nzrn.teymurova@gmail.com


Bu gün informasiya cəmiyyətinin və dünya ölkələri ilə rəqabətə girə biləcək yüksək texnologiyalı milli iqtisadiyyatın yaradılması bir çox ölkələrin dövlət siyasətinin əsas istiqamətinə çevrilmişdir. Bu ölkələrdə informasiya və kommunikasiya texnologiyaları (İKT)

sahəsi inkişafın aparıcı amili kimi çıxış edir. Bu sahə dövlətlərin siyasi, iqtisadi və sosial fəaliyyətinə aktiv təsir edərək ictimai münasibətlərin formalaşmasını təmin edir. İnformasiya cəmiyyətində təhsil sisteminin qurulması və təhsilin inkişafı üçün hansı texnologiyalardan səmərəli istifadə edilməsi hazırda əsas məsələlərdən biridir.

Respublikamızda bu sahədə ciddi addımlar atılmışdır. Prezidentin 2008-ci il 10 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2012-ci il illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" ölkəmizdə müasir İKT-ni geniş şəkildə tətbiq etməklə vahid ümummilli təhsil mühitinin yaradılması və əhalinin bütün təbəqələrinin keyfiyyətli təhsil almaq imkanının təmin edilməsi məqsədinə xidmət edir. Bu proqram çərçivəsində boyük bir layihə olaraq "Xalq Kompüter" layihəsi həyata keçirilmişdir. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan) sənədində də təhsil sisteminin təkmilləşdirilməsində İKT-nin tətbiq edilməsi və İKT sahəsində ümumi maarifləndirmə üzrə xüsusi tədbirlər keçirilməsi nəzərdə tutulmuşdur. Bunlardan biri kimi İKT üzrə ən böyük kompaniyalarından biri sayılan Microsoft şirkətinin dəstəyi ilə Respublika Təhsil Nazirliyinin pedaqoji kadrlar üçün təşkil etdiyi İNTEL AZƏRBAYCAN kurslarını göstərmək olar. Bütün bunlar göstərir ki, Azərbaycanda təhsilin modernləşdirilməsi, təhsildə informasiya texnologiyalarının tətbiqi istiqamətində ciddi addımlar atılmış və bir çox əməli işlər görülmüşdür. Bütün təhsil pillələri üçün İKT üzrə proqramlar hazırlanıb təsdiq edilmiş, distant təhsil üzrə eksperimentlər aparılmağa başlanılmışdır. Təhsil portalı formalaşdırılmış, bir çox təhsil müəssisələrinin saytları yaradılmışdır. Təhsilin idarə olunmasının məlumat sistemlərinin yaradılması, informasiya və kommunikasiya texnologiyalarının ümumtəhsil



məktəblərində tətbiqi və ümumtəhsil məktəbləri üçün informasiya və kommunikasiya texnologiyaları sahəsində ixtisaslı pedaqoji, həmçinin köməkçi heyət (laborant) kadrlarının hazırlanması üzrə işlər isə aparılmaqda davam edir.

İnformasiya - kommunikasiya texnologiyalarından istifadə tətbiq olunarkən onun əvəzolunmaz, yeni imkanları özünü faydalı şəkildə göstərməkdədir. Bunlar tədris zamanı müəllim və şagird arasındakı interaktivlik, zamandan səmərəli istifadə edilərək, vaxta qənaət, təhsil alanların daha optimal və obyektiv şəkildə qiymətləndirilməsinin nəticəsidir. Müasir dünyada informasiya-kommunikasiya 56 texnologiyalarının (İKT) tədrisə tətbiqi təhsilin ayrılmaz hissəsinə çevrilib. Artıq təhsil müəssisələrini informasiya-kommunikasiya texnologiyaları olmadan təsəvvür etmək mümkün deyil. Tədrisdə kompüterdən istifadə hər şeylə maraqlanan, çox və daha dərin məlumat almağa çalışan şagird üçün informasiya mühitinin yaranmasına kömək edir.

Kompüter müəllim və şagird arasında elektron vasitəçi rolunu oynayır, tədris prosesini daha maraqlı, rəngarəng, əyani edir, onu intensivləşdirir.Məlumdur ki, İKT-dən istifadə etməklə müasir və interaktiv təhsil modelinin həyata keçirilməsi məktəbin və müəllim heyətinin qarşısına yeni tələblər qoyur. Pedaqoji heyətin İKT savadlılığını artırmadan, təlim-tədris prosesinə innovativ yanaşmasını formalaşdırmadan İKT-nin təhsil sisteminə səmərəli tətbiqinə nail olmaq qeyri-mümkündür. Bütün müasir dövrün tələblərindən irəli gələn dəyişikliklərin məktəblərdə uğurla və səmərəli tətbiq edilməsi avtomatik olaraq müəllimin də tədris prosesinə fərqli yanaşmasını zəruri edir. Bu səbəbdən də müəllimlərin İKT bacarıqlarına yiyələnməsi, tədris prosesində İKT bacarıqlarından pedaqoji alət kimi istifadə etməsi artıq zəruri prosesdir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasi Təhsil Nazirliyi Təhsil Problemləri Institutu. "Təlim prosesində yeni pedaqoji və İKT texnologiyalardan istifadənin elmi əsasları və təlimin keyfiyyətinə onların təsiri" hesabat. Bakı,2012 82
2. İsa İsmayılov, Cavid Abdullayev.Təlimin texniki vasitələri və yeni informasiya texnologiyaları Tədrisdə onlardan istifadə metodikası, Bakı,2006
3. Əhmədov İ.N., (2010), İnnovasiya universiteti ölkənin innovativ inkişafının mühüm amilidir, AMEA Elmi innovasiyalar mərkəzi, Bakı, s.89-954/
4. Fazilova İlahə. Yeni informasiya texnologiyalarının öyrənmə prosesinə tətbiqində müəllimin rolu.Bakı,2015

## RESPUBLİKA REGİONLARINDA SAHİBKARLIĞIN İNKİŞAFININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Vəliyev Elmir**
*Gəncə Dövlət Universiteti*
Elmir.v.veliyev@gmail.com

***Açar sözlər:*** *investisiya, sahibkarlıq fəaliyyəti, vergi, büdcə siyasəti/*

Ümummilli lider H.Əliyevin ölkəmizdə təməlini qoyduğu iqtisadi strategiyanı uğurla davam etdirən hörmətli prezidentimiz İ.Əliyev tərəfindən həyata keçirilən islahatlar iqtisadiyyatın inkişa-fına o cümlədən də sahibkarlığın müxltəlif formalarının təşəkkülünə və inkişafına zəmin yaratmışdır. Məlum olduğu kimi, milli iqtisadiyyatın davamlı inkişafında, daxili bazarın keyfiyyətli məhsul və xidmətlərlə təmin olunmasında, sağlam rəqabət mühitinin yaradılmasında,



eləcə də məşğulluq səviyyəsinin yüksəldilməsində və s. sahibkarlıq fəaliyyəti müstəsna rol oynayır.

Hal-hazırda regionların sosial-iqtisadi inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir, bu baxımdan regional sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsi və bölgələrdə sahibkarlıq formalarının inkişafının sürətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Dünya ölkələrinin təcrübəsindən göründüyü kimi, investisiya və büdcə siyasəti sahibkarlığın inkişafının konseptual istiqamətlərini müəyyən edir. İnvestisiya qoyuluşunun artımı ilə birgə ondan istifadəni səmərəli təşkilinə nail olunması sahibkarlığın davamlı inkişafı üçün əsas verir. Ona görə də iqtisadiyyata investisiya qoyuluşlarının təhlil edilməsi daha məqsədəuyğun olardı, çünki investisiya qoyuluşu istənilən sahənin sürətli inkişafının mühüm amillərindəndir.

Sahibkarlığın inkişafına manə olan amillərdən biri vergi dərəcələrinin tez-tez dəyişməsi və vergi sistemində dəyişikliklərin edilməsidir. Başqa sözlə, sabit vergi sistemi sahibkarlara öz gələcək fəaliyyətlərini daha dəqiq və uzun müddətli proqnozlaşdırmağa imkan verir. Məhz bu baxımdan, müasir vergi sisteminə qoyulan əsas tələblərdən biri də tətbiq olunan vergilərin kəmiyyət etibarilə uzun müddət ərzində sabit qalmasıdır. Yalnız belə olan halda sahibkar gələcək xərclərini və gəlirlərini proqnozlaşdırmaq, gələcək inkişaf üçün investisiya proqnozu hazırlamaq imkanı əldə etmiş olar.

**Ədəbiyyat**

1. Nuriyev Ə.X. Regional siyasət və idarəetmə. Bakı, "Elm", 2004
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.

3. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. “Hüquq ədəbiyyatı” nəşriyyatı, Bakı, 2017. Səh. 286

## ÇAĞDAŞ DÜNYAMIZDA İŞGÜZAR MÜNASİBƏTLƏR VƏ QLOBALLAŞMA MEYLLƏRİ

**Vəliyev Əli**
*Azərbaycan Texnologiya Universiteti*
*vlyv248@gmail.com*

Bir çox sektorlarda olduğu kimi iş həyatında da işgüzar münasibətlərə diqqət etməli və rəsmi meyarlara uyğunlaşmaq lazımdır. İş həyatında qloballaşma meylləri etika və məişətimizdə mental ənənələrimizə zənginlik gətirməkdədir. Öncə ailədən, valideynlərin verdiyi tərbiyədən qaynaqlanan mədəni mühit davranış vərdişləri sonralar məktəbdə və iş kollektivlərində daha da cilalanır və təkmilləşir. İşlədiyi yerdən asılı olmayaraq şəxs davranış qaydalarına, ofis (təşkilat) normalarına riayət edirsə, şəxsi nümunəsi ilə seçilirsə, əmək kollektivində beləliklə, özü haqqında müsbət fikir formalaşdırır. İstər istehsalat, ticarət, yada biznes sektoruna yeni üzv olmuş hər bir işçi əgər işində nailiyyət əldə etmək istəyirsə, o, birinci növbədə işgüzar davranış etiketlərin "qızıl" qaydalarını bilməlidir. Bu, birinci növbədə danışıq müraciəti mədəniyyət və özünü təqdimetmədən başlanır. Məsələn, şəxsin özü- özünə müəllim və ya xanım deməsi və yaxud iş yoldaşına "əziz", "dəyərli" kimi iş leksikonuna aid olmayan ifadələr və müraciətlər ən böyük qüsurlar-dandır. Bu cür müraciətlər işçinin mədəni səviyyəsinin geriliyindən xəbər verir.

İşgüzar münasibətlərdən danışdığımızda qloballaşma meylləri ağla gəlir. İnkişaf etmiş işgüzar münasibətlərin heç də hamısı yazılı əsasda aparılmır, təcrübədə dövlət orqanlarının nümayəndələri, işçilər



və müştərilərlə üzbəüz və telefon danışıqlarından geniş istifadəolunur. Qədim müdriklərdən tutmuş müasir günümüzün psixoloqlarına qədər yüzlərlə müəllif minlərlə bu haqda əsərlər yazıb. Yunan filosofu Sokratın yazdığı Beynəlxalq Pablik Rileyşnz Assosiasiyasının (International Public Relations Assosiation — IPRA) etika kodeksinin əsasını təşkil edir: əməkdaşların bərabərliyini və təkrarolunmazlığını qəbul etmək; istənilən məsələ üzrə fikir ayrılığına hörmətlə yanaşmaq; işgüzar münasibətlər zamanı qarşılıqlı şəkildə bir-birini zənginləşdirmək və inkişaf etdirmək.

"Qloballaşma" mövzusu son 25-30 il ərzində intellektual diskussiya meydanında aktuallığına görə əsas fikirlərdən biridir. Bu, sadəcə gələcəyin nəzəri diskussiyaları deyil, bütün dünyanı əhatə edən sivilizasiya iş prosesinin analizinə göstərilən cəhdlərdir. Qloballaşmaya neqativ baxan bəzi filosoflar belə hesab edir ki, o iş həyatında milli mədəniyyəti məhv edir, dövlətin etika müstəqilliyini inkar edir. Mən isə belə düşünürəm ki, işgüzar münasibətlərdə qloballaşma meylləri iş mühitinin mədəni qaydada inkişaf etdirilməsidir və bu çox müsbət bir haldır. Qloballaşmış işçi çalışdığı mühitdə hər zaman sayılıb-seçilir və mədəni səviyyəsini, əməkyoldaşları ilə münasibətində sərhəd saxlayır, lüzumsuz ifadələrdən istifadəyə yol vermir. Araşdırmalarıma görə, ölkəmizin paytaxtı olan Bakı şəhərində bir çox təşkilat işçiləri işə qəbul olunmadan öncə “işgüzar münasibətlər” adlı təlimə cəlb olunur və o təlimi uğurla başa vurduqdan sonra işə qəbul olunur. Buda onun göstəricisidir ki, ölkəmizdə iş həyatının qloballaşması inkişaf edir.

### Ədəbiyyat

1. Azərbaycan Respublikasının “Davranış məcəlləsi”
2. Abbasbəyli A. Müasir “Beynəlxalq münasibətlər və Qloballaşma”. Bakı-2007

3. Aslanov E. "Yeni dünya nizamı və milli inkişaf". Bakı-2006
4. Aslanova R. "Qloballaşma və mədəni müxtəliflik". Bakı-2004
5. Axundova N. "Təşkilati-davranış". Bakı-2014
6. Mehdiyev R. "Azərbaycan-Qloballaşmanın tələbləri"

## AZƏRBAYCAN RESPUBLİKASINDA TƏKMİL VERGİ SISTEMİNİN FORMALAŞMASINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

**Vəliyev İslam**
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*islamvaliyev99@gmail.com*

Vergitutmanın prinsiplərinə uyğun optimal vergi sisteminin yaradılması müasir dövrdə hər bir dövlətin əsas hədəflərindəndir. Bilindiyi kimi ölkəmiz müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatının tələblərinə uyğun iqtisadi infrastruktur formalaşdırmaq məqsədilə respublikamızda effektli tədbirlər həyata keçirilmişdir.İqtisadi fəaliyyətin leqallaşdırılması və şəffaf iqtisadi mühitin formalaşması baxımından atılmış ən mühim addımlardan biri kimi Ümummilli lider Heydər Əliyevin 11 fevral 2000 – ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin yaradılmısını və bunun davamı olaraq 2001–ci ilin yanvar ayında qüvvəyə minmiş Azərbaycanın Respublikasının Vergi Məcəlləsini göstərmək olar. Məhz bunların nəticəsində ölkənin vergi sisteminin təkmilləşdirilməsinə və onun beynəlxalq standartlara uyğunlaşdırılmasına,vergi administrasiyasının modernləşdirilməsinə, adekvat kadr siyasətinin həyata keçirilməsinə,vergidən yayınmaların azalmasına və büdcə gəlirlərinin artmasına əlverişli zəmin yaranmışdır. Respublikamızda həyata kecirilən budcə-vergi siyasətinin əsas vəzifələri milli gəlirin sabit artımına, inflyasiyanın orta surətinə, məşğulluq səviyyəsinin yüksəldilməsinə ,iqtisadiyyatda ani dəyişgənlik meyllərinin aradan qaldırılmasından və s.ibarətdir.

Hazırda respublikamızda iqtisadiyyatın davamlı inkişaf strategiyasının əsas istiqamətlərindən biri qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsidir. Artıq bir neçə ildir ki, Azərbaycan iqtisadiyyatında mütərəqqi irəliləyişlər baş vermişdir. Belə ki, son illərdə çoxsaylı Dövlət Proqramına uyğun olaraq ölkənin sosial-iqtisadi inkişafında baş verən dəyişikliklər bir daha qeyri-neft sektoruna yönəldilən xarici və daxili investisiyaların səmərələlik dərəcəsi artmış bununlada respublikamız dünya ölkələri tərəfindən investisiya yönümlü ölkə kimi tanınmışdır. Mövcud vəziyyətin formalaşmasında rəqabət mühitini təşviq edən iqtisadi tənzimlənmə vasitələrindən olan vergi sisteminin də əvəzsiz rolu vardır.

Ümmmilli lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycan Respublikasında tətbiq olunan vergilərin sahibkarlar və digər vergi subyektləri üçün optimal səviyyədə olması hər zaman əsas hədəflərdən biri olmuşdur.Bu tendensiya ölkə rəhbərimiz İlham Əliyev tərəfindən bu gündə uğurla davam etdirilir. Hazırda vergi daxilolmalarında gəlir vergisinin xususi cəkisinin artırılması vergi dərəcələrinin artırılması yolu ilə deyil ,vergitutma bazasının genişləndirilməsi ilə həyata keçirilməlidir və təbii ki, burada ölkədəki sosial-iqtisadi rifahın yüksəlişinə, vergi nəzarətinin gücləndirilməsinə, qanunvericiliyin təkmilləşdirilməsinə xüsusi önəm verilməlidir.

Cədvəl 1.

ÜDM –də və büdcə gəlirlərində vergilərin payı
( mln.man.)

| Göstəricilər | 2005 | 2010 | 2015 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| ÜDM | 12552 | 41574 | 50 069.0 | 81896,2 | 72578, | 9285 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | ,5 | .7 | | | 1 | 7,7 |
| Budcə gəlirləri | 2055,2 | 11402,5 | 15107.1 | 24398,5* | 26077.9* | 26631.7* |
| Vergi daxilolmaları | 1427,7 | 4 292.8 | 5 475 .0 | 11755,1 | 11151,4 | 12647,5 |
| Vergi daxilolmala-rının ÜDM-də xüsusi çəkisi, %-lə | 11,4 | 10.0 | 10.9 | 14,3 | 15,3 | 13,6 |
| Vergi daxilolmalarının budcə gəlirlərində xüsusi çəkisi, %-lə | 69,5 | 37.6 | 36.2 | 48,1 | 42,7 | 47,4 |



* Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun daxilolmaları nəzərə alınmaqla.

Cədvəl.taxes.gov.az və stat.gov.az saytının məlumatları əsasında hazırlanmışdır.

Son on ildə respublikamızda həyata keçirilən iqtisadi islahatlar nəticəsində ölkə iqtisadiyyatında əhəmiyyətli inkişaf qeydə alınmışdır. Belə ki, 2005-ci illə müqayisədə 2021-ci ildə ÜDM 7,4 dəfə artaraq 92857,7 milyon manat büdcə gəlirləri isə 12,9 dəfə artaraq 26631,7 milyon manat ,vergi daxilolmalarının ÜDM-də xüsusi cəkisi isə 2005-ci ildə 11,4 % 2011-ci ildə 12,0% olmuşdur[5].

Hazırda Azərbaycan respublikasında makroiqtisadi göstəricilərin yüksəlişinə təkan verən əsas faktor neft sektorundan əldə olunan gəlirlərdir. Qloballaşma prosesinin intensivləşdiyi müasir şəraitində büdcə-vergi siyasətinin səmərəliliyinin yüksəldilməsi və onun təkmilləşdirilməsi istiqamətləri geniş aspektdən tədqiq olunur. Hazırda neft sektorunun mühüm rolu özünü dövlət büdcəsinin formalaşmasında da göstərir. Məlumdur ki, iqtisadi baxımdan inkişaf etmiş ölkələrdə büdcə gəlirlərində vergi daxilolmalarının payı orta hədd kimi təqribən 80-85% civarındadırr. Azərbaycan Respublikada isə son on ildə Dövlət Neft Fondundan büdcəyə transfert olunan maliyyə vəsaitinin artması ilə əlaqədar vergi gəlirlərinin büdcədəki payı nəzərəçarpacaq qədər azalmışdır. Belə ki, 2005-ci ildə 1427,7 milyon vergi daxilolmaları büdcənin 69,5 %-ni təşkil edirdisə, 2021-cü ildə bu göstərici **büdcə daxilolmalarının** 52,6 % -ni təşkil etmişdir [4]. Qeyd edək ki, son illər həm vergi gəlirləri həm də neft ixracatında artım müəyyən qədər oxşar tendensiyalara malik olduğu üçün büdcə gəlirlərinin strukturunda kəskin dəyişmələr müşahidə olunmamışdır.

Hazırda respublikamızda həyata keçirilən vergi siyasəti büdcə gəlirlərinin artırılmasına xidmət edir onun piroritetlərinə ağaıdakıları aid etmək olar:

- vergi ödəyicilərinin fəaliyyəti üçün əlverişli şəraitin yaradılması və vergi ödəyicilərinin hüquqlarının maksimum qorunması,

-modernləşdirilmiş istehsal-mülkiyyət sistemi əsasında sabit iqtisadi artım üçün şərait yaradılması,

- iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılması,

- vergi sisteminin normativ-hüquqi bazasının beynəlxalq–standartlara uyğun olaraq təkmilləşdirilməsi,

- sahibkarlarda yüksək vergi mədəniyyətinin formalaşdırılması,

- vergi qanunvericiliyinə əməl edilməsinin praktiki cəhətdən rahat olması və minimum inzibati xərclər cəlb etməsi üçün müvafiq şəraitin yaradılması və s.

### Ədəbiyyat


1. Məmmədov F.Ə, Musayev A.F, Sadıqov M.M, Kəlbiyev Y.A, Rzayev Z.H. Vergilər və vergitutma. Dərslik. Bakı 2010
2. Musayev A.F, Qəhrəmanov A.Q. Vergi mədəniyyəti. İkinci nəşr.Bakı, 2010
3. Musayev A.F, Məmmədov Ə.C “Ünvanlı vergi xidməti” Vergi ödəyicilərinin məlumat kitabı. Bakı, 2013, 288s
4.www.taxes.gov.az
5.www.stat.gov.az




## AZƏRBAYCAN RESPUBLİKASINDA KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ QƏBUL EDİLMİŞ DÖVLƏT PROQRAMLARININ İCRASI VƏ MONİTORİNQİ


**Vəlizadə Ramin**
*Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi*
r.valizada@pa.gov.az


Azərbaycanın korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, kompleks və innovativ xarakteri ilə seçilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə korrupsiyaya qarşı mübarizəyə dair milli strategiya və fəaliyyət planları qəbul edilmiş, bu sahədə yeni strateji baxışlar və vəzifələr müəyyən edilmişdir. Hazırda ölkəmizdə sosial dövlətin yeni modeli formalaşıb və dövlət siyasətinin əsas məqsədi insanların yüksək sosial rifahına nail olmaqdır.

Korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının strateji kursunun əsasları hələ ümummilli lider Heydər Əliyevin 1994-cü il 9 avqust tarixli "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərmanı ilə müəyyən edilmişdir. "Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi haqqında" 2000-ci il 8 iyun tarixli Fərmanın imzalanmasından sonra isə bu sahədə həyata keçirilən tədbirlər daha da genişləndirilmişdir.

Ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən korrupsiya qanunun aliliyinə, demokratiyaya və sosial ədalətə ciddi təhlükə yaradır, iqtisadi və sosial inkişafı çətinləşdirir, biznes mühitini məhv edir. Korrupsiya tarix boyu cəmiyyətlərin üzləşdiyi problemlərdən olmuşdur və təəssüflər olsun ki, korrupsiya bu gün də

bütün dünya ölkələrində aktual problemlərdən biri olaraq qalır. Vacib olan korrupsiyaya qarşı mübarizənin davamlı olması, onun qarşısının alınması ilə bağlı müasir çağırışlara uyğun effektiv mexanizmlərin tətbiq edilməsidir. Ona görə də həm beynəlxalq, həm də milli səviyyədə korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslərin irəli sürülməsi zəruridir və bu sahədə icra edilən tədbirlər korrupsiyanın səbəbi, növü və nəticəsinin qarşısının alınmasına istiqamətlənməlidir.

Korrupsiyaya qarşı mübarizə üzrə milli fəaliyyət planları dövlətlərin bu sahədə siyasətini reallaşdırmaqda mühüm əhəmiyyət kəsb edir. Lakin fəaliyyət planı o zaman effektli olur ki, bir qurumun deyil, fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların da korrupsiyaya qarşı mübarizə səyləri birləşdirilsin. Belə xüsusiyyət bu istiqamətdəki mübarizədə fəaliyyəti bütün dövlət strukturları ilə sistemli və əlaqəli şəkildə gerçəkləşdirməsinə şərait yaradır. Müvafiq fəaliyyət planının hazırlanmasında dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyəti üzvlərinin və hətta beynəlxalq təşkilatların da rəy və təkliflərinin nəzərə alınması əsas şərtdir. Bunun üçün açıq sorğuların, birgə müzakirələrin keçirilməsi, təhlillərin aparılması, eyni sahə barədə fərqli mənbələrdən daxil olan məlumatların tutuşdurulması və digər bu kimi yollarla korrupsiyaya daha çox məruz qalan sahələrin və ya buna şərait yaradan normativ aktların müəyyən edilməsi, habelə bu cür neqativ halların ortadan qaldırılması üçün çıxış yolları ətraflı şəkildə nəzərdən keçirilməli, çatışmazlıqlar və onların həlli yollarının müəyyənləşdirilməsi, fəaliyyət planının qəbul olunması zamanı qarşıya qoyulan hədəflərin konkret olaraq aydın şəkildə göstərilməsi həlledici əhəmiyyətə malikdir.

Antikorrupsiya strategiyası, proqram və planların icrası və nəticələrin qiymətləndirilməsi adətən dövlət qurumlarının, yəni nazirliklər, xüsusiləşdirilmiş antikorrupsiya qurumları və ya hüquq-mühafizə orqanlarının nəzarəti altında olur. Digər dövlət qurumları,



mediya və ictimai qruplar üçün bu tədbirlər bütov, birgə bir prosess kimi göründüyü halda, antikorrupsiya üzrə məsul olan xüsusiləşdirilmiş dövlət qurumu müsbət nəticələrin tədqim olunmasında maraqlıdır.

Antikorrupsiya fəaliyyət planlarının qiymətləndirilməsinin əsas məqsədi antikorrupsiya fəaliyyət planları üzrə tapşırıqlarının icrasının nəticələrinin qərərsiz və hərtərəfli qiymətləndirilməsidir.

Bütün proqramlarda bu tendensiya müşahidə olunur ki, korrupsiyaya qarşı mübarizə təkcə bu sahədə hüquqpozmalara görə məsuliyyətə cəlb etməklə deyil, həmçinin korrupsiyaya şərait yaradan halların müəyyən edilməsi, aradan qaldırılması və qabaqlayıcı tədbirlər vasitəsilə həyata keçirilməsidir.

Buna görə də antikorrupsiya fəaliyyət planlarının qiymətləndirilməsində aydın və şəffaf mexanizmlərdən istifadə edilməklə qərərsizlik nümayiş etdirilməlidir.

Azərbaycan Respublikasında qəbul edilmiş Dövlət Proqramlarının qiymətləndirilməsi və monitorinqində hər zaman qabaqcıl dünya ölkələrinin təcrübəsinə əsaslanan metodologiyalardan istifadə edilmiş və bu mexanizmlər bütün beynəlxalq təşkilatlar tərəfindən yüksək dəyərləndirilmişdir.

**Ədəbiyyat**


1. "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. [onlayn] https://e-qanun.az/framework/49349
2. Korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının strateji kursunun formalaşması.[onlayn] https://genprosecutor.gov.az/az/page/bas-prokuror-yaninda-korrupsiyaya-qarsi-mubarize-bas-idaresi/korrupsiyaya-qarsi-mubarize/strateji-kurs

3. Ulu Öndər Heydər Əliyev müasir məhkəmə sisteminin banisidir. [onlayn]https://files.preslib.az/projects/heydaraliyev/articles/he1396.pdf

## AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT GƏNCLƏR SİYASƏTİ

**Yarıyev Əli**
*Naxçıvan Dövlət Universiteti*
*jurnalistika ixtisası III kurs tələbəsi*

Güclü təməldə qurulan siyasət hər zaman uzunömürlü və davamlı olur. Hazırda ölkəmizdə aparılan güclü siyasətlərdən biri də məhz Gənclər siyasətidir. Bu təməli isə Ümummilli lider Heydər Əliyev qoymuşdur. Heydər Əliyev hər zaman gənclərə inanırdı və Müstəqil Azərbaycanın gələcəyini gənclərdə görürdü və qeyd edirdi: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir. Buna görə də, hazırkı gənclər Heydər Əliyevin nə qədər uzaqgörən bir şəxsiyyət olduğunu sübut edir. Ötən əsrin 90-cı illərində gedən ictimai-siyasi proseslərdə Heydər Əliyev bir daha gənclərə güvəndi və gənclər qarşısında da duran əsas məsuliyyətlər artmağa başladı. Gənclər siyasətinin təməli həmin dövrdən başlayaraq atıldı və güclü təməllər yaradıldı.

Hazırda Ulu Öndər Heydər Əliyevin güclü gənclər siyasətinin davamı prezident İlham Əliyev tərəfindən uğurla və böyük məharətlə davam etdirilir. Bütün sahələrdə olduğu kimi, gənclər sahəsində də mühüm addımlar atılır. Gənc nəslin düzgün yetişməsi, düzgün təbliği, mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili bu sahədə prioritet istiqamətlərdən biridir. Azad gənclik



